Azərbaycan Respublikasının Prezidenti yanında
Strateji Araşdırmalar Mərkəzi

Məsiağa Məhəmmədi

# Əfqanıstan: Sovet işğalından Amerika müdaxiləsinə

Bakı - 2017

Elmi redaktor: **Gülşən Paşayeva,**
*Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktor müavini, filologiya üzrə fəlsəfə doktoru*

Elmi rəyçi: **Vidadi Mustafayev,**
*AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu İran tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru*

**Məsiağa Məhəmmədi. Əfqanıstan: Sovet işğalından Amerika müdaxiləsinə.** Bakı: 2017, 220 səh.

*Kitabda 1978-ci il aprel çevrilişindən XXI əsrin əvvəllərinə qədər Əfqanıstanda və onun ətrafında baş verən hadisələrdən bəhs olunur.*
*Müvafiq fəsillərdə SSRİ-nin Əfqanıstana hərbi təcavüzünün gedişi və nəticələri, işğal illərində ölkədə gedən hərbi-siyasi proseslər, silahlı əfqan müxalifətinin tərkibindəki qruplaşmalar, Sovet qoşunlarının çıxmasından sonrakı mərhələdə baş verən olaylar, mücahidlər və Taliban hakimiyyəti dövründəki durum və nəhayət, ABŞ-ın Əfqanıstana müdaxiləsinin doğurduğu situasiya təhlil edilir. Bütün bu məsələlər Böyük oyunun yeni mərhələsi kimi - Əfqanıstanda regional və qlobal güclərin geosiyasi mübarizəsi kontekstində nəzərdən keçirilir.*

© Azərbaycan Respublikasının Prezidenti
yanında Strateji Araşdırmalar Mərkəzi

# Əfqanıstan düyünü

*(ön söz)*

Son təqribən qırx il ərzində Əfqanıstanda və onun ətrafında baş verən hadisələrin təhlili çağdaş beynəlxalq münasibətlərdə gedən prosesləri dərk etmək baxımından böyük əhəmiyyət daşıyır. Xüsusən 1979-cu ildə sovet qoşunları Əfqanıstana yeridildikdən sonra həmin proseslərin bir növ latent qatları üzə çıxmağa başladı və böyük güclərin, regional oyunçuların bu ölkədə geosiyasi mübarizəsi açıq müstəviyə keçdi. Əlbəttə, o vaxtlar sovet adamları qapalı cəmiyyət şəraitində proseslərin mahiyyətini adekvat şəkildə anlamağa çətinlik çəkirdilər və bir çoxları səmimi şəkildə inanırdılar ki, sovet hökuməti həqiqətən öz azadlığı uğrunda mübarizə aparan və sosialist inkişaf yolu seçmiş qardaş əfqan xalqına yardım etmək və onu dünya imperializminin hücumundan qorumaq üçün bu ölkəyə qoşun göndərib və oradakı sovet əsgəri, o zamanlar deyildiyi kimi, öz beynəlmiləl borcunu yerinə yetirir.

Lakin SSRİ-nin süqutundan sonra hamıya məlum oldu ki, sovet rəhbərliyi Əfqanıstanda ideoloji pərdə arxasında gizlədilən tamam başqa hədəfləri güdürmüş və bu ölkə uğrunda mübarizə əslində bir vaxtlar çar Rusiyası ilə Britaniya imperiyası arasında gedən Böyük oyunun yeni şəraitdə davamı imiş. Yeni şəraitin özəlliyi bunda idi ki, Britaniyanın yerini ABŞ tutmuş və oyuna Çin, Pakistan, Səudiyyə Ərəbistanı, İran və s. kimi yeni aktorlar

qoşulmuşdu, bu da ona daha mürəkkəb səciyyə bəxş edirdi.

Başqa sözlə, 1980-ci illərdə Əfqanıstanda gedən qanlı münaqişə sadəcə Soyuq müharibənin təzahürü deyil, daha qlobal geostrateji mübarizənin ifadəsi idi. Bunu belə bir fakt da təsdiq edir ki, sovet qoşunları ölkədən çıxarıldıqdan, Soyuq müharibə başa çatdıqdan və nəhayət, mücahidlər Əfqanıstanda hakimiyyətə gəldikdən sonra da orada sabitlik və sülh yaranmadı.

1996-cı ildə Əfqanıstanda "Taliban" adlanan neofundamentalist qüvvənin hakimiyyətə gəlişi, ölkənin tədricən radikal islamçı cərəyanların, o cümlədən, "Əl-Qaidə" qlobal terror təşkilatının səngərinə çevrilməsi, 2001-ci ilin 11 sentyabr hadisələri və nəhayət, ABŞ və müttəfiqlərinin Əfqanıstana hərbi müdaxiləsi onu göstərdi ki, burada baş verənlər lokal xarakterli münaqişə deyil, beynəlxalq səviyyədə gedən mürəkkəb proseslərin başlanğıc nöqtəsidir. Belə ki, Əfqanıstanda müşahidə olunan hadisələr sonradan fərqli formalarda İraqda, Şimali Afrikada, Suriyada davamını tapdı; aydın oldu ki, Əfqanıstan düyünü Orta Şərqi, Mərkəzi və Cənubi Asiyanı əhatə edən geniş bir regiondakı geosiyasi proseslərin tərkib hissəsidir.

Bu mənada son onilliklərdə Əfqanıstanda baş verənlərin öyrənilməsi təkcə həmin ölkənin müasir tarixi baxımından deyil, qlobal siyasətin açar məqamlarından birinin aydınlaşdırılması, günümüzdə regionda və dünyada şahidi olduğumuz hadisələrin adekvat dərki nöqteyi-nəzərindən də əhəmiyyət kəsb edir. Məhz bu cür yanaşma səbəbindən, yəni 2001-ci ildən sonrakı proseslər hələ bitmədiyindən, regionda hansı düzənin formalaşacağı bəlli olmadığından biz XXI əsrin ötən illərində Əfqanıstanda və onun ətrafında baş verən hadisələrdən ümumi şəkildə bəhs etmiş, əsas diqqəti onların köklərinin gizləndiyi əvvəlki dövrlərə vermişik. Əlbəttə, bu zaman ölkədəki durum daxili və xarici faktorların dialektikası əsasında nəzərdən keçirilmişdir.

Nə üçün onilliklər keçsə də, Əfqanıstanda sülh və sabitlik

bərqərar olmur? Nə üçün bütün siyasi dəyişikliklərə rəğmən, istedadlı və cəsur əfqan xalqı öz ölkəsində dinc birgəyaşayışın formulunu tapa bilmir? Nə üçün çoxsaylı beynəlxalq səylər Əfqanıstan düyününün açılmasına gətirib çıxarmır? Yoxsa bir neçə il Əfqanıstanda yaşamış və Kabulu yüksək poetik misralarla vəsf etmiş böyük Azərbaycan şairi Saib Təbrizinin (1601-1677) təbirincə, heç kəs bu düyünü açmaq istəmir və hərə gəlib onu bir az da dolaşıq salır?! Kitabda bu suallara cavab tapılmasına cəhd göstərilmişdir.

Nəzərdən keçirilən dövrdə Əfqanıstanda baş verənlərin Azərbaycana bilavasitə aidiyyəti var. Əfqanıstan coğrafi baxımdan Azərbaycandan çox da uzaqda yerləşmir və iki ölkə arasında tarixən çeşidli əlaqələr mövcud olmuşdur. Sovet işğalı zamanı SSRİ-yə daxil olan digər respublikaların nümayəndələri kimi, azərbaycanlılar da Əfqanıstanda hərbi xidmət keçmişlər. Təqribən 200 nəfər azərbaycanlı Əfqanıstandakı döyüşlərdə həlak olmuşdur. Hazırda ölkəmizdə Əfqanıstan müharibəsinin izlərini canında və yaddaşında gəzdirən çoxsaylı veteranlar – sıralarında bu sətirlərin müəllifinin də olduğu "əfqanlar" yaşamaqdadır.

Müstəqillik illərində Azərbaycanla Əfqanıstan arasında siyasi-diplomatik və iqtisadi əlaqələr genişlənmişdir. Əfqanıstan daim Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin haqlı mövqeyini dəstəkləmişdir. Azərbaycan hərbçiləri ISAF qüvvələri və daha sonra NATO-nun "Qətiyyətli dəstək" missiyası çərçivəsində Əfqanıstanda xidmət edirlər. Əfqan ordusuna yardım göstərilməsi və təlim keçilməsində, eləcə də bu ölkəyə beynəlxalq daşımaların tranzitində Azərbaycan əhəmiyyətli rol oynayır. Azərbaycan ikitərəfli, çoxtərəfli və regional formatlarda Əfqanıstanla əməkdaşlıq edir. Bu baxımdan 2011-ci ildə yaradılmış "Asiyanın Ürəyi – İstanbul Prosesi" adlı platformada Azərbaycanın iştirakı xüsusi qeyd olunmalıdır. Bütün bu məsələlər nəzərə alındıqda, Əfqanıstandakı proseslərin tədqiqi

Azərbaycan üçün təkcə elmi-nəzəri deyil, həm də praktik əhəmiyyət daşımaqdadır.

Ümid edirik ki, mövzusu baxımından Azərbaycanda ilk olan bu kitab Əfqanıstanın müasir tarixinə və beynəlxalq əlaqələrinə dair yeni araşdırmaların meydana gəlməsinə təkan verəcəkdir.

Kitabın "Əlavələr" bölümündə verilmiş materiallar müəllif tərəfindən dəri (fars), rus və ingilis dillərindən tərcümə edilmişdir.

# Ərəfə: "Aprel inqilabı"ndan əvvəl Əfqanıstanda vəziyyət

1973-cü ilin yayında Əfqanıstanın 60 yaşını haqlamış rəhbəri Məhəmməd Zahir şah İtaliyada müalicədə olarkən, onun əmisi oğlu, sabiq baş nazir Məhəmməd Davud xan Kabulda çevriliş etdi və ölkədə monarxiyaya son qoyulduğu, respublika quruluşuna keçildiyi barədə bəyanat verdi. Bununla da Zahir şah Əfqanıstanın son şahı kimi tarixə düşdü və onun təqribən 30 illik mühacirət həyatı başlandı: çevrilişdən sonra o, İtaliyada yaşamağa davam etdi və bir də 2002-ci ildə «millətin atası» qismində vətəninə qayıda bildi.

Ölkədəki reallığı düzgün qiymətləndirən Zahir şah bir müddət sonra taxt-tacdan əl çəkməsi barədə Davud xana belə bir məktub göndərdi:

«Mərhəmətli və bağışlayan Allahın adı ilə!

Qardaşım möhtərəm prezident!

Son hadisələr barədə eşitdiyim vaxtdan bu ana qədər fikrim vətənimin yanında idi və onun gələcəyindən nigaran idim. Lakin Əfqanıstan xalqının tam əksəriyyətlə gələcəkdə milli məsələlərin respublika rejimi vasitəsilə idarə olunmasına tərəfdar çıxdığını biləndən sonra vətənimin əhalisinin iradəsinə hörmət qoyaraq, özümü şahlıqdan istefa vermiş sayıram və bu məktubla öz qərarımı Sizə çatdırıram.

Mənim arzum əziz vətənimin səadəti və tərəqqisindən başqa

bir şey olmadığı üçün sadə bir əfqan kimi Əfqanıstan bayrağının kölgəsində dayanıram. Dua edirəm ki, ulu və qadir Tanrı mənim vətənimin və həmvətənlərimin hamisi və yardımçısı olsun.

Məhəmməd Zahir, Əfqanıstanın sabiq padşahı.

İtaliya, 12 avqust 1973-cü il" [127, 355-356].

Beləliklə, ölkənin idarəçiliyi, o cümlədən, xarici siyasəti ilə bağlı Zahir şahla Davud xan arasında iyirmi ildən çox davam edən ixtilaflar ikincinin xeyrinə həll olundu. Qeyd edildiyi kimi, Davud xan əvvəllər – 1953-1963-cü illərdə Əfqanıstanın baş naziri olmuş və ölkənin modernləşməsinin qızğın tərəfdarı, "yuxarıdan islahat" və "idarə olunan iqtisadiyyat" xəttinin müəllifi kimi tanınmışdı. Lakin istər onun avtoritar islahatçılığı, istərsə də sonrakı "demokratiya onilliyi", o cümlədən, siyasi partiya və ictimai birliklərin sərbəst fəaliyyətinə icazə verilməsi müəyyən müsbət irəliləyişlərə rəğmən, ölkənin problemlərini həll etməmiş, əksinə, cəmiyyətdə yeni ziddiyyətlər doğurmuş, sol və dini müxalifətin formalaşmasına, antimonarxiya əhval-ruhiyyəsinin güclənməsinə səbəb olmuşdu. Çevrilişdən sonra onun səbəbləri barədə danışarkən Davud özü də belə demişdi: «Nə üçün bizim ölkəmizdə inqilab oldu? Əlbəttə, heç bir şey səbəbsiz və əsassız olmur. Bunun səbəbləri hər bir əfqan vətəndaşına məlumdur və o da hökumətdəki korrupsiya, sosial ədalətsizlik və digər bəlalardan ibarətdir» [137].

Bir puştu millətçisi kimi Davud xan çevrilişdən sonrakı ilk çıxışında yenidən Puştunistan məsələsini gündəmə gətirdi. Xatırladaq ki, hələ baş nazirliyi dövründə Davud xan məşhur «Dürand xətti»nin əleyhinə çıxışlar etmiş, hətta Pakistana silahlı diversant dəstələri göndərmişdi. Pakistanla qarşıdurma təbii olaraq, hələ o vaxt Davud xanın Qərbdən uzaqlaşıb SSRİ-yə yaxınlaşmasına, kommunist rejimi ilə geniş hərbi və iqtisadi əməkdaşlığa başlamasına səbəb olmuşdu. Sovet hökuməti də özünün strateji maraqlarına uyğun olaraq, Davud xana hər cür yardım göstərirdi.

Belə ki, 1955-ci ildə SSRİ Əfqanıstana güzəştli şərtlərlə 100 milyon dollar həcmində kredit vermişdi. Bir il sonra iki ölkə arasında 32 milyon dollarlıq hərbi saziş də imzalanmışdı. Əfqan zabitləri sovet hərbi məktəblərinə oxumağa göndərilirdi. Bu üzdən Davud xan hələ o zaman ABŞ-da «Qırmızı şahzadə» adlandırılırdı.

Bir çoxları Davudun SSRİ-yə bu meylini onun solçu, hətta kommunist baxışları ilə əlaqələndirirlər. Lakin bəzi müəlliflər onun bütün addımlarında şəxsi və hakimiyyət maraqlarından çıxış etdiyini vurğulayırlar: «Davud heç bir məsləkə və məktəbə bağlı deyildi. Onun o tərəf-bu tərəfə meyllənməsi hakimiyyəti əldə etmək və qorumaq məqsədi daşıyırdı» [115, 147].

Əlbəttə, prezidentliyinin sonrakı dövründə onun üzünü Qərbə tutması bu fikrin heç də əsassız olmadığını göstərir. Əfqan tədqiqatçılarından biri də yazır: «Sərdar Məhəmməd Davud xan həyatda heç vaxt ikinci yerlə razılaşmayan adamlardan idi. O tiplərdən idi ki, ölkədə ikinci adam olmaqdansa, kənddə birinci şəxs olmağı üstün tuturlar» [137].

İstənilən halda Davud xan baş nazir postundan uzaqlaşdırıldıqdan sonra bir növ xəlvətə çəkilməsinə və şah sarayı ilə əlaqələrini kəsməsinə baxmayaraq, daim hakimiyyətə qayıtmaq barədə düşünmüş, bu üzdən hərbçilərlə təmaslarını qoruyub saxlamışdır. Həmin dövrdə orduda sol baxışlar geniş yayılmışdı, 1965-ci ildə yaradılmış, iki il sonra isə «Xəlq» («Xalq») və «Pərçəm» («Bayraq») adı ilə iki fraksiyaya parçalanmış Əfqanıstan Xalq Demokratik Partiyasının (ƏXDP) təsiri güclü idi. Davud xanın ƏXDP ilə, xüsusən «Pərçəm»lə yaxın əlaqələri vardı və istər 1973-cü ilin 17 iyul çevrilişində, istərsə də çevrilişdən sonra hökumətin qurulmasında ondan güclü dəstək almışdı. Çevrilişdən sonra baş nazir, müdafiə naziri və xarici işlər naziri postlarını öz əlində cəmləşdirən prezident Davud xanın hökumətində 7 nəfər «Pərçəm» üzvü və tərəfdarı təmsil olunmuşdu, o cümlədən, Həsən Şərq baş nazirin müavini vəzifəsini tuturdu (kabinet üzv-

lərinin ümumi sayı 13 nəfər idi). Həmin dövrdə yaradılmış ali hakimiyyət orqanı – Mərkəzi Komitənin üzvlərindən təqribən yarısı sol elementlərdən ibarət idi [89, 190], o cümlədən, bəzi məlumatlara görə, «Pərçəm»in lideri Bəbrək Karməl də həmin qurumun üzvü idi.

Bu və bəzi digər faktlar müəyyən müəlliflərin 17 iyul çevrilişinin SSRİ-nin bilavasitə yardımı ilə baş tutduğu fikrini irəli sürməsinə səbəb olmuşdur [115, 144]. Hər halda Sov.İKP MK-nın baş katibi L.İ.Brejnevin rəhbərlik etdiyi partiyanın XXV qurultayında (1976-cı ilin əvvəllərində) Əfqanıstandakı hakimiyyət dəyişikliyini alqışlaması sovet rəhbərliyinin bu hadisədən məmnun olduğunu göstərirdi. SSRİ hökumətinin bu məmnunluğunu Sov.İKP MK ilə bilavasitə əlaqədə olan ƏXDP fraksiyalarına çevrilişdən təqribən 4 ay sonra verdiyi tövsiyə də aydın şəkildə ortaya qoyur. Həmin tövsiyənin mahiyyəti Davudun dəstəklənməsindən ibarət idi. 1974-cü ilin iyununda Davudun SSRİ-yə ilk rəsmi səfərindən və sovet rəhbərliyinə verdiyi məlumatlardan sonra Sov.İKP MK «Xəlq» lideri Nur Məhəmməd Tərakini və «Pərçəm»in başçısı Bəbrək Karməli ikinci dəfə çəkişmə və ambisiyaları kənara qoyub «respublika rejiminin hərtərəfli müdafiəsinə» çağırmış və bununla da onların hakimiyyət iddialarını dəstəkləməyəcəyinə açıq şəkildə işarə etmişdi.

Davud xanın «qansız çevrilişi» (hadisə zamanı cəmi 4 polis həlak olmuş və Kabul çayına düşən tankın ekipajı ölmüşdü [70, 374]) ərəfəsində ölkənin siyasi spektri kifayət qədər mürəkkəb və qarışıq idi. «Demokratikləşmə onilliyi» çeşidli siyasi-hərbi qruplaşmaların meydana çıxmasına, mətbuatın canlanmasına şərait yaratmışdı. Ölkənin siyasi həyatında millətçilərdən tutmuş liberallara, maoçulardan tutmuş islamçılara qədər müxtəlif cərəyanlar təmsil olunurdu və deyildiyi kimi, sol-marksist və kommunist qüvvələrin mövqeyi kifayət qədər güclü idi. Əfqanıstanda təkpartiyalı sistemə söykənən avtoritar idarəçilik üsulu bərqərar

etməyi hədəfləyən Davud xan yetərincə siyasi təcrübə və iradəyə malik mahir oyunçu kimi ikili bir taktika ilə bu məqsədə nail olmağa çalışmışdır. O, bir tərəfdən, rəqib partiya və təşkilatların əhali arasında az-çox dəstək qazanan ideyalarını mənimsəmək və onları ideoloji baxımdan tərksilah etmək, digər tərəfdən isə müxtəlif üsullarla onlara fiziki cəhətdən ölkənin siyasi həyatından uzaqlaşdırmaq, qabaqlayıcı çevriliş ssenariləri ilə həbs və edam etmək xəttini yürüdürdü.

Belə ki, Davud xanın hakimiyyətə gəldikdən az sonra elan etdiyi «milli inqilab nəzəriyyəsi» (həmin nəzəriyyə onun 1977-ci ildə yaratdığı Milli İnqilab Partiyasının ideologiyasını təşkil etmişdir) millətçilik, islam, demokratiya, vətənçilik, anti-müstəmləkəçilik, milli dəyərlər, paternalizm və… sosializm kimi elementləri ehtiva edirdi. Sosializm ideyasını o yalnız iqtisadi aspektdə götürürdü və bunu milli və islami komponentlərlə tamamlayırdı. Müsahibələrindən birində Davud xan həmin ideyanı bu şəkildə izah etmişdir: «Bizim yeni əfqan cəmiyyətinin iqtisadi əsası kimi seçdiyimiz sosializm faktiki olaraq, pozitiv, mütərəqqi və dinc yolla sosial ədalətə nail olmaq, sinfi bərabərsizlik və antaqonizmi ləğv etmək vasitəsidir. Bunu demək zəruridir ki, tarixi reallıq, milli mədəniyyət, cəmiyyətimizin mövcudluğunun obyektiv və subyektiv şərtləri, eləcə də həqiqi islamın ruhu bizim sosializmin tərkib hissələridir» [89, 191].

Belə bir «ideoloji işə» paralel olaraq, Davud xan əsas rəqiblərini sıradan çıxarmaq üçün düşünülmüş plan üzrə hərəkət edirdi. Əfqan tədqiqatçısının yazdığı kimi, «siyasi səhnədəki rəqiblərini bir-bir aradan qaldırmaq istiqamətində çalışmaqda idi» [43, 89]. Bu işdə ƏXDP (xüsusən «Pərçəm» qanadı) prezidentin təbii müttəfiqi kimi çıxış edirdi – onun özünün məhvi isə sona saxlanmışdı.

Davud xanın ilk hədəfi təbii ki, şah ailəsinə bağlı və yaxın dairələr və Qərbyönümlü qüvvələr oldu. «Bu baxımdan o, ən güclü

rəqibi sayılan və özünün də mənsub olduğu kral ailəsini aradan götürmək üçün bütün siyasi partiyaları öz tərəfinə çəkməyi bacarmışdır» [43, 88].

Çevrilişdən təqribən iki ay sonra – 1973-cü il sentyabrın 21-də Kabul radiosu dövlətə qarşı qəsdin üstünün açıldığı və 45 nəfərin həbs olunduğu barədə məlumat yaydı. Qəsdçilərə ölkənin sabiq baş naziri, Mütərəqqi Demokratik Partiyanın lideri və Davud xanın yaxın qohumu Məhəmməd Haşım Məyvəndvalın başçılıq etdiyi bildirilirdi. Onunla bərabər bir neçə general, beş sabiq deputat, iri biznesmenlər, ziyalılar həbs olunmuşdu. Rəsmi «Cümhuriyyət» qəzetinin yazdığına görə, qəsdçilərin arxasında onlara maliyyə və hərbi yardım edəcəyinə söz vermiş Pakistan dayanırdı.

Bir neçə gün sonra – 1973-cü il oktyabrın 1-də M.H.Məyvəndvalın həbsxanada intihar etdiyi barədə məlumat verildi. Lakin nə onda, nə indi əksər müşahidəçi və tədqiqatçılar bu versiyaya inanmırlar. Qərbə meyli və antikommunist mövqeyi ilə tanınan Məyvəndval, çox güman ki, çevriliş niyyətini etiraf etməsi üçün verilən işgəncələrə dözməyib özünü həbsxana kamerasında asmışdı. Onun «qəsdçilər qrupunun» həbsi və istintaqında hər ikisi «Pərçəm» üzvü olan daxili işlər naziri Fəyz Məhəmməd və Kabul polisinin rəhbəri Əbdüssəməd Əzhər xüsusi fəallıq göstərmişdilər və bu, həmin dəstənin «Pərçəm»çilər tərəfindən Davudun razılığı ilə məhv edilməsi barədə mülahizənin meydana çıxmasına səbəb olmuşdur. «İstənilən halda bu qəsdin sirri hələ də açılmamış qalır» [70, 380]. 1973-cü ilin dekabrında keçirilmiş məhkəmədə Məyvəndvala (ölümündən sonra) və daha dörd nəfərə ölüm hökmü çıxarıldı, qalan adamlar da müxtəlif müddətə həbs cəzasına məhkum edildilər.

Cəmi bir neçə ay sonra – 1973-cü il dekabrın 20-də dövlət çevrilişinə növbəti cəhdin üstü açıldı. Bu dəfə çevrilişçilərə ölkənin keçmiş təhlükəsizlik naziri general Həbibulla Rəhman başçılıq edirdi. Onunla bərabər 600-dən çox adam qəsddə işti-

rak ittihamı ilə həbs olundu. 1974-cü ilin avqustunda məhkəmə H. Rəhman barəsində ölüm hökmü çıxardı, bir nəfər ömürlük, doqquzu zabit olmaqla 10 nəfər müxtəlif müddətə həbs cəzasına məhkum edildi. Bu çevriliş cəhdinin özəlliyi ondan ibarət idi ki, həbs və ittiham olunanlar arasında hərbçilər və ziyalılarla yanaşı, din xadimləri, müxtəlif islamçı qruplaşmaların nümayəndələri də geniş şəkildə təmsil olunmuşdu. Elə onlar da Davud xanın növbəti hədəfi idilər.

Hələ 1960-cı illərdə Əfqanıstan siyasi səhnəsində islam hərəkatı («Nehzəte-islami») aydın görünürdü. «Müsəlman qardaşları» («İxvan əl-müslimin») ideologiyasının güclü təsiri altında olan hərəkata Kabul universiteti ilahiyyat fakültəsinin dekanı, professor Qulam Məhəmməd Niyazi rəhbərlik edirdi. Onun başçılığı altında tələbələrin islamçı dərnəklərinin birləşməsi yolu ilə 1969-cu ildə «Müsəlman Gənclər Təşkilatı» yaradılmışdı. Sonralar Əfqanıstanda sovet işğalına qarşı cihadın Gülbəddin Hikmətyar, Bürhanəddin Rəbbani, Əhməd şah Məsud kimi ünlü nümayəndələri məhz bu təşkilatın sıralarından çıxmışdır. Çeşidli panislamist və fundamentalist qrupları ehtiva edən islamçı hərəkat özü də yekcins deyildi, onların içərisində radikallar və mötədillər vardı, eyni zamanda onun hərbi qanadı fəaliyyət göstərirdi. İslamçılar iki cəbhədə – həm rejimə, həm də solçu-kommunistlərə qarşı mübarizə aparırdılar. Davud xanın hakimiyyəti dövründə onlar elə bu iki qüvvənin hədəfinə tuş gəldilər.

Qeyd edək ki, öz «milli inqilab» konsepsiyasında islama yer ayırsa da, Davud xanın atdığı bir sıra addımlar islamçı kəsimi daha da qızışdırır və radikallaşdırırdı. Belə ki, ölkənin yeni gerbində əvvəlkindən fərqli olaraq islami rəmzlər yer almamış, radioda azan verilməsinə və dini verilişlərə məhdudiyyət qoyulmuş, Həcc mərasiminə gedənlərin sayı ildə 17 min nəfərdən 4 min nəfərə qədər azaldılmış, dini məzmunlu «Şəriyyat» jurnalı bağlanmışdı [115, 148-150].

1974-cü ilin iyul ayında hökumət əleyhinə çıxışa hazırlaşan islamçıların planının üstü açıldı, 300-ə yaxın adam həbs olundu. Tutulanlar arasında «Müsəlman gənclərin» liderlərindən Həbibürrəhman və Nüsrətyar, eləcə də professor Q.M.Niyazi vardı. Gənclərdən birincisi ölüm hökmünə, digəri isə ömürlük həbsə məhkum edildi. Niyazi də həbsxanaya atıldı və sonralar – 1979-cu ildə ƏXDP hakimiyyəti dövründə qətlə yetirildi.

Bu hadisədən sonra repressiyaların güclənməsi islamçı hərəkatın Hikmətyar və Rəbbani kimi fəallarını Pakistana qaçmağa sövq etdi. Orada onlar Pakistan hökuməti və fundamentalist qurumlardan («Cəmaəti-islami») böyük dəstək görərək, təşkilatlanmağa və rejimə qarşı silahlı mübarizəyə hazırlaşmağa başladılar. 1975-ci ilin iyul ayında «Müsəlman gənclər» Əfqanıstanın bir neçə vilayətində (əsasən şimal vilayətlərində, o cümlədən Əhməd şah Məsudun rəhbərliyi ilə Pəncşirdə) hökumətə qarşı qiyam qaldırdılar. Lakin hakimiyyət qüvvələri qarşısında tab gətirməyib məğlub oldular: bir çoxları həlak oldu, xeyli adam Pakistana qaçdı, 100-dən çox islamçı həbs edilərək mühakimə olundu. Bu hadisədən sonra «Müsəlman Gənclər Təşkilatı» faktiki olaraq, öz ömrünü başa vurdu və onun Pakistanda məskunlaşmış liderləri yeni siyasi partiya və cəmiyyətlər yaratmaqla, daha mütəşəkkil mübarizəyə hazırlaşmağa başladılar.

İslamçılarla eyni vaxtda sol-radikal və millətçi (əsasən milli azlıqları – tacikləri, həzarələri təmsil edən) qruplaşmalar da silahlı qiyam qaldırmışdılar. Onlar hələ 1975-ci ilin may ayında Saləng aşırımı rayonunda birgə mübarizə haqqında protokol imzalamış və Davud xan rejimini «faşist-diktator hökuməti» adlandırmışdılar. Həmin tədbirdə maoçu «Şöleyi-cavid» («Əbədi şölə») təşkilatının təmsilçiləri, Tahir Bədəxşinin rəhbərlik etdiyi «Əfqanıstan Zəhmətkeşlərinin İnqilabı Təşkilatı» (SAZA), «Milli zülm» («Setəme-milli») qrupu (sonralar SƏFZA – «Əfqanıstan Zəhmətkeşlərinin Fədailəri Təşkilatı») və Əbdülməcid Kələ-

kaninin dərnəyi iştirak etmişdi. Bəzi məlumatlara görə, radikal solçularla islamçılar arasında eyni vaxtda qiyam qaldırmaq barədə razılaşma əldə olunmuşdu. Lakin onlar da hökumət qüvvələri tərəfindən darmadağın edilmiş, «Milli zülm» təşkilatının rəhbəri Bəhrəddin Bais həbs olunmuş, «Şöleyi-cavid»in liderlərindən Əbdürrəhim Mahmudi edam edilmişdi [70, 381; 89, 160].

1976-cı ilin dekabrında islamçıların yaxından iştirakı ilə general Mir Əhməd şah Rizvaninin çevriliş cəhdi də uğursuzluqla nəticələndi. Çevrilişçilər Əfqanıstanda teokratik dövlət qurmaq, ölkəyə ruhanilər tərəfindən seçilən «mömin prezidentin» rəhbərlik etməsinə nail olmaq istəyirdilər.

Davud rejiminə qarşı bütün bu çevriliş və qiyam cəhdlərinin uğursuzluqla nəticələnməsinin başlıca səbəbi, şübhəsiz, onun geniş xalq kütlələri tərəfindən dəstəklənməsi idi. Bu dəstək onun hakimiyyətə gəlişinin elə ilk günlərindən özünü parlaq şəkildə göstərmişdi. Əlbəttə, burada rejimin ƏXDP, ilk növbədə «Pərçəm» və dolayısı ilə Sovet İttifaqı tərəfindən müdafiə olunmasının öz payı vardı. Lakin növbə ƏXDP-yə də çatdı.

1976-cı ilədək Davud xan «Pərçəm»dən olan nazirləri vəzifədən uzaqlaşdırdı, 1977-ci ildə yeni kabinet formalaşdırılarkən, Həsən Şərq də hökumətdən kənarda qaldı. Sabiq «Pərçəm»çi nazirlərin bəziləri səfir qismində fəxri sürgünə göndərildi. ƏXDP üzvləri və tərəfdarları tədricən müxtəlif hökumət orqanlarından uzaqlaşdırıldı. Davud xan öz çıxışlarında ƏXDP-yə işarə ilə «idxal olunmuş ideologiyaların» ölkəyə ziyan vurduğunu bəyan edirdi. Həmin prosesdən bəhs edən «Pərçəm» liderlərindən biri (sonralar ƏXDP hakimiyyəti dövründə baş nazir olmuş) Sultan Əli Keştmənd yazırdı: «Davud bizim yoldaşları vəzifədən çıxardıqdan sonra partiyamızın fəaliyyətini dayandırması ilə bağlı bizə bir məktub göndərdi. Həmin məktubda bizim fəaliyyətimizə daha dözə bilməyəcəyini vurğulayaraq, sərt xəbərdarlıq etmişdi. Məktubu oxuyan kimi sədrimiz fövqəladə iclas çağırdı.

Uzun müzakirələrdən sonra partiyanın qruplar şəklində fəaliyyət göstərməsinin zəruriliyi barədə qərar qəbul olundu. Birinci qrup tanınmış şəxslərdən ibarət idi ki, bunlar müxalifətdə qalmağa davam edəcəkdilər. İkinci və üçüncü qrup isə çox da tanınmayan üzvlərdən təşkil olunmuşdu. Bunlardan biri hökumət orqanlarına, xüsusilə də orduya girərək mühüm vəzifələr tutmağa çalışmalı idi. Digəri isə hökumətin önəmli adamlarına qarşı fəaliyyət göstərəcəkdi» [43, 90].

Əslində Davud xan hakimiyyətə gəldikdən az sonra verdiyi üç fərmandan biri ilə siyasi partiya və ictimai birliklərin fəaliyyətini məhdudlaşdırmışdı. 1977-ci ilin fevralında qəbul olunmuş yeni Konstitusiya isə təkpartiyalı sistemi təsbit etməklə, digər partiyalarını mövcudluğunu qanundan kənar duruma saldı. Bununla belə, əksər siyasi təşkilatlar qeyri-leqal fəaliyyətini davam etdirirdi, yəni Davud sona qədər rəqib qruplaşmaları tam olaraq aradan qaldıra bilmədi. ƏXDP-yə gəldikdə isə, bu, çox çətin məsələ idi. Xatırladaq ki, Davud xanın hakimiyyətə gəlişi zamanı «Pərçəm» təkcə qeyd olunan nazir postlarına yiyələnməmişdi: ölkənin 11 vilayətinin və 64 qəzasının rəhbəri onun nümayəndələri idi [70, 383]. Üstəlik, çevrilişdə fəallıq göstərən gənc zabitlərin yuxarı postlara çəkilməsi partiyanın gücünə güc qatmışdı. Hökumətdə təmsil olunmayan «Xəlq» fraksiyası öz qüvvələrini qorumuş, eyni zamanda Həfizulla Əminin fəaliyyəti sayəsində orduda üstün mövqelərə sahib olmuşdu. Davud xan hökuməti nə qədər təmizləsə də, sol qüvvələrə və SSRİ-yə bağlı şəxslərin axırına çıxa bilməmişdi. Belə ki, bir çox müəlliflər onu daim xarici səfərlərdə müşayiət edən ticarət naziri Məhəmməd xan Cəlalərin SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) agenti olduğunu və prezidentin apardığı danışıqlarla bağlı bütün məlumatları Kabuldakı sovet səfirliyinə və «Pərçəm» rəhbərliyinə ötürdüyünü qeyd edirlər [124, 77].

Təqribən iki il ərzində başlıca siyasi rəqiblərini zərərsizləş-

dirən Davud xan sosial-iqtisadi sahədə bir sıra mühüm addımlar atmağa nail olmuşdu: «idarə edilən iqtisadiyyat» prinsipinə uyğun olaraq, hökumət ilk növbədə zəruri istehlak mallarının qiymətlərini tənzimləmək istiqamətində tədbirlər gördü, o cümlədən, ən vacib ərzaq məhsullarına sabit qiymətlər tətbiq etdi: həmin qiymətlərin siyahısı bütün dükanlarda asılmışdı. Ölkədə minimum əmək haqqı 2 dəfə artırıldı. 1973-1974-cü illərdə bir sıra iri müəssisələr, ölkədəki bütün banklar milliləşdirildi. 1975-ci ilin avqustunda torpaq islahatı haqqında Qanun dərc edildi. Bu qanuna əsasən, mülkədarlar 10 hektar torpağı öz ixtiyarında saxlaya bilərdi, qalanını nağd pul müqabilində hökumətə təhvil verməli idi: həmin torpaqların fidyə əsasında kəndlilərə verilməsi nəzərdə tutulurdu [137]. Təhsil, vergilər, gömrük sahəsində də bir sıra islahatlar həyata keçirildi.

Dövlətin iqtisadiyyatda fəal roluna müvafiq olaraq, 1973-cü ildə beşillik plan qəbul edilmişdi, lakin o, başa çatmamış 1976-1982-ci illəri əhatə edən yeni, yeddiillik plan irəli sürüldü. Bu planda 200-dən çox sosial-iqtisadi layihənin gerçəkləşdirilməsi nəzərdə tutulurdu [70, 377]. Bu layihələrin həyata keçirilməsində əsas kömək SSRİ-dən ediləcəkdi. 1974-cü ildə Davud xanın SSRİ-yə rəsmi səfəri zamanı əldə edilən razılaşmaya görə, sovet hökuməti Kabulun 100 milyon dollarlıq borcunu ödəməsinə 10 il möhlət vermiş, eyni zamanda yeddiillik plan çərçivəsində 600 milyon dollar həcmində yeni kredit ayırmağı vəd etmişdi. 1975-ci ilin sonuna qədər həmin məbləğin 437 milyon dolları Əfqanıstanın ixtiyarına verilmiş, iqtisadi-ticarət və texniki əməkdaşlıq sahəsində yeni müqavilələr bağlanmışdı. Davudun hakimiyyətdə olduğu ilk üç il ərzində SSRİ ilə Əfqanıstan arasında ticarət dövriyyəsi 3 dəfə artmışdı [70, 395].

Şimal qonşusu ilə sürətlə inkişaf edən əlaqələrə rəğmən, cənub qonşusu – Pakistanla Əfqanıstanın münasibətləri Davudun prezidentliyinin ilk illərində son dərəcə gərgin xarakter almışdı.

Bunun da əsas səbəbi, artıq deyildiyi kimi, Puştunistan məsələsi idi. Pakistanın Şimal-qərb əyalətinin Əfqanıstanın ayrılmaz hissəsi olması barədə Davud xanın bəyanatı qonşu ölkəni ciddi şəkildə narahat etmiş və o, Pakistanın daxili işlərinə qarışmaqda ittiham olunmuşdu. Hər iki ölkədə bir-birinə qarşı kəskin mənfi təbliğat kampaniyası vüsət almışdı. Həmin dövrdə Pakistan hakimiyyətinin bəluçlara qarşı repressiv tədbirləri onların qaçqın kimi Qəndəhara pənah gətirməsinə səbəb oldu. Əfqanıstan bununla bağlı 1974-cü ilin dekabrında BMT baş katibinə müraciət etdi. Eyni zamanda bəluçlara hərbi təlim keçilərək, Pakistana – Bhutto rejiminə qarşı mübarizəyə göndərilirdi. Analoji olaraq, Pakistan əfqan islamçılarına hərbi-təşkilati dəstək verib Davud xan hakimiyyətinə qarşı təhrik edirdi. Pakistan hökuməti hətta Əfqanıstanda yaşayan həzarələr üçün radio açmışdı və onların hüquqlarının müdafiəçisi kimi çıxış edirdi [115, 154-155]. Qeyd edək ki, həmin dövrdə «Pərçəm» nümayəndələri də "Dürand xətti"ni tanımamaq istiqamətində qızğın təbliğat aparırdılar.

Hadisələrin ən gərgin vaxtında qonşu dövlətlər, ilk növbədə İran işə qarışdı və münasibətləri normallaşdırmaq üçün fəal təşəbbüslərə əl atdı. Bununla da Əfqanıstan xarici siyasətində yeni dönəm başladı. Əslində əvvəlki dövrdən fərqli olaraq, SSRİ də Davudun Puştunistanla bağlı mövqeyini dəstəkləmir, Pakistanla ziddiyyətləri dinc yolla nizama salmağı tövsiyə edirdi. SSRİ-nin Əfqanıstana qoşulmağı təklif etdiyi Asiyada kollektiv təhlükəsizlik ideyası da mövcud sərhədlərin toxunulmazlığını nəzərdə tuturdu. Bunu qəbul etməklə, Davud xan «Dürand xətti»ni tanımış olurdu.

Əfqanıstan tarixinin haqqında danışdığımız dönəmini tədqiq edən əksər tədqiqatçılar Davud xanın təqribən beş illik hakimiyyəti dövrünü iki mərhələyə ayırırlar: 1973-1974 və 1975-1977-ci illər. Bu mərhələlərin hər biri daxili və xarici siyasətdə özünəməxsus cəhətləri ilə seçilsə də, əsas amil kimi SSRİ ilə münasibət-

lər götürülür. Belə ki, birinci mərhələdə Davud xan SSRİ ilə sıx əməkdaşlıq siyasəti yürütdüyü halda, ikinci mərhələdə tədricən ondan uzaqlaşmaq və regiondakı müttəfiqləri (ilk növbədə İran və Səudiyyə Ərəbistanı) vasitəsilə Qərbə meyl etmək və bu əsasda Pakistanla münasibətləri normallaşdırmaq xəttini tutmuşdur.

Davud xanın xarici siyasət kursundakı dəyişiklik əslində onun daxili siyasətinə mütənasib şəkildə gerçəkləşirdi. Belə ki, artıq deyilənlərdən anlaşıldığı kimi, əgər hakimiyyətinin birinci mərhələsində o, sol qüvvələrlə, ilk növbədə Bəbrək Karməlin rəhbərlik etdiyi "Pərçəm"lə yaxın əməkdaşlıq edirdisə, ikinci mərhələdə mövcud siyasi qüvvələri küncə sıxışdıraraq, təkbaşına idarəçiliyə üstünlük verirdi. Ölkənin yeni Konstitusiyası da bunu qanuniləşdirmiş, dövlət başçısı kimi Davud xana hüdudsuz səlahiyyətlər vermişdi, ölkə parlamenti heç bir ciddi səlahiyyəti olmayan dekorativ quruma çevrilmişdi. Başqa sözlə, özünün ikinci mərhələsində Davud xanın hakimiyyəti hərbi-bürokratik diktaturaya çevrilməkdə idi.

Sosial-iqtisadi sferaya gəldikdə, qeyd etmək lazımdır ki, birinci mərhələdə hakimiyyətin atdığı addımlar bilavasitə cəmiyyətin zəruri ehtiyaclarının ödənilməsinə, ictimai strukturdakı ziddiyyətlərin yumşaldılmasına yönəlmişdi; ikinci mərhələdə isə hökumət daha çox iri və təmtəraqlı layihələrə üstünlük verməyə başladı, bunun üçün də böyük maliyyə vəsaitləri lazım idi. SSRİ-nin ayırdığı kreditlər açıq-aşkar kifayət etmirdi, buna görə də Davud xan İran və Səudiyyə Ərəbistanı kimi ölkələrin təkliflərinə şirnikdi və bu təkliflərin arxasındakı siyasi məqsədlərə diqqət yetirmədi.

1970-ci illərin ortalarından etibarən Əfqanıstanın xarici siyasətində baş vermiş dəyişikliyi tədqiqatçılar müxtəlif cür izah etmişlər. Məsələn, əfqan alimi Sistani yazır: "Davud xanın ən məhrəm adamı olan qardaşı Sərdar Məhəmməd Nəim xan yürütdüyü siyasətin təhlükəli nəticələri barədə ona xəbərdarlıq etdi, dəyişiklik və tarazlığın zəruriliyini vurğuladı. Davud xan da

qardaşının məsləhətini məntiqi saydı və qərara aldı ki, öz xarici siyasətinə yenidən baxsın. O mənada ki, qonşuları İran və Pakistanla əlaqələrini yaxşılaşdırsın və SSRİ-dən uzaqlaşıb ABŞ-a daha yaxın olsun" [124, 82].

Məhəmməd Nəim hökumətdə rəsmi vəzifə tutmasa da, Davud xana böyük təsir imkanlarına malik idi və beynəlxalq əlaqələrdə onun xüsusi nümayəndəsi kimi çıxış edirdi. Bu mənada baş vermiş dəyişiklikdə onun rolunu, əlbəttə, istisna etmək olmaz.

Məhəmməd Bağır Misbahzadə isə sözügedən dəyişikliyin bir sıra daxili və xarici səbəblərlə şərtləndiyini göstərir: 1) Əfqanıstan əhalisinin SSRİ-nin ölkəyə təsirinin artmasından və Davud xanın buna imkan verməsindən narazılığı; 2) Qərbin regiondakı müttəfiqlərinin hərtərəfli fəallığı və Davud xana təzyiqləri; 3) SSRİ-nin Əfqanıstanı özündən tam asılı vəziyyətə salmaq üçün siyasi və iqtisadi addımları; 4) Davudun rusların köməyi ilə ölkənin iqtisadi, sosial və siyasi problemlərini həll etməkdə uğursuzluğa düçar olması [115, 156-167].

Nəhayət, bununla bağlı, Əfqanıstan tarixinin tanınmış tədqiqatçısı, rus alimi V.Q.Korqun yazır: "Davudun xarici siyasətində ciddi istiqamət dəyişikliyi baş verdi. <u>SSRİ ilə əməkdaşlığı kəsmədən</u> (seçdirmə bizimdir – M.M.) dövlət başçısı şah İranı və Fars körfəzi ölkələrinin mühafizəkar rejimləri ilə təmaslarını gücləndirdi. Sonralar o, İranın vəd etdiyi nəhəng maliyyə yardımına cavab olaraq, siyasi baxımdan Moskvadan məsafə saxlamağa başladı" [70, 385].

Görünən odur ki, Davud xan SSRİ-dən tamamilə uzaqlaşmaq yox, xarici siyasətdə balans yaratmaq və sovet asılılığından qurtarmaq istəyirdi. Bu işdə qeyd olunan ölkələrin, eləcə də Çinin göndərdiyi siqnallar mühüm rol oynamışdı. Lakin hadisələrin sonrakı inkişafı da göstərdi ki, SSRİ Əfqanıstandakı nüfuzunu heç kimlə bölüşmək fikrində deyildi.

Hər halda artıq 1975-ci ilin dekabrında SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Nikolay Podqornının Kabula səfəri zama-

nı iki ölkənin münasibətlərindəki soyuqluq özünü açıq şəkildə göstərdi. Bu da Davud xanın digər ölkələrlə genişlənən əlaqələrinin bir növ təzahürü idi. Həmin prosesdə başlıca rolu, şübhəsiz, ABŞ-ın regiondakı mühüm müttəfiqi olan İran oynamışdı. Hələ 1974-cü ilin aprel ayında Məhəmməd Nəim xan dövlət başçısının xüsusi nümayəndəsi kimi Tehrana səfər etmiş, şahla və digər rəsmilərlə müzakirələr aparmışdı. Səfərin nəticəsi olaraq, İran Davud rejiminə 40 milyon dollarlıq kredit ayırmışdı. Həmin ilin sentyabrında Səudiyyə Ərəbistanı Əfqanıstana 40 milyon dollar əvəzsiz yardım, 50 milyon dollar faizsiz borc verdiyini bəyan etmişdi. Eyni vaxtda İranın xarici işlər naziri Kabulda rəsmi səfərdə olmuşdu. Az sonra – noyabr ayında ABŞ-ın dövlət katibi Henri Kissincer Beynəlxalq İnkişaf Agentliyinin (USAID) nümayəndə heyəti ilə bərabər Kabula gəlmiş, Əfqanıstan hökumətinə iqtisadi-texniki yardım təklif etmişdi [10, 5]. Kissincer ikinci dəfə 1976-cı ilin avqust ayında Əfqanıstana səfər etmişdi. Qeyd edək ki, ABŞ da Əfqanıstana 19 milyon dollarlıq əvəzsiz yardım ayırmışdı.

Əfqanıstanın xarici əlaqələrində Davud xanın İrana rəsmi səfəri bir növ dönüş nöqtəsi olmuşdu. 1975-ci ilin aprel ayında gerçəkləşmiş bu səfərdə İran şahı və baş naziri ilə aparılan danışıqlardan sonra İran tərəfi Əfqanıstana inkişaf etməkdə olan ölkələrin tarixində görünməmiş məbləğdə – 2 milyard dollarlıq kredit ayırmağa hazır olduğunu bildirmişdi. Bu məbləğin 300 milyon dolları yeddiillik planda nəzərdə tutulmuş layihələrə, 1,7 milyardı isə Əfqanıstanın Herat, Kabul və Qəndəhar şəhərlərinin İran dəmir yollarına birləşdirilməsinə sərf ediləcəkdi. Əfqanıstanın dəmir yolu ilə İrandakı Bəndər-Abbas limanına çıxışı onun SSRİ ərazisindən tranzit asılılığını aradan qaldıracaqdı.

İran təkcə Əfqanıstana yardım etməklə kifayətlənməyib, artıq deyildiyi kimi, onun Pakistanla münasibətlərinin normallaşmasında da fəal rol oynadı (Türkiyə ilə birgə). Davud xanla görüşdən

sonra Pakistana səfər edən İran şahı Məhəmməd Rza Pəhləvi iki ölkə arasında dialoqun başlanmasında bir növ vasitəçi oldu. Nəticə olaraq, 1976-cı ilin iyun ayında Pakistanın baş naziri Zülfüqar Əli Bhutto Kabula rəsmi səfər etdi. Bundan iki ay sonra Davud xanın Pakistana səfəri baş tutdu. İki dövlət başçısının növbəti görüşü 1977-ci ilin iyun ayında Kabulda oldu. Aparılan müzakirələr nəticəsində münasibətlərdəki gərginlik aradan qalxdı. Davud xan Puştunistan məsələsini gündəmdən çıxardı və bir sıra məlumatlara görə, "Dürand xətti"ni tanımağa razılıq verdi. Qeyd edək ki, bu, ölkə daxilində Davud xanın nüfuzuna böyük zərbə oldu və onun sosial dayaqlarını xeyli dərəcədə zəiflətdi.

Paralel olaraq, Əfqanıstanın İraq, Küveyt, Çin, Yuqoslaviya, Avstraliya və s. kimi ölkələrlə də əlaqələri genişlənirdi. Dünya Bankı, Asiya İnkişaf Bankı kimi qurumlar Əfqanıstandakı layihələrə dəstək verməyə başlamışdı. Davud xan artıq gənc zabitləri hazırlıq üçün SSRİ-yə deyil, Hindistan və Misirə göndərməyə başlamışdı, təyyarəçilər isə Türkiyəyə oxumağa göndərilirdi. Kabul Universitetinin mühəndislik fakültəsinə 1976-cı ildə 1000 nəfərə yaxın tələbə qəbul olunmuşdu və orada amerikalı müəllimlərin böyük təsiri vardı. Məhəmməd Nəim xan Fransa və ABŞ-da səfərdə olmuşdu. 1978-ci ilin əvvəllərində ABŞ və Səudiyyə Ərəbistanı ilə hərəsi 500 milyon dollarlıq iqtisadi yardım anlaşması əldə edilmişdi. Həmin ilin iyununda İran şahının Kabula səfəri olacaqdı, sentyabrda isə Davud xan ABŞ-a gedib prezident Karter ilə görüşəcəkdi [10, 7].

Bütün bu prosesləri yaxından izləyən sovet rəhbərliyi artıq ciddi narahatlıq keçirirdi. 1977-ci ilin aprel ayında Davud xan Moskvaya dəvət olundu. Rəsmi görüş zamanı L.İ.Brejnev diplomatik etiketə riayət etmədən NATO ölkələrindən olan mütəxəssis və müşavirlərin Əfqanıstanda fəaliyyət göstərməsindən narazılığını bildirdi, onların əslində casusluqla məşğul olduğunu və ölkədən çıxarılmasının vacibliyini dilə gətirdi. Davud xanın

bu tələbə cavabı çox sərt və görüşdə iştirak edənlər üçün gözlənilməz olmuşdu. O, bildirmişdi ki, biz sizə ölkəmizi necə idarə etməyi diktə etmək ixtiyarını verməmişik, Əfqanıstan müstəqil dövlətdir və kiminlə əməkdaşlıq etməyi özü müəyyənləşdirir; biz lazım gəlsə, kasıb olaraq qalacağıq, lakin qərar və hərəkətlərimizdə azadlığımızı qoruyacağıq! Həmin söhbətdən sonra Davud xan Brejnevlə ertəsi günə nəzərdə tutulmuş təkbətək görüşü ləğv edərək, Kabula qayıtdı [124, 92]. Bu, artıq münasibətlərin nümayişkaranə surətdə pozulması demək idi.

Sovet rəhbərliyi dərhal hərəkətə keçdi. İlk addım kimi ƏXDP fraksiyalarının birləşdirilməsi nəzərdə tutuldu. Eyni zamanda iqtisadi razılaşmaların icrası yubadıldı və ya təxirə salındı.

Davud xanın SSRİ-yə səfərindən cəmi 2-3 həftə sonra – 1977-ci ilin mayında Tərəki ilə Karməlin görüşündə fraksiyaların birləşməsi barədə razılıq əldə olundu. İyulun 3-də keçirilən konfransda ƏXDP əvvəlki halına qayıtdı və hər iki fraksiyadan paritet əsasda 30 nəfərlik Mərkəzi Komitə seçildi. Tərəki partiyanın baş katibi, Karməl isə MK-nın üç katibindən biri oldu. Paralel olaraq, Əminin rəhbərliyi ilə orduda qiyama hazırlıq işinə start verildi.

1977-ci il noyabrın 16-da Davud hökumətinin Planlaşdırma və Büdcə naziri Əli Əhməd Xürrəm qətlə yetirildi. O, Qərbə meylli və Davuda ciddi təsiri olan bir şəxs kimi tanınırdı. Qətlin icraçısı həbs və mühakimə edildi, onun guya islamçıların sifarişini yerinə yetirdiyi açıqlandı. Lakin naziri qətlə yetirən müəllimin əslində ƏXDP-yə bağlı bir şəxs olduğu üzə çıxdı. Bu, görünür, Davud xana açıq və son xəbərdarlıq idi.

Ölkəni qarışdırmaq üçün növbəti terror aksiyası 1978-ci il aprelin 17-də baş verdi: ƏXDP-nin liderləri və nəzəriyyəçilərindən biri Mir Əkbər Xəybər qətlə yetirildi. Onun aprelin 19-da keçirilən dəfn mərasimi bir növ siyasi nümayişə çevrildi. Minlərlə insanın toplaşdığı mərasimdə ƏXDP rəhbərləri alovlu çıxışlar edərək, qətldə hökuməti günahlandırdılar. Onlar bilərəkdən

Xəybərin cənazəsini prezident iqamətgahının önündən aparmış, eyni zamanda ABŞ səfirliyinin qarşısında etiraz mitinqi keçirmişdilər [70, 402]. Əslində ƏXDP liderləri bu hadisədən bəhanə kimi istifadə edərək, ehtirasları qızışdırmağa çalışırdılar. Davud xan onların həbsinə göstəriş verdi. Aprelin 26-da ƏXDP rəhbərliyinə daxil olan 7 şəxs, o cümlədən, Tərəki və Karməl həbs edildi. Əmin, bəzi məlumatlara görə, bir neçə saat sonra tutuldu, bəzi məlumatlara əsasən isə, həbsdən kənarda qaldı. Elə o da ordunun ertəsi günə nəzərdə tutulan çevriliş planını hazırlayıb zabitlərə təqdim etmişdi...

# Çevrilişdən təcavüzə: “Xəlq”lə “Pərçəm”in bitməyən mübarizəsi

1978-ci il aprelin 27-də səhər saat 10 radələrində Kabulun Poli-Çərxi rayonunda yerləşən 4-cü briqadaya məxsus 50-yə yaxın tank şəhərin mərkəzindəki prezident iqamətgahına doğru hərəkətə başladı. Onlara ƏXDP üzvü olan zabitlər Məhəmməd Rəfi və Məhəmməd Əsləm Vətəncar rəhbərlik edirdi. Həmin vaxt prezident sarayında Davud xanın sədrliyi ilə hökumətin fövqəladə iclası keçirilirdi.

Bu ərəfədə orduya tam döyüş hazırlığı əmri verilsə də, qiyamçılar tezliklə prezident sarayını mühasirəyə ala bildilər, daha sonra hərbi-hava qüvvələrinin qərargahını, Əfqanıstan radiosunu, Kabul beynəlxalq aeroportunu, rabitə və müdafiə nazirliklərini ələ keçirdilər. ƏXDP-nin hər iki cinahdan olan rəhbərləri həbsxanadan azad edildi.

Təraki və Karməl bir zirehli maşında əvvəlcə Əfqanıstan radiosunun binasına, oradan da hərbi-hava qüvvələrinin qərargahına getdilər. Deyilənə görə, bu iş Karməlin təkidi ilə olmuşdu və məqsəd bu idi ki, çevriliş baş tutmasa, onlar asanlıqla aradan çıxa bilsinlər [115, 192].

Hərbi-hava qüvvələrinin qərargahında ƏXDP MK-nın iclası keçirildi və «inqilabın qələbəsi» haqqında bəyanat verilməsi qə-

rara alındı. Birləşmədən 9 aydan da az vaxt keçməsinə baxmayaraq, burada «Xəlq» və «Pərçəm» arasındakı ixtilaflar yenidən üzə çıxdı. Əmin təklif etdi ki, bəyanatı partiyanın rəhbəri Tərəki oxusun, amma Karməl bununla razılaşmadı. Digər tərəfdən, Tərəki və Əmin Davudun öldürülməsini istəyirdilər, Karməl isə qətiyyətlə bunun əleyhinə çıxırdı. Görünür, Davudla uzun illərin əməkdaşlığı Karməlin belə mövqe tutmasına səbəb olmuşdu: perspektivdə belə bir əməkdaşlığa yenidən zərurət yarana bilərdi.

Nəhayət, Tərəki bu qərara gəldi ki, bəyanatı zabitlər oxusunlar. Əslində bu, «inqilabın» kimin tərəfindən həyata keçirildiyinin, hərbi çevriliş xarakteri daşıdığının etirafı idi. Ordunun illər öncə başlayan siyasiləşməsi prosesi, xüsusən sol ideologiyanın hərbçilər arasında geniş yayılması öz «bəhrəsini» vermiş oldu.

Axşam saat 19 radələrində Kabul radiosu ilə «Nadir şah sülaləsindən olan sonuncu cəlladın hökmranlığının sona çatdığı» elan edildi. Baxmayaraq ki, hələ prezident qvardiyası müqavimət göstərirdi və Davud xan da sağ idi.

İnqilab Şurasının bəyanatını  radio ilə zabitlərdən Əbdülqadir və Vətəncar (birincisi "Pərcəm", ikincisi "Xəlq" fraksiyasından idi) müvafiq olaraq dəri və puştu dillərində oxudular.

Bəyanatın mətni belə idi:

«Əziz həmvətənlər!

Əfqanıstan tarixində ilk dəfə olaraq, qaniçən Nadir xanın sülalə və ailə hakimiyyətinin zülm və istibdad səltənətinə son qoyulmuş və dövlətin bütün ixtiyarı əfqan xalqının əlinə keçmişdir. Hakimiyyət səlahiyyətləri bütünlüklə hərbi inqilab şurasının ixtiyarındadır.

Əziz həmvətənlər!

Sizin xalq hakimiyyətini təmsil edən İnqilab Şurası bəyan edir ki, onun göstəriş və qərarlarını yerinə yetirməyən hər bir əksinqilabçı ünsür ən qısa zamanda hərbi tribunalın ixtiyarına veriləcəkdir» [115, 193].

Prezident sarayını müdafiə edən qüvvələrin müqaviməti gecə saatlarında qırıldı. Davud xan qardaşı Məhəmməd Naim və 17 nəfər ailə üzvü ilə birlikdə qətlə yetirildi. Ertəsi gün yalnız Davudla qardaşının müqavimət göstərdikləri üçün öldürüldükləri radio ilə xalqa çatdırıldı.

Sonralar Tərəki BBC müxbirinə verdiyi müsahibədə çevriliş günü iki tərəfdən ümumilikdə 72, yaxud 73 adamın həlak olduğunu bildirmişdi [115, 194]. Lakin müstəqil mənbələr ölənlərin sayının 1000 nəfərə yaxın olduğunu bildirmişdi. Prezident tərəfdarlarının 14 saatdan çox müqavimət göstərdiklərini, təqribən 2000 nəfər olduqlarını və əksəriyyətinin məhv edildiyini nəzərə alsaq, Tərəkinin sadəcə həqiqəti gizlətməyə çalışdığını söyləyə bilərik.

Qeyd edək ki, sonrakı günlərdə çevrilişçilər elə bir ciddi müqavimətlə üzləşmədilər. Belə olan halda çevrilişin hərbçiləri qabağa vermiş əsas «ilhamverici» qüvvəsi üzə çıxmağı məqsədəuyğun saydı. Aprelin 29-da hakimiyyət hərbi-inqilab şurasından İnqilab Şurasına verildi. ƏXDP MK-nın üzvlərindən ibarət İnqilab Şurası bir gün sonra özünün 1 saylı fərmanını elan etdi. Fərmana əsasən, Nur Məhəmməd Tərəki İnqilab Şurasının sədri və hökumət başçısı olurdu. Həmin gündən etibarən ölkə rəsmən Əfqanıstan Demokratik Respublikası adlanırdı. Hökumətin İnqilab Şurasına tabe olduğu və tezliklə onun tərkibinin açıqlanacağı bildirilirdi. Mayın 1-də İnqilab Şurasının 2 saylı fərmanı ilə hökumət üzvlərinin adları əhaliyə çatdırıldı. Bəbrək Karməl İnqilab Şurası sədrinin və hökumət başçısının müavini təyin edilmişdi. Həfizulla Əmin isə hökumət rəhbərinin müavini olmaqla yanaşı, xarici işlər naziri postunu tutmuşdu. Sədr də daxil olmaqla Nazirlər Kabinetinin 21 üzvündən 12-si «Xəlq», qalan 9-u isə "Pərçəm" fraksiyasını təmsil edirdi. İnqilab Şurası üzvlərinin sayı isə 35 nəfər idi. Hökumətin strukturunda əvvəlki dövrlə müqayisədə elə bir ciddi dəyişiklik baş verməmişdi. Köhnə struktura xüsusi

olaraq Karməlin yaxın adamı Anahita Ratebzad üçün nəzərdə tutulmuş sosial məsələlər nazirliyi, həmçinin teleradio komitəsi əlavə olunmuşdu.

Hadisələrin içində olan SSRİ hökuməti Əfqanıstanın yeni hakimiyyətini çevrilişdən bir gün sonra rəsmən tanıdı. Bunun ardınca Şərq blokunun üzvləri, Hindistan, daha sonra Qərb dövlətləri və üçüncü dünya ölkələri də ƏXDP hakimiyyətini tanıdılar. Əfqanıstanın üç qonşusu – Çin, Pakistan və İran Tərəkinin başçılıq etdiyi hökuməti tanısalar da, öz narahatlıqlarını gizlətmədilər. Belə ki, Çinin xarici işlər naziri Huanq Hua «Aprel inqilabı»ndan dərhal sonra İrana və Pakistana səfər etmiş, ölkəsinin «sosial imperializmin irəliləməsindən» narahat olduğunu dilə gətirmişdi [115, 197-198].

Əlbəttə, Əfqanıstanın başına gələcək sonrakı müsibətlərin başlanğıcı olan «Aprel inqilabı»na ABŞ-ın reaksiyası və münasibəti böyük əhəmiyyət kəsb edirdi. Bu günün zirvəsindən baxanda, həmin münasibətin uzunmüddətli hədəflərə yönəldiyini aydın görmək olur. Daha dəqiq desək, ABŞ SSRİ-nin addım-addım Əfqanıstan «bataqlığına» girməsini müşahidə edir və buna mane olmurdu. Əfqan xalqı iki superdövlətin ölüm-dirim mübarizəsində sadəcə bir vasitə, müəyyən mənada isə, qurbanlıq idi. Odur ki, ABŞ SSRİ-nin birbaşa dəstəyi ilə formalaşmış yeni rejimə loyallıq göstərdi və əvvəlki hakimiyyətin dövründə mövcud olan iqtisadi-texniki və mədəni əməkdaşlığı davam etdirdi. ABŞ rəsmiləri özlərini çevrilişin kommunist olmaqdan çox, milliyyətçi səciyyə daşıdığı barədə Əfqanıstan üzrə ekspertlərin rəylərinə inanmış kimi göstərdilər və hadisələrdə sovetlərin iştirakından xəbərsiz kimi davrandılar. Prezident Karterin Milli təhlükəsizlik məsələləri üzrə müşaviri Zbiqnev Bzejinski o zaman verdiyi bir müsahibədə demişdi: «Biz nə edə bilərdik? Bu, daxili bir məsələ idi. Bizim əlimizdə rusların müdaxiləsinə dair heç bir sənəd yox idi, ona görə hər hansı etiraz əsassız olardı» [115, 198].

ABŞ-ın həmin dövrdə Əfqanıstandakı proseslərə siyasi yanaşmasının başlıca cəhətləri dövlət katibi Sayrus Vensin sözlərində daha aydın ifadə olunurdu: «Tarixi baxımdan ABŞ-ın orada (Əfqanıstanda – M.M.) əhəmiyyətli maraqları yox idi... Biz və regiondakı tərəfdaşlarımız Kabul rejiminin müxaliflərinə və antimarksist qruplara kömək göstərməklə, bölgədəki sabitsizliyi artırmaq istəmirdik. Mənim tövsiyəm belə idi ki, bu macəraya qarışmamaq lazımdır» [115, 199].

Məhz bu mövqeyin nəticəsi olaraq, bir müddət sonra ABŞ və onun regiondakı tərəfdaşlarından olan Pakistan Əminin yaxın münasibətlər qurmaq istəyinə soyuq yanaşmışdılar. Başqa sözlə, amerikalılar hələ 1950-ci illərdə Əfqanıstan hökumətinə yardım etməməklə, onun SSRİ-dən asılılığına zəmin yaratmaq xəttini tutmuşdular.

Həmin asılılıq SSRİ-nin «iştahasını artırır», bir çox digər kasıb ölkələrdə olduğu kimi, Əfqanıstanda da «sosialist inkişaf yolunu seçmiş» ələbaxan rejim formalaşdırmaq istəyini gücləndirirdi. Bu isə SSRİ-nin iqtisadi məsrəflərinin artmasına, son nəticədə içəridən çökərək, tarixi rəqabətdə ABŞ-a uduzmasına yol açırdı. Təsadüfi deyil ki, sonrakı mərhələdə Əfqanıstana böyük qoşun kontingentinin yeridilməsi və təqribən on il ərzində bu ölkənin SSRİ büdcəsindən ağlasığmaz vəsaitləri «udması» Sovetlərin süqutunu sürətləndirən ciddi amillərdən biri kimi qiymətləndirilir.

Lakin hələlik buna bir neçə il qalmışdı, odur ki, iki yüz illik Böyük oyunda qələbəyə yaxın olduğunu düşünən və bu üzdən siyasi ehtirasları coşan sovet rəhbərləri səxavətlə gənc demokratik dövlətin «islahatlarını» dəstəkləyir, bu yolda heç nəyi, hətta öz vətəndaşlarının həyatını belə əsirgəmirdilər. Həmin «islahatlar» isə nə əfqan cəmiyyətinin inkişaf səviyyəsinə, nə də əfqan xalqının minillik ənənələrinə uyğun idi.

Tərəki hökuməti sosialist ölkələrinin təcrübəsindən çıxış

edərək, Əfqanıstanın siyasi sistemini, sosial-mədəni və iqtisadi strukturunu dəyişdirmək üçün öz islahatlar proqramını 8 ay ərzində verdiyi 8 fərman (dekret) vasitəsilə irəli sürdü. Bunlardan yuxarıda xatırlanan ilk ikisi ölkənin yeni siyasi quruluşunu, o cümlədən, təkpartiyalı sistemi ümumi şəkildə müəyyənləşdirmişdi. 3-cü fərman köhnə Konstitusiyanın ləğvinə, Ali məhkəmə şurası və hərbi tribunalın yaradılmasına aid idi. 4-cü fərmanla Əfqanıstanın dövlət gerbi və bayrağı dəyişdirilmişdi. Onunla eyni vaxtda verilmiş 5-ci fərmanla Nadir xan nəslindən olan 23 nəfər, o cümlədən, Zahir şah «milli xainlər» elan olunmuş və Əfqanıstan vətəndaşlığından məhrum edilmişdi. 6-cı fərman torpağın icarəyə verilməsi, mülkədarların gəliri, onun miqdarının azaldılması, müəyyən hallarda isə ləğvi kimi məsələlərə həsr olunmuşdu. Bu fərman kəndlilərin 75 %-ni əhatə edirdi; hökumət ekspertlərinin hesablamalarına görə, 11 milyon kəndli iri mülkədarlara və icarədarlara olan borcdan azad edilmişdi. 1978-ci ilin oktyabrında verilmiş 7 nömrəli fərmanla qadınlar və kişilərin hüquq bərabərliyi elan edilir, iri məbləğdə başlıq ödənilməsi, məcburi və erkən nikahlar ləğv olunurdu. Hökumətin xüsusi önəm verdiyi 8 saylı fərman isə torpaq islahatına həsr olunmuşdu və kənddə «feodal münasibətlərinin ləğvinə» yönəlmişdi. Fərmana əsasən, mülkədar torpaqlarının 6 hektardan artıq olan hissəsi əllərindən alınıb pulsuz olaraq kəndlilərə paylanırdı. İslahatın həyata keçirilməsini birinci mərhələsində (1979-cu ilin yanvar-iyul aylarında) rəsmi məlumata əsasən, 296 min ailə torpaqla təmin edilmişdi.

Lakin ƏXDP rəhbərliyi islahatların həyata keçirilməsində hədsiz radikallığa, tələskənliyə və volyuntarizmə yol verir, sovet sistemini eynən təkrarlamağa çalışır, ölkədəki ictimai münasibətlərin xarakteri və mahiyyətini nəzərə almadan, yaxud anlamadan sinfi mübarizədən, istismarçı sinfin ləğvindən dəm vururdu. Eyni zamanda, islamın və ruhanilərin ictimai həyatda rolu, əhali arasında nüfuz və təsiri gözdən qaçırılırdı. Bir tərəfdən marksist-ate-

ist düşüncə tədris və təbliğ olunur, digər tərəfdən də ƏXDP rəhbərləri, xüsusən ilk dönəmdə, xalqa müraciətlərini «Bismillah»-la başlayır, dini bayramlarda ümumi namaz qılınmasında iştirak edirdilər. Xalqın inancının bu şəkildə "nəzərə alınması" isə əks effekt verir, nümayişkaranə riyakarlıq mömin insanların dini hisslərinə toxunur, onları qıcıqlandırırdı. Bu da öz növbəsində ruhanilərin hökumət əleyhinə təbliğatına əlverişli şərait yaradırdı. Milli özünəməxsusluğun və tarixi ənənələrin nəzərə alınmaması daxili siyasətdə ƏXDP rəhbərliyinin buraxdığı ən böyük səhv idi.

Bu işdə sayı durmadan artan, getdikcə bütün partiya və dövlət strukturlarını, hətta yerli hakimiyyət orqanlarını əhatə edən sovet müşavirlərinin payı az deyildi. Heç bir xüsusi hazırlıq keçmədən və yerli şəraiti bilmədən Əfqanıstana ezam olunan bu müşavirlər ölkədə sovet idarəçilik modelinin tətbiqinə çalışır, bütün naqislikləri ilə birgə sovet təcrübəsini «əfqan yoldaşlara» ötürür, bir çox hallarda isə onların funksiyalarını mənimsəyirdilər. Bununla əlaqədar əfqan tədqiqatçısı Məhəmməd İkram Əndişməndin yazdıqları maraq doğurur:

«Əslində Xalq Demokratik Partiyasının hökuməti, hətta SSRİ-nin Əfqanıstana hərbi təcavüzündən öncə, «müşavirlər hökuməti» idi. 1979-cu ilin iyun ayında mən Kabul universiteti rektorunun imzası ilə əkinçilik və torpaq islahatı nazirliyinə bir məktub apardım ki, öz monoqrafiyamda istifadə etmək üçün Bəğlan vilayətində suvarma və dəmyə əkinçiliyinə yararlı torpaqların sahəsi barədə məlumat əldə edim. Bu işlə məşğul olan məmur məktubu məndən alıb sovet müşavirinin yanına getdi və məsələni tərcüməçi vasitəsilə ona anladıb icazə istədi. Müşavir ona icazə verdi, sonra o, otağına qayıdıb məktubun üstündə müvafiq şöbəyə yazdı ki, Bəğlanın əkin sahələri barədə mənə məlumat verilsin» [127, 75-76].

Müşavirlərə bu cür münasibət və itaət heç də əsassız deyildi. Belə ki, yerli məmurların (eləcə də hərbçilərin və partiya funk-

sionerlərinin) vəzifə təyinatında sovet müşavirlərinin rəy və zəmanəti mühüm rol oynayırdı. Odur ki, «əfqan yoldaşlar» onların rəğbətini qazanmaq üçün hər vasitəyə əl atır, o cümlədən, onlara bahalı hədiyyələr («bəxşiş») verməkdən çəkinmirdilər.

Qeyd edək ki, ƏDR hökuməti ölkədəki sovet müşavirlərinin sayı barədə danışmağı xoşlamırdı. Yalnız bir dəfə Həfizulla Əmin baş nazir olduğu zaman mətbuat konfransında bu barədə məlumat verərək, bildirmişdi ki, ölkədə çalışan sovet müşavir və mütəxəssislərinin sayı 1000 nəfərdir və bunlardan 799-u mülki, 201 nəfəri isə hərbi sahədə fəaliyyət göstərir. Şübhəsiz, bu rəqəm nə onda, nə də indi heç kəsə inandırıcı görünməmişdir. Belə ki, hələ Davud xan dövründə Əfqanıstandakı sovet müşavirlərinin sayı 3000 nəfər olmuş, ƏXDP hakimiyyətə gəldikdən sonra isə sürətlə artmışdır. Aprel inqilabından sonrakı ilk iki ildə onların sayının 4500-5000 nəfər olduğu təxmin edilir.

Məhz sovet müşavirlərinin səyləri ilə Əfqanıstanda SSRİ-də mövcud olan təkpartiyalı sistem tətbiq olunurdu ki, bu da yeni hökumətin yol verdiyi digər bir ciddi səhv idi.

ƏXDP-nin hakimiyyəti monopoliyada saxlamaq, ölkədəki digər siyasi qüvvələrlə əməkdaşlıqdan imtina etmək istəyi «Aprel inqilabı»ndan dərhal sonra özünü göstərdi. Belə ki, 1978-ci il mayın 6-da N.M.Təraki yerli və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında digər siyasi təşkilatlara münasibətlə bağlı sualı cavablandırarkən, demişdi: «Əgər onlar bizim proqramımıza və bizim inqilabımıza qarşı çıxmasalar, onların fəaliyyət göstərməsinə imkan verə bilərik. Bu, bizim gələcək qərarlarımızdan asılı olacaq» [87, 15]. Beləliklə, ƏXDP proqramının qəbul edilməsi başqa siyasi qüvvələrin fəaliyyət imkanı qazanmasının ilkin şərti kimi irəli sürülürdü.

Təqribən bir ay sonra İraq jurnalistinə müsahibə verən Təraki ölkədə demokratik qüvvələrin koalisiyasını qurmaq ideyasını rədd edərək, bunu belə əsaslandırdı ki, «digər siyasi təşkilatların

heç biri Aprel inqilabına heç bir töhfə verməyib». Başqa sözlə, Təraki «inqilabı biz etmişik, biz də ölkəni idarə edəcəyik» bəyanatını vermiş oldu. Bu isə ölkənin demokratik və milli-vətənpərvər qüvvələrinin birləşməsi zərurəti barədə onun əvvəlki bəyanatlarına daban-dabana zidd idi. Beləcə «ƏXDP siyasi özünütəcrid yoluna qədəm qoydu, lap başlanğıcdan cəmiyyətdəki sosial dayaqlarını məhdudlaşdırdı, ictimai həyatı demokratikləşdirmək niyyətlərinin səmimiyyətinə şübhə yaratdı» [87, 15].

Həmin dövrdə cəmi 18 min üzvü olan (ölkə əhalisinin 0,1 %-i) ƏXDP təkbaşına hakimiyyət iddiası ilə hansı yükün altına girdiyinin fərqində deyildi və çox keçmədən idarəetmədə ciddi çətinliklərlə üzləşdi. Lazımi peşəkarlığa, həyat və idarəetmə təcrübəsinə malik olmayan «gənc inqilabçıların» dövlət orqanlarında rəhbər vəzifələrə təyin edilməsi acı nəticələrini çox da gözlətmədi. Bu da yeni rejimin əhali arasında qısa zamanda nüfuzdan düşməsinə, hakimiyyətə etimadın sürətlə azalmasına gətirib çıxardı. Eyni prosesin orduda və ümumiyyətlə, güc strukturlarında təkrarlanması isə fəlakətli nəticələrə zəmin yaratdı.

Partiya və dövlət orqanlarının fəaliyyətindəki paralellik, partiya funksionerlərinin hakimiyyət orqanlarının səlahiyyətlərinə yiyələnməsi (eynən SSRİ-də olduğu kimi!) ölkənin idarəetmə sistemini zəiflədir, bürokratik aparatın məsuliyyətsizliyinə, vəzifədən sui-istifadə hallarına yol açırdı. Partiya nomenklaturası getdikcə daha çox hakimiyyəti əlində cəmləşdirir, imtiyazlı təbəqəyə çevrilirdi. Bu da yeni hökumətin xalqın gözündən düşməsinə səbəb olur, bəyan edilən şüarların, verilən vədlərin həyata keçəcəyinə inamı heçə endirirdi.

ƏXDP rəhbərliyinin bütün risklərə və qorxulu perspektivlərə rəğmən, özündən müştəbehliyi və avtokratiyaya meyli səbəbsiz də deyildi. Onlar yerli qüvvələrlə əməkdaşlıqdansa, «Şuravi»nin – SSRİ-nin yardımına və dəstəyinə güvənir, ən çətin anda SSRİ-nin onları köməksiz qoymayacağına inanırdılar. Bu kömək isə, necə

deyərlər, bitib-tükənmək bilmirdi.

«Aprel çevrilişindən sonrakı bir neçə ay ərzində iqtisadi və texniki əməkdaşlığın genişlənməsinə dair 104 milyon dollar dəyərində otuza yaxın sovet-əfqan sazişi imzalanmışdı. 1978-1979-cu illərdə Sovet İttifaqı Əfqanıstanda 60-dan çox müxtəlif obyektlərin tikintisinə yardım göstərirdi. Ölkəyə sovet hərbi yardımı da kəskin şəkildə artdı. 1978-ci ilin iyul ayında 250 milyon dollarlıq silah göndərilməsi barədə saziş imzalandı. SSRİ-də əfqan kadrların hazırlanmasının miqyası da genişləndi: 1979-cu ildən başlayaraq, hər il 1500 nəfər əfqan gənci Sovet İttifaqına oxumağa göndərildi» [70, 407].

Əfqanıstanın digər sosialist ölkələri (Bolqarıstan, Almaniya Demokratik Respublikası, Çexoslovakiya, Polşa, Macarıstan, Monqolustan, Vyetnam, Kuba və s.) ilə də əlaqələri genişlənirdi. Bunun əksinə olaraq, region ölkələri, yuxarıda işarə olunduğu kimi, Əfqanıstandakı yeni rejimə isti yanaşmırdılar. Bu soyuqluq tədricən düşmənçiliyə və Əfqanıstan müxalifətinin açıq şəkildə dəstəklənməsinə çevrildi. Belə ki, 1978-ci il mayın əvvəllərində ƏDR hökumətini rəsmən tanıyan Səudiyyə Ərəbistanı tezliklə onunla diplomatik əlaqələrini kəsdi. Ər-Riyad «aprel inqilabını» islama təhlükə olaraq dəyərləndirdi və elə bu mövqeyin nəticəsi olaraq, çox keçmədən silahlı əfqan müxalifətinin əsas sponsoru rolunda çıxış etməyə başladı.

Qonşu Pakistanla münasibətlər yeni rejim üçün həyati əhəmiyyət kəsb edirdi, lakin bütün səylərə rəğmən bu münasibətləri normallaşdırmaq mümkün olmadı. 1978-ci ilin sentyabrında Pakistan prezidenti Ziyaül-Həqq Kabula rəsmi səfərə gəldi. Uğursuzluqla nəticələnən (ilk növbədə puştu problemi ilə əlaqədar) bu səfərdən sonra rəsmi Pakistanın ƏDR hökumətinə qarşı mövqeyi daha da sərtləşdi. Çox keçmədən Ziyaül-Həqq bəyan etdi ki, Əfqanıstan bufer dövlət rolunu oynamaqdan vaz keçərək SSRİ-nin əlaltısına çevrilmişdir. Bu isə artıq güclənməkdə olan

Əfqanıstan müxalifətinin daha fəal şəkildə dəstəklənəcəyi anlamına gəlirdi.

Əfqanıstan üçün digər mühüm ölkə – İran da ƏXDP hakimiyyətinə mənfi münasibətini gizlətmədi. Şah rejimi inqilabdan sonra Əfqanıstanla sərhədlərini bağladı və əvvəllər imzalanmış müqavilələrin (o cümlədən, neft və neft məhsullarının satışına dair) yerinə yetirilməsini dayandırdı. İslam inqilabından sonra isə yeni İran hakimiyyəti ƏDR-ə qarşı daha kəskin mövqe sərgiləməyə başladı. Əfqanıstan hökumətinin əməkdaşlıq təklifini rədd edən teokratik rejim ƏXDP-yə qarşı mübarizə aparan islamçı müxalifəti, ilk növbədə, şiə qruplaşmalarını müdafiə etmək və yardım göstərmək yolunu tutdu.

«Aprel inqilabından» sonrakı ilk aylarda yeni hakimiyyətə nisbətən loyal yanaşan Qərb dövlətlərinin, ilk növbədə ABŞ-ın mövqeyində də tədricən sərtləşmə müşahidə edilməyə başladı. İlkin mərhələdə bir növ gözləmə taktikası seçən ABŞ rəhbərliyi ƏXDP-nin daxili və xarici siyasətinin getdikcə aydınlaşan konturlarını gördükdə, tədricən ona qarşı mübarizənin əsas təşkilatçısı və koordinatoruna çevrildi. 1979-cu ilin fevralında Kabuldakı ABŞ səfirinin öldürülməsi münasibətlərin kəskinləşməsində önəmli amil rolunu oynadı. ABŞ-ın ardınca onun Qərbdəki müttəfiqləri – İngiltərə, Fransa və Almaniya Federativ Respublikası, eləcə də Yaponiya Əfqanıstana göstərdikləri maliyyə-iqtisadi və texniki yardımları dayandırdılar.

Regional və qlobal oyunçular tərəfindən sıxışdırılmaqda olan ƏDR hökuməti getdikcə daha çox SSRİ-yə sığınır, onun göstərdiyi yardımların artırılması, yeni, hətta açıq müdaxilə formasında reallaşdırılması barədə istəklərini dilə gətirirdi. Münasibətlərin məntiqi yekunu olaraq, 1978-ci il dekabrın 5-də Tərəki başda olmaqla Əfqanıstan nümayəndə heyətinin Moskvaya səfəri zamanı SSRİ ilə ƏDR arasında dostluq, mehriban qonşuluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Müqavilə üstüörtülü şəkildə

olsa da, ƏDR-in düşdüyü vəziyyəti və gələcək ssenariləri özündə əks etdirirdi. Qeyd olunurdu ki, "tərəflər iki ölkənin təhlükəsizliyini, müstəqilliyini və ərazi bütövlüyünü təmin etmək məqsədilə məsləhətləşmələr aparacaq və müvafiq tədbirlər görəcəklər", həmçinin "uyğun razılaşmalar əsasında hərbi əməkdaşlığı davam etdirəcəklər". Bununla da gələcək hərbi təcavüzə bir növ hüquqi baza yaradılmış oldu.

Bütün qeyd olunanlarla yanaşı, ƏXDP hakimiyyətinin üzləşdiyi ciddi çətinliklər və uğursuzluqlarda bir amilin də həlledici rolu oldu. Bu da əzəli və əbədi «Xəlq» – «Pərçəm» rəqabəti və qarşıdurması idi.

Patiyadaxili və cinahlararası mübarizə "inqilab"ın ilk saatlarından özünü göstərməyə başladı və məlum oldu ki, çevriliş ərəfəsində ƏXDP-də təşkilati birlik barədə razılaşma siyasi şəraitin diktəsi və xarici qüvvənin (SSRİ-nin) təzyiqi ilə əldə edilmiş müvəqqəti (taktiki!) addımdan başqa bir şey deyilmiş. Hakimiyyətinin ilk günlərindən ƏXDP fraksiyalar arasında uzunmüddətli amansız və üzücü mübarizə girdabına yuvarlandı.

Qeyd olunduğu kimi, "inqilab"dan bir neçə gün sonra formalaşmış hökumətdə nazir postları təqribən bərabər nisbətdə («Xəlq»çilərin müəyyən üstünlüyü ilə) iki fraksiyanın təmsilçiləri arasında bölüşdürülmüşdü. Lakin "onlar nazirliklərə gedən kimi, «Xəlq»çilər öz cinahlarının, «Pərçəm»çilər də öz cinahlarının üzvlərini dövlət orqanlarında yerləşdirməyə başladılar. Çox keçmədən nazirliklər rəqabət səngərlərinə çevrildilər. Xarici işlər nazirliyi Həfizulla Əminin ixtiyarına verilmişdi, ona görə «Pərçəm» fraksiyasından olan heç kəsə orada yer yox idi. Bu vəziyyət dövlət hakimiyyətinin yuxarı eşelonlarına da mənfi təsir göstərdi, Əmin ilə Bəbrək Karməl arasında gizli təbliğata əsaslanan düşmənçilik atmosferi meydana gəldi» [121].

«Xəlq» – «Pərçəm» ixtilaflarını körükləyən, qarşıdurmanı qızışdıran və dərinləşdirən əsas şəxs Həfizulla Əmin idi. Özünü

inqilabın komandanı və qəhrəmanı sayan Əmin «Pərçəm»in hakimiyyətdən pay almağa haqqı çatmadığı fikrini hər vəchlə yayırdı. Karməl tərəfdarları da onu avantürist, partiyanın birlik və vəhdətini pozan bir şəxs kimi dəyərləndirirdilər.

Hadisələrin sonrakı gedişi göstərdi ki, «Pərçəm»ə qarşı apardığı kampaniya sadəcə Əminin avantürizminin təzahürü deyil, düşünülmüş xəttinin nəticəsi idi. «Xəlq»in radikal qanadına rəhbərlik edən Əmin ilkin mərhələdə «Şərqin dahisi», «Böyük ustad», «Xalqın yaradıcı lideri» kimi epitetlərlə öydüyü Tərəkinin köməyi ilə «Pərçəm» üzvlərini siyasi səhnədən uzaqlaşdırmaq, sonrakı mərhələdə isə Tərəki və tərəfdarlarını da sıradan çıxarıb hakimiyyəti tam şəkildə öz əlinə keçirmək niyyətində idi. Bu niyyəti gerçəkləşdirmək üçün ona il yarımdan da az vaxt lazım oldu.

«Xəlq» ilə «Pərçəm» arasında qarşıdurmanın qızışmasında və ixtilafın açıq müstəviyə keçməsində 1978-ci il mayın 22-də ƏXDP tərəfindən nəşr olunmuş «Aprel inqilabı haqqında» adlı kitabça xüsusi rol oynadı. Burada hələ üstündən bir ay keçməmiş "inqilab"a Əminin baxışı öz əksini tapmışdı: "inqilab"da əsas rolu «Xəlq»çi zabit və əsgərlərin oynadığı, Əminin isə Davud rejiminin devrilməsinə bilavasitə rəhbərlik etdiyi vurğulanmışdı. Partiyanın rəsmi nəşri olan broşürada Karməl və «Pərçəm» üzvü olan hərbçilərin adları belə çəkilməmişdi. Bu azmış kimi «Tərəkinin ətrafında olan bəzi şəxslərin qiyamın uğuruna inanmadığı, passivlik nümayiş etdirdiyi, Davudu öldürməməyə çağırdığı» qeyd olunmuşdu. Əfqan cəmiyyəti, xüsusən partiya üzvləri burada Karmələ işarə olunduğunu yaxşı bilirdilər.

Bundan cəmi iki gün sonra ƏXDP MK-nın partiyadaxili birliyə həsr olunmuş xüsusi iclası keçirildi. İclasda partiyada fraksiyaçılığı pisləyən, ƏXDP üzvlərini «Xəlq»çi və «Pərçəm»çi adlandırmağın yolverilməz olduğunu bildirən qərar qəbul olundu. Lakin qərardakı bir məqam onun əslində hansı mahiyyət daşıdığını və mümkün nəticələrini açıq şəkildə ortaya qoyurdu. Belə ki,

«Pərçəm»çi sözünün yazılı mətnlərdə və şifahi çıxışlarda istifadəsi qadağan olunur, «Xəlq»çi sözünə isə geniş təfsir verilərək, işlənməsinə yaşıl işıq yandırılırdı. Qərarda deyilirdi: «Xəlq»çi sözü bizim partiyamızın – ƏXDP-nin xalqın, fəhlələrin inqilabi partiyası olduğunu ifadə edir. Xalqçı olmaq hər bir partiya üzvü üçün böyük şərəfdir» [87, 56].

Partiyadakı iki cinahın adına bu ikili münasibətin Karməl tərəfdarları arasında necə qarşılandığını şərh etməyə ehtiyac yoxdur. Əslində bu, rəqib fraksiyanı partiya rəhbərliyindən sıxışdırıb çıxarmaq niyyətinin açıq ifadəsi idi. Bu niyyət iyunun 10-da ƏXDP MK Siyasi Bürosunun partiya üzvlərinə ünvanladığı geniş məktubda da təcəssümünü tapmışdı.

Həmin məktubda partiya orqanlarına «şəriksiz, möhtərəm və sevimli rəhbər kimi Nur Məhəmməd Tərəki yoldaşın mənəvi nüfuzunu daha da möhkəmləndirmək və yüksəltmək» istiqamətində iş aparmaq tapşırığı verilirdi. Bu isə partiya rəhbərliyində ikinci nüfuzlu şəxsin – Bəbrək Karməlin mövcudluğuna lüzum olmadığı anlamına gəlirdi.

Bütün bu hazırlıqlardan sonra Əmin «Pərçəm»çilərə həlledici zərbəni vurmaq qərarına gəldi. Siyasi Büronun iyunun 17-də keçirilən iclasında o, partiyada təfriqəçiliyə rəvac verdiyinə görə Karməlin və tərəfdarlarının hökumət rəhbərliyində iştirakının dözülməz olduğu barədə qızğın nitq söylədi. Karməl ona qarşı yönəlmiş ittihamlara və təhqirlərə dözməyib istefa verməyə hazır olduğunu bəyan etdi. Rəqibi, necə deyərlər, dilindən tutan Əmin Karməli və məsləkdaşlarını səfir qismində xarici ölkələrə göndərmək təklifini irəli sürdü. Siyasi Büro bu təklifi cəmi bir səs çoxluğu ilə qəbul etdi.

Ölkə rəhbərliyində bu ciddi dəyişikliyə, şübhəsiz, Moskvadan müvafiq təlimatlar alan sovet müşavirləri də xeyir-dua vermişdilər. Təsadüfi deyil ki, iyulun 5-də Əfqanıstanın Çexoslovakiyadakı səfiri təyin olunmuş Bəbrək Karməl ölkəni tərk etməzdən

öncə Kabuldakı sovet səfiri A.M.Puzanovla görüşmək istəmiş, lakin rədd  cavabı almışdı.

Karməllə yanaşı, onun qardaşı, ƏXDP MK üzvü Mahmud Bəryaləy Pakistana, Nəcibulla – İrana, daxili işlər naziri Nur Əhməd Nur – ABŞ-a, Əbdülvəkil – Britaniyaya, A.Ratebzad isə Yuqoslaviyaya səfir göndərildi. İyul ayı ərzində onlar ölkəni tərk edib yeni təyinat yerinə yollandılar.

«Pərçəm» rəhbərliyinin nəinki hakimiyyətdən, hətta ölkədən uzaqlaşdırılması Əminə geniş səlahiyyətlər qazandırdı. Sultan Əli Keştməndin yazdığı kimi, «o, tədricən hakimiyyətin hər üç qanadında – hökumətdə, partiyada və orduda hər şeyi əlinə aldı» [121]. Onun növbəti «vəzifəsi» «Pərçəm»in digər rəhbərlərini və tərəfdarlarını hakimiyyət orqanlarından təmizləmək idi. «Pərçəm»çilərin uğursuz çevriliş planı bu işdə ona yaxşı fürsət verdi.

1978-ci ilin avqustunda «xalqa və vətənə xəyanət etmiş bir qrupun» çevriliş planının dövlət tərəfindən ifşa olunması barədə məlumat yayıldı. Elə həmin gün sentyabrın 4-nə – Ramazan bayramı gününə nəzərdə tutulmuş çevrilişin əsas icraçısı – müdafiə naziri general Əbdülqadir və daha bir neçə yüksək rütbəli hərbçi həbs edildi. Araşdırma nəticəsində daha iki nazirin – planlaşdırma naziri Sultan Əli Keştməndin və ictimai işlər naziri Məhəmməd Rəfinin çevrilişdə iştirakı müəyyən olundu və onlar da həbsə atıldı. Lakin hələ Bəbrək Karməlin çevrilişlə əlaqəsi barədə bir söz deyilmirdi.

Yalnız noyabrın 28-də – ƏXDP MK-nın plenumunda Bəbrək Karməlin və xaricdə olan digər «Pərçəm» rəhbərlərinin çevrilişlə birbaşa əlaqəsi Tərəkinin dilindən bəyan edildi. Bu bəyanat həbs edilmiş çevrilişçilərin etiraflarına əsaslanırdı. Onlar bildirmişdilər ki, çevriliş ərəfəsində Karməl birbaşa, yaxud İran və ya Pakistan ərazisindən keçməklə ölkəyə gəlməli və çevrilişə bilavasitə rəhbərlik etməli idi.

Plenum ərəfəsində Karməl və silahdaşları səfir vəzifəsindən

azad olunmuşdular və onlardan ölkəyə qayıtmaq tələb edilmişdi. Lakin vətəndə onları nə gözlədiyini yaxşı bilən «Pərçəm» liderləri xaricdə qalmağı üstün tutdular.

Daxildə isə kütləvi həbslərə start verilmişdi. Çevrilişdə iştirakda şübhəli bilinərək təkcə Kabuldakı məşhur «Poli-Çərxi» zindanına salınanların sayı 3000 nəfərdən artıq idi və Karməl hakimiyyətə gələndə onların heç yarısı da sağ deyildi. Çevrilişin hazırlanmasında əsas fiqurlar kimi qiymətləndirilən general Əbdülqadir və S.Ə.Keştmənd barəsində edam hökmü çıxarıldı. M.Rəfi isə 20 illik həbsə məhkum edildi. Lakin sovet tərəfinin işə qarışması və təzyiqləri nəticəsində adı çəkilən şəxslər barədə edam hökmü dəyişdirildi, Rəfinin həbs müddəti isə azaldıldı – onlar hələ sovetlərə lazım olacaqdılar!

ƏXDP rəhbərliyinin başı daxili çəkişmə və didişmələrə elə qarışmışdı ki, silahlı müxalifətin təşkilatlanması və ilk çıxışlarını, eləcə də onlara aybaay güclənən xarici dəstəyi sanki görmürdü. Məsələn, 1979-cu ilin mart ayında ölkənin ən iri şəhərlərindən biri olan Heratda qiyam baş verərkən, Əmin «Pərçəm»çilərin növbəti çevriliş planının qarşısını almaqla, yeni kütləvi həbslər və təmizləmələr həyata keçirməklə məşğul idi. Bir zamanlar ƏXDP-ni hakimiyyətə gətirmiş hərbçilər indi dəstə-dəstə zindana salınır, yaxud ordudan uzaqlaşdırılırdı. Hakimiyyət hərisliyi «xalqçı» rəhbərlərin gözünü elə tutmuşdu ki, onlar ilk dövrlərdən fərqli olaraq xalqın dini hisslərinə hörmət naminə öz çıxışlarına «Bismillah»la başlamağı belə yaddan çıxarmışdılar.

1979-cu ilin aprelində – inqilabın birinci ildönümü ərəfəsində artıq «Pərçəm»çilərin siyasi məhvi, demək olar, başa çatmışdı. İndi Əminin hakimiyyət uğrunda mübarizəsinin daha dramatik mərhələsi – «Xəlq»çilərarası mübarizə başlayırdı. Həmin ərəfədə Əmin «birinci nazir» – «lumrəy vəzir» (faktiki baş nazir) olmuş, hərbi və təhlükəsizlik strukturları üzərində tam nəzarətə yiyələnmişdi. O, durmadan hakimiyyət orqanlarına öz qohumla-

rını və yaxın adamlarını yerləşdirir və bir növ həlledici məqama hazırlaşırdı.

Ölkə isə addım-addım xaosa, dərəbəyliyə və vətəndaş müharibəsinə sürüklənirdi. Kabuldakı kürsülər uğrunda çarpışan hakimiyyət qruplaşmaları tədricən kəndlərə, şəhərlərə, əyalətlərə nəzarəti itirirdi. Həmin dövrdə ƏXDP hakimiyyəti tarixində elə bir misilsiz hadisə baş verdi ki, onun hətta paytaxta nəzarət etdiyini də sual altına aldı: ABŞ-ın Əfqanıstandakı səfiri, necə deyərlər, günün günorta çağı, Kabulda girov götürüldü və sonra da öldürüldü.

Hadisə belə olmuşdu: 1979-cu il fevralın 14-də ABŞ-ın Əfqanıstandakı səfiri Adolf Dabs yaşadığı evdən səfirliyin binasına yollanarkən, dörd nəfər silahlı şəxs tərəfindən (onlardan biri polis geyimində idi) girov götürüldü və şəhərin mərkəzindəki «Kabul» mehmanxanasına aparıldı. Tezliklə onların sol təmayüllü Əfqanıstan Zəhmətkeşlərinin Fədailəri Təşkilatının (SƏFZA – Sazmane-fədaiyane-zəhmətkeşane-Əfğanestan) üzvləri olduğu bildirildi. Silahlılar ABŞ səfirinin sərbəst buraxılması müqabilində SƏFZA-nın «Poli-Çərxi» zindanında saxlanan lideri Bəhrəddin Baisin azad olunmasını tələb edirdilər.

Təhlükəsizlik qüvvələri dərhal oteli mühasirəyə aldılar və heç kimə, o cümlədən, ABŞ səfirliyinin nümayəndələrinə terrorçularla təmasa girmək imkanı vermədilər. Bir qədər sonra hökumət qüvvələrinə əməliyyata başlamaq əmri verildi və atışma zamanı terrorçularla birgə ABŞ səfiri də qətlə yetirildi.

Bu hadisə ilə bağlı Misbahzadənin mülahizələri maraq doğurur: «ABŞ səfirini oğurlayanların kimliyi və onların bu işdə məqsədi indiyə qədər qəti şəkildə aydınlaşmasa və mübhəmlik haləsinə bürünsə də, bir şey şübhəsizdir ki, ABŞ səfiri Təraki rejiminin təhlükəsizlik məmurları tərəfindən öldürülmüşdür. Ehtimal etmək olar ki, bu hadisə Kabul hökuməti tərəfindən rusların razılığı ilə təşkil edilmişdir; çünki rejimə müxalif qüvvələr belə bir

addım atmaq istəsəydilər, gərək Təraki rejiminə təsir etmək imkanı olan SSRİ-nin, yaxud SSRİ-yə yaxın bir ölkənin səfirini girov götürəydilər. Digər tərəfdən, Təraki rejiminin və rusların Adolf Dabsın qətlinə laqeyd və soyuqqanlı münasibəti, ABŞ səfirliyi işlər vəkilinin məsələnin həllində iştirakına imkan verilməməsi, eləcə də Təraki hökumətinin Amerikadan rəsmən üzr istəməməsi kimi faktlar rusların və onların əlaltılarının ABŞ səfirinin öldürülməsində əli olduğuna və ya onlar tərəfindən dəstəkləndiyinə dəlalət edir» [115, 243].

İstənilən halda, bu hadisə həm ölkə daxilində, həm də beynəlxalq aləmdə ƏXDP hakimiyyətinin nüfuzuna güclü zərbə vurdu, o cümlədən, narazı qüvvələrin daha da cəsarətlənməsinə səbəb oldu. Nəticə olaraq, müxtəlif əyalətlərdə hökumət əleyhinə silsilə qiyamlar baş verdi:

- 1979-cu il martın 12-də Səməngan vilayətindəki Dərəyi-Suf bölgəsinin əhalisi ayağa qalxaraq, hökumət orqanlarına hücum etdi;
- Martın 15-də ölkənin ən iri şəhərlərindən biri olan Heratda Təraki hökumətini lərzəyə salan, hərbi hissənin ələ keçirilməsi, onlarla zabitin, həmçinin sovet müşavirlərinin ölümü ilə nəticələnən qiyam baş verdi;
- Aprelin 21-də Nəngərhar diviziyasının şəxsi heyəti Kabul hökumətinə qarşı çıxdı;
- Mayın 9-da Logər vilayətində əhalinin hökumət əleyhinə çıxışları başlandı;
- İyunun 23-də paytaxt Kabulda mülki əhali, avqustun 15-də isə hərbçilər qiyam qaldırdı;
- Avqustun 22-də Əfqanıstan ordusunun ən yaxşı birləşmələrindən biri sayılan Əsmar dağ-piyada polku hökumətə qarşı çıxdı və bütün silah-sursatı ilə birgə mücahidlərin tərəfinə keçdi [111, 54-55].

Bütün bunlar ƏXDP hakimiyyətinin onsuz da zəif olan sosial

dayaqlarının itirilməsi prosesindən xəbər verirdi. Xüsusən hərbi qulluqçuların – istər fərdlər, istər qruplar, istərsə də bütöv birləşmələr şəklində – düşmən cəbhəyə keçməsi hakimiyyət üçün çox təhlükəli bir tendensiya idi.

Qeyd etmək lazımdır ki, həmin tendensiya sonralar – sovet qoşunları Əfqanıstana girdikdən və Bəbrək Karməl hakimiyyətə gəldikdən sonra da davam edərək, daimi bir prosesə çevrilmişdi. Hərbi qulluqçuların silahını da götürərək, xidmət etdiyi hissəni tərk etməsi və mücahidlərə qoşulması adi bir hal olmuşdu. Xüsusən hərbi əməliyyatlar zamanı əfqanlar əlverişli şəraitdən istifadə edib hökumət ordusunun sıralarından uzaqlaşırdılar. Şəxsi müşahidələrimizə əsasən deyə bilərik ki, bir çox hallarda əfqan gəncləri məhz silah əldə etmək üçün orduya gəlir və fürsət düşən kimi, artıq müəyyən təlim görmüş və silahlanmış halda mücahidlərin tərəfinə keçirdilər. Digər tərəfdən, orduda müəyyən səlahiyyət sahibi olan və mücahidlərlə əlaqəli şəxslərin gizli silah-sursat ötürmələrini qeyd etmək lazımdır. Dəqiq uçotun aparılmadığı və hərbi təchizatın «silinməsi» üçün çoxsaylı variantların olduğu şəraitdə bu hal kifayət qədər geniş yayılmışdı.

Odur ki, ölkədəki hərbi müxalifəti lazımi silah-sursatla təkcə xarici havadarları deyil, nə qədər paradoksal görünsə də, həm də Əfqanıstan ordusunun özü təmin edirdi!

Hərbi müxalifətin tam formalaşması üçün insan resursları və maddi-texniki təchizatla yanaşı, zəruri olan ideoloji təminatı ƏXDP hakimiyyətinin yanlış addımları və siyasəti nəticəsində fəallaşmış, əhalinin geniş təbəqələrinə təsirini gücləndirmiş islamçı təşkilatlar öz üzərinə götürdü. Din xadimlərinə özünün ideoloji düşməni, feodal və istismarçı təbəqənin müttəfiqi kimi baxan, onları «İxvan əş-şəyatin» («Şeytanların qardaşları») adlandıran ƏXDP rəhbərləri nüfuzlu ruhanilərə qarşı qanlı repressiyalardan çəkinmirdilər. Bunun ən bariz nümunəsi 1979-cu ilin yanvarında ölkədə böyük nüfuza malik olan Mücəddidi ru-

hani nəslindən 79 nəfərin öldürülməsi oldu [124, 115]. Az sonra – mayın 29-da hələ Davud xanın dövründən «Poli-Çərxi» zindanında saxlanan Əfqanıstan İslam Hərəkatının rəhbəri Qulam Məhəmməd Niyazi bir qrup tərəfdarı ilə birlikdə edam edildi [111, 55].

Bütün bunların nəticəsi olaraq, bir sıra əyalətlərdə nisbətən loyal mövqedə olan, yaxud narazılığını gizli saxlayan din xadimləri hökumət əleyhinə açıq təbliğata, hətta əhalinin etiraz çıxışlarına rəhbərlik etməyə başladılar. Bu prosesdə ən mühüm həlqə 1979-cu il martın 13-də Pakistanın Pişavər şəhərində Əfqanıstanın bir qrup din aliminin, o cümlədən, nəslinə divan tutulmuş Sibğətulla Mücəddidinin Kabul hökumətinə qarşı cihad fətvası verməsi oldu. Həmin akt ƏXDP hakimiyyətinə qarşı çoxillik mübarizənin ən ciddi, dönüş nöqtəsi sayıla biləcək məqamı oldu. Belə ki, Kabul hökumətinə qarşı mübarizə küfr və ilhadla müharibə xarakteri aldı, bu mübarizənin iştirakçıları isə Allah yolunda vuruşan mücahidlərə çevrildilər.

Təsadüfi deyildi ki, islamçı təşkilatların təbliğat vərəqələrində ən çox Quranın aşağıdakı iki ayəsindən istifadə olunurdu: «Allah yolunda öldürülənlərə (şəhid olanlara) «ölü» deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz» («Bəqərə» surəsi, 154-cü ayə); «Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur» («Ali-İmran» surəsi, 169-cu ayə).

ƏXDP hakimiyyətinə qarşı silahlı mübarizədə cihad və şəhidlik diskursundan istifadə mücahidlərin qat-qat yaxşı təchiz olunmuş hökumət qoşunlarını, sonralar isə həm də sovet hərbçilərini sözün həqiqi mənasında dəhşətə salan igidlik və şücaətlərinə təkan verdi, onların bütün savaş illəri ərzində mənəvi-psixoloji üstünlüyünü təmin etdi.

Ən qəribəsi olur ki, bütün bu proseslər fonunda ƏXDP rəh-

bərləri daxili çəkişmələrdən əl çəkmir, əksinə, əsas qüvvəni məhz buna sərf edirdilər. Bu işdə aparıcı fiqur olan Əmin 1979-cu ilin avqustunda artıq partiya və hökumətdə, eləcə də orduda əsas söz sahibinə çevrilə bilmişdi. Kifayət qədər mahir natiq olan Əmin təkcə daxili intriqalarla və mövqe mübarizələri ilə kifayətlənmir, həm də cəmiyyətlə, ictimai fikirlə işləməyə diqqət ayırır və ustalıqla ölkədəki problemlərin məsuliyyətini Tərəkinin üzərinə atırdı. Yalnız 1979-cu ilin iyul-avqust aylarında o, azı 20 dəfə kütlə qarşısında çıxışlar etmişdi [87, 119].

1979-cu il sentyabrın birinci yarısında Əfqanıstan hakimiyyətində baş verənlər kəskin süjetli siyasi detektiv filmin mövzusu ola bilər. Həmin ərəfədə Əmin bir sıra qohumlarını mühüm vəzifələrə (o cümlədən, yeznəsi Məhəmməd Yaqubu ƏDR Silahlı Qüvvələrinin Baş Qərargah rəisi vəzifəsinə) təyin etdirməklə yanaşı, Tərəkinin yaxın ətrafındakı bəzi adamları ələ almışdı. Başqa sözlə, həmin adamlar Əminə «işləyirdilər». Bunlar Tərəkinin baş yavəri (köməkçisi) Davud Tərun, Əminin əleyhdarı olan təhlükəsizlik xidməti rəisi Əsədulla Sərvərinin bacısı oğlu və həmin orqanda daxili əks-kəşfiyyat idarəsinin rəisi Əziz Əhməd Əkbəri, eləcə də xarici işlər naziri Əkbər Şahvəli idi.

Əks tərəfdə isə Əminin qarşısında güclü bir «dördlük» - keçmiş  müdafiə, indiki daxili işlər naziri Əsləm Vətəncar, adı çəkilmiş Təhlükəsizlik Xidməti (ƏQSA) rəisi Əsədulla Sərvəri, rabitə naziri Seyid Məhəmməd Gülabzoy və keçmiş daxili işlər, indiki sərhəd və tayfalar naziri Şircan Muzduryar dayanırdı. Avqustun sonlarında iki qruplaşma arasında ziddiyyət kulminasiya həddinə çatmışdı və hər bir tərəf digərini məhv etmək üçün planlar qurur, məqam gözləyirdi. Üstəlik hər iki tərəf bir-birinin planlarından xəbərdar idi. Əmin usta bir oyunçu olaraq, qarşı tərəfin gözlədiyi həlledici zərbəni uzadır, rəqib qruplaşmanın hərəkətə keçməsini gözləyir, hətta  təhrik də edirdi. İş o yerə çatmışdı ki, «dördlük» üzvləri gecələr öz evlərində yatmırdılar.

Sentyabrın 1-də Tərəki bloklara qoşulmayan ölkələrin dövlət və hökumət başçılarının VI konfransında iştirak etmək üçün Moskvadan keçməklə Havanaya yollandı. "Dördlük" üzvləri onu səfər fikrindən daşındırmağa çalışsalar da, xeyri olmadı. Hətta Tərəki Havanada olarkən, Ə.Sərvəri təlaş içində ona zəng edib Əminin onları həbs, yaxud məhv etmək istədiyini bildirmişdi. Lakin Əmin vaxtı yetişməmiş belə bir addım atmadı. Sentyabrın 10-da konfransdan geri qayıdan Tərəki 6 saatlığa Moskvada dayandı və burada L.İ.Brejnev, A.A.Qromıko və... Bəbrək Karməllə görüşdü. Görüşlərdə ölkədəki vəziyyət, hakimiyyətdaxili situasiya təhlil və müzakirə olundu. Qərara alındı ki, Əmin hakimiyyətdən uzaqlaşdırılıb hansısa ölkəyə səfir göndərilməli, daha sonra Karməl və onun başçılıq etdiyi «Pərçəm» fraksiyası siyasi həyata qayıtmalı və partiyanın əvvəlki birliyi bərpa olunmalıdır. B.Karməlin baş nazir olması planlaşdırılırdı.

Tərəkini Havana səfərində və Moskvadakı görüşlərdə müşayiət edən şəxslər içərisində Əminin yuxarıda qeyd olunan 3 adamı da vardı və təbii ki, o, dərhal bu razılaşmalardan xəbər tutdu. Görünür, bunu bilən Tərəki məsələni uzatmamaq üçün Ə.Sərvəriyə Əmini öldürmək əmri verdi. Əmin Tərəkini qarşılamaq üçün aeroporta yollandığı zaman pusquda durmuş silahlılar tərəfindən qətlə yetirilməli idi. Lakin Əmin yeznəsi Yaqubun köməyi ilə bu planı pozdu, üstəlik Tərəkinin təyyarəsini bir saat Kabul səmasında gözlətdi. Nəhayət, eniş icazəsi alan təyyarəsindən enərkən, Tərəki Əmini qarşısında görüb çaşqın halda: «Siz də burdasınız?» – deyə soruşdu. Əmin: «Bəli, yoldaş Tərəki, mən də burdayam» – deyib heç nə olmamış kimi ehtiramla onunla görüşdü [121].

Bu hadisədən sonra Tərəki-Əmin münasibətləri açıq şəkildə «kim-kimi» mərhələsinə daxil oldu. Öz gücünə arxayın olan Əmin faktiki olaraq, Tərəkini saymamağa, onun tələb və göstərişlərini yerinə yetirməkdən boyun qaçırmağa və onunla kobud

tərzdə danışmağa başladı. Prosesin qorxulu istiqamətə getdiyini görən Kabuldakı sovet nümayəndələri Moskvanın göstərişinə uyğun olaraq, tərəfləri barışdırmağa cəhd göstərdilər. Sentyabrın 13-də SSRİ-nin ƏDR-dəki səfiri A.M.Puzanov yüksək rütbəli sovet hərbçilərinin müşayiəti ilə Tərəkinin iqamətgahına gəlib partiyanın birliyini saxlamağın və inqilabın nailiyyətlərini qorumağın vacibliyi barədə L.İ.Brejnevin sözlərini çatdırdı. Həm Tərəki, həm də Əmin bu fikirlə razılaşdıqlarını bildirsələr də, ertəsi gün hadisələr tam fərqli istiqamətdə cərəyan etdi.

Sentyabrın 14-də axşama doğru Tərəki artıq Müdafiə Nazirliyində əyləşən Əminə zəng edib öz iqamətgahına – sovet nümayəndələri ilə növbəti görüşə çağırdı. Əmin yalnız öz mühafizəsi ilə gələ biləcəyini bildirdi. Tərəki qısa çək-çevirdən sonra razılaşmalı oldu. Tərunun vasitəsilə Tərəkinin iqamətgahında baş verənlərdən dəqiq məlumatı alan Əmin 6 mühafizəçi ilə ora yollandı. Tərun onu qarşıladı və onlar üç mühafizəçini aşağıda qoyub iqamətgaha girdilər. İkinci mərtəbəyə qalxanda Tərəkinin yüngül pulemyotla silahlanmış yavərləri atəş açmağa başladılar. Tərun oradaca öldürüldü. Əmin isə pilləkənlə sürünərək özünü atəş altında olan maşınına çatdırdı və oradan yüksək sürətlə Müdafiə Nazirliyinə gəldi.

Tərəkinin uğursuz sui-qəsd cəhdi Əminə qəti və son hərəkətə keçmək fürsəti verdi. Onun əmrinə əsasən, Tərəki iqamətgahının rabitəsi kəsildi və «kommandos» iqamətgahı mühasirəyə alıb qvardiyanı tərksilah etdi. Tərəki iqamətgahın kiçik bir otağında həbs edildi, onun tərəfdarlarına qarşı sürətli və kütləvi repressiya başladı. Axşam saat 8-də Kabul radiosu Tərəkinin, eləcə də «dördlük» üzvlərinin vəzifədən getdiyi barədə məlumat yaydı.

Sonrakı iki gündə ƏXDP MK-nın və İnqilab Şurasının iclasları keçirildi. Tərəki «səhhəti ilə əlaqədar» vəzifələrindən azad edildi, Əmin ƏXDP MK-nın baş katibi, İnqilab Şurasının sədri və baş nazir oldu. Beləliklə, Əfqanıstanda Həfizulla Əminin 100

günlük hakimiyyəti başladı.

Sentyabrın 17-də Əmin Kabul televiziyası və radiosu ilə yarım saatlıq çıxış edərək, ölkədəki vəziyyətlə bağlı xalqa məlumat verdi. Çıxışında Tərəkinin adını bir dəfə də çəkmədən, «şəxsiyyətə pərəstiş»in ölkəyə vurduğu ziyandan (deyildiyi kimi, bu pərəstişin yaradılmasında əsas rolu o özü oynamışdı!), ƏQSA-nın törətdiyi cinayət və özbaşınalıqlardan danışdı, bu qurumun ləğv edilərək, əvəzində KAM («Kargəri Estexbarati Moəssisə» – «Fəhlə Kəşfiyyatı Təşkilatı») yaradıldığını elan etdi. Yuxarıda adı keçən Əziz Əkbəri KAM-ın rəisi təyin olundu. Lakin bir müddət sonra o, həmin vəzifədən azad edilib İraqa səfir göndərildi, yerinə isə Əminin qardaşı oğlu Əsədulla Əmin təyin edildi.

«Təhlükəsizlik, ədalət, qanunçuluq!» şüarını irəli sürən Əmin sovet-əfqan dostluğuna sadiqliyini bəyan etsə də, SSRİ ilə münasibətlər o qədər də sadə deyildi. Tərəkinin təşkil etdiyi sui-qəsddə sovet səfirinin iştirakı (həmin vaxt sovet səfiri Puzanov həqiqətən də, Tərəkinin iqamətgahında idi), eləcə də səfirlikdə onun rəqiblərinə («dördlük» üzvlərindən üçünə) sığınacaq verilməsi Əmini Moskvaya ehtiyatla yanaşmağa vadar edirdi. Moskva da Brejnevin rəğbət bəslədiyi Tərəkinin devrilməsindən məmnun deyildi. Təsadüfi deyil ki, sovet rəhbərliyi yalnız 3 gün keçəndən sonra Əmini hakimiyyətə gəlməsi münasibəti ilə təbrik etmişdi. Bir müddət sonra Əmin Moskvadan Kabuldakı sovet səfirinin və baş hərbi müşavir general L.N.Qorelovun dəyişdirilməsini tələb etdi. Noyabr ayında bu istək yerinə yetirildi və F.A.Tabeyev SSRİ-nin Əfqanıstandakı yeni səfiri oldu.

Ötən dövrdə baş verənlərin məsuliyyətini öz üzərindən atmağa səy göstərən Əmin Tərəkinin rəhbərliyi dövründə edam olunan 12 min nəfərin siyahısını açıqladı, eyni zamanda bir çox məhbusları azad etdi. Lakin yeni yaradılmış KAM-ın əli ilə repressiyaların növbəti dalğası başlandı və qısa müddətdə 8 min adam zindanlara salındı [87, 138]. Bu şəxslərin böyük əksəriyyə-

tini Tərəki tərəfdarları və «Pərçəm» üzvləri təşkil edirdi.

Oktyabrın 6-da sovet tərəfinin təkidli xahişləri nəticəsində Keştmənd və Əbdülqadirin ölüm cəzası uzunmüddətli həbslə əvəzləndi. Lakin qəribədir ki, sovet tərəfi Tərəkinin xilas edilməsi istiqamətində heç bir təşəbbüs göstərmədi. Oktyabrın 10-da səhər Kabul radiosu ilə Tərəkinin «ciddi xəstəlik nəticəsində» dünyasını dəyişdiyi barədə məlumat verildi. Yalnız sonralar Tərəkinin oktyabr ayının 8-də gecə yarısı Əminin göstərişinə əsasən prezident qvardiyasının iki zabiti tərəfindən balışla boğulub öldürüldüyü aydın oldu [87, 138-139].

Əminin avtoritar rejim qurmaq istiqamətində atdığı addımlar Əfqanıstan cəmiyyətindəki narazılığın genişlənməsinə, yeni etiraz çıxışlarının baş verməsinə səbəb oldu. Orduda əvvəlki dövrdə başlamış qiyamlar davam etməkdə idi. Əminin hakimiyyətə gəlişindən az sonra – oktyabrın 14-də Kabulun cənub-qərbində yerləşən 7-ci piyada diviziyasında qiyam baş verdi. Yalnız 3 gündən sonra qiyamı qanla yatırmaq mümkün oldu. Diviziyanın dislokasiyası dəyişdirildi. Kütləvi həbs və edamlar həyata keçirildi. Lakin prosesin qarşısını almaq mümkün deyildi. Orduda fərarilik görünməmiş miqyas almışdı. «Aprel inqilabı»ndan bəri ordunun şəxsi heyətinin sayı 2 dəfədən də çox azalmış, 40-50 min nəfərə enmişdi. Həmin dövrdə (1979-cu ilin sonunda) sovet kəşfiyyatının məlumatına əsasən, mücahidlərin də sayı 40 min nəfərə çatırdı. Kabul hökuməti kənd yerlərinin böyük bir hissəsinə nəzarəti itirmişdi.

Paralel olaraq, dinc əhalinin qonşu ölkələrə – Pakistan və İrana kütləvi axını baş verdi. Əmin hakimiyyətinin sonuna doğru Pakistanda əfqan qaçqınlarının sayı 400 min nəfərə, İranda isə 200 min nəfərə çatırdı [87, 43]. Bunlar həm də mücahidlərin öz sıralarına yeni qüvvələr cəlb etməsi üçün əlverişli sosial baza idi. Artıq Pakistanda mücahidlərə qoşulmaq istəyənlər üçün 35 təlim düşərgəsi fəaliyyət göstərirdi.

Belə bir şəraitdə SSRİ rəhbərliyi «Pərçəm»i yenidən Əfqanıstan siyasi səhnəsinə qaytarmaq planı üzərində işləməyə başladı. Oktyabrın sonlarında B.Karməlin mühacirətdə olduğu Praqada «Pərçəm» rəhbərliyinin görüşü keçirildi. Burada Əminə qarşı müqavimətin təşkili və onun hakimiyyətdən uzaqlaşdırılması üzrə fəaliyyət planı hazırlandı. Təqribən eyni vaxtda Moskvada A.A.Qromıkonun sədrliyi ilə Sov.İKP MK Siyasi Bürosunun Əfqanıstana dair iclası keçirildi. İclasdan üç gün sonra SSRİ DTK-nın sədri Y.V.Andropov Karməli Moskvaya çağırdı.

Göründüyü kimi, Əminin hakimiyyətə gəlişindən az sonra sovet rəhbərliyi onunla işləməyin mümkün olmadığı qənaətinə gəlmişdi. Buna görə də Əfqanıstan rəhbərliyinin, o cümlədən, şəxsən Əminin sovet qoşunlarının Əfqanıstana yeridilməsi barədə çoxsaylı müraciətlərinə münasibətdəki imtina və tərəddüdlərini kənara qoyub birbaşa hərbi müdaxiləyə və Karməlin hakimiyyətə gətirilməsinə hazırlaşırdı.

Qeyd etmək lazımdır ki, Əfqanıstana «məhdud kontingentin» yeridilməsi haqqında qərar təkcə Əminin siyasi və hərbi qüvvələr arasında parçalanmanı dərinləşdirən idarəçiliyi, ölkədə, xüsusən əyalətlərdə vəziyyətin nəzarətdən çıxması və mücahidlərin mövqelərinin günbəgün güclənməsi ilə əlaqədar deyildi. Bu addımın atılmasında, çox vaxt vurğulanmasa da, Əminin xarici siyasət xətti də önəmli təsirə malik olmuşdu.

Məsələ burasındadır ki, Əmin öz hakimiyyəti və bütövlükdə ölkəsi üçün yaxınlaşan daha böyük fəlakətin fərqində idi və birtərəfli xarici siyasətin acı nəticələrini yaxşı görürdü. Düşdüyü seytnot vəziyyətində o, pozulmuş balansı düzəltmək üçün müəyyən addımlar atmağa çalışırdı. Bunun üçün ilk növbədə, ABŞ və Pakistanla münasibətlərdə dəyişikliyə nail olmaq lazım idi. Əminin məhz bu yöndə fəaliyyət göstərdiyinə dair çoxsaylı faktlar vardır. Məsələn, M.İ.Əndişmənd yazır: «Həfizulla Əmin Moskvanın qəzəb və intiqamından qurtarmaq üçün başqa yolla-

ra da əl atdı. O, ABŞ və Pakistanla təmasa girdi. Pakistan hərbi hökumətinin rəhbəri general Ziyaül-Həqdən xahiş etdi ki, xarici işlər nazirini Kabula göndərsin. «Xəlq» fraksiyasının yüksək rütbəli üzvlərindən biri olan S.M.Gülabzoyun iddiasına görə, Əmin Əfqanıstan İslam Partiyasının rəhbəri Gülbəddin Hikmətyarla əlaqəyə girib ona hakimiyyəti bölüşdürməyi təklif etmişdi. Bu işləri həyata keçirmək üçün Əminin uzun zamana ehtiyacı vardı və Moskva onun belə bir zamana malik olmasına imkan verməzdi» [127, 81].

Başqa bir əfqan müəllifi yazır: «Əmin artıq sovetlərə etimadını itirmişdi və Pakistan və ABŞ-la anlaşmaq, mücahidlərlə sülhə nail olmaq niyyətində idi… O, Brejnevin razılığı olmadan bir neçə dəfə Kabuldakı ABŞ səfirliyinin attaşesi ilə görüşmüşdü. Həqiqətən də, Əmin ABŞ və Pakistanla münasibətləri yaxşılaşdırmaq üçün addımlar atmağa çalışırdı. Dekabr ayının (1979-cu il – M.M.) birinci yarısında o, televiziya ilə çıxışında Pakistanla sərhəd ixtilaflarını aradan qaldırmağa hazır olduğunu bəyan etmişdi, qarşılıqlı olaraq, Pakistan dövləti də Əfqanıstan hökuməti ilə müzakirəyə hazır olduğunu bildirmişdi. General Ziyaül-Həqq bir hind jurnalistinə verdiyi müsahibədə demişdi ki, dekabrın ortalarında Əminin səmimi məktubunu almışdır və xarici işlər naziri Ağaşahini müzakirə aparmaq üçün Kabula göndərəcəkdir» [124, 150].

Həqiqətən də, dekabrın 22-də Ağaşahi Kabula yollanmağa hazırlaşırdı, lakin güclü qar yağması nəticəsində Kabul aeroportuna enmək mümkün olmadığı üçün səfər təxirə salındı və onun dekabrın 30-da baş tutacağı elan edildi, lakin dekabrın 27-də sovet qoşunlarının müdaxiləsi ilə Əfqanıstanda baş verən hakimiyyət dəyişikliyi buna imkan vermədi.

Bütün bunlar SSRİ rəhbərliyinin Əmini devirmək üçün niyə hərəkətə keçdiyinin daha bir səbəbi üzərinə işıq salır. Məsələ burasındadır ki, sovet (rus) və bir çox əfqan müəlliflərinin əsərlərin-

də bu məqamın üzərindən sükutla keçilir və Əminin büsbütün mənfi obrazı oxuculara təqdim olunur. Bu mənfi obrazın yaradılmasında onun barəsində əfqan siyasətçiləri və tədqiqatçıları arasında geniş yayılmış MKİ (CIA) agenti damğasından gen-bol istifadə olunur. Məsələn, əfqan müəlliflərindən biri onu «MKİ-nin ƏXDP-də yatmış əjdahası» kimi təqdim edir [133].

Maraqlıdır ki, Bəbrək Karməl də hakimiyyətə gəlişindən üç gün sonra keçirdiyi mətbuat konfransında Əmindən dəfələrlə «MKİ agenti», «Amerika imperializminin casusu» kimi danışmışdır. Bununla bağlı ABC kanalı müxbirinin nəyə əsasən belə söylədiyinə dair sualının cavabında Karməl tezliklə bütün sənədlərin mətbuatda dərc olunacağını bildirsə də, nə onda, nə sonralar belə bir sənəd ortaya çıxmadı. Bu baxımdan 1985-1989-cu illərdə SSRİ Müdafiə Nazirliyinin Əfqanıstandakı operativ qrupunun rəhbəri olmuş general V.İ.Varennikovun yanaşması əsl mətləbi vurğulamaq baxımından diqqəti çəkir: «Bizdə belə təsəvvür vardı ki, Əminin MKİ ilə əlaqəsi var. Bu, əsassız təsəvvür deyildi. Bəziləri Əminin əleyhinə ona görə çıxırdı ki, o, ABŞ-da təhsil alıb. Amma bu məsələ mühüm deyildi. Əsas məsələ Əminin fəaliyyəti və onun gördüyü işlərin nəticəsi idi. O, öz oyununa başlamışdı və ABŞ hökumətinin nümayəndələri ilə müntəzəm şəkildə görüşürdü» [135].

Bəli, sovet rəhbərliyi məhz Əminin «gördüyü işlərin nəticəsi»nin nə olacağını yaxşı bildiyi üçün ləngimədən tədbir görmək qərarına gəldi. Yəni söhbət sadəcə bir «agentin» aradan götürülməsindən deyil, SSRİ-nin maraqlarını təhlükə altına qoyan «oyunun» dayandırılmasından gedirdi.

# 3335 günlük işğal və müqavimət

Sovet İttifaqının Əfqanıstana hərbi müdaxiləsinin hüquqi əsası, yuxarıda deyildiyi kimi, düz bir il əvvəl – 1978-ci ilin dekabrında hazırlanmışdı. Həmin vaxt iki ölkə arasında imzalanmış müqavilə SSRİ-nin Əfqanıstan hökumətinə birbaşa hərbi dəstəyinə bir növ zəmin yaradırdı. Müqavilənin 4-cü maddəsində deyilirdi: "Razılığa gələn Ali Tərəflər dostluq və mehriban qonşuluq ənənələrinə, eləcə də BMT Nizamnaməsinə uyğun hərəkət edərək məsləhətləşəcək və hər iki tərəfin razılığı əsasında hər iki ölkənin təhlükəsizliyini, müstəqilliyini və ərazi bütövlüyünü təmin etmək məqsədilə müvafiq tədbirlər görəcəklər. Onlar razılığa gələn Ali Tərəflərin müdafiə qabiliyyətini möhkəmləndirmək naminə öz aralarında bağladıqları sazişlər əsasında hərbi sahədə əməkdaşlığı inkişaf etdirməyə davam edəcəklər" [8].

Qeyd edək ki, Əfqanıstana sovet qoşunlarının yeridilməsindən sonra yayılan rəsmi məlumatda da bu müqaviləyə, eləcə də BMT Nizamnaməsinin müvafiq müddəalarına, o cümlədən, onun 51-ci maddəsinə istinad olunmuş və məhdud hərbi kontingentin Əfqanıstana, "sırf xarici təcavüzün dəf olunmasında yardım göstərmək vəzifələrini yerinə yetirmək üçün göndərildiyi" vurğulanmışdı [70, 417].

Lakin sovet rəhbərliyi uzun müddət hərbi müdaxilə variantına əl atmaqdan yayınmış, ƏDR rəhbərliyinin çoxsaylı müra-

ciətlərinə rəğmən (ümumən 1979-cu ilin mart-dekabr aylarında 20-dən çox belə müraciət olmuş və onların 7-si bilavasitə Əminin hakimiyyəti dövründə baş vermişdir), bu ölkəyə geniş hərbi kontingent göndərməkdən hər vəchlə imtina etmişdir. Başqa sözlə, «yenidənqurma» dövründə və sonrakı illərdə çox zaman iddia olunduğu kimi bu heç də sovet rəhbərliyinin düşünülməmiş siyasi-hərbi avantürası olmamışdır: Siyasi Büro başqa heç bir variant qalmadığı təqdirdə açıq hərbi müdaxiləyə qərar vermiş və Əfqanıstan uğrunda geosiyasi mübarizədə qəti addım atmağı lazım bilmişdir. Bu qərarın necə qəbul olunduğunu, hansı tərəddüdlər, təhlillər və müzakirələrlə müşayiət edildiyini hazırda əldə olan məxfi sənədlər aydın şəkildə göstərməkdədir.

Həmin sənədlərdən aydın olur ki, Sovet rəhbərliyi 1979-cu ilin martından Əfqanıstandakı vəziyyətlə bağlı ciddi narahatlıq keçirsə də, qonşu ölkədə baş verən prosesləri diqqətlə izləsə də, ora qoşun yeridilməsi fikrini qətiyyətlə yaxına buraxmamışdır. SSRİ-nin ali rəhbərliyinə daxil olan şəxslərdə (yaxud onların ən azı bir qismində) bu aksiyanın mümkün fəlakətli nəticələri barədə aydın təsəvvür olmuşdur. Məsələn, 1979-cu il martın 20-də Siyasi Büronun dörd üzvünün Əfqanıstan rəhbəri N.M.Təraki ilə görüşündə SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıgin demişdi: "Bizim qoşunların Əfqanıstana yeridilməsi dərhal beynəlxalq ictimaiyyəti qıcıqlandıracaq, çoxplanlı və kəskin mənfi nəticələr doğuracaq. Bu, mahiyyətcə, yalnız imperialist ölkələri ilə deyil, həm də öz xalqı ilə münaqişə olacaq. Bizim ümumi düşmənlərimiz elə onu gözləyir ki, Əfqanıstan ərazisində sovet qoşunları peyda olsun. Bu, onlara əfqan torpağına bizə düşmən olan hərbi birləşmələri yeritmək üçün bəhanə verəcək. Bir daha qeyd etmək istəyirəm ki, qoşunların yeridilməsi məsələsi bizim tərəfimizdən bütün cəhətlərdən nəzərdən keçirilmişdir, biz bu aksiyanın bütün aspektlərini diqqətlə araşdırıb bu nəticəyə gəlmişik ki, əgər qoşunları yeritsək, sizin ölkənizdə vəziyyət nəinki yaxşılaşmaya-

caq, əksinə, pisləşəcək. Bunu görməmək olmaz ki, bizim qoşunlar təkcə xarici təcavüzkarlarla deyil, həm də sizin xalqınızın bir hissəsi ilə vuruşmalı olacaq. Xalq isə belə şeyləri bağışlamır" [84].

Əfqanıstana qoşun yeridilməsinin mümkün və sonradan praktikada təsdiqlənən nəticələri barədə dəqiq şəkildə deyilmiş bu sözlərdən 7-8 ay sonra sovet rəhbərliyinin bu addımı atmağa meyllənməsi olduqca maraqlı və çoxlu suallar doğuran, əfqan müəlliflərindən birinin təbirincə, "müəmma" sayılan [122] bir məsələdir. Əlbəttə, burada Əminin hakimiyyətə gəlişindən sonra Əfqanıstandakı vəziyyətin ciddi təsiri olmuşdur. Lakin məsələ təkcə bunda deyil. Siyasi Büronun 17 mart 1979-cu il tarixli iclasında elə həmin A.N.Kosıgin Əfqanıstana qoşun yeridilməsini məqbul saymamaqla yanaşı, demişdir: "Biz Əfqanıstan uğrunda mübarizə aparmalıyıq, hər halda 60 ildir canbir qəlbdə yaşayırıq". DTK sədri Y.V.Andropov da təsdiqləmişdir: "Biz Əfqanıstana dair siyasi həll hazırlamalıyıq və nəzərə almalıyıq ki, [ora qoşun yeritsək], bizə çox güman, təcavüzkar damğası vuracaqlar, lakin buna baxmayaraq, bizə heç bir halda Əfqanıstanı itirmək olmaz" [63]. Bu sözlər sovet rəhbərliyinin hansı dilemma qarşısında qaldığını aydın göstərir və Əfqanıstana hərbi müdaxilənin bu ölkəni itirmək qorxusundan qaynaqlandığını təsdiqləyir.

SSRİ-nin Əfqanıstana qoşun yeritməsinin səbəbləri barədə çoxlu təhlillər aparılmış, müxtəlif mülahizələr irəli sürülmüşdür. Bir şeyi qətiyyətlə söyləmək mümkündür: həmin hadisə bütöv amillər kompleksinin təsiri altında baş vermişdir. Bu amillər həm Əfqanıstanın daxili hərbi-siyasi vəziyyəti, həm beynəlxalq arenada gedən proseslər, həm də SSRİ-nin strateji və təhlükəsizlik maraqları ilə əlaqədar olmuşdur. Şübhəsiz ki, burada subyektiv faktorlar da rol oynamışdır. Bütövlükdə Əfqanıstana sovet qoşunlarının yeridilməsi barədə qərar "Soyuq müharibənin məntiqi ilə şərtlənmiş və geosiyasi xarakter daşımışdır" [63]. Başqa sözlə, qərarın verilməsinə təsir edən amillər içərisində SSRİ-nin təh-

lükəsizlik maraqları birinci yerdə durmuşdur. Bunu çox sonralar – 1989-cu ildə SSRİ Xalq Deputatlarının II qurultayının qapalı iclasında DTK-nın o zamankı sədri V.A.Kryuçkovun (Əfqanıstana qoşun yeridilən dövrdə o, sovet xarici kəşfiyyatına rəhbərlik etmişdir) məruzəsi aydın şəkildə təsdiq edir [93, 249-250]. Buradan məlum olur ki, 1979-cu ilin sonuna doğru islam bayrağı altında döyüşən mücahidlərin sayı 40 minə çatmışdı və onlar ölkənin 27 vilayətindən 12-də hərbi əməliyyatlar aparırdılar. Əfqanıstanın hökumət qüvvələri nəinki onların öhdəsindən gələ bilmirdi, eyni zamanda orduda qiyamlar, fərarilik halları baş alıb gedirdi, dinc əhali kütləvi şəkildə qonşu İran və Pakistana qaçırdı, Əmin isə öz hakimiyyətini qorumaq üçün islamçı müxalifət və Qərblə danışıqlara meylli idi.

Bu da maraqlıdır ki, Sov.İKP MK-nın Əfqanıstana qoşun yeridilməsini rəsmiləşdirən "A"-da vəziyyətə dair" adlı, 12 dekabr 1979-cu il tarixli 176 saylı məxfi qərarında həmin addımın səbəbləri barədə heç nə deyilməmişdir [84].

Qeyd edək ki, eyni gündə ABŞ-ın orta mənzilli "Perşinq" raketlərinin Qərbi Almaniyada yerləşdirilməsi barədə qərar qəbul edilmişdi və bu da SSRİ-nin Əfqanıstana çoxsaylı hərbi qüvvələr göndərməsində təsir faktorlarından biri kimi qiymətləndirilir [63; 122]. Ümumən bu məsələdə İranda İslam inqilabının qələbəsindən tutmuş Sovet-Çin münasibətlərinə və təbii ki, SSRİ-ABŞ rəqabətinə qədər çoxsaylı regional və qlobal proseslərin təsirini izləmək mümkündür.

A.M.Kalinovski Əfqanıstana hərbi müdaxiləni Sovet İttifaqının Üçüncü Dünyanı öz təsirinə salmaq istiqamətində 1950-ci illərdə başlayan və sonrakı iki onillikdə genişlənən siyasətinin kulminasiyası adlandırır [2, 1]. O, haqlı olaraq yazır ki, "Soyuq müharibə geostrateji qarşıdurmadan daha geniş bir şey idi – bu, həm də iki yaşayış yolu, iki modernləşmə üsulu arasında yarış idi" [2, 10].

ABŞ ilə nüvə silahları sahəsində paritetə nail olduqdan, gərginliyin azaldılması istiqamətində əhəmiyyətli addımlardan (strateji silahların məhdudlaşdırılmasına dair SSRİ ilə ABŞ arasında SALT-1 və SALT-2 müqavilələrindən) sonra sovet rəhbərliyi Üçüncü Dünya ölkələrini öz orbitinə almaq xəttini daha inamla həyata keçirməyə başlamışdı. ABŞ-ın Vyetnamdakı uğursuzluğundan və əksinə, özünün Anqola (1975) və Efiopiyadakı (1977) uğurlarından ruhlanan SSRİ, görünür, Əfqanıstana müdaxiləsinin də müvəffəqiyyətli olacağını düşünürdü. Sovet rəhbərliyi bir növ burada Çexoslovakiyadakı (1968) təcrübəsini təkrarlayacağına ümid bəsləyirdi. Yəni qısa müddətdə Əfqanıstanda "qayda-qanun yaradıb" qoşunları çıxaracağını planlaşdırırdı. Bunu müdaxilənin ilk günlərində marşal Sergey Sokolovun Kabuldakı sovet səfirliyində keçirilən müşavirədə dedikləri də təsdiqləyir: o, bildirmişdi ki, SSRİ Müdafiə Nazirliyinin hesablamalarına görə, 1980-ci il iyulun 1-ə qədər Əfqanıstanda əksinqilab məhv ediləcəkdir [60, 85].

Sovet rəhbərliyi o dövrdə Əfqanıstandakı müharibənin 10 ilə yaxın – 3335 gün davam edəcəyini yəqin ki, ağlına belə gətirmirdi. Plan belə idi ki, "əksinqilab" qısa müddətə sıradan çıxarılacaq, ölkədə qurulmuş oyuncaq rejim möhkəmləndiriləcək və bununla da SSRİ Cənub-qərbi Asiyada strateji üstünlüyə nail olacaq, eyni zamanda öz cənub respublikalarını (Orta Asiyanı) güclənməkdə olan "islam təhlükəsindən" qoruyacaqdır (həmin dövrdə Əfqanıstanın SSRİ ilə sərhədinin uzunluğu 2348 kilometr idi). Lakin gözləntilərin əksinə olaraq, Əfqanıstan müharibəsi "təkcə SSRİ-nin uduzduğu ilk müharibə olmadı, həm də onun döyüşdüyü son müharibə oldu" [18, 235].

SSRİ rəhbərliyinin Əfqanıstana qoşun yeritmək barədə qərarına təsir edən amillərdən birini də qeyd etmək lazımdır. Bu da ABŞ xüsusi xidmətlərinin uğurlu dezinformasiya əməliyyatlarıdır. Belə ki, ABŞ kəşfiyyatı 1979-cu ilin martından başlayaraq,

Sovet ordusu birləşmələrinin Əfqanıstanla sərhəddəki hərəkətlərini diqqətlə izləyir, eyni zamanda Əfqanıstan daxilində olan qüvvələrin, sovet hərbi və diplomatik missiyalarının fəaliyyəti barədə geniş məlumat toplayırdı. Hələ yayda (1979-cu il iyunun 28-də) Kabuldan 60 km şimalda yerləşən Bəqram aerodromuna sovet paraşüt-desant batalyonunun gəlişindən etibarən getdikcə SSRİ silahlı qüvvələri təmsilçilərinin sayının artdığını, eləcə də yüksək rütbəli hərbi və siyasi nümayəndələrin Əfqanıstana gediş-gəlişinin çoxaldığını görən amerikalılar prosesin hara getdiyini gözəl anlayır və bunu sürətləndirmək üçün müəyyən addımlar atırdılar. O cümlədən, Əminin ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi ilə birbaşa əlaqəsinə, Amerikanın Əfqanıstana müdaxilə etmək niyyətlərinə dair dezinformasiya xarakterli məlumatlar sovet DTK-sının ixtiyarına verilirdi [93, 258-259]. Təsadüfi deyil ki, sovet qoşunlarının Əfqanıstana yeridilməsi barədə qərarın qəbuluna məhz sovet DTK-sı və onun rəhbəri Y.V.Andropov ən əhəmiyyətli təsir göstərmişdi.

Sovet rəsmiləri məsələnin mahiyyətini çox sonralar dərk etmiş və açıqlamışlar. Məsələn, yenidənqurmanın ideoloqlarından biri, Sov.İKP MK-nın katibi A.N.Yakovlev yazırdı ki, "Amerika kəşfiyyatının Əfqanıstanda bizə tələ qurduğunu göstərən çoxsaylı materiallar vardır. DTK-ya qalaq-qalaq dezinformasiya ötürülmüşdü" [97, 9]. DTK generalı V.Şironin də bildirirdi ki, "ABŞ sovet rəhbərliyini Əfqanıstana qoşun yeritməyə vadar etmək üçün hərtərəfli tədbirlər görürdü. Baş katib Brejnevin arzu olunan qənaətə gəlməsi üçün Əminin iştirakı ilə silsilə dezinformasiya aksiyaları düşünülüb həyata keçirilmişdi" [93, 259].

Amerikalıların bu əməliyyatlarının təsirini Sov.İKP MK-nın Əfqanıstana dair məxfi sənədlərini xronoloji qaydada izləyərkən də müşahidə etmək mümkündür. Əgər 1979-cu ilin sentyabrına qədərki sənədlərdə məsələlərə analitik və təmkinli (soyuq başla!) yanaşma özünü göstərirsə, müdaxilədən öncəki iki ayın sənədlə-

rində qəribə bir təlaş və tələskənlik sezilməkdədir.

Əfqanıstana sovet məhdud kontingentinin yeridilməsi barədə qəti qərarın verilməsində Andropov (DTK sədri), Ustinov (müdafiə naziri) və Qromıkodan (xarici işlər naziri) ibarət "üçlük" həlledici rol oynamışdır. Həmçinin o dövrün "baş ideoloqu" Suslovun və beynəlxalq məsələlər üzrə MK katibi Ponamaryovun da rolunu qeyd etmək lazımdır. Bununla belə, sona qədər bu qərarla razılaşmayan və onun qəbuluna mümkün vasitələrlə müqavimət göstərən şəxslər də olmuşdur. Bu, ilk növbədə, sovet ordusu baş qərargahının rəisi marşal Oqarkov, onun birinci müavini general Axromeyev, 1979-cu ilin avqustundan müdaxilə ərəfəsinə qədər Əfqanıstanda olmuş Quru qoşunlarının komandanı general Pavlovski, 1975-ci ildən (Davud xanın dövründən!) Əfqanıstanda baş hərbi müşavir işləmiş general Qorelov və başqaları idi [64].

O dövrü öyrənən bir çox tədqiqatçılar, proseslərin şahidi və iştirakçısı olmuş bir sıra şəxslər, hətta əfqan müəllifləri də qoşun yeridilməsi ilə bağlı hərbçilərlə, o cümlədən, hərbi kəşfiyyatla (QRU – Baş Kəşfiyyat İdarəsi) DTK arasında ciddi fikir ayrılığının olduğunu vurğulayırlar [130]. Hərbçilər Əminlə işləməyin vacibliyini, onun SSRİ-yə sadiq olduğunu bildirirdilər, DTK isə nəinki onu hakimiyyətdən uzaqlaşdırmaqda, həm də fiziki cəhətdən məhv etməkdə israrlı idi. Sonda DTK-nın mövqeyi üstün gəldi, general Qorelov geri çağırılaraq, Maqometovla əvəzləndi, müdaxilədən az sonra Pavlovski də vəzifəsindən kənarlaşdırıldı.

Qeyd edək ki, amerikalılar SSRİ-nin Əfqanıstana müdaxiləsinin dəqiq vaxtını da müəyyənləşdirə bilmişdilər: "Dekabrın 22-də (1979-cu il – M.M.) Milli Təhlükəsizlik Agentliyinin direktoru vitse-admiral Bobbi Rey İnmən Bzejinskiyə və müdafiə naziri Brauna zəng edib məlumat verdi ki, şübhə doğurmayan bir hesabata görə, SSRİ qarşıdakı 72 saat ərzində Əfqanıstana geniş hərbi müdaxiləyə başlayacaqdır. Dekabrın 24-də o, yenidən zəng edərək bildirdi ki, qoşunların yeridilməsi qarşıdakı 15 saat ərzin-

də baş verəcək. Bu informasiyanın düzgünlüyü, şübhəsiz, öz təsdiqini tapdı" [10].

Beləliklə, Əfqanıstana məhdud kontingentin göndərilməsinə dair siyasi qərardan təqribən iki həftə sonra – 1979-cu il dekabrın 25-də Moskva vaxtı ilə saat 15.00-da general-leytenant Y.V.Tuxarinovun komandanlığı ilə 40-cı ordunun hissələri Amudərya çayı üzərindən keçərək, qonşu ölkənin ərazisinə daxil oldular. Sovet qoşunları üç istiqamətdə hərəkət edərək mühüm məntəqələrdə mövqe tutmağa başladılar. Eyni zamanda desant hissələri hava yolu ilə Bəqram və Kabul aerodromlarına çatdırılırdı.

Dekabrın 27-də sovet desantı Kabulun mühüm siyasi və hərbi nöqtələrini nəzarətə götürdü. Elə həmin gün şimaldan gələn motoatıcı diviziyanın hissələri şəhərə daxil oldu. Axşama yaxın (saat 19 radələrində) Əminin Tacbək adlanan iqamətgahına hücum başladı. Əməliyyatı DTK-nın "Zenit" adlanan xüsusi dəstələri həyata keçirirdi (həmin qrup, eləcə də DTK-nın 500 nəfərlik "müsəlman batalyonu" daha əvvəl Əfqanıstana gəlmişdi). Əminin mühafizəsini həm əfqan ordusunun formasını geymiş sovet əsgərləri, həm də əfqan döyüşçülər həyata keçirirdi. General Qorelovun dediyinə görə, "Zenit"ə köməyə gəlmiş sovet desantı onların hər ikisini məhv etmişdi [64].

Bəzi məlumatlara əsasən, sovet hərbçiləri Tacbək sarayına daxil olarkən, Əmin artıq qəlpə yarasından ölmüşdü [59]. Digər məlumata görə, o, yaralı olmuş və ailəsinin gözü qarşısında güllələnərək öldürülmüşdür [130]. Belə bir versiya da var ki, Əmin ələ keçmiş və sovet səfirliyinə aparılmışdır [21]. Saraya hücum zamanı Əminin kiçik yaşlı oğlu həlak olmuş, qızları yaralanmışdı. Əminin həyat yoldaşının bildirdiyinə görə, o, sona qədər iqamətgaha hücum edənlərin sovet əsgərləri olduğuna inanmamışdır [130].

Dekabrın 30-da Əfqanıstanın yeni rəhbərliyi Əminin inqilabi məhkəmənin hökmü ilə edam edildiyi xəbərini yaydı. Eyni infor-

masiya sovet mətbuatında da təkrar olundu. Beləcə, Əminin 100 günlük hakimiyyəti başa çatdı: L.İ.Brejnev dostu Tərəkinin qətlini Əminə bağışlamadı. Bir müddət sonra – 1980-ci ilin sentyabrında Fransa prezidenti Valeri Jiskar d'Estenlə söhbət zamanı o, demişdi: "Prezident Tərəki mənim şəxsi dostum idi. O, 1979-cu ilin sentyabr ayında mənim qonağım olmuşdu. Amma vətəninə qayıtdıqdan sonra Həfizulla Əmin tərəfindən öldürülmüşdü. Mən Əminin bu hərəkətini heç vaxt bağışlamaram" [122]. Beləliklə, Brejnevin Tərəkiyə şəxsi simpatiyası və Əminə qarşı qəzəbi SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsində subyektiv faktor kimi çıxış etmişdi.

Əmin devrildikdən sonra, öncədən planlaşdırıldığı kimi, Bəbrək Karməlin başçılığı ilə yeni hökumət formalaşdırıldı. Qeyd edək ki, Karməl bir neçə yaxın silahdaşı ilə hələ dekabrın 14-də gizli şəkildə Daşkənddən Bəqrama gətirilmişdi. Lakin həmin vaxt DTK-nın Əminin sarayına hücum planı baş tutmadığından o, geri qaytarılmış, bir də ayın 23-də eyni yolla Bəqrama gəlmiş, dekabrın 28-də isə sovet tanklarının müşayiəti ilə Kabula çatdırılmışdı [88, 17-18]. Karməlin ƏXDP baş katibi, İnqilab Şurasının sədri və ƏDR baş naziri kimi dekabrın 27-də axşam radio ilə səslənən əfqan xalqına müraciəti isə əvvəlcədən yazılmış şəkildə Daşkənd, yaxud Düşənbədən yayımlanmışdı.

Dekabrın 30-da Karməl müvəqqəti iqamətgahı olan Çehelsütun sarayında (təqribən iki həftə sonra o, şəhərin mərkəzində yerləşən və vaxtilə Davud xanın iqamətgahı olmuş Ərg saray kompleksinə köçdü) özünün ilk mətbuat konfransını keçirdi və baş verənləri «Aprel inqilabının yeni mərhələsi» kimi səciyyələndirdi. Təbii ki, ölkədəki vəziyyətə görə əvvəlki rəhbərlik kəskin şəkildə ittiham olundu və mövcud durumun yaxşılaşdırılması istiqamətində təcili tədbirlər görüləcəyi vəd edildi.

Sonrakı iki həftə ərzində hakimiyyət orqanlarının formalaşdırılması həyata keçirildi. Rəsmi qurumlarda təkcə ƏXDP təm-

silçilərinin deyil, bitərəflərin, yüksək səviyyəli mütəxəssislərin və ziyalıların yer alacağı bəyan edilsə də, hökumətdə cəmi 3 nazir postu bitərəflərə verildi (bunlardan biri hələ Davud xan hökumətində ticarət naziri olmuş Məhəmməd Cəlalər idi). Karməl ƏXDP MK-nın baş katibi və İnqilab Şurasının sədri olmaqla yanaşı, hökumətin də rəhbəri oldu (bir ildən sonra o, həmin postu bu vaxta qədər müavini olan Sultan Əli Keştməndə verdi). Partiyadaxili birlikdən və fraksiyaçılığın yolverilməzliyindən geninə-boluna danışılsa da, hakimiyyətdə "Pərçəm" tərəfdarları açıq üstünlük qazandılar, bu da növbəti narazılıq və ziddiyyətlərin əsasını qoydu. 1980-ci ildə ƏXDP MK-nın 44 üzvü və üzvlüyə namizədlər arasında "Pərçəm"çilərin sayı 27 nəfər (yaxud 61,4 %), "Xəlq"-çilər isə 17 nəfər (38,6 %) idi. Eyni mənzərə ƏDR İnqilab Şurası, onun Rəyasət Heyəti və hökumətin tərkibində də müşahidə olunurdu. Belə ki, ƏDR İnqilab Şurasının 58 üzvündən yalnız 20-si (34,4 %-i) "Xəlq"çiləri təmsil edirdi [88, 19].

Burada onu da qeyd etmək vacibdir ki, "Xəlq" və "Pərçəm" arasındakı ziddiyyətlərin kökündə təkcə ideoloji ("Xəlq" daha radikal, "Pərçəm" isə nisbətən mötədil marksist-leninçi sayılırdı) və sinfi ("Xəlq" nisbətən yoxsul, "Pərçəm" isə varlı təbəqəni təmsil edirdi) deyil, həm də etnik amillər ("Pərçəm" daha çox taciklərə və digər azlıqlara, "Xəlq" isə hakim puştu etnosuna söykənirdi) dayanırdı. Ümumən Əfqanıstanda baş verən siyasi və hərbi proseslərdə etnik məsələ daim gizli və ya açıq şəkildə özünü göstərmiş, ƏXDP hakimiyyətinin son illərində və mücahidlərin iqtidarda olduğu dövrdə daha qabarıq surətdə üzə çıxmışdır.

SSRİ rəhbərliyi Əfqanıstanda həyata keçirdiyi hərbi aksiyanın təbliğati təminatına geniş diqqət ayırsa da və bir müddət öz vətəndaşlarını "beynəlmiləl borcun yerinə yetirilməsi" tezisi ilə qane edə bilsə də, dünya ictimaiyyətini bu addımın qanuniliyinə inandıra bilmədi, olduqca sərt və geniş (bəlkə də bu miqyasda gözləmədiyi!) təpkilərlə üzləşdi. İlk kəskin etiraz ABŞ preziden-

ti C.Karterdən gəldi: dekabrın 29-da o, sovet rəhbəri Brejnevə Əfqanıstan məsələsi ilə bağlı xüsusi müraciət ünvanladı. Elə həmin gün Siyasi Büronun iclasında Brejnevin adından ABŞ prezidentinə birbaşa rabitə xətti ilə göndəriləcək cavabın mətni müzakirə və təsdiq olundu [9]. Həmin mətndən aydın olur ki, C.Karter öz müraciətində: 1) Əfqanıstan hökumətinin SSRİ-yə qoşun göndərməklə bağlı xahişini şübhə altına almış (doğrudan da, Əmin tərəfindən rəsmi yazılı müraciət olmamışdır, hətta sovet qoşunlarının Kabula daxil olduğu gün Moskvada müəmmalı şəkildə (Əminin bağışladığı tapança ilə!) intihar etmiş SSRİ daxili işlər nazirinin birinci müavini general V.S.Paputinin həmin ərəfədə məhz bu məqsədlə Əfqanıstanda olduğu, lakin öz missiyasını yerinə yetirə bilmədiyi iddia olunur); 2) Əfqanıstan hökumətinin sovet hərbçiləri tərəfindən devrildiyini bildirmiş; 3) əvvəlki Əfqanıstan rəhbərliyinin ailə üzvlərinə qarşı cəza tədbirləri həyata keçirilməsi ilə bağlı narahatlıq ifadə etmiş (həqiqətən də, Əminin ailəsi "Poli-Çərxi" zindanından azad edilən Tərəki ailəsinin kamerasına salınmışdı); 4) sovet hökumətini qoşunları Əfqanıstana yeritməzdən qabaq ABŞ-la məsləhətləşməməkdə qınamışdır.

Maraqlıdır ki, sonuncu irada Brejnev sualla cavab vermişdir: "Siz öz hərbi-dəniz qüvvələrinizi İrana yaxın sularda və Fars körfəzi rayonunda kütləvi şəkildə toplayanda bizimlə məsləhətləşmişdinizmi?!" Bu sual, fikrimizcə, əsas məsələnin üzərinə işıq salır və on illik gərginliyin azaldılması dönəmindən sonra ABŞ və SSRİ-nin siyasətində baş verən dəyişikliyin səbəblərini anlamağa imkan verir. Həmin məsələ ABŞ prezidentinin az sonra – 1980-ci il yanvarın 29-da Konqresə müraciətində geniş və aydın ifadəsini tapmışdır. Tarixə "Karter doktrinası" adı ilə daxil olmuş həmin sənəddə SSRİ-nin Əfqanıstana qoşun yeritməsi açıq şəkildə "ılıq sulara çatmaq" strategiyasının təcəssümü, Hind okeanına və Hörmüz boğazına yaxınlaşmaq, bununla da dünya neft axınının əsas

marşrutunu nəzarətə almaq cəhdi kimi qiymətləndirilir. Bununla əlaqədar Karter sərt bir şəkildə bəyan edir: "Qoy bizim mövqeyimiz hamıya tam aydın olsun: xarici qüvvənin Fars körfəzi üzərində nəzarəti ələ almaq cəhdi ABŞ-ın həyati əhəmiyyətli maraqlarına qəsd kimi nəzərdən keçiriləcək və belə bir həmlə hərbi qüvvə də daxil olmaqla bütün zəruri vasitələrlə dəf ediləcəkdir" [67].

Bu da diqqətəlayiqdir ki, müraciətdə SSRİ-nin Əfqanıstana qoşun yeritməsi İranda ABŞ diplomatlarının girov götürülməsi ilə əlaqəli şəkildə təqdim olunmuş və bunlardan birincisi hərbi təcavüz, ikincisi isə beynəlxalq terrorizm adlandırılmışdır.

Bəllidir ki, 1979-cu ilin fevralında baş vermiş İran inqilabı ABŞ-ın regiondakı mövqelərinə ciddi zərbə olmuşdu. Üstəlik sovet qoşunlarının Əfqanıstana girməsi ərəfəsində (noyabrın 4-də) ayətullah Xomeyninin xeyir-duası ilə "inqilabçı tələbələr" ABŞ-ın Tehrandakı səfirliyini tutmuş və 66 nəfəri girov götürmüşdülər. SSRİ-nin bu məqamdan "sui-istifadə etməsi" təbii ki, ABŞ administrasiyasını qəzəbləndirmiş və sözügedən doktrinada SSRİ-yə qarşı sərt iqtisadi sanksiyalar, eləcə də Moskva Olimpiya oyunlarının boykot edilməsi əksini tapmışdı. Eyni zamanda 1979-cu ilin yayında imzalanmış SALT-2 müqaviləsinin Senatda təsdiqi sual altına düşürdü. Bu da aydın idi ki, ABŞ Əfqanıstandakı sovet qoşunlarına qarşı müqaviməti daha geniş və planlı şəkildə dəstəkləməyə başlayacaqdı. ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Zbiqnev Bzejinskinin çox sonralar etiraf etdiyi kimi, bu dəstək hələ 1979-cu ilin ortalarından start götürmüşdü. Məhz Bzejinskinin təsiri ilə ABŞ rəhbərliyi Əfqanıstana münasibətdə Təraki dönəmində (1978-ci ilin aprelindən 1979-cu ilin iyun ayına qədər) izlədiyi "gözləmək və baxmaq» (Wait and See) taktikasından imtina etmiş və əfqan müxalifətinə maliyyə yardımı göstərmək yolunu tutmuşdu.

Bildirildiyinə görə, bu məsələ ilə bağlı Bzejinski ilə dövlət katibi Sayrus Vens arasında fikir ayrılığı vardı. Lakin geniş müza-

kirələrdən sonra Bzejinskinin Əfqanıstan məsələsində daha aqressiv mövqe tutmağa əsaslanan baxışı üstün gəlmiş və o, MKİ vasitəsilə bu xətti gerçəkləşdirməyə başlamışdı [17, 35]. Az sonra Sayrus Vensin istefaya getməsi (1980-ci ilin aprelində) Bzejinskinin əl-qolunu daha da açmış və o, Karterin hakimiyyətinin son günlərində (15 yanvar 1981-ci il) NSC-63 kimi məşhur olan «Fars körfəzinin təhlükəsizlik çərçivəsi" ("Persian Gulf security framework") adlı məxfi prezident direktivinin qəbul edilməsinə nail olmuşdu [26]. Bu sənəd Əfqanıstana sovet müdaxiləsi şəraitində Cənub-qərbi Asiya və Fars körfəzi regionunda ABŞ-ın maraqlarının müdafiəsinin müxtəlif aspektlərini (hərbi, siyasi, iqtisadi, kəşfiyyat) ehtiva edirdi. Bununla da növbəti ABŞ prezidentinin adı ilə bağlı olan və Üçüncü Dünya ölkələrindəki sovetpərəst, kommunist yönlü və anti-Amerika rejimlərin devrilməsinə yönəlmiş "Reyqan doktrinası" üçün ciddi zəmin yaradılmışdı. Sovet rəhbərliyi, görünür, ABŞ-ın xarici siyasətində belə bir dönüşə hazır deyildi.

1980-ci il yanvarın 5-də Əfqanıstan məsələsi BMT Təhlükəsizlik Şurasının iclasında müzakirəyə qoyuldu. Şuranın 15 üzvündən 13-ü sovet qoşunlarının dərhal ölkədən çıxarılmasını tələb etdi. Az sonra – yanvarın 14-də BMT Baş Assambleyasının fövqəladə sessiyasında mütləq səs çoxluğu ilə (lehinə 104, əleyhinə 18, bitərəf 18) sovet hərbçilərinin Əfqanıstandan dərhal, qeyd-şərtsiz və tam şəkildə çıxarılmasını tələb edən qətnamə qəbul olundu [111, 58]. Analoji qətnamə (111 lehinə, 22 əleyhinə və 12 bitərəf olmaqda) Assambleyanın 20 noyabr 1980-ci ildə keçirilən növbəti 35-ci sessiyasında da qəbul edildi. Qətnamədə əfqan xalqına ölkənin idarəçilik formasını, siyasi-iqtisadi quruluşunu sərbəst şəkildə müəyyənləşdirmək hüququnun verilməsi tələbi öz əksini tapmışdı. "Bu, üstüörtülü şəkildə B.Karməl hökumətinin legitimliyinin tanınmaması demək idi" [88, 53].

Tezliklə İslam Konfransı Təşkilatı (hazırda İslam Əməkdaş-

lıq Təşkilatı) da Əfqanıstan məsələsinə dair mövqeyini bildirdi. 1980-ci il yanvarın 25-28-də təşkilata üzv dövlətlərin xarici işlər nazirlərinin İslamabadda keçirilən fövqəladə toplantısında "əfqan xalqına qarşı sovet hərbi təcavüzü" qətiyyətlə pislənildi və qoşunların Əfqanıstandan çıxarılması tələb olundu. Eyni zamanda Əfqanıstan təşkilatın üzvlüyündən xaric edildi.

İstər BMT, istərsə də İKT sonrakı dövrdə də bu məsələyə dair analoji məzmunlu qətnamələr qəbul etmişdilər. Həm SSRİ, həm də Karməl rejimi ciddi beynəlxalq qınaq və təzyiqlə üz-üzə qalmışdı. ƏXDP hökuməti dünyanın 67 dövləti ilə diplomatik əlaqələrə malik olsa da, faktiki təcrid olunmuş durumda idi. Xüsusən qonşu ölkələr Pakistan və İranla münasibətlər son dərəcə gərgin idi. 1980-ci il yanvarın 14-də Karməl İranın dini lideri Xomeyniyə məktub yazıb qonşu ölkə ilə dostluq əlaqələrində maraqlı olduğunu bildirsə də, ümumiyyətlə, cavab almadı. Həmin ilin mayında ƏDR hökuməti xüsusi bəyanat yayaraq, İrana və Pakistana ikitərəfli danışıqlar yolu ilə dostluq əlaqələrinin qurulmasını, əfqan qaçqınlarının ölkəyə qayıtmasına şərait yaradılmasını və s. təklif etdi. Bütövlükdə "1980-ci ilin mayından 1981-ci ilin iyul ayına qədər əfqan tərəfi münasibətlərin normallaşdırılması çağırışı ilə İran və Pakistana 6 dəfə müraciət etmiş" [88, 54], lakin bu çağırışlar cavabsız qalmışdı.

Beləliklə, qoşunların Əfqanıstana yeridilməsi nəticəsində həm SSRİ, həm Karməl rejimi üç səviyyəli – ölkədaxili, regional və qlobal böhranla üzləşmişdi [96, 157].

Ölkədaxili vəziyyət isə tədricən fəlakətli xarakter almağa başlayırdı. Karməl hökuməti rejimin sosial dayaqlarını möhkəmləndirmək istiqamətində bəyanat və müəyyən addımlarına, o cümlədən, 1980-ci ilin əvvəllərində 15 min nəfərə yaxın məhbusu azad etməsinə rəğmən, ciddi legitimlik böhranı yaşayırdı. Sovet tanklarının üzərində hakimiyyətə gəlmiş Karməl XIX əsrdə ingilislərin köməyi ilə taxta oturmuş və təqribən 3 il sonra qətlə ye-

tirilmiş Dürrani hökmdarı Şah Şüca ilə eyniləşdirilirdi [36, 237; 127, 86-87].

Bu dövrdə ƏXDP hakimiyyətinin hansı mahiyyət və formaya malik olduğunu V.Q.Korqun belə ifadə edir: "Ölkə minlərlə sovet müşaviri ilə dolu idi: onlar partiyada, orduda, dövlət aparatında, ictimai təşkilatlarda, sənaye müəssisələrində, təhsil müəssisələrində, KİV-lərdə çalışırdılar. Müşavirlər Əfqanıstanın "sovetləşməsi" vəzifəsini yerinə yetirirdilər; iqtisadi, siyasi və ictimai həyatda sovet inkişaf modelinin norma və institutları tətbiq olunurdu. Heç bir əhəmiyyətli qərar müvafiq müşavirlərin razılığı olmadan qəbul edilmirdi: müşavirlər əslində əfqan vəzifəli şəxslərini əvəz edirdilər. DTK və DİN-in nümayəndəlikləri geniş fəaliyyətdə idilər. ƏXDP rəhbərliyi aydın şəkildə oyuncaq rejim (seçdirmə bizimdir – M.M.) formasını alırdı" [70, 421].

Başqa sözlə, əvvəlki dövrdə təşəkkül tapmış "müşavirlər hökuməti" daha eybəcər şəkil almağa başlamışdı. Hətta "Aprel inqilabı"na və şəxsən Bəbrək Karmələ rəğbətini gizlətməyən, uzun illər Əfqanıstanda çalışmış Rusiya tədqiqatçısı M.F.Slinkin belə etiraf edir ki, "Əfqanıstanın partiya və dövlət rəhbərliyi Moskvadan asılı vəziyyətdə idi. O, ölkəni müstəqil şəkildə idarə etmək üçün hər hansı imkandan məhrum edilmişdi. Ona yalnız Kremldən gələn tapşırıqları "öz dilindən" səsləndirmək və onun göstərişlərinə uyğun hərəkət etmək hüququ verilmişdi. Hər bir az-çox mühüm vəzifə tutan əfqan partiya və dövlət qulluqçusuna müxtəlif fəaliyyət sahələri üzrə sovet müşavirləri təhkim olunmuşdu. Onların əksəriyyəti müşavir statusuna etinasız yanaşaraq və "inqilabi məqsədəuyğunluq" mülahizələrindən çıxış edərək, Əfqanıstanın çeşidli idarə və müəssisələrinin bilavasitə idarəçiliyinə fəal şəkildə müdaxilə etməyə başlamışdılar" [88, 57].

Əfqan cəmiyyəti bunu yaxşı görür və bununla barışa bilmirdi. Odur ki, çox keçmədən ölkədə müxtəlif tipli etirazlar baş verdi. Karməlin hakimiyyətə gəlişindən heç iki ay keçməmiş – 1980-ci

il fevralın 22-də paytaxt Kabulda "Allahu əkbər" sədaları altında minlərlə insanın iştirak etdiyi aksiya keçirildi. SSRİ və Bəbrək Karməl hökuməti əleyhinə şüarlarla keçirilən aksiya şəhərdə böyük qarışıqlıq, dağıntılar və yanğın törətdi. Hökumət silahlı qüvvələrin köməyi ilə etirazı amansızlıqla yatırtdı, yüzlərlə adam öldü və yaralandı, çoxlu sayda aksiyaçı həbs olundu. Bəzi müəlliflər aksiyanın təşkilində xarici qüvvələrin (ABŞ və Pakistanın) əli olduğunu bildirsələr də [88, 28], o, ölkənin və rejimin aqibətini göstərmək baxımından əlamətdar idi. İki ay sonra – aprelin 21-də Kabul Universiteti tələbələrinin və lisey şagirdlərinin üç gün davam edən antisovet və antirejim çıxışları başlandı. Aksiyada qızlar da fəal surətdə iştirak edirdilər. Hökumət etirazı yatırtmaq üçün bu dəfə də güc tətbiq etməli oldu, hətta şəhər üzərinə aviasiyanı qaldırdı.

Paytaxtda bu vəziyyət olduğu şəraitdə əyalətlərin durumu hökumət üçün daha pis idi. Faktiki olaraq, kənd yerləri görünməmiş sürətlə hökumətin nəzarətindən çıxırdı. Rejimə müqavimət kütləvi və mütəşəkkil xarakter almışdı. 1980-ci ilin yazında artıq kənd yerlərinin 60 %-dən çoxu hökumətin nəzarətində deyildi. Növbəti ilin sonlarına doğru bu rəqəm 80 %-i ötmüşdü. Əslində ölkədə ikihakimiyyətlilik hökm sürürdü: iri şəhərlər, vilayət mərkəzləri hökumətin, kənd yerləri isə mücahidlərin idarəçiliyində idi. Onlar burada özlərinin hakimiyyət orqanlarını (əmirliklər, yaxud islam komitələri) yaradırdılar. Eyni zamanda əhalinin hələ Tərəki-Əmin dönəmindən başlanan ölkəni tərk etməsi prosesi intensiv səciyyə kəsb etmişdi. 1980-ci ilin yanvar-dekabr aylarında təkcə Pakistana üz tutan əfqan qaçqınlarının sayı 3 dəfə artaraq, 1,2 milyona çatmışdı [88, 57]. 1980-ci illərin sonuna doğru isə əfqan qaçqınlarının sayı 5 milyon nəfəri ötmüşdü ki, bunun da əsas hissəsi Pakistanda və İranda məskunlaşmışdı.

Belə bir vəziyyətdə sovet qoşunlarının proseslərə müdaxiləsi qaçılmaz oldu. İlkin mərhələdə sovet siyasi və hərbi rəhbərliyi qoşunların mücahid dəstələrinə qarşı əməliyyatlarda iştirakını

nəzərdə tutmurdu. 1980-ci il yanvarın 4-də Kabuldakı hərbi müşavirlərlə görüşən Müdafiə Nazirliyinin Əfqanıstan üzrə operativ qrupunun rəhbəri marşal Sokolov demişdi: "Diqqətinizi ona cəlb etmək istəyirəm ki, sovet qoşunlarının qiyamçılara qarşı silahlı mübarizəyə cəlb olunması yolverilməzdir, onların tamam başqa funksiyaları vardır" [62, 7]. Lakin cəmi bir həftə sonra o, 20-ci diviziyanın artilleriya polkunda baş vermiş qiyamı yatırtmaq üçün əfqan tərəfinin kömək barədə müraciətinə müsbət cavab verməli olmuşdu. Az sonra fevral-mart aylarında ölkənin cənubundakı Kunər vilayətində keçirilən iri hərbi əməliyyata əfqan ordusu hissələri ilə yanaşı bir sovet batalyonu da cəlb olundu. Ümumən 1980-ci ilin mart-may aylarında Əfqanıstanda qiyamçılara qarşı 96 əməliyyat keçirilmişdi ki, bunun da 54-də sovet hərbçiləri iştirak etmişdi [81, 117]. Bu fakt Əfqanıstandakı sovet kontingentinin işğalçı obrazını daha da möhkəmləndirir, eyni zamanda vəziyyətin daha da pisləşməyə doğru getdiyini görən Sovet rəhbərliyini Əfqanıstana yeni-yeni qüvvələr göndərməyə vadar edirdi.

Qeyd etmək lazımdır ki, ilkin mərhələdə (1980-1981-ci illərdə) Əfqanıstandakı sovet qoşunlarının sayı 80 min nəfərdən artıq idi. 1985-1986-cı illərdə isə bu rəqəm 120 min nəfərə çatmışdı. Bununla bağlı mövcud ədəbiyyatda müxtəlif rəqəmlərə (135, hətta 150 min nəfər) rast gəlmək olur. Görünür, bunun səbəbi odur ki, Əfqanıstanda 40-cı orduya daxil olmayan hərbi qüvvələr də var idi. Məhdud kontingenti təşkil edən 40-cı ordu 4 diviziyadan (3 motoatıcı və 1 desant), bir neçə əlahiddə briqada və alaydan, müxtəlif xidmət hissələrindən ibarət idi. Onun ixtiyarında 600 tank, 1500 piyadaların döyüş maşını, 2900 zirehli transportyor, 500 təyyarə və vertolyot, müxtəlif çaplı 500 (başqa mənbəyə görə, 900) artilleriya qurğusu var idi [34, 20]. 40-cı ordu ilə yanaşı, DTK-nın sərhəd qoşunlarının 6 dəstəsi, "Kaskad", "Omeqa" kimi xüsusi təyinatlı dəstələri, eləcə də SSRİ DİN-in tərkibində olan "Kobalt" xüsusi təyinatlı qüvvələri Əfqanıstandakı hərbi

əməliyyatlara cəlb olunmuşdu.

Hərbi kontingentə ümumi rəhbərliyi SSRİ Müdafiə Nazirliyinin operativ qrupu həyata keçirirdi. 1979-1985-ci illərdə həmin qrupa marşal S.L.Sokolov, 1985-1989-cu illərdə isə ordu generalı V.İ.Varennikov rəhbərlik etmişdi. 40-cı ordunun öz komandanları vardı və onlar hər 2-3 ildən bir dəyişdirilirdi. Bundan əlavə, Əfqanıstan ordusunun bilavasitə daxilində Baş hərbi müşavirin (Əfqanıstan müdafiə nazirinin müşavirinin) rəhbərliyi ilə geniş müşavirlər korpusu fəaliyyət göstərirdi. Ümumi sayı 2000-dən çox olan bu müşavirlər Əfqanıstan Müdafiə Nazirliyinin aparatından tutmuş diviziyalara, polklara və əlahiddə batalyonlara qədər fəaliyyət göstərirdilər. Onlara sovet hərbi tərcüməçiləri ayrılmışdı. Hərbi müşavirlər əfqan ordusunun təlim görməsində, əməliyyatların planlaşdırılması və gedişində bilavasitə iştirak edirdilər.

Sovet qoşunlarının Əfqanıstandakı fəaliyyət dövrü yerinə yetirilən vəzifələrin xarakteri baxımından 4 mərhələyə bölünür: 1) dekabr 1979 – fevral 1980: qoşunların ölkəyə gəlməsi, qarnizonlarda yerləşməsi, dislokasiya mövqelərinin mühafizəsinin təşkili; 2) mart 1980 – aprel 1985: təkbaşına, bəzən də Əfqanıstan silahlı qüvvələri ilə birlikdə fəal və iri miqyaslı hərbi əməliyyatların keçirilməsi; 3) aprel 1985 – yanvar 1987: fəal hərbi əməliyyatlardan əsasən əfqan ordusunun dəstəklənməsinə keçid (aviasiya, artilleriya və s. vasitəsilə), onun güclənməsi, döyüş ruhiyyəsinin yüksəlməsi istiqamətində iş; 4) yanvar 1987 - fevral 1989: hərbi aktivliyin minimuma endirilməsi, Əfqanıstan hakimiyyəti və ordusunun möhkəmlənməsinə çalışılması, qoşunların tədricən ölkəni tərk etməsi [62, 28-29; 81, 115].

Məhdud kontingent həm qabaqcadan planlaşdırılmış, həm də cari vəziyyətə uyğun əməliyyatlar keçirirdi. Müharibə dövründə müvafiq olaraq 416 və 220 belə əməliyyat (cəmi 636) keçirilmişdi. Bütün bunlara baxmayaraq, Əfqanıstan ərazisini tam nəzarətə götürmək mümkün olmurdu. Hərbi əməliyyatların ən qızğın illə-

rində belə ƏDR hökuməti ölkə ərazisinin 20 %-dən artığına nəzarət edə bilmirdi. Sovet komandanlığının qiyamçılara canlı qüvvə və silah gətirilməsinin qarşısını almaq üçün ölkənin Pakistan və İranla sərhədlərini bağlamaq ideyası da elə ideya olaraq qaldı.

Sual olunur: ən müasir silahlara və hərbi texnikaya, yetərincə say tərkibinə, yüksək səviyyədə maddi təminata baxmayaraq, nə üçün sovet qoşunları Əfqanıstanda uğur qazana bilmədi? Buna cavab olaraq, oxuduqlarımız və şəxsi müşahidələrimiz əsasında bir neçə səbəbi qeyd etmək mümkündür.

Birincisi, sovet hərbçilərinin Əfqanıstanın malik olduğu coğrafi şəraitə uyğun döyüş hazırlığının olmaması. Beş ilə yaxın bu ölkədə çalışmış general Lev Qorelov qoşunların yeridilməsinə məhz buna görə etiraz edir və bildirirdi ki, sovet hərbçiləri yüksək dağlıq ərazidə döyüşə hazır deyil və bu, ordunun Nizamnaməsində də nəzərdə tutulmayıb. Bu üzdən uğursuzluq və çoxsaylı itkilər labüd olacaqdır [64].

İkincisi, əfqan hakimiyyəti və ordusunun, bütövlükdə təhlükəsizlik qüvvələrinin ("Sarandoy" – Milis, XAD – dövlət təhlükəsizlik xidməti) zəifliyi. Buna misal olaraq, Sovet ordusunun Pənçşir vadisində keçirdiyi çoxsaylı və iri miqyaslı əməliyyatların (bu əməliyyatların bir çoxunda 10 nəfərdən artıq sovet hərbçisi iştirak edirdi) faktiki nəticəsiz qalmasını göstərmək olar. On il ərzində Sovet ordusu strateji əhəmiyyətli həmin ərazidə "Pənçşir şiri" ("Şiri-Pənçşir") ləqəbi ilə məşhur olan Əhməd şah Məsudun qüvvələrinə qarşı 12 iri əməliyyat keçirmiş, qiyamçıları sıxışdırıb çıxarmışdı. Lakin hökumət qüvvələri həmin ərazidə möhkəmlənə bilməmiş, sovet qoşunları çəkiləndən sonra yenidən Əhməd şahın qüvvələri əraziyə nəzarəti bərpa etmişdilər.

Buradan üçüncü səbəb – mücahidlərin coğrafi şəraitə uyğun döyüş taktikası seçməsi, nizami hissələrlə açıq döyüşdən mümkün qədər çəkinərək, partizan üsullarına üstünlük verməsi amili meydana çıxır. Bu üzdən onlar istər sovet hərbçilərinə, istərsə

də əfqan əsgərlərinə bir kabus təsiri bağışlayırdılar. Onlar hər an hansısa ağacın arxasından, hansısa qayanın dibindən mücahidlərin atəş açacağı xofu altında yaşayırdılar. Bu, bir həqiqətdir ki, mücahidlər döyüş əhval-ruhiyyəsi baxımından hökumət qüvvələrini qat-qat üstələyirdilər: ölümü gözünün altına alanla canını qoruyanın döyüşündə birincinin qalib gəlməsi labüddür.

Əlbəttə, ABŞ, Pakistan, Səudiyyə Ərəbistanı, İran öndə olmaqla bir çox dövlətlərin mücahidlərə yardımını da önəmli bir səbəb kimi qeyd etmək olar; lakin şübhə yoxdur ki, inam və döyüş əzmi olmadıqda kənardan yardım ciddi nəticələrə gətirib çıxarmır.

Nəhayət, ən başlıcası, Sovet ordusu və onun himayəsində olan əfqan hökuməti xalqın dəstəyindən məhrum idi. Təkcə mücahidlər deyil, geniş əhali kütlələri sovet hərbçilərinə işğalçı kimi baxırdı və ən müxtəlif vasitələrlə onların zəifləməsinə, uğursuzluğa düçar olmasına çalışırdı. Burada həm sovet, həm də əfqan hökumətinin apardığı təbliğat-təşviqat işi heç nəyə yaramırdı.

Əfqanıstan ordusuna gəldikdə isə, müharibə dövründə onun ümumi sayı 120-150 min nəfər arasında olmuşdur. Əsasən sovet silahları ilə təchiz olunmuş bu ordunun ixtiyarında 800 tank, 130 piyadaların döyüş maşını, 1220 zirehli transportyor (zirehli kəşfiyyat patrul maşını), 2600 artilleriya qurğusu, 300 təyyarə və vertolyot vardı [34, 49]. Lakin bu ordunun əsas problemi şəxsi heyətdə idi. ƏXDP bütün hakimiyyəti dövründə döyüşkən, yüksək hazırlıqlı ordu qura bilmədi. Onun döyüş ruhu son dərəcə aşağı idi və öz vəzifələrinin icrasını sovet qoşunlarının üzərinə qoymağa çalışırdı. Artıq deyildiyi kimi, fərarilik kütləvi hal almışdı. "Ən nikbin hesablamalara görə ordu hissələrinin komplektləşməsi ştat cədvəlində nəzərdə tutulduğundan 25-40 % aşağı idi. Hər ay orta hesabla 1500-2000 nəfər ordudan qaçırdı" [34, 51].

1981-ci ildən etibarən hökumət ordunu komplektləşdirməkdə ciddi çətinliklərlə üzləşirdi. Gənclər hər vəchlə orduya getməkdən yayınırdılar. "Çağırış" küçə və bazarlarda hərbi xidmətdə

olmayanların "ovlanması" üsulu ilə həyata keçirilirdi.

Hərbi səhnənin üçüncü iştirakçısı mücahidlər idi. Onlar özlərini bu cür, yəni "cihadçı" adlandırırdılar. Rəsmi hakimiyyət onlara "əşrar" – "qiyamçılar" deyirdi, sovet hərbçiləri isə onlara münasibətdə "duşman" (düşmən) sözündən istifadə edirdilər. Mücahidlərin döyüş hazırlığı və təşkilatlanması uzun və ağır bir proses olmuşdur. Sovet hərbi müdaxiləsinin ilk dönəmində onlar silah-sursat baxımından ciddi korluq çəkirdilər.

Mücahidlərin təşkilatlanması və təchizatında əsasən Pakistanda məskunlaşmış siyasi partiya və liderlərin böyük rolu olmuşdur. Şiə əhalinin yaşadığı ərazilərdə isə İranda fəaliyyət göstərən müxalif təşkilatlar müqaviməti təşkil edirdilər. Buna uyğun olaraq, müxalif islamçı partiyalar "Yeddilik" (Pakistan) və "Səkkizlik" (İran) formatında öz fəaliyyətlərini əlaqələndirirdilər.

"Yeddiliyə" (rəsmən "Əfqanıstan Mücahidlərinin İslami Birliyi" adlanırdı) daxil olan partiyalar bunlar idi:

1) Əfqanıstan İslam Partiyası – 1976-cı ildə keçmiş "Müsəlman Gənclər Təşkilatı"nın bazasında Gülbəddin Hikmətyar tərəfindən Pakistanda yaradılmışdı;
2) Əfqanıstan İslam Cəmiyyəti – Bürhanəddin Rəbbaninin rəhbərlik etdiyi bu partiyanın yaradıcıları da əsasən "Müsəlman Gənclər Təşkilatı"nın keçmiş fəalları olmuşdur. 1976-cı ildə Pakistanda təsis edilmişdir;
3) Əfqanıstan İslam Partiyası (Xalis) – 1979-cu ildə Hikmətyarın rəhbərlik etdiyi partiyadan ayrılmış qrup tərəfindən yaradılmış və eyni adı saxlamışdır. Fərqləndirilmək üçün lideri Məhəmməd Yunus Xalisin familiyası ilə adlandırılır;
4) Əfqanıstanın Azadlığı uğrunda İslami Birlik – 1982-ci ilin mart ayında ilahiyyat üzrə professor Əbdürrəsul Səyyaf tərəfindən təsis olunmuşdur;
5) Əfqanıstan Milli Qurtuluş Cəbhəsi – 1978-ci ilin iyul ayında məşhur Mücəddidilər ruhani nəslinin nümayəndəsi Sibğətul-

la Mücəddidi tərəfindən yaradılmışdır;

6) Əfqanıstan Milli İslam Cəbhəsi – 1978-ci ildə Pakistanda yaradılmışdır. Onun lideri Seyid Əhməd Gilani həm də Əfqanıstanda qadiriyyə təriqətinin başçısı ("pir"i) sayılır;
7) Əfqanıstan İslam İnqilabı Hərəkatı – 1978-ci ilin iyun ayında Pakistanın Bəluçistan əyalətində din xadimi Məhəmməd Nəbi Məhəmmədi tərəfindən yaradılmışdır.

Qeyd etmək lazımdır ki, bu partiyaların hamısı sünni məzhəbinə bağlıdır və onların iqamətgahları Pakistanın şimalındakı Pişavər şəhərində yerləşirdi. Onların fəaliyyət dairəsi, şiə partiyalarından fərqli olaraq, bütün Əfqanıstan ərazisini əhatə edirdi. Ölkə daxilindəki hərbi gücü və tərəfdarlarının sayı baxımından Hikmətyarın və Rəbbaninin rəhbərlik etdiyi partiyalar ən güclü təşkilatlar idi.

Müəyyən alyans daxilində fəaliyyət göstərmələrinə (daha çox Pakistanın səyləri nəticəsində) baxmayaraq, qeyd olunan partiyalar arasında ciddi ixtilaflar da vardı, hətta bunun nəticəsində onların tərəfdarları arasında silahlı toqquşmalar da baş verirdi. Həmin ixtilaflar ideoloji ziddiyyətlərdən tutmuş şəxsi münasibətlərə və liderlik uğrunda mübarizələrə qədər geniş spektri əhatə edirdi. Ən başlıcası, bu partiyalar fundamentalist və ənənəçi (tradisionalist) olmaqla iki yerə bölünürdü. Yuxarıdakı siyahıda ilk 4 partiya birinci, sonrakı 3 partiya isə ikinci qrupa aid edilir [90, 46-63].

Şiə "Səkkizliyinə" gəldikdə isə, deməliyik ki, bu alyans əvvəlkindən xeyli zəif idi (ölkədəki müsəlmanların 80 %-nin sünni məzhəbinə aid olduğu nəzərə alındıqda, bu, təbiidir) və onların fəaliyyət dairəsi əsasən Əfqanıstanın qərb (Herat), mərkəzi (Həzarəcat) və şimal (Bəlx) bölgələrini əhatə edirdi. İran tərəfindən dəstəklənən "Səkkizliyin" etnik bazasını əsasən həzarələr, qismən də taciklər və qızılbaşlar təşkil edirdi. Bura Əfqanıstan Hizbullahı, "Nəsr" təşkilatı, İslam Cihadı Keşikçiləri, Əfqanıstan İslam İnqilabı Hərəkatı, İslam Mübarizləri İttifaqı, "Rəd" Partiyası,

Əfqanıstan İslam İnqilabı Birləşmiş Cəbhəsi və İslam Qüvvəsi Təşkilatı daxil idi. 1989-cu ildə bu partiya və təşkilatlar Əbdüləli Məzarinin başçılığı ilə İslami Vəhdət Partiyasında birləşdilər və həmin partiya Əfqanıstan şiələrinin əsas təşkilatçısı kimi çıxış etməyə başladı.

Bununla belə şiə təşkilatları ölkədəki proseslərdə həlledici rol oynaya bilmədi. Pakistandakı "Yeddilik" də onları, necə deyərlər, yaxına buraxmırdı. "1988-ci ildə Pişavərdəki "Yeddilik" müvəqqəti hökumət təşkil edərkən Tehrandakı "Səkkizliyə" pay ayırmağı lazım bilmədi. Əbdülkərim Xəlilinin başçılıq etdiyi "Səkkizlik" nümayəndə heyəti uzun müddət İslamabadda qaldı, təhqiramiz şəkildə Ravalpindidə keçirilən Şuranın iclasına buraxılmadı və əliboş Tehrana qayıtdı" [127, 41].

Əlbəttə, İran liderləri Əfqanıstandakı prosesləri İran İslam inqilabının bir növ əks-sədası və davamı kimi qələmə verməyə çalışırdılar. Buna cavab olaraq, Gülbəddin Hikmətyar Qərbi Almaniyanın "Velt" qəzetinə verdiyi müsahibədə demişdi: "Bizim inqilabımız İran inqilabına təsir göstərib, əksinə yox. İran inqilabı təzə başlayanda, əfqan mücahidləri artıq ilk nailiyyətlərini qazanmışdılar" [90, 113]. Ümumən ABŞ-Pakistan-Səudiyyə Ərəbistanı üçlüyünün qarşısında İraqla müharibə aparan İranın şiə əhalinin azlıqda olduğu Əfqanıstandakı hadisələrə təsir etmək imkanları nisbətən məhdud idi.

Əfqan mücahidlərinin təşkilat və qruplaşmaları, təbii ki, yalnız deyilənlərdən ibarət olmamışdır. Xüsusən ölkə daxilində müstəqil fəaliyyət göstərən silahlı dəstələr vardı. Hətta siyasi təşkilat mənsubiyyəti olan səhra komandirləri də vəziyyətə uyğun birliklər və koalisiyalar yaradırdılar. Bu baxımdan formal olaraq Əfqanıstan İslam Cəmiyyətinə (Rəbbaninin partiyasına) mənsub olan əfsanəvi sərkərdə Əhməd şah Məsudun 1983-cü ildə yaratdığı Müşahidə Şurası ("Şuraye-Nəzar") xüsusi qeyd olunmalıdır. Bu şura sonrakı dövrdə "Şimal alyansı"nın formalaşması üçün

bir növ model rolunu oynamışdır. Həmin Şura təkcə Əfqanıstan İslam Cəmiyyətinin deyil, digər təşkilatların üzvlərini, eləcə də müstəqil fəaliyyət göstərən dəstələri əhatə edirdi. Bütövlükdə Şurada 130 dəstənin komandiri təmsil olunmuşdu. Şuranın fəaliyyəti tədricən ölkənin şimal, şərq və mərkəzindəki 12 vilayətin ərazisinə yayılmış və mücahidlərin hərbi uğurlarında, son nəticədə Sovet qoşunlarının Əfqanıstanı tərk etməyə məcbur olmasında misilsiz rol oynamışdır [127, 34-36].

Bütövlükdə əfqan mücahidlərinin tərkibi son dərəcə mürəkkəb və çeşidli səciyyə daşımışdır. Bununla əlaqədar, V.M.Spolnikov haqlı olaraq, yazır: “Əfqanıstan islamçı müxalifətinin bir sıra əlamətlər baxımından təsnifatını vermək olar. Dini baxımdan o, sünni və şiə; teoloji baxımdan fundamentalist və ənənəçi; sosial-sinfi baxımdan burjua və feodal-monarxist; milli-etnik cəhətdən puştu və qeyri-puştu; təşkilati baxımdan təşkilatlanmış və təşkilatlanmamış qollara ayrılır” [90, 76]. Bütün bu rəngarəngliyə, aralarında olan ixtilaf və ziddiyyətlərə baxmayaraq, işğal dönəmində onları bir məqsəd – ölkənin sovet qoşunlarından və onların əlaltılarından azad edilməsi amalı birləşdirə bilmişdir.

Mücahidlər 10-15, bəzən də 20-50 nəfərlik mobil qruplar şəklində fəaliyyət göstərməyə üstünlük verirdilər. Zərurət olduqda onlar 150-200 nəfərlik dəstələrdə birləşir, iri əməliyyatlar zamanı isə 500-900 və daha artıq döyüşçünü əhatə edən “islam alayları” təşkil edirdilər [81, 130].

Qeyd olunduğu kimi, onlar əsasən partizan döyüşü taktikasına üstünlük verir və bu taktikanın aşağıdakı növlərindən (ayrıca, yaxud kombinə olunmuş şəkildə) istifadə edirdilər: şəhərlərdə hücum və diversiya aktlarının törədilməsi, yolların minalanması, infrastruktur xətlərinin (qaz kəmərləri, elektrik xətləri və körpülərin) partladılması, kiçik qarnizonlara və inzibati mərkəzlərə gözlənilməz həmlələr, hərbi və təchizat kolonlarına qarşı pusquların təşkil olunması, mühafizə postlarına qəfil reydlər və s.

Pusqu mücahidlərin sevimli döyüş taktikası idi. Təkcə üç il (1985-1987) ərzində onlar 10.000-dən artıq pusqu həyata keçirmişdilər [34, 65]. Bu əməliyyatlar çoxlu sayda qənimətin əldə edilməsi ilə müşayiət olunurdu. Pusqudan istər sovet, istərsə də əfqan ordusunun, yaxud onların birgə əməliyyatlarının gedişində səmərəli şəkildə istifadə edilirdi. Məsələ burasındadır ki, mücahidlərin istər əhali arasında, istər hökumət orqanlarında, istərsə də orduda geniş casus şəbəkəsi və tərəfdarları vardı, hətta xüsusi maraq güdmədən onlara rəğbət bəsləyənlər də az deyildi. Bu üzdən onlar çox vaxt qarşı tərəfin əməliyyat planlarından qabaqcadan xəbər tutur və lazımi tədbirlər görürdülər. Onlar yolların minalanması və pusquların təşkili ilə düşməni müxtəlif itkilərə məruz qoyur, yaxud da əməliyyat ərazisini tərk etməklə onun səmərəsini heçə endirirdilər. Hətta Sovet ordusunun 1984-cü ildə Pənçşirdə həyata keçirdiyi iri əməliyyatdan Əhməd şah Məsudun 15 gün qabaq xəbər tutduğu və bununla da əməliyyatı böyük maddi məsrəflərə rəğmən, uğursuzluğa düçar etdiyi məlumdur. Sovet xüsusi xidmətləri 10 dəfədən çox Məsudun məhv edildiyi barədə Moskvaya raport vermiş, lakin sonradan bu informasiyalar təsdiqini tapmamışdı [127, 37].

Qarşı tərəfdəki adamlarının vasitəsilə mücahidlər hətta yüksək rütbəli sovet məmurlarını da girov götürməyə belə nail olurdular. Məsələn, 1981-ci ilin avqust ayında əfqan sürücünün köməyi ilə Xalisin rəhbərlik etdiyi İslam Partiyasının döyüşçüləri Əfqanıstan Geologiya Nazirliyinin baş müşaviri Y.M.Oxrimyuku girov götürmüş və Pakistanla sərhəddə yüksək dağlıq ərazidə yerləşən düşərgəyə aparmışdılar. (Bu şəxs SSRİ-nin əməkdar geoloqu idi, vaxtilə SSRİ Nazirlər Sovetinin aparatında işləmiş, Təbii Ehtiyatlar üzrə Dövlət Komitəsinin sədri olmuşdu). Onun Əfqanıstan hökumətinin əlinə keçmiş mücahid komandirlərindən birinə dəyişdirilməsi təklifi reallaşmadığı üçün mücahidlər 1982-ci ilin iyun ayında onu güllələmişdilər [61, 351-355].

Belə uğurlu taktika sayəsində mücahidlər ilbəil öz əməliyyatlarının sayını artırır, hakimiyyət orqanlarını və hərbi qüvvələri daimi vahimə altında saxlayırdılar. "Təkcə 1981-ci ildə mücahidlər sovet və əfqan birləşmələrinə 5000-dən çox hücum həyata keçirmişdilər. 1982-ci ilin 9 ayı ərzində isə bu rəqəm 7600-a çatmışdı. İqtisadi hədəflərə, o cümlədən, elektrik xətlərinə, qaz kəmərlərinə qarşı 4600-dən çox diversiya aktı törədilmişdi" [18, 223].

Mücahidlər həmçinin Əfqanıstan hökuməti nümayəndələrinə, ayrı-ayrı hərbçilərə qarşı terror aktları da həyata keçirirdilər. Təkcə 1985-1987-ci illərdə onlar 1800-dən çox terror aktı törətmişdilər [34, 70].

Qeyd edək ki, mücahidlərin rəhbərləri maddi həvəsləndirmə metodundan da geniş şəkildə istifadə edirdilər. Əsir götürülmüş və ya öldürülmüş hər sovet əsgərinə görə mücahidlərə 250.000 əfqani (1250 $) ödənilirdi. Sovet zabitinə görə bu məbləğ iki dəfə artıq – 500.000 əfqani (2500 $) idi. Məhv edilmiş hər bir tanka, yaxud piyadaların döyüş maşınına görə onlar 500.000 (2500 $) əfqani alırdılar. Vurulmuş hər bir təyyarə və ya vertolyota görə mücahidlərə 1.000.000 əfqani (5000 $) verilirdi" [34, 70].

1986-cı ildən başlayaraq, mücahidlərin ABŞ-dan "Stinger" raketləri alması ilə qarşı tərəfin havadakı üstünlüyü xeyli dərəcədə məhdudlaşmışdı. Onların ixtiyarında zenit qurğuları, raketlər olsa da, əsasən atıcı silahlardan və minalardan, o cümlədən, əldəqayırma fuqaslardan istifadə edirdilər. Müharibənin ikinci mərhələsində qranatomyotlar onların sevimli silahına çevrilmişdi.

Mücahidlərin sayına gəldikdə isə, işğalın ilk illərində onların 40 min nəfərdən çox olduğu, 1985-ci ildə isə 100 min nəfəri ötdüyü bildirilir [88, 61]. Hətta onların sayının 173 minə çatdığı barədə də məlumatlar var [81, 130]. Mücahidlərin sıraları daim Pakistanda və digər ölkələrdə fəaliyyət göstərən təlim düşərgələrində hazırlanan yeni döyüşçülərin hesabına genişlənirdi. Sayı

100-dən çox olan bu düşərgələrin 78-i Pakistanda, 11-i İranda, 7-si Misirdə, 5-6-sı Çində idi. Təlim düşərgələri 50.000 nəfərə qədər gənc döyüşçünü əhatə edə bilərdi və ayda təqribən 2500-3000 döyüşçü "kursları" bitirirdi. Onların hazırlanması ilə Pakistan, ABŞ, Çin, İran, Fransa, Səudiyyə Ərəbistanı, Misir, İngiltərə və Yaponiyadan olan 15 minə yaxın təlimatçı məşğul olurdu [34, 60]. Onların içərisində 10 sabiq general, 40 polkovnik, 100-dən çox digər rütbəli zabitlər vardı.

Başqa bir məlumata görə, Pakistandakı düşərgələrin sayı 124, İranda 18 idi, İraqda da 11 düşərgə vardı [81, 110].

Beləliklə, əfqan mücahidləri geniş beynəlxalq dəstəyə malik idilər və bu, müharibə səhnəsinin o qədər də görünməyən dördüncü iştirakçısından – ABŞ başda olmaqla beynəlxalq qüvvələrdən danışmağa imkan verir. Təsadüfi deyil ki, məhz xarici müdaxilə faktoru nəzərdə tutularaq, SSRİ-də Əfqanıstandakı hərbi münaqişə "elan edilməmiş müharibə" kimi təqdim olunurdu. Nəticə etibarilə, həmin münaqişə Soyuq müharibənin son qanlı səhifəsini təşkil etdi və bir sıra digər amillərlə birlikdə SSRİ adlı dövlətin xəritədən silinməsinə gətirib çıxardı.

Hələ münaqişənin ilk vaxtlarında 1979-cu ilə qədər diplomatik örtük altında Əfqanıstandakı Amerika kəşfiyyatında çalışan tanınmış tədqiqatçı Entoni Arnold yazırdı: "ABŞ qiyamçıları silahlandırmalıdırmı? Əfqanlar istənilən halda, lazım olsa daşla da vuruşacaqlar və biz onların daha səmərəli olması imkanından imtina etməməliyik. Bunun bizim mənəvi borcumuz olmadığını deyənlərə soyuq məntiq sahəsindən bir dəlil gətiririk: biz bu gün Əfqanıstandakı müharibəni SSRİ üçün nə qədər baha etsək, sabah onun analoji avantüranı başqa bir yerdə təkrar etmək imkanı bir o qədər az olacaqdır" [1, 104].

Bu məntiqə söykənərək, ABŞ hökuməti Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) vasitəsilə özünün ən uzunmüddətli əməliyyatlarından birini – "Siklon əməliyyatı"nı həyata keçirməyə başladı.

Həmin əməliyyat nəticəsində "Sovet İttifaqı elə bir siyasi və iqtisadi vəziyyətə düşdü ki, daha heç vaxt ondan çıxa bilmədi" [28, 25].

Əfqanıstana Sovet qoşunlarının yeridilməsi ABŞ-a əfqan mücahidlərinə yardımı dəfələrlə artırmağa və daha açıq şəkildə həyata keçirməyə bəhanə verdi. Prezident Karterin dövründə başlamış bu yardım Ronald Reyqanın hakimiyyəti dövründə (1981-1989) daha geniş vüsət aldı. Artıq 1981-ci ildə Reyqan martın 21-ni (əfqan Yeni ilinin ilk gününü) Əfqanıstan xalqı ilə həmrəylik günü kimi qeyd etmək təklifini irəli sürmüşdü. Məhz ABŞ-ın səyləri ilə Əfqanıstan məsələsi beynəlmiləl xarakter kəsb etdi və Britaniyadan tutmuş Yaponiyaya qədər bir çox ölkələr mücahidlərə müxtəlif səciyyəli yardımlar etməyə başladılar. Əfqanıstan münaqişəsi həmin ərəfədə o qədər də xoş olmayan ABŞ-Pakistan münasibətlərinin sürətlə yaxşılaşmasına, eləcə də ABŞ-la Çinin yaxınlaşmasına səbəb oldu ki, bu da SSRİ üçün qətiyyən arzuolunan deyildi.

Dünya dövlətlərinin əhəmiyyətli bir qismi əfqan mücahidlərinə təkcə siyasi, hərbi və maliyyə yardımı etmir, həm də mənəvi-diplomatik dəstək verirdilər. Bununla bağlı M.F.Slinkin yazır: "1980-ci il ərzində Pakistana, konkret olaraq, Əfqanıstanla sərhəd rayonlarına Qərbin və regionun bir çox yüksək rütbəli məmurları baş çəkmişdi. Onların arasında ABŞ prezidentinin köməkçisi Z.Bzejinski, Çin Xalq Respublikasının xarici işlər naziri Huanq Hua (iki dəfə), Çin hərbi akademiyasının rəisi Tsyao Ke və başqaları vardı" [88, 52]. Başqa bir müəllif qeyd edir ki, "ABŞ, Qərbi Avropa və ÇXR-in müxtəlif rütbəli dövlət xadimləri Pakistana gələrək əfqan qaçqınlarının düşərgələrinə baş çəkməyi sanki zəruri ritual sayırdılar. Həmin düşərgələrdə ABŞ-ın o zamankı vitse-prezidenti Corc Buş, ABŞ ədliyyə naziri Miz, dövlət katibi Şults, İngiltərə, Malayziya, Yaponiya və Türkiyənin baş nazirləri, ÇXR dövlət şurasının sədri, Səudiyyə Ərəbistanı şahzadə-

si, İsveçrənin vitse-prezidenti Pyer Ober, İngiltərənin xarici işlər naziri Hau və digər siyasi xadimlər olmuşdular" [90, 91-92].

Eyni zamanda mücahidlərin liderləri müxtəlif ölkələrə dəvət olunur, yüksək rütbəli dövlət rəsmiləri ilə görüşlər keçirirdilər. ABŞ prezidenti Reyqan 1983 və 1987-ci illərdə Ağ Evdə mücahid liderlərinin bir qrupu ilə, 1986-cı ildə isə Burhanəddin Rəbbani ilə görüşmüşdü. 1985-ci ildə Gülbəddin Hikmətyar "Yeddiliyin" sözçüsü kimi Nyu-Yorkda olmuşdu. 1986-cı ildə Rəbbani Almaniya Federativ Respublikasında, Mücəddidi isə Fransada görüşlər keçirmişdi.

Bütün digər yardımlarla yanaşı, mücahidlərə geniş informasiya dəstəyi də verilirdi. Qərb KİV-ləri, region ölkələrinin mətbuatı onların mübarizəsini hərtərəfli işıqlandırır, bəyanat və müsahibələrini yayırdı. Nəhayət, 1986-cı ildə ABŞ Konqresinin maliyyə yardımı ilə Pişavərdə mücahidlərin informasiya mərkəzi yaradıldı [90, 93].

Beləliklə, müasir dövrdə geniş tətbiq olunan mübarizə metodlarından (vəkalət müharibəsi, informasiya müharibəsi, psixoloji müharibə və s.) Əfqanıstan münaqişəsində istifadə edilirdi. XXI əsrdə qlobal siyasətin başağrısına çevrilmiş radikal islamçı şəbəkənin güclənməsi də Əfqanıstandakı müharibə dövrünə təsadüf edir. Bununla bağlı B.R.Rubin yazır: "Əfqanıstana sovet müdaxiləsi başlanan zaman əfqan islamçıları artıq ərəb dünyasındakı radikal islamçıları və ABŞ təhlükəsizlik qurumlarını ehtiva edən beynəlxalq şəbəkəyə qoşulmuşdular. Bu şəbəkənin mərkəzində duran açar əlaqəçi rolunu ABŞ-ın Fars körfəzi regionundakı təhlükəsizlik siyasətinin dayaqları – Səudiyyə monarxiyası və Pakistanda Ziyaül-Həqqin hərbi rejimi oynayırdılar. Əfqanıstan müharibəsində islamçı şəbəkənin inkişafı ABŞ-ın və bu iki müsəlman dövlətinin siyasətlərindən daha geniş nəticələr verdi" [3, 77].

Sonralar bir nömrəli terrorçu elan edilmiş Üsamə bin Ladenin səhnəyə çıxışı da həmin dövrə təsadüf edir. 1984-cü ildə o,

Abdullah Əzzam və Əymən əz-Zəvahiri ilə birlikdə Əfqanıstanda sovetlərə qarşı döyüşmək üçün xarici mücahidlər toplamaq məqsədilə "Məktəb əl-xədəmat" adlı təşkilat yaratmışdı. Həmin təşkilat sonralar bütün dünyanı lərzəyə salan "Əl-Qaidə" terror təşkilatının sələfi olmuşdur. Doğrudur, o, sovet işğalı dönəmində hələ geniş təsirə malik deyildi, lakin artıq 1988-ci ildə Səudiyyə Ərəbistanı, Misir, Yəmən, Suriya, Əlcəzair, Liviya və Mərakeşdən yüzlərlə könüllünü mücahidlərin sırasında döyüşməyə cəlb edə bilmişdi. Ərəb könüllüləri ilk dövrdə əfqan düşərgələrində təlim keçirdilərsə, sonradan Əfqanıstan ərazisində (Paktiya vilayətində) öz düşərgələrini yaratmışdılar.

Bu prosesin "gözləniləndən geniş nəticələr" verməsini aşağıdakı rəqəmlər bütün miqyası ilə göz önündə canlandırır: "1982-1992-ci illər arasında Orta Şərq, Şimali və Şərqi Afrika, Mərkəzi Asiya və Uzaq Şərqdəki 43 müsəlman ölkəsindən təqribən 35.000 radikal islamçı əfqan mücahidlərinin sıralarında ilk döyüş təcrübələrini keçmişdilər. On minlərlə xarici radikal islamçı Ziyaül-Həqqin hərbi hakimiyyətinin Pakistanda və Əfqanıstan sərhədində qurduğu yüzlərlə yeni mədrəsədə təlim görməyə gəlirdi. Bütövlükdə 100.000 nəfərdən çox radikal islamçı Pakistan və Əfqanıstanla birbaşa əlaqədə olmuş və cihaddan təsirlənmişdir" [14]. Məhz buna görə də 1980-ci illərin sonunda Pakistanın baş naziri Binəzir Bhutto ABŞ prezidenti Corc Buşa xəbərdarlıq etmişdi: "Siz frankenşteyn yaradırsınız" [37].

ABŞ-ın, eləcə də digər ölkələrin mücahidlərə göstərdiyi maliyyə yardımının məbləğinə gəldikdə isə, bu barədə müxtəlif rəqəmlər səsləndirilir. B.R.Rubinin yazdığına görə, "ABŞ-ın yardımı 1980-ci ildəki 30 milyon dollardan 1986-1989-cu illərdə ildə 600 milyon dollara qədər artdı. Səudiyyənin və digər ərəb ölkələrinin yardımı ABŞ-ın payına bərabər, yaxud ondan bir az artıq idi" [3, 81]. Bütövlükdə ABŞ-ın mücahidlərə maliyyə yardımının miqdarı 2-3 milyard dollar olmuşdur. Qeyri-rəsmi hesablamalar müca-

hidlərə göstərilən köməyin bir neçə dəfə artıq olduğunu göstərir. Belə ki, hətta Kolumbiya narkokartelləri də mücahidlərə milyardlarla dollar yardım etmişlər [81, 111]. Üstəlik, mücahidlər özləri də narkotik istehsalı və satışından böyük məbləğdə vəsait əldə edirdilər. 1981-ci ildən 1991-ci ilə qədər Əfqanıstanda narkotik istehsalı təqribən 10 dəfə artaraq, 225 tondan 2000 tona yüksəlmişdi.

Mücahidlərə pul və silahın çatdırılması əsasən 3 xüsusi xidmət – MKİ, Pakistanın ISI (Inter-Services Intelligence) və Səudiyyə Ərəbistanının GIP (General Intelligence Presidency) təşkilatları tərəfindən həyata keçirilirdi [3, 81]. MKİ ümumi koordinasiyanı həyata keçirir, ISI isə bilavasitə mücahidlərlə işləyirdi. Hər iki qurumda Əfqanıstanla bağlı xüsusi departament fəaliyyət göstərirdi.

Əfqanıstandakı "cihad"ın və ona beynəlxalq dəstəyin qeyd olunan miqyası Sovet hökumətini və Karməl rejimini çətin vəziyyətə salmışdı. Sovet kontingenti marşal Sokolovun dediyinə rəğmən, nəinki 6 aya, heç bir ilə də "əksinqilabı" məhv edə bilmədi, əksinə, onun gözlənilməyən müqaviməti ilə üz-üzə qaldı. Karməl hakimiyyətinin öz sosial-siyasi dayaqlarını möhkəmlətmək, əhalinin daha geniş təbəqələrini öz tərəfinə çəkmək yönündəki bütün addımları, o cümlədən, qırmızı bayraqdan imtina olunması, müxtəlif ictimai təşkilatları birləşdirən Milli Cəbhənin (Cebheye-Melliye-Pedərvətən) yaradılması və s. ciddi nəticə vermədi. Öz daxilində birliyi təmin edə bilməyən Karməl hakimiyyətinin ölkədəki mövqeləri aybaay zəifləyirdi. Onun qonşu dövlətlərlə dil tapmaq cəhdləri daim bir tələblə – sovet qoşunlarının ölkədən çıxarılması tələbi ilə üzləşirdi.

İşğaldan bir ildən bir qədər artıq vaxt keçəndən sonra – 1981-ci ilin əvvəllərində SSRİ müdafiə naziri D.Ustinov ilk dəfə olaraq, Siyasi Büroya Əfqanıstan probleminin hərbi həllinin mümkünlüyünə şübhə ifadə edən arayış göndərdi [93, 302], lakin bunun ciddi bir təsiri olmadı. Əslində Əfqanıstana müdaxilənin doğura-

cağı mənfi, daha doğrusu, fəlakətli nəticələr işğaldan dərhal sonra – 1980-ci ilin yanvarında – SSRİ Elmlər Akademiyası alimlərinin Sov.İKP MK-ya göndərdiyi məxfi analitik arayışda kifayət qədər dəqiq əksini tapmışdı, lakin ona məhəl qoyulmamışdı.

Sovet rəhbərliyi hələ də qoşunların gücü ilə Əfqanıstanda qayda-qanun yaradacağına ümid bəsləyirdi və bu ümidin sarsılmasına daha bir il lazım oldu – məsələnin həlli üçün diplomatik səylərin zəruriliyi dərk edildi. 1982-ci ilin fevralında BMT-nin yeni seçilmiş baş katibi Peres de Kuelyar öz müavini Dieqo Kordovesi Əfqanıstan üzrə xüsusi nümayəndəsi təyin etdi. Həmin ilin iyun ayında onun vasitəçiliyi ilə Cenevrədə Kabul hökuməti və Pakistan nümayəndələri arasında ilk danışıqlar oldu. Bununla da Əfqanıstan məsələsinin siyasi nizamlanmasına dair bir neçə il davam edən müzakirələrə start verildi. Daha dəqiq desək, Əfqanıstan ətrafında oyunun yeni, daha incə və mahiyyət etibarilə həlledici mərhələsi başladı. Belə ki, ABŞ danışıqları dəstəkləsə də, Sovet qoşunlarının belə tezliklə Əfqanıstanı tərk etməsini istəmirdi. Müharibənin sovet iqtisadiyyatına və cəmiyyətinə təsirini diqqətlə izləyən ABŞ hökuməti hələ lazımi nəticənin əldə olunmadığı qənaətində idi, odur ki, işğalın davam etməsində, SSRİ-yə dəyən çoxcəhətli ziyanın artmasında maraqlı idi.

Sovet rəhbərliyi də diplomatik müzakirələrə qoşulmaqla bərabər, Əfqanıstandakı əlaltı rejimi möhkəmləndirmək xəttini davam etdirir, vəziyyətdən mümkün qədər üzüsulu çıxmağa çalışırdı. SSRİ-nin əsas strategiyası qoşunları çıxartmaqla bərabər, Əfqanıstanda özünə sərf edən "dost hökumətin", yaxud ən azı neytral bir rejimin qurulmasını təmin etməkdən ibarət idi. 1982-1985-ci illərdə Sovet rəhbərliyində bir-birini ardınca baş verən dəyişikliklər (Brejnev, Andropov və Çernenkonun vəfatı) bu prosesi ləngitsə də, 1985-ci ilin martında Sov.İKP MK-nın Baş katibi seçilən Mixail Qorbaçov həmin strategiyanı fəal şəkildə həyata keçirməyə cəhd etdi. O, hakimiyyətə gəldiyi ilk çağlarda

Əfqanıstandan qoşunların çıxarılmasını sürətləndirmək xəttini açıq şəkildə bəyan etdi (1985-ci ilin oktyabr ayında bu barədə Siyasi Büro qərar qəbul etmişdi). 1986-cı ilin noyabrında Siyasi Büronun iclasındakı çıxışı zamanı Qorbaçov müharibə yolunun perspektivsizliyini birbaşa etiraf edərək demişdi: "Artıq biz 6 ildir ki, Əfqanıstanda döyüşürük. Əgər yanaşmanı dəyişməsək, biz orada daha 20, yaxud 30 il döyüşə bilərik. Biz ən qısa zamanda buna son qoymalıyıq" [60, 73].

Sovet rəhbərliyinin bu narahatlığı əsassız deyildi. Artıq Əfqanıstan müharibəsinin ağır iqtisadi, sosial və humanitar nəticələri, ölkənin beynəlxalq mövqelərinə vurduğu zərbələr bütün çılpaqlığı ilə özünü göstərirdi. Əsgər valideynləri Moskvada etiraz mitinqləri keçirirdilər. Qoşunların Əfqanıstanda qalmaqda davam etməsi sovet rəhbərliyinin elan etdiyi "yeni siyasi təfəkkür"lə uzlaşmırdı və beynəlxalq əlaqələrdə ciddi əngələ çevrilirdi. Odur ki, məsələnin siyasi həllinə dair niyyətin ciddiliyini sübut etmək üçün artıq 1986-cı ilin oktyabr ayında ilk addım kimi Əfqanıstandan 6 sovet polku çıxarıldı.

Bu dövrdə qeyd olunan strategiyanı reallaşdırmaq üçün SSRİ rəhbərliyi: 1) Əfqanıstanda hərbi əməliyyatları intensivləşdirməklə mücahidləri mümkün qədər zəiflətmək və qoşunlar çıxarılandan sonra Əfqanıstan hökumətinə daha əlverişli şərait təmin etmək; 2) Cenevrə prosesində iştirak etmək və Əfqanıstan məsələsinə dair beynəlxalq müzakirələri genişləndirmək; 3) Əfqanıstanda siyasi sistemin və daxili siyasətin yeni şəraitə uyğun surətdə dəyişdirilməsinə nail olmaq kimi üçtərəfli bir xətt yeridirdi. Buna uyğun olaraq, artıq əfqan cəmiyyətində tamamilə nüfuzunu itirmiş, vəziyyətdə hər hansı dəyişiklik etməyə qadir olmayan Bəbrək Karməlin hakimiyyətdən uzaqlaşdırılması məsələsi gündəmə gəldi. Sovet rəhbərliyinin seçimi "DTK-nın yetirməsi", gənc və enerjili Məhəmməd Nəcibullanın üzərinə düşdü. XAD şefi 1986-cı ilin fevral ayında Karməllə birgə Moskvada olmuş,

qonaq kimi Sov.İKP-nin XXVII qurultayında iştirak etmişdi. Məsələ də elə o vaxt həll olmuşdu. Həmin il mayın 4-də ƏXDP MK-nın 18-ci plenumu keçirildi. Karməl "səhhəti ilə əlaqədar" Baş katib vəzifəsindən azad edildi və onun yerinə Nəcibulla seçildi [88, 68].

1987-ci ildə Karməl ailəsi ilə birgə Moskvada məskunlaşdı. Həmin ilin yanvarında isə Əfqanıstanın təzə rəhbəri yeni siyasi kurs – Milli Barışıq siyasətini elan etdi. Bu siyasət hərbi əməliyyatların birtərəfli qaydada 6 ay müddətinə dayandırılmasını (atəşkəs), müxalifətlə dialoqu və koalisiya hökumətinin qurulmasını ehtiva edirdi. Əsas hədəf kimi ölkədə hərbi qarşıdurmanın zəiflədilməsi və dayandırılması, hakimiyyətin sosial bazasının genişləndirilməsi, onda müxtəlif siyasi qüvvələrin təmsilçiliyi yolu ilə cəmiyyətin konsolidasiyasına nail olunması götürülürdü. ƏXDP hakimiyyətə monopoliyasından imtina etdiyini bəyan edirdi. Lakin tezliklə bu kursun gerçəkləşdirilməsinin mümkün olmadığı aydınlaşdı – Nəcib hökuməti elan etdiyi siyasəti həyata keçirmək üçün səmərəli mexanizmlər işləyib hazırlaya bilmədi. Doğrudur, ölkədə çoxpartiyalı sistem elan edildi, 1987-ci ildə Loyə Cirgə (Böyük Şura) yeni Konstitusiya qəbul edərək Nəcibullanı prezident seçdi, ölkənin adı dəyişdirilərək Əfqanıstan Respublikası oldu, 1988-ci ildə çoxpartiyalı əsasda parlament seçkiləri keçirildi, daha sonra yeni "koalisiya hökuməti" quruldu, bir vaxtlar Davud xanın hökumətində təmsil olunmuş Həsən Şərq baş nazir seçildi [70, 429-432].

Lakin bu və digər addımlar gözlənilən nəticəni vermədi, ən başlıcası, Pişavər "Yeddiliyi" milli barışıqda iştirakı qətiyyətlə rədd etdi və beləliklə də, silahlı qarşıdurmanı dayandırmaq mümkün olmadı. Bu şəraitdə Sovet rəhbərliyi hələ işğalın başlanğıcında İran İslam Respublikasının banisi ayətullah Xomeyninin Tehrandakı sovet səfirinə məsləhət gördüyü yolu – "tez işini görüb çıxmaq" taktikasını işə saldı. Bütün 1987-ci il ərzində sovet qoşunları durmadan iri əməliyyatlar həyata keçirdilər (məsələn,

Kunduzda "Zərbə", Qəndəharda "Yaylım", Qəznidə "Tufan", Xostda "Magistral" kimi əməliyyatlar). Bu əməliyyatlar əsas kommunikasiya xətlərini nəzarətə almaq, mücahidlərin bazalarına güclü aviasiya zərbələri endirmək yolu ilə Kabul hökumətini nisbətən əlverişli şəraitdə tərk etmək məqsədini güdürdü. Buradan ABŞ-ın niyə məhz 1986-cı ildən etibarən "yer-hava" tipli "Stinger" raketlərini (bura ingilislərin "Bloupayp" raketlərini də əlavə etmək lazımdır) mücahidlərə verdiyi aydın olur: bu, sovet ordusunun intensivləşən aviasiya zərbələrinə bir növ cavab idi.

ABŞ rəhbərliyi SSRİ-nin qeyd olunan strategiyasını yaxşı anlayırdı və onun gerçəkləşməsinə imkan vermək fikrində deyildi. Təsadüfi deyil ki, 1985-ci il martın 27-də (Qorbaçovun hakimiyyətə gəlişindən təqribən 2 həftə sonra!) prezident Reyqan "ABŞ-ın Əfqanıstandakı siyasəti, proqramları və strategiyası" adlı 166 saylı məxfi direktiv imzalamışdı (NSDD-166 kimi məşhurdur). Həmin sənəddən aydın olur ki, ABŞ nəinki Sovet qoşunlarının Əfqanıstandan çıxarılmasına, eyni zamanda bu ölkədə sovet təsirinin tamamilə aradan qaldırılmasına hədəflənmişdi və bu üzdən mücahidlərə yardımı davam etdirmək, həmçinin SSRİ-yə siyasi-diplomatik təzyiqi artırmaq xəttini öz strategiyasının iki əsas istiqaməti kimi müəyyənləşdirmişdi [25].

Artıq xeyli zəifləmiş SSRİ bu təzyiqlərə davam gətirməyib Nəcibulla hökumətini, necə deyərlər, ayaq üstə qoymadan, qoşunlarını çıxarmağa razılıq verdi. 1988-ci il aprelin 14-də Cenevrədə tarixi sazişlər paketi imzalandı: Əfqanıstanla Pakistan arasında qarşılıqlı münasibətlərin prinsipləri barədə; eyni tərəflər arasında vəziyyətin nizamlanması üçün qarşılıqlı əlaqə barədə; SSRİ ilə ABŞ arasında qarant dövlətlər olmaq barədə sazişlər və dörd tərəf arasında bağlanan sazişlərə dair "Anlaşma memorandumu". SSRİ və ABŞ xarici işlər nazirləri həmçinin beynəlxalq qarantiyalara dair Bəyannamə imzaladılar. Razılaşmaların özəyində sovet qoşunlarının mərhələli şəkildə Əfqanıstandan çıxması və xarici müdaxiləyə son qoyulması dayanırdı. Bu proses 3 mərhələdə –

1988-ci il mayın 15-dən 1989-cu il fevralın 15-dək həyata keçirildi və SSRİ-nin məhdud kontingenti tam şəkildə Əfqanıstanı tərk etdi [88, 111].

Bununla belə ABŞ əfqan mücahidlərinə yardımını dayandırmadı. SSRİ də ağır iqtisadi durumuna rəğmən, Nəcibulla hökumətinə iqtisadi-hərbi dəstəyini davam etdirdi. Məhz bu köməyin sayəsində Nəcibulla hökuməti çoxsaylı proqnozlara, o cümlədən, mücahidlərin əksər rəhbərlərinin gözləntilərinə rəğmən, daha üç il duruş gətirdi. Lakin ölkənin yenidən dirçəlməsi qeyri-mümkün sayıla bilərdi. Təqribən 10 il davam edən işğal və aramsız müharibə Əfqanıstana sağalmaz yaralar vurmuşdu. Quru statistika həmin yaraların miqyasını bu cür əks etdirir: "10 il ərzində 1.500.000 insan ölmüş, 350.000 nəfər əlil olmuş, kəndlərin üçdə biri xəritədən silinmişdir. 5.500.000 əfqan qaçqın düşmüş, 200.000 adam ölkə daxilində köçkün olmuş, 200.000 hektar meşə, 1500 km asfalt yolu, 600 km elektrik xətti, 114 sağlamlıq mərkəzi, 28 xəstəxana məhv edilmişdir. İşğalın vurduğu maddi ziyan 100 milyard dollar olmuşdur" [45, 10].

SSRİ də Əfqanıstan müharibəsindən ağır itkilərlə çıxmışdır. Rəsmi məlumata görə, müharibədə həlak olanların ümumi sayı 14.453 nəfərdir, 417 nəfər itkin və ya əsir düşmüş, 10.751 nəfər əlil olmuşdur [82]. Lakin bəzi müəlliflər ölənlərin sayının rəsmi rəqəmdən 3 dəfə artıq olduğunu qeyd edirlər [18, 235]. Başqa bir mənbədə təkcə 40-cı ordunun insan itkilərinin sayının 26.000 nəfər (2990 nəfəri zabit olmaqla) olduğu göstərilir [34, 43-44].

Hərbi texnika sarıdan da SSRİ-nin itkiləri az olmamışdır, o cümlədən, 118 təyyarə, 332 vertolyot, 147 tank sıradan çıxmışdır [82].

Bütövlükdə müxtəlif illərdə Əfqanıstanda xidmət keçmiş sovet hərbçilərinin sayı 620.000 nəfər olmuşdur. Onlardan 86 nəfəri "Sovet İttifaqı Qəhrəmanı" adına (28-i ölümündən sonra) layiq görülmüş, 200.000 nəfər orden və medallarla təltif edilmişdir [81, 136].

SSRİ-nin maliyyə itkiləri barədə də müxtəlif rəqəmlərə rast gə-

lirik, çünki bununla bağlı rəsmi məlumat açıqlanmamışdır. Təkcə 1978-1990-cı illərdə SSRİ-nin Əfqanıstana göstərdiyi humanitar yardımın məbləği dəqiq hesablanmışdır – 8 milyard 48,6 milyon invalyuta rublu. Başqa bir məlumata görə, SSRİ-nin Əfqanıstana iqtisadi yardımının həcmi ildə təqribən 1 milyard dollara bərabər olmuşdur. Müharibənin özü isə SSRİ-yə 50 milyard dollara başa gəlmişdir [81, 137]. Digər bir mənbə SSRİ-nin Əfqanıstandakı müharibəyə çəkdiyi xərclərin ildə 7-12 milyard dollar arasında olduğunu göstərir [18, 223].

Qeyd etdiyimiz kimi, Əfqanıstan müharibəsi son nəticədə SSRİ-nin dağılmasında önəmli amil kimi çıxış etmişdir. Bu fikir bütün dünyada geniş yayılmışdır, hətta bu barədə ayrıca kitab da yazılmışdır [100]. Lakin müasir Əfqanıstanı Öyrənmə Mərkəzinin eksperti (hazırda Avrasiya Analitik Klubunun rəhbəri) Nikita Mendkoviç bu fikrə özünəməxsus şəkildə etiraz etmişdir. O, Əfqanıstan müharibəsi dövründə SSRİ-nin maliyyə itkilərinin 30,4 milyard rubla bərabər olduğunu bildirərək, deyir: “Çətin ki, bu məsrəflər Sovet ölkəsi və iqtisadiyyatının dağılmasına səbəb olmuşdur”. Müəllif daha sonra əlavə edir ki: “Xərclərin mütləq qiyməti nisbətən böyük idi, lakin nə o illərdəki ümumi daxili məhsulun, nə dövlət büdcəsinin, nə də büdcə kəsirinin əhəmiyyətli hissəsini təşkil etmirdi” [80].

Məsələyə bu cür baxış, ən yumşaq deyimlə, primitiv yanaşma kimi dəyərləndirilə bilər. Əvvəla, heç kəs demir ki, SSRİ yalnız Əfqanıstandakı iqtisadi məsrəflərinə görə süqut etmişdir, hərçənd rəqəmlərin büdcədə hansı faizi göstərməsindən asılı olmayaraq, bu amili də nəzərdən qaçırmaq olmaz: həmin dövrdə SSRİ-də iqtisadi durum böhran səciyyəsində idi və ölkədə şəkər tozu talonla verildiyi halda Həyrətandakı anbarlar şəkər kisələri ilə dolu idi. İkincisi, heç kəs iddia etməmişdir ki, Əfqanıstan müharibəsi SSRİ-nin dağılmasının yeganə səbəbi olmuşdur. Məsələnin dolğun elmi izahına Rafael Ruveni və Asim Prakaşın “Əfqanıstan müharibəsi və Sovet İttifaqının dağılması” adlı məqaləsində rast gəlirik [27].

Onların haqlı olaraq, qeyd etdiyi kimi, Əfqanıstan müharibəsi sistem və liderliklə (Qorbaçovun idarəçiliyi) bağlı faktorlarla birlikdə SSRİ-nin parçalanmasında başlıca səbəblərdən biri olmuşdur. Müəlliflərin yazdığına görə, müharibə Sovet siyasətinə dörd labüd təsir göstərmişdir: "1) Qavrayış təsirləri: o, imperiyanı bir yerdə saxlamaq və xarici ölkələrə müdaxilə etmək üçün ordudan istifadənin səmərəliliyi barədə liderlərin təsəvvürlərini dəyişdirdi; 2) Hərbi təsirlər: o, Qızıl Ordunu gözdən saldı, partiya ilə ordu arasında uçurum yarandı və Qızıl Ordunun məğlubedilməz olmadığını nümayiş etdirdi ki, bu da qeyri-rus respublikaları müstəqilliyə can atmağa həvəsləndirdi; 3) Legitimlik təsirləri: o, qeyri-rusların müstəqillik tələb etməsinə səbəb oldu, çünki onlar bu müharibədə Rusiyanın qeyri-ruslar vasitəsilə əfqanlara qarşı vuruşduğunu gördülər; 4) Fəallıq təsirləri: o, siyasi fəallığın yeni formalarını yaratdı, mətbuatı (medianı) aşkarlıqdan (qlasnost) əvvəl dəyişdirməyə başladı, aşkarlığın ilk qığılcımlarını doğurdu və veteranların ("əfqanlar") əhəmiyyətli kütləsini meydana çıxardı ki, onlar da yeni qeyri-hökumət təşkilatları qurmaqla kommunist partiyasının hegemonluğunu zəiflətdilər" [27, 693].

Qeyd olunan təsirlər SSRİ-dəki sistem böhranı və yarıtmaz idarəçiliklə çulğaşaraq dezinteqrasiya proseslərini sürətləndirdi və sonuncu sovet əsgəri Əfqanıstanı tərk edəndən iki il yarım sonra imperiya dağılmağa başladı. Eyni zamanda sovet qoşunlarının Əfqanıstandan çıxarılmasından cəmi bir neçə ay sonra – 1989-cu ilin dekabrında Soyuq müharibə başa çatdı. Bununla əlaqədar S.Hantinqton yazır: "Amerikalılar və ümumiyyətlə Qərb adamları üçün Əfqanıstan Soyuq müharibədə qəti, həlledici qələbə, onun özünəməxsus Vaterloosu idi". Və dərhal da əlavə edir ki: "Qərbdə azad dünyanın qələbəsi sayılan hadisəyə (Əfqanıstan müharibəsinə - M.M.) müsəlmanlar islamın qələbəsi kimi baxırdılar" [94, 164]. Bu mənada Əfqanıstanda sovet işğalının başa çatması təkcə dünya tarixində bütöv mərhələnin sonu deyil, həm də yeni səhifənin başlanğıc nöqtələrindən biri idi.

## Mücahidlər hakimiyyət başında: hamı hamıya qarşı

Sovet qoşunları Əfqanıstandan çıxarılsa da, SSRİ-nin Nəcibulla rejiminə iqtisadi və hərbi yardımı davam edirdi, o cümlədən, onun ixtiyarına müasir silahlar verilirdi. Həmin yardımın miqyasını təsəvvür etmək üçün aşağıdakı rəqəmlərə diqqət yetirmək kifayətdir: "Moskva ilə Kabul arasında "hava körpüsü" qurulmuşdu və onunla Əfqanıstana silah, ərzaq və hətta pul gedirdi. Hər gün paytaxt aeroportunda 5-dən 40-a qədər İL-76 hərbi-nəqliyyat təyyarəsi eniş edirdi. Belə ki, 1989-cu ilin mart-iyul aylarında Əfqanıstana 150 ədəd T-55 və T-62 tankları, 615 ədəd piyadaların döyüş maşını və minlərlə ton yanacaq göndərilmişdi. Silahlar arasında hərəsi 1 milyon dollar dəyərində olan 550 "Skad" raketi də vardı. Moskvanın ümumi aylıq yardımı 250-300 milyon dollar, yəni ildə ən azı 3 milyard dollar təşkil edirdi" [70, 443].

Onu da əlavə edək ki, 40-cı ordu ölkəni tərk edərkən, 3 aylıq ehtiyatını, eləcə də ixtiyarında olan hərbi texnikanın, ərzaq və yanacağın böyük bir hissəsini əfqan ordusuna vermişdi. Bu resurslar, həmçinin Nəcibullanın iradəli bir siyasətçi kimi özünü göstərməsi sovet qoşunları çıxdıqdan az sonra onun hökumətinin süqut edəcəyi barədə proqnozları alt-üst etdi (ABŞ kəşfiyyatının rəyinə görə, bu, 3-6 ay ərzində baş verməli idi). Əksinə, o, 1989-1990-cı illərdə iki ağır sınaqdan – mücahidlərin ölkənin şərqindəki Cəlalabad şəhərinə irimiqyaslı hücumundan (mart, 1989) və özünün təyin

etdiyi müdafiə naziri Şahnəvaz Tənəyin rəhbərliyi ilə hərbi çevriliş cəhdindən (mart, 1990) uğurla çıxa bildi. Mücahidlər içərisində, xüsusən Əhməd şah Məsudla Gülbəddin Hikmətyar arasında ziddiyyət və toqquşmalar da Nəcibulla rejiminin ömrünün nisbətən uzanmasına xidmət etdi.

Lakin beynəlxalq aləmdə və ən mühümü, SSRİ-də gedən proseslər bu rejimin süqutunu labüd edirdi. 1991-ci ilin avqustunda SSRİ-də baş vermiş "QKÇP" olayı onun taleyində dönüş nöqtəsi oldu. 1991-ci il sentyabrın 13-də SSRİ və ABŞ xarici işlər nazirləri növbəti ilin əvvəlindən Əfqanıstandakı münaqişə tərəflərinə hər cür yardımın dayandırılması barədə saziş imzaladılar. Bir qədər sonra – noyabr ayında mücahidlərin önəmli liderlərindən biri, Əfqanıstan İslam Cəmiyyətinin (ƏİC) rəhbəri Bürhanəddin Rəbbani Moskvaya gəldi və Rusiya Federasiyası rəhbərliyi ilə görüşlər keçirdi. Yeni Rusiya rəhbərliyi açıq-aşkar Nəcibulla hökumətini dəstəkləməyə maraq göstərmirdi.

1992-ci ilin yanvarından etibarən şimaldan gələn yardımın kəsilməsi ilə Nəcibulla rejimi aqoniya mərhələsinə daxil oldu. Mücahidlər 1992-ci ilin mart-aprel aylarında bir-birinin ardınca vilayətləri ələ keçirməyə başladılar [111, 77-78]. Rejimə son zərbəni Nəcibullanın özünün ucaldıb gücləndirdiyi general Rəşid Dustum vurdu: 1992-ci il mart ayının 20-də o, Məzari-Şərifdə öz təşkilatını – Əfqanıstan Milli İslami Hərəkatını yaratdığını elan etdi və Əhməd şah Məsudla koalisiyaya girdi. Nəcibullanın ətrafı sürətlə onu tərk etməyə başladı. Bütün bu müddət ərzində öz mübarizə və didişmələrindən əl çəkməyən "Pərçəm"çilərin bir çoxu Dustuma qoşuldu, "Xəlq"çilər isə Hikmətyarla əlaqə qurdular (yeri gəlmişkən, uğursuz çevriliş cəhdindən sonra "Xəlq"çi müdafiə naziri general Tənəy də Hikmətyarın yanına qaçmışdı). Yalnız bir nəfər – Dövlət Təhlükəsizliyi Nazirliyinin (keçmiş XAD-ın) rəhbəri general Qulam Faruq Yaqubi özünü tapançası ilə vuraraq, intihar etdi [18, 247].

Aprelin 16-da Nəcibulla istefa verərək, BMT-nin təyyarəsi ilə ölkədən çıxmağa cəhd etdi, lakin Dustumun adamları tərəfindən saxlanılıb geri qaytarıldı. Belə olduqda, o, qardaşı Şapur Əhmədzəylə birlikdə BMT-nin Kabuldakı missiyasına sığındı və təqribən 4 il orada qalmalı oldu (1996-cı ilin sentyabrında Taliban qüvvələri Kabulu ələ keçirəndə Nəcibulla və qardaşı vəhşicəsinə qətlə yetirildi).

Tezliklə Əhməd şah Məsudun qüvvələri heç bir müqavimət görmədən Kabula daxil oldular. Artıq aprelin 25-də Kabulda Məsud və Hikmətyar qüvvələri arasında döyüşlər baş verdi [111, 79]. Bu, ölkəni qarşıda nələrin gözlədiyini göstərmək baxımından əlamətdar idi: Əfqanıstanda vətəndaş müharibəsinin yeni, daha dəhşətli mərhələsi başlayırdı.

Qeyd edək ki, aprelin ortalarında Nəcibullanın çox güvəndiyi 53-cü diviziyanın komandanı R.Dustum, eləcə də İslami Vəhdət Partiyasının sədri Əbdüləli Məzari ilə yanaşı, kommunist hakimiyyətinin bir çox nümayəndələri və generalları Əhməd şah Məsudun yanına gələrək, onunla əməkdaşlığa hazır olduqlarını bildirmişdilər, hətta ona dövlətin rəhbərliyini öz əlinə almağı təklif etmişdilər. Təklif edilən plana görə, Məsud – prezident, Məzari – baş nazir, Dustum isə müdafiə naziri olacaqdı. Lakin Məsud bu məsələnin islam partiyaları ("Yeddilik") tərəfindən həll olunacağını bildirmişdi. Nəcibullanın BMT missiyasının binasına sığındığı gün xarici işlər naziri Əbdülvəkil bir müddət əvvəl Məsudun əlinə keçmiş Pərvan vilayətinin mərkəzi Çarikar şəhərində onunla görüşüb "Vətən" partiyasının (1990-cı ildən ƏXDP belə adlanmağa başlamışdı) hökuməti mücahidlərə təhvil verməyə hazır olduğunu bildirmişdi. Bundan sonra Məsud radiostansiya vasitəsilə Hikmətyarla danışmış və təklif etmişdi ki, belə bir vəziyyətdə mücahidlərin silahlı dəstələrinin paytaxta girməsinə lüzum yoxdur. Hikmətyar isə mücahidlərin silahlı şəkildə "fateh kimi" Kabula daxil olmasına üstünlük verdiyini bildirmişdi [127, 126].

Hikmətyar Məsudun yanında gedən müzakirələrdən, şübhəsiz, xəbərdar idi, odur ki, digər partiya rəhbərləri ilə Pişavərdəki danışıqları tərk edib yubanmadan Kabulun cənub ətrafına gəldi. O, aprelin 18-də bəyanat yayaraq, mücahidlərin bir dəstəsinin (yəni Məsudun) Moskvanın əlaltısı olan Karməl və Keştməndin başçılıq etdiyi xəyanətkar qrupun avantürasına uyduğunu, Əfqanıstanda müharibənin davam etməsində və onun parçalanmasında maraqlı olan qonşu ölkənin (İranın) alətinə çevrildiyini bildirdi və mömin mücahidləri bu "xaincəsinə qəsdin" qarşısında birləşməyə çağırdı. Bəyanatda Kabul tam süqut edənə qədər silahlı mübarizənin vacibliyi elan olunurdu. Ertəsi gün o, başqa bir bəyanatla Kabul ətrafındakı komandanlardan ibarət müvəqqəti hökumət təşkil olunduğunu bildirdi: yaxın bir ildə seçkilər keçiriləcək və hakimiyyət seçkilərin qalibinə təhvil veriləcəkdi.

Hikmətyarın bəyanatlarına cavab olaraq, ƏİC rəhbəri Rəbbani daha açıq və daha sərt bəyanatla çıxış etdi. Aprelin 23-də yayılmış həmin bəyanatda mücahidlərin qazandığı uğurlara qarşı bir tərəfdən Əfqanıstanda islam hökuməti yaranmasının əleyhdarları, digər tərəfdən də siyasi-hərbi məğlubiyyətə uğrayıb təcrid olunmuş şəxslər (Hikmətyar nəzərdə tutulur – M.M.) tərəfindən təxribatlar törədildiyi, dil və etnik məsələlərin son qələbələrdə (Məsudun şimal vilayətlərindəki sürətli qələbələrinə işarə edilir – M.M.) əsas amil olduğunu, ƏİC-nin "Vətən" kommunist partiyası ilə koalisiya hökuməti qurmaq niyyətinə düşdüyünü bəyan etməklə xalqı çaşdırmağa çalışıldığı bildirilirdi. Rəbbani kommunistlərlə ittifaq ittihamını qətiyyətlə rədd edərək "bütün cihad qüvvələrinin iştirakı ilə islam hökumətinin qurulmasına tərəfdar olduğunu, islam və cihad düşmənlərinin, eləcə də hegemonluğa can atan və uzağı görməyən ünsürlərin (yenə Hikmətyar nəzərdə tutulur – M.M.) puştu-tacik, şiə-sünni adı altında təxribatlarını şiddətlə pislədiyini" bəyan edirdi.

Bu sözlər ixtilafların ideoloji zəmində deyil, etnik və məzhəb zə-

minində olduğunu açıq şəkildə ifadə edirdi. Əslində uzun illərdən bəri istər hakimiyyət, istərsə də mücahidlər arasında latent formada özünü göstərən etnik ziddiyyətlər artıq açıq müstəviyə keçirdi və daha qanlı mübarizənin başlandığından soraq verirdi.

Maraqlıdır ki, Məsud və Rəbbanini "Pərçəm"çilərlə işbirliyində suçlayan Hikmətyar özü aprelin 24-də Logər vilayətində Nəcibullaya yaxın olan "Pərçəm"çi (Nəcibullanın hakimiyyəti dövründə "Pərçəm" və "Xəlq"in hər biri də iki qrupa bölünmüşdü – onu dəstəkləyənlər və əleyhinə olanlar) vitse-prezident (keçmiş müdafiə naziri) general Məhəmməd Rəfi ilə görüşmüş və müəyyən razılığa gəlmişdi [127, 129]. Qeyd edək ki, Nəcibulla istefa verdikdən sonra onun funksiyalarını vitse-prezidentlərin və xarici işlər nazirinin daxil olduğu Şura yerinə yetirirdi və Rəfi həmin Şuranın üzvü kimi kommunist hökumətini təmsil edirdi. (Şura vitse-prezident Əbdürrəhim Hatifi müvəqqəti prezident təyin etmişdi).

Digər tərəfdən, Məsudun ətrafındakı qüvvələri qonşu ölkənin (İranın) maraqlarına xidmətdə ittiham edən Hikmətyar nədənsə özünün başqa bir qonşu ölkənin (Pakistanın) mənafelərinə xidmət etdiyini "unudurdu". Məhz Hikmətyarı hakimiyyətə gətirmək üçün Pakistanın rəsmi qurumları sovet qoşunlarının Əfqanıstandan çıxmasından 20 gün sonra (1989-cu ilin martında) mücahidlərin ağır məğlubiyyəti ilə nəticələnən Cəlalabad əməliyyatını tələm-tələsik həyata keçirmişdilər. Plana əsasən, şəhər azad olduqdan sonra Hikmətyarın başçılıq etdiyi müvəqqəti hökumət orada yerləşməli idi. Əməliyyat ABŞ-ın razılığı və Pakistanın baş naziri Binəzir Bhuttonun nəzarəti ilə bilavasitə ölkənin kəşfiyyatı (ISI) tərəfindən hazırlanmışdı. Əsasən Hikmətyar və Səyyafın qüvvələrinin qatıldığı əməliyyatda ərəb könüllüləri və Pakistan hərbçiləri də iştirak edirdilər. 15.000 nəfərin cəlb olunduğu bu əməliyyat mücahidlərin müasir hərb qaydaları ilə həyata keçirdiyi ilk hücum idi.

Dörd aydan çox davam edən Cəlalabad əməliyyatı azı 3000 mücahidin, 10.000 nəfərdən çox dinc əhalinin həlak olması ilə başa

çatmışdı. Macar tədqiqatçısı Nəsrin Katonanın yazdığına görə, Cəlalabad döyüşü II Dünya müharibəsindən sonra baş vermiş ən böyük döyüşlərdən biri olmuşdur [107]. Təkcə onu demək kifayətdir ki, hökumət qüvvələri tərəfindən şəhərə 400-dən çox "Skad" ballistik raketi atılmışdı. Cəlalabad məğlubiyyəti həm də ISI-nin rəhbəri Həmid Gülün vəzifəsindən azad olunması ilə nəticələnmişdi.

Acı məğlubiyyətdən az sonra Hikmətyarın dəstələri həmin əməliyyatda onları yetərincə dəstəkləməyən Məsudun qüvvələri ilə Təxar vilayətində döyüşə girmiş və xeyli adamı qətlə yetirmişdi. Daha sonra Məsud onun əsgərlərini öldürən İslam Partiyası mücahidlərini əsir götürüb edam etmişdi. Bütün bunlar mücahidlərin hansı münasibətlərlə, necə dərin ixtilaflarla hakimiyyətə gəldiyini göstərməkdədir.

Hikmətyarın qeyd olunan bəyanatlarından sonra digər partiyaların silahlı dəstələri də Kabula doğru axışmağa başladılar. Hikmətyarın qüvvələri cənubdan, Səyyafın və Məzarinin dəstələri qərbdən, Xalisin döyüşçüləri şərqdən Kabula daxil oldular (Qeyd edək ki, həmin ərəfədə müdafiə nazirinin birinci müavini, Kabul qarnizonunun rəisi general Əziminin əmri ilə şəhər ətrafındakı təhlükəsizlik zolağı dağıdılmışdı). Şəhərdə qarət və zorakılıq başladı, hər partiyanın qüvvələri bir dövlət orqanının binasını ələ keçirib onun üzərində öz bayrağını ucaltdı. Eyni zamanda müxtəlif partiyalara mənsub mücahidlər arasında toqquşmalar baş verdi. Belə olan təqdirdə Məsudun qüvvələri şəhərə girməli oldu. General Dustumun hərbçiləri təyyarə ilə gələrək, Kabul aeroportunu nəzarətə götürdülər. 3 gün ərzində paytaxtda xaos və anarxiya hökm sürdü. Onlarla ev dağıldı, yüzlərlə mülki şəxs həlak oldu. Yalnız aprelin 27-si axşama doğru Hikmətyarın dəstələri və onun "Xəlq"çi tərəfdaşları artıq müvəqqəti hökumətdən səlahiyyət almış Məsud və onun müttəfiqlərinin qüvvələri tərəfindən şəhərin cənub və cənub-şərq ətrafına sıxışdırıldı. Səudiyyə Ərəbistanı kəşfiyyatının rəhbəri Türki əl-Feysəlin və Pakistanın baş naziri Nəvaz Şərifin işə qarışması

sayəsində tərəflər arasında atəşkəsə nail olundu və bununla da Pişavərdə müəyyənləşdirilmiş keçid hökumətinin Kabula gəlməsinə şərait yarandı [127, 135-136].

Aprelin 25-də axşam Pişavərdə "Yeddilik" rəhbərlərinin hökumətlə bağlı müzakirələrinin (Hikmətyar orada iştirak etməsə də, səlahiyyətli nümayəndəsi vardı) nəticələri açıqlandı. Alınmış qərara əsasən, Sibğətulla Mücəddidinin rəhbərliyi ilə keçid hökuməti yaradılırdı. Onunla bərabər 50 nəfərlik bir heyət (30 mücahid komandanı, 10 ruhani və 10 siyasətçi) Kabula getməli və hakimiyyətin ötürülməsini təmin etməli idi. 2 aylıq müddətdən sonra Bürhanəddin Rəbbani 4 ay Əfqanıstan İslam Dövlətinin (artıq dövlət belə adlanacaqdı – M.M.) prezidenti olacaq və hökumət qurulacaqdı. Hökumətin "cihad təşkilatlarından" təşkil olunması nəzərdə tutulurdu. Hikmətyarın partiyasına baş nazir kürsüsü təklif olunurdu. Onun üç müavini eyni zamanda xarici işlər, təhsil, daxili işlər naziri olacaqdı və bu postlar müvafiq olaraq, Gilaninin, Xalisin və Səyyafın partiyalarına verilirdi. Əhməd şah Məsud müdafiə naziri olacaqdı, Nəbinin partiyasının təmsilçisi isə Məhkəməyə rəhbərlik edəcəkdi. Qalan nazir postları ilə bağlı növbəti günlərdə qərara gəlmək nəzərdə tutulurdu. Bu proses 6 aydan çox çəkməməli idi və həmin vaxt ərzində bir neçə yüz nəfərdən ibarət İslam Şurası və ya İslam Məclisi (parlamentə bənzər qurum) formalaşmalı idi. Həmin məclis növbəti 1,5-2 il müddətinə fəaliyyət göstərəcək müvəqqəti hökumət təşkil etməli idi [127, 130-131].

Bütövlükdə qərar tələsik qəbul olunmuşdu və bir çox suallar açıq qalmışdı, bu da gələcək ixtilaflara zəmin yaradırdı. Hər halda vaxt gözləmirdi və Mücəddidinin rəhbərlik etdiyi heyət aprelin 27-də Pişavərdən Kabula doğru hərəkət etdi. Ertəsi gün – aprelin 28-də Xarici işlər nazirliyinin binasında təşkil olunmuş mərasimdə Nəcibulla iqtidarının baş naziri Fəzlül-Həqq Xaliqyar rəsmən hökuməti Mücəddidiyə təhvil verdi [111, 79]. (Digər məlumatlara əsasən, təhvil-təslim aktını vitse-prezidentlərdən biri – Əbdürrə-

him Hatif, yaxud Əbdülvahid Sürabi həyata keçirmişdi). Əldə olan sənədlər göstərir ki, mərasimdə Mücəddidinin partiyasının funksioneri kimi ölkənin gələcək prezidenti Hamid Kərzəy də iştirak etmişdir [127, 138]. Bu tədbirdə çıxış edən Ali Məhkəmənin sədri Əbdülkərim Şadan bildirmişdi ki, "siz mücahid qardaşlarımızın gəlişi ilə ölkədə on illik qan tökülməsi sona çatmışdır", lakin bin neçə gün sonra o, öz mənzilində silahlı şəxslər tərəfindən qətlə yetirilmişdi. Mərasimin sonunda çıxış edən Mücəddidi cihadın qələbəsini və İslam Dövlətinin qurulmasını təbrik etməklə bərabər, əvvəlki hökumətin bütün üzvlərinin əfv olunduğunu bəyan etmişdi.

Bir müddət sonra Mücəddidi keçid hökumətinin Kabula gəlişindən öncəki 3 gündə paytaxtda və onun ətrafında baş verənləri Hikmətyarın bir qrup "Xəlq"çi ilə birgə "xaincəsinə çevriliş" cəhdi kimi qiymətləndirmişdi [108, 5]. Lakin çox keçmədən Mücəddidinin özünün də Pişavər razılaşmasında nəzərdə tutulmuş 2 aylıq prezidentliklə kifayətlənmək istəmədiyi, ölkəyə 2 il rəhbərlik etmək arzusunda olduğu üzə çıxdı. Əsas sözü silahın dediyi və partiyasının da bu baxımdan xeyli zəif olduğu bir şəraitdə o, özünə müttəfiqlər axtarışına çıxdı və əsas diqqətini iki qüvvəyə – Rəşid Dustuma və şiə "Vəhdət" partiyasının lideri Əbdüləli Məzariyə yönəltdi. İlkin addım kimi o, Cihad Şurasında (onunla bərabər Pişavərdən gəlmiş 50 nəfərlik heyət belə adlanırdı) Dustuma 5, Məzariyə 8 yer ayırdı. Eyni zamanda 3 nazirliyi (o cümlədən, Təhlükəsizlik Nazirliyini!) Məzarinin ixtiyarına verdi. Dustum və Məzarinin bir çox komandanlarını general rütbəsi ilə mükafatlandırdı və nəhayət, may ayının 21-də o, Dustumun iqamətgahının yerləşdiyi Məzari-Şərifə səfər etdi. Oradakı çıxışında Mücəddidi Dustumu "böyük mücahid" adlandırdı, onu peyğəmbər dövrünün məşhur sərkərdəsi Xalid ibn Vəlidə bənzətdi və ona ordu generalı rütbəsi verdi [127, 140].

Lakin Mücəddidinin bu addımları bir nəticə vermədi, əksinə, onun Rəbbani və Məsudla münasibətlərini kəskinləşdirdi, eyni za-

manda Hikmətyar tərəfindən etirazla qarşılandı. Mayın 25-də Pakistana qısamüddətli rəsmi səfərindən sonra o, bu iddialarından əl çəkdi.

Qeyd edək ki, Əfqanıstan İslam Dövləti elan olunandan dərhal sonra Pakistan, Səudiyyə Ərəbistanı, İran, Rusiya və Çin mücahidlərin hakimiyyətini rəsmən tanıdılar. Mücəddidi hakimiyyəti təhvil alan günün səhərisi Pakistanın baş naziri Nəvaz Şərif və yuxarıda adı çəkilən Türki əl-Feysəl Kabula gəlmiş və ona öz dəstəklərini ifadə etmişdilər, o cümlədən, N.Şərif 10 milyon dollarlıq təmənnasız yardımı öz ölkəsi adından Mücəddidiyə təqdim etmişdi. Lakin mücahidlər heç cür işlək hökumət qura bilmirdilər. Mücəddidi nazirlikləri Cihad Şurası üzvləri arasında bölüşdürmüşdü, o cümlədən, öz qardaşını və oğlunu nazir postuna təyin etmişdi (müvafiq olaraq, kənd təsərrüfatı və səhiyyə naziri). Lakin Mücəddidinin hakimiyyətə gəlməsindən iki həftə sonra mücahidlərin Pişavərdəki əsas orqanı – Rəhbərlik Şurası (Şuraye-qiyadi, yaxud Şuraye-rəhbəri) də Kabula daxil olmuş və müstəqil şəkildə qərarlar verməyə başlamışdı. Əfqan tədqiqatçısı M.İ.Əndişməndin yazdığı kimi, “dövlətin təmsilçisi və Cihad Şurasının sədri kimi Sibğətulla Mücəddidinin öz qərarları və addımları vardı, Rəhbərlik Şurasının da öz qərar və addımları. Və çox zaman bu qərarlar bir-birinə uyğun gəlmir, hətta zidd olurdu” [127, 139]. Başqa sözlə, elə ilk çağlardan bir növ ikihakimiyyətlilik yaranmışdı. Məsələn, Mücəddidi keçmiş hökumət üzvlərinin əfv olunduğunu bildirsə də, Rəhbərlik Şurası “Vətən” Partiyasının ləğv olunması, onun əmlakının müsadirə edilməsi, rəhbərlərinin mühakiməyə cəlb olunması, şəriətə zidd olan bütün qanunların qüvvədən düşməsi barədə qərar vermişdi. Eyni zamanda Şura spirtli içkilərin satışının qadağan edilməsinə, qadınların hicaba riayət etməsinin vacibliyinə dair qərarlar qəbul etmişdi. Bütün bunların sonucu olaraq, Mücəddidi təyin olunmuş vaxtda – 1992-ci il iyunun 28-də hakimiyyəti Bürhanəddin Rəbbaniyə təhvil verərkən giley-güzar və şikayətlə dolu bir çıxış etmişdi [108].

Beləliklə, mücahidlərin hakimiyyətinin bünövrəsi qanla və ixtilafla qoyuldu və eləcə də davam etdi. Münaqişələrin mərkəzində isə ambisiyaları bitib-tükənmək bilməyən İslam Partiyası lideri Gülbəddin Hikmətyar dayanırdı. O, Kabuldan 20 km məsafədə yerləşən Çarasiyab adlı məntəqədə özünə güclü qərargah qurdu və vaxtaşırı paytaxtı raket-artilleriya zərbələrinə, diversiya hәmlələrinə məruz qoymağa başladı. İlkin mərhələdə onun tələbi bu idi ki, Dustumun qüvvələri Kabuldan çıxarılsın, çünki o, kommunist hökumətinə xidmət etmiş və mücahidlərin qanını tökmüşdür. 1992-ci il mayın 25-də Kabulun Poli-Çərxi rayonunda Hikmətyarla Məsud arasında saziş imzalandı. Gülbəddinin atəşi dayandırması və qüvvələrini Kabuldan çıxarması müqabilində hökumət Dustumun dəstələrini şəhərdən kənarlaşdırmağı öz üzərinə götürdü. Lakin təbii ki, şimal qüvvələrini Kabuldan uzaqlaşdırmaq mümkün olmadı, çünki Mücəddidinin dönə-dönə dediyi kimi, "Dustum böyük bir güc idi, topu, təyyarəsi (əlavə edək ki, xarici dəstəyi – M.M.) vardı" [120, 63]. Bu üzdən Hikmətyar yenidən Kabulu raket atəşinə tutmağa başladı. Əlbəttə, döyüş təkcə Hikmətyarla hökumət qüvvələri (Məsud və Dustum) arasında getmirdi. Mayın 31-də Kabulun qərb hissəsində şiə "Vəhdət" partiyası ilə Səyyafın qüvvələri arasında qanlı toqquşmalar baş vermişdi [111, 80].

Ümumiyyətlə, bu dövrdə İran tərəfindən dəstəklənən (köhnə "Səkkizlik" əsasında yaradılmış) İslami Vəhdət Partiyasının hadisələrdə əhəmiyyətli rol alması diqqətəlayiq faktdır və dolayısı ilə İranın artan fəallığının göstəricisidir. Pişavərdəki hakimiyyət sövdələşmələrində yaxına buraxılmayan bu partiya Nəcibulla rejiminin süqutu ərəfəsində Məsudla koalisiyaya girən lideri Əbdüləli Məzarinin cəsarəti sayəsində Kabulun həzarələr (şiələr) yaşayan bölgəsində möhkəmlənə və hakimiyyətə iddialarını ortaya qoya bilmişdi. Əfqanıstanda "şüarların dini, əməllərin etnik məzmunlu" olduğunu bəyan edən Məzari həzarələrin siyasi hüquqlarının təmin olunması, cəfəri məzhəbinin rəsmən tanınması və hakimiy-

yətin hədsiz mərkəzləşdirilməsinin aradan qaldırılması yolu ilə ictimai ədalətin bərqərar olunması kimi üç tələblə çıxış edirdi [102].

Lakin bu dövrdə şiələrin təmsilçisi olan başqa bir partiya da nəzərə çarpan mövqeyə malik idi ki, bu da ayətullah Məhəmməd Asif Möhsini tərəfindən 1979-cu ildə yaradılmış Əfqanıstan İslam Hərəkatı Partiyasıdır (Hezbe-hərəkəte-eslamiye-Əfğanestan). Qızılbaş nəslindən olan və Qəndəharda doğulan Möhsini uzun müddət İranda yaşamasına baxmayaraq, bu ölkənin dəstəklədiyi "Səkkizliyə" daxil olmamış, Pakistandakı sünni partiyaları ilə daim əlaqə saxlamışdır. Ayətullah Xomeyni ilə ixtilafları onun o vaxtkı İran rəsmiləri tərəfindən vəhhabilərlə əlaqədə, MKİ tərəfindən maliyyələşməkdə ittiham edilməsinə səbəb olmuşdur. Möhsini mücahidlərin hakimiyyətinin ilk dövründə Rəhbərlik Şurasının katibi və sözçüsü olmuş, hakimiyyətin Mücəddididən Rəbbaniyə ötürülməsində bilavasitə iştirak etmişdir.

Rəbbaninin prezidentliyi dövründə Hikmətyarla münasibətlər daha da kəskinləşdi. Prezidentin göstərişi ilə yaraqlıların Kabuldan çıxarılması prosesi başlandı. İyulun əvvəllərində belə bir əməliyyat zamanı toqquşma baş verdi və Hikmətyarın məşhur komandirlərindən biri qətlə yetirildi. Qəzəblənən Hikmətyar iyulun 4-dən başlayaraq Kabulu yenidən raket atəşinə tutmağa başladı. Raketlərdən biri prezident sarayına düşdü və Rəbbaninin mühafizəçilərindən 3 nəfərin yaralanması ilə nəticələndi. Rəbbani radio ilə çıxış edərək, hadisəyə təəssüfləndiyini, hökumətin məqsədinin paytaxtda sakitlik və qayda-qanun yaratmaq, əhalinin təhlükəsizliyini təmin etmək olduğunu bildirdi.

Pişavər razılaşmasına uyğun olaraq, Hikmətyar öz partiyasının təmsilçisi Əbdüssəbur Fəridi baş nazir postuna təqdim etmişdi və o, iyulun 6-da çoxsaylı tərəfdarlarının müşayiəti ilə Kabula gəldi. Lakin bir aydan çox bu vəzifəni tutmasına baxmayaraq, o, yeni kabinetin tərkibini müəyyənləşdirib Rəhbərlik Şurasına təqdim eldə bilmədi və avqustun ortalarında Kabulu tərk edərək Pakistana yol-

landı. Qəribədir ki, onun paytaxtda olduğu günlərdə də Hikmətyar şəhəri raket atəşinə tutmağı dayandırmadı. İyulun ortalarında isə Kabulun qərbində yenidən "Vəhdət" partiyası ilə Səyyafın dəstələri arasında qanlı toqquşmalar olmuşdu. "Kabulun qərbi eynən Livandakı, Beyrutdakı döyüş meydanını xatırladırdı. Bildirildiyinə görə, bu toqquşmalarda Sudan, Misir və Əlcəzairdən olan ərəblər də iştirak edirdilər" [124, 377].

Qeyd edək ki, Rəbbani prezidentliyi ələ alandan sonra Mücəddidinin hökumətdə "Vəhdət" partiyasına (eləcə də Dustumun hərəkatına) verdiyi yerləri geri almışdı, bu da Məzarinin qəzəblənməsinə səbəb olmuşdu. Qanlı qırğınlardan sonra Rəbbani öz qərarına yenidən baxmış və 3 nazir postunu şiə partiyasının ixtiyarına vermişdi.

Avqustun əvvəllərində Hikmətyar yenidən Dustumun qüvvələrini ("məlişə" - milis, ərazi özünümüdafiə qüvvələri) Kabuldan çıxarmalı olduğu barədə hökumətə xəbərdarlıq etdi. O, paytaxtdakı hökuməti "Pərçəm"çi kommunistlərlə Dustumun dəstələrindən ibarət koalisiya kimi qiymətləndirirdi. Onu da deyək ki, Hikmətyarın niyyətindən (o cümlədən, sonradan bu tələbindən əl çəkib Dustumla ittifaqa girməsindən) asılı olmayaraq, onun bu yanaşması əsassız da deyildi. Belə ki, Dustumun hərbi qüvvə kimi meydana çıxması Nəcibullanın xidməti idisə, siyasi fiqur kimi formalaşması 1991-ci ildə Moskvada Kabula qayıtmış, oradan da Məzari-Şərifə (Dustumun "paytaxtı"na) getmiş Karməlin, onun tərəfdarlarının, o cümlədən, mücahidlər Kabulu tutduqdan sonra da bir müddət şəhərdə qalan qardaşı Mahmud Bəryaləyin sayəsində baş vermişdi və bu da Dustumun xarici siyasi yönümü barədə şəksiz qənaətlər doğururdu. Və bunu Hikmətyarla bərabər, şübhəsiz, Rəbbani də, Əhməd şah Məsud da yaxşı bilirdi.

Qeyd olunan xəbərdarlığının ardınca – 1992-ci il avqustun 9-da Hikmətyar Kabulu (o cümlədən, şəhər aeroportunu) görünməmiş raket atəşinə tutdu. Əfqan tədqiqatçısının yazdığına görə, 14 saat

ərzində şəhərə 7200 raket atılmışdı [124, 381]. Cavab olaraq general Dustumun təyyarələri Hikmətyar qüvvələrinin mövqelərini bombalamışdı. Təqribən 3 həftə davam edən qanlı döyüşlər ağır itkilərə və böyük dağıntılara səbəb olmuşdu. Bundan sonra Nəngərhar vilayəti Cihad Şurasının vasitəçiliyi ilə tərəflər arasında atəşkəs barədə razılıq əldə olunmuşdu.

Avqustun 14-də BMT Təhlükəsizlik Şurası Əfqanıstandakı vəziyyəti müzakirə etdi və tərəfləri bütün münaqişəli məsələləri müzakirə yolu ilə həll etməyə çağırdı, eyni zamanda atəşin dayandırılması ilə Kabuldakı diplomatların və digər xarici ölkə vətəndaşlarının şəhərdən çıxmasına imkan yaradılmasını tələb etdi. Diplomatlar əsasən quru yolu ilə şəhəri tərk etdiyi üçün Kabul əhalisinin böyük bir dəstəsi də imkandan istifadə edib şəhərdən çıxmağa başladı.  Hökumət dəhşətli itkiləri nəzərə alaraq avqustun 9-nu Milli matəm günü elan etdi.

General Dustum bu vəziyyətdən istifadə edib minlərlə tərəfdarını Kabula gətirməyə cəhd etdi (guya Hikmətyarla həlledici döyüş üçün), lakin onun əsl niyyətini yaxşı anlayan Məsud buna imkan vermədi. Dustum bu məsələdən narazılığını gizlətmədi, hətta mətbuata da açıqladı. Bununla da hökumətlə Dustum arasında ixtilaf açıq müstəviyə keçdi. Dekabrın ortalarında Kabulda Dustumla Məsudun qüvvələri arasında 9 saatlıq gecə döyüşü baş verdi. Məsud döyüşdən sağ çıxsa da, cangüdənlərindən biri yaralandı. Ertəsi gün Rəbbani bu hadisəni Dustumla telefonda müzakirə etdi. Rəsmi məlumat bu olayı anlaşılmazlıq kimi təqdim etsə də, münasibətlərdə ciddi soyuqluq yarandı və Dustum Hikmətyarla mübarizədə hökumət qüvvələrinə dəstəyini faktiki olaraq dayandırdı.

Paralel olaraq, hökumət cəbhəsində sayılan Məzari ilə Məsudun arasında ziddiyyətlər dərinləşməyə başladı. Məzari Məsudu ona qarşı mübarizədə Səyyafı dəstəkləməkdə ittiham edirdi. Dekabrın əvvəllərində Məsudla Məzarinin qüvvələri arasında ilk döyüş baş verdi və toqquşmalar sonrakı dövrdə daha qanlı xarakter aldı.

Beləliklə, 1992-ci ilin sonuna doğru hökumət koalisiyasında ciddi qarşıdurmalar baş verdi. Hikmətyar əks cəbhədə yaranmış çatları yaxşı görürdü və bir müddət sonra ondan bəhrələnə bildi.

1992-ci il oktyabrın 28-də Rəbbaninin 4 aylıq prezidentlik dövrü başa çatdı, lakin Rəhbərlik Şurası bu müddəti daha 2 aylığa uzatdı. Dekabrın 29-da isə Kabulda müxtəlif regionları və etnik qrupları təmsil edən 1000 nəfərdən artıq nümayəndənin iştirakı ilə "Səriştəli şəxslər şurası" ("Şuraye-əhle-həll və əqd") öz işinə başladı. Rəbbaninin, Nəbinin, Səyyafın və Möhsininin partiyaları tərəfindən dəstəklənən Şura Rəbbanini növbəti il yarım müddətinə prezident seçdi (alternativ olmadan), eyni zamanda parlamenti əvəz edən 50 nəfərlik İslam Şurası yaradıldı. Digər mücahid partiyaları Şuranın işini boykot etdilər. 5 partiyanı, o cümlədən, Dustumun partiyasını təmsil edən şəxslərin imzası ilə bəyanat yayıldı və belə bir Şuranın təşkili qeyri-qanuni adlandırıldı. Maraqlıdır ki, sonradan Dustum Rəbbaniyə təbrik məktubu göndərdi [127, 167]. Digər maraqlı məqam şiə "Vəhdət" partiyasının əks-cəbhədə yer alması idi: bu, Məzarinin Hikmətyarla gələcək ittifaqının anonsu, eləcə də onun partiyasının parçalanmasının başlanğıcı sayıla bilərdi. Rəbbaninin və Məsudun Məzari ilə danışıqları nəticəsiz qaldı. Hikmətyar isə ixtilafı daha da qızışdırmaqla məşğul idi. Nəticədə 1993-cü ilin yanvarından Kabulda yeni şiddətli döyüşlər başladı. Məsudun qoşunları İslam Partiyası yaraqlılarına güclü həmlə edərək, onları paytaxtdan 20 km uzaqlaşdıra bildi, lakin tezliklə əldə olunmuş mövqeləri yenidən itirdi. Eyni zamanda Kabulun qərbində Məsudun qüvvələri ilə həzarə silahlıları (şiələr) arasında qanlı toqquşmalar oldu. Xüsusən fevralın 10-11-də şəhərin Əfşar adlanan rayonunda "Vəhdət" Partiyası qüvvələrinə qarşı keçirilən əməliyyat kütləvi qırğınla nəticələndi, qadınlara qarşı təcavüz hərəkətləri və qarətlərlə müşayiət olundu. "Kabul müharibələri" adlı kitabın müəllifi general Seyid Əbdülqüdus hadisə zamanı 5000 nəfərdən çox həzarənin qətlə yetirildiyini bildirərək, onu "soyqırımı" kimi dəyərləndirmişdir [124,

428-430]. Ədalət naminə onu da demək lazımdır ki, aylarla davam edən döyüşlərdə Məzarinin dəstələri də əks tərəfə qarşı etnik və məzhəb zəminində çoxsaylı zorakılıqlar törətmişdilər.

Vəziyyətin bu həddə gəlib çatdığını görən qonşu ölkələr hərəkətə keçdilər. Pakistan, Səudiyyə Ərəbistanı, İran rəsmiləri atəşi dayandırmaqla bağlı tərəflərə müraciət ünvanladılar. Hətta illərdən bəri səsi çıxmayan sabiq Əfqanıstan hökmdarı Zahir şah da bəyanat yayaraq baş vermiş qırğınları pislədi və problemlərin həlli üçün Loyə Cirgə çağırılması təklifini irəli sürdü. Fevralın 12-də general Həmid Gül (ISI-nin sabiq rəisi) və Pakistanın "Cəmaəti-islami" təşkilatının rəhbəri Qazi Hüseyn Əhməd Kabula gəldilər və uzun müzakirələrdən sonra müvəqqəti atəşkəsə nail oldular. Daha sonra – martın əvvəllərində mücahid təşkilatlarının rəhbərləri İslamabada getdilər və bir neçə günlük müzakirələrdən sonra mart ayının 7-də beş maddəlik razılaşma imzaladılar. Həmin razılaşmaya əsasən, Rəbbani növbəti 18 ay üçün prezident postunda qalır, Gülbəddin Hikmətyar isə baş nazir postunu tuturdu; o, iki həftə müddətində ölkənin yeni hökumətini formalaşdırmalı idi. Qarşıdakı 18 ay ərzində ölkənin yeni Konstitusiyası hazırlanmalı və seçkilər keçirilməli idi. Ən maraqlı məsələ Müdafiə Nazirliyinə rəhbərliyin 18 nəfərlik Şuraya həvalə olunması idi. Bu, o demək idi ki, Əhməd şah Məsud həmin vəzifədən azad olunur. Məsud bununla bağlı demişdi ki, Pakistan hərb yolu ilə Hikmətyarı hakimiyyətə gətirə bilmədi, buna görə də diplomatik yolla məqsədinə nail olmaq istədi [127, 172]. Razılaşma imzalandıqdan sonra təşkilat rəhbərləri Pakistanın baş naziri ilə birgə Səudiyyə Ərəbistanına getdilər və kral Fəhdlə görüşməklə yanaşı, Məkkəni ziyarət etdilər. Pakistan, Səudiyyə Ərəbistanı və İran İslamabad razılaşmasının qarantı kimi çıxış edirdilər. İran hətta vəziyyətdən sui-istifadə edərək, Əfqanıstana sülhməramlı qüvvələrini göndərmək təklifi ilə çıxış etdi, amma bu təklif Səyyaf və Xalisin kəskin etirazı ilə qarşılandı [124, 424].

Məsudun vəzifədən uzaqlaşdırılmasından (o, paytaxtı tərk edib

Pərvan vilayətinə - Cəbəlüssiraca getdi) məmnun qalan Hikmətyar uzun müddət hökuməti formalaşdıra bilmədi. O, 5000 nəfər silahlı ilə Kabula daxil olmaq istəsə də, buna imkan verilmədi, odur ki, Çarasiyabda baş nazir kimi fəaliyyət göstərməyə başladı.

1993-cü ilin payızında Məhəmməd Nəbi Məhəmmədinin başçılıq etdiyi Komissiyanın hazırladığı Konstitusiya layihəsi müzakirəyə verildi. Layihədə yalnız hənəfilik rəsmi məzhəb olaraq tanınırdı. Bu da şiə partiyalarının kəskin narazılığına səbəb oldu. Məzarinin dəstələri, eləcə də Möhsininin bəzi komandirləri Kabulu yenidən raket atəşinə tutmağa başladılar. Dustum, Mücəddidi, Gilani və Hikmətyar da bəyanat verərək, Komissiyanı və layihəni qeyri-qanuni elan etdilər. Vəziyyət yenidən gərginləşməyə başladı. Hikmətyar artıq Rəbbaninin istefasını tələb edirdi. İslamabad razılaşması faktiki olaraq sülhü təmin edə bilmədi.

Hikmətyar Məzarinin vasitəçiliyi ilə Kabul ətrafında Dustumla görüşüb müzakirələr apardı. Bu, yeni, daha təhlükəli alyansın yaranmasının başlanğıcı idi. Belə olduqda Rəbbani Dustumu paytaxta dəvət etdi və onu öz tərəfinə çəkməyə çalışdı. O, Dustumun çoxdankı tələbini – Milli İslami Hərəkatın rəsmi qurum kimi tanınması istəyini yerinə yetirdi, eyni zamanda onu Müdafiə nazirinin müavini təyin etdi [127, 176]. Lakin bunların faydası olmadı: xarici qüvvələr öz təsirini göstərmiş və planını cızmışdı. 1994-cü ilin ilk günlərində Əfqanıstanın hərbi-siyasi səhnəsində sürpriz bir alyans meydana çıxdı – Hikmətyar, Məzari və Dustumun partiyalarının birləşdiyi "Əfqanıstan İslam İnqilabının Ali Koordinasiya Şurası" yaradıldı. Kabul yenidən müharibə alovuna büründü. Və bir ildən də çox davam edən bu mərhələdə döyüşlər artıq əyalətlərə də keçdi. Lakin yeni müttəfiqlərin Məsudu təkləmək planı baş tutmadı: Xalis və Nəbi bəyanat verərək "təxribatçı və fitnəkar milislərə" (Dustumun qüvvələri nəzərdə tutulur) qarşı cihada çağırdılar, Səyyaf da aydın şəkildə "məlişə və kommunistlərin" qarşısında durduğunu bəyan etdi. Hikmətyarın və Məzarinin partiyalarında yeni alyansa

etiraz sədaları eşidildi. Herat valisi, məşhur mücahid İsmayıl xan da Dustumun qüvvələrinə qarşı hərəkətə keçdi. Fevral ayının 23-də Kabuldakı Pakistan səfirliyinin qarşısında geniş etiraz mitinqi oldu və səfirlik hücuma məruz qaldı. Həmin gün Pakistanın xarici işlər naziri Əfqanıstan paytaxtına gəlmişdi.

Hikmətyar və müttəfiqləri 1994-cü ilin iyul ayına – Rəbbaninin səlahiyyətlərinin bitməsinə hədəflənmişdilər və həmin tarixdə köklü dəyişikliyə nail olmağı düşünürdülər. Lakin ölkənin Ali Məhkəməsi Rəbbaninin prezidentlik səlahiyyətini daha 6 ay müddətinə uzatdı və qarşıdurma davam etdi.

Yalnız 1996-cı ilin may ayında Hikmətyar Rəbbaniyə qarşı dörd illik mübarizəsinə son qoyub onunla razılaşma imzaladı və iyun ayının 26-da baş nazir kimi Kabula gəldi. Təqribən bir həftə sonra o, müxtəlif partiyaların (Rəbbaninin, Hikmətyarın, Səyyafın və iki şiə partiyasının) nümayəndələrindən ibarət yeni hökumət təşkil etdi [111, 78]. Lakin artıq gec idi: ölkənin hərbi-siyasi səhnəsinə bütün konfiqurasiyanı dəyişəcək yeni aktor – Taliban çıxmışdı və bir-bir vilayətləri ələ keçirərək Kabula yaxınlaşırdı. Bu mənada Hikmətyarın qeyd olunan addımı məcburiyyət üzündən atılmışdı: 1996-cı il fevralın 13-də onun iqamətgahı olan Çarasiyab qəsəbəsi Talibanın əlinə keçmişdi. Bundan təqribən bir ay sonra Taliban qüvvələri "Vəhdət" partiyasının lideri Əbdüləli Məzarini əsir götürmüş və işgəncə ilə qətlə yetirmişdilər. Sentyabrın 26-da isə Taliban Kabulu tutdu və mücahidlərin hökuməti süqut etdi.

Beləliklə, 1992-ci ilin yazından etibarən Əfqanıstanda bir tərəfdən Rəbbani-Məsud cütlüyünün, digər tərəfdən də Hikmətyarın ətrafında formalaşan iki böyük hərbi-siyasi qruplaşma arasında aramsız və qanlı mübarizə getmişdir. Həmin qruplaşmaların tərkibində zaman keçdikcə müxtəlif, bəzən sürpriz xarakterli dəyişikliklər (yerdəyişmələr) baş verirdi. Bundan əlavə, həmin qruplaşmalara daxil olan hərbi-siyasi təşkilatlar vaxtaşırı dar maraqları naminə həm qarşı tərəfdən, həm də öz qruplaşmasından olan qüvvələrlə

döyüşlər aparırdı. Aylar, illər keçir, mövcud qruplaşmalardan hər hansı biri nə digərini tamamilə məğlub edə, nə də müəyyən hakimiyyət bölgüsü əsasında razılığa gələ bilirdi. Ölkədə tam miqyaslı legitimlik və kimlik böhranı yaşanırdı [116].

Əlbəttə, mücahid qruplaşmaları arasındakı silahlı mübarizəni təkcə liderlərin şəxsi münasibətləri, etnik, yaxud məzhəb amilləri ilə bağlamaq düzgün olmazdı. Yuxarıda qeyd olunmuş bir çox məqamlardan da aydın olduğu kimi, burada xarici təsirlər – böyük güclərin və regional oyunçuların müdaxilələri önəmli faktor rolunu oynamışdır. "Mücahidlərin daxili iddiaları xarici təsirlərin sayəsində daha da kəskinləşirdi. Hikmətyarı Pakistan dəstəkləməkdə davam edirdi, Səyyafı Səudiyyə Ərəbistanı, "Vəhdət" partiyasını İran dəstəkləyirdi. Hər bir sponsor ümid edirdi ki, onun himayə etdiyi qüvvə ölkədə üstün mövqe qazanacaq, yaxud ən azı son nəticədə təsirli mövqe tuta biləcək" [18, 250].

Bu səbəbdən bütün müzakirə və razılaşmalara baxmayaraq, mücahidlər heç cür sülhə nail ola bilmirdilər, çünki maraqlı ölkələri təmin edəcək hakimiyyət modeli tapılmırdı. Onu da qeyd edək ki, əvvəlki dövrdən fərqli olaraq (SSRİ-nin süqutu nəticəsində) regionda Əfqanıstandakı proseslərdə bilavasitə marağı və təsiri olan Özbəkistan, Türkmənistan, Tacikistan kimi ölkələr meydana çıxmışdı. Bu istiqamətdə mücahidlərin buraxdığı səhvlər (məsələn, Məsudun Tacikistan islamçı partiyasının lideri Seyid Abdulla Nurini dəstəkləməsi) də son nəticədə onların durumunu çətinləşdirən problemlərin (məsələn, 1995-ci ildə Rusiya təyyarələrinin Məsudun əsas dayaqlarından biri olan Təxar vilayətini bombardman etməsi) meydana çıxmasına səbəb olurdu.

Şübhəsiz, hakimiyyətə gələnə qədər döyüşməkdən başqa heç nə bacarmayan mücahidlərin səriştəsizliyi, idarəçilik təcrübəsinin olmaması, lazımi koordinasiyanın, nizam-intizamın təmin edilə bilməməsi də mücahidlər hökumətinin süqutunu şərtləndirən amillərdən olmuşdur. "Səmərəli dövlət aparatı qurmaqda bacarıq-

sızlığı üzə çıxan və ölkəni idarə etməyə qadir olmayan mücahidlər buna baxmayaraq hakimiyyəti digər siyasi qüvvələrin və sosial təbəqələrin nümayəndələri ilə bölüşmək istəmirdilər. Keçmiş şahın tərəfdarları, Qərbdə təhsil almış texnokrat-mütəxəssislər… mücahidlərin heç bir hökumətində əhəmiyyətli vəzifələr almadılar" [72, 16].

Qəribədir ki, əvvəlki dövrdən fərqli olaraq, mücahidlərin əsas mübarizəsi Kabul uğrunda gedirdi, sanki onlar paytaxtdan 14 ilin qisasını alırdılar [120, 67]. Əfqan tədqiqatçısı Əbdülhəmid Mübarizin yazdığına görə, 1992-1995-ci illərdə Kabul uğrunda 6 iri miqyaslı döyüş olmuşdu [120, 88-95]. Nəticədə şəhərin yarısı sözün həqiqi mənasında xarabazarlığa çevrilmişdi. Təkcə "1992-ci ilin aprelindən 1993-cü ilin aprelinə qədər Kabulda 30.000 sakin ölmüş, 100.000 nəfər isə yaralanmışdı" [15, 36]. Bu vəziyyət qaçqın və köçkünlərin yeni dalğasının yaranmasına səbəb olmuşdu: kasıblar Pakistana və İrana, varlılar Avropa və Amerikaya üz tuturdular. "1994-cü ilin yanvarında başlamış qanlı döyüşlərin ilk 45 günü ərzində 400.000 nəfər Kabuldakı ev-eşiyini tərk etmiş, onların 250.000 nəfəri Cəlalabada qaçmışdı" [124, 427].

Əsas mübarizənin Kabul üzərində cəmləşməsi sayəsində əyalətlər bir növ başlı-başına buraxılmışdı və əvvəlki onillikdən fərqli olaraq, paytaxta nisbətən təhlükəsiz idi. Ölkədəki vəziyyət "feodal dağınıqlığı"nı xatırladırdı [48, 72] və ya xalq dili ilə desək, dərəbəylik hökm sürürdü. Tomas Barfildin yazdığı kimi, "1993-cü ildən ölkə regionlara bölünmüşdü və bu, XIX əsr Əfqanıstanının vilayətləri əsasında baş vermişdi. Herat və qərb bölgəsi (Badğis, Fərah, Qur daxil olmaqla) İsmayıl xanın nəzarətində idi. Məzari-Şərifdə oturan Dustum həzarələrin "Vəhdət" partiyası və Bağlandakı ismaililərlə birgə şimalda hökmranlıq edirdi. Kabul və şimal-şərq bölgəsi Məsudun əlində idi. Hacı Qədirin rəhbərlik etdiyi Nəngərhar Şurası Cəlalabadda yerləşməklə şərq regionunu idarə edirdi, cənub-şərq bölgəsi isə Paktiyada oturan Cəlaləddin Həqqani ilə Qəndəharda

möhkəmlənmiş Molla Nəcibulla Axund arasında bölüşdürülmüşdü... Kabuldan baxanda Əfqanıstan tam anarxiyaya qərq olan, milli institutları iflasa və gücsüzlüyə düçar olan baş tutmamış dövlət (failed state) kimi görünürdü" [36, 252-253].

Qeyd olunan regional "hökumətlərin" bir qismi təkcə nəzarət etdiyi əraziləri müstəqil şəkildə idarə etmir, həm də Kabuldan asılı olmayaraq xarici əlaqələr qururdular. Dustumun "paytaxtı" olan Məzari-Şərifdə BMT-nin nümayəndəliyi, İran, Pakistan, Özbəkistan, Tacikistan, Türkmənistan və Rusiyanın konsulluqları fəaliyyət göstərirdi. Dustum özü də bir neçə xarici ölkədə nümayəndəliklər açmış, Moskva, Tehran, Daşkənd, İslamabad, Ankara və s. kimi paytaxtlara səfərlər edərək rəsmi şəxslərlə görüşmüşdü. Herat valisi İsmayıl xan da İran, Türkmənistan, Özbəkistan kimi qonşu dövlətlərlə birbaşa əlaqələr qurmuşdu [70, 450].

Bu vəziyyət Əfqanıstanın vahid dövlət kimi varlığını sual altına almağa başlayırdı. Artıq ölkənin parçalanması, onun bu və ya digər bölgəsini hansısa dövlətə birləşdirmək planlarının mövcudluğu barədə söz-söhbətlər gəzirdi. Taliban hərəkatı məhz belə bir məqamda Əfqanıstanın bütövlüyünü qorumaq, ölkədə sülh və sabitliyi bərqərar etmək kimi şüarlarla zühur etdi və ilk dövrdə daxili didişmələrdən təngə gəlmiş əhalinin əhəmiyyətli hissəsinin rəğbətini qazana bildi.

# Taliban və Amerika müdaxiləsinə gedən yol

1994-cü ilin oktyabr ayında Əfqanıstan-Pakistan sərhədində yerləşən kiçik Spin-Buldək şəhərində həmin vaxt ərazini nəzarətdə saxlayan Hikmətyarın İslam Partiyası mücahidləri ilə özünü Taliban hərəkatı ("Təhrike-Taleban") adlandıran silahlı dəstə arasında cəmi bir neçə saat davam edən şiddətli döyüş oldu. Bəzi məlumatlara görə, sərhədin o tayından Pakistan artilleriyası tərəfindən dəstəklənən Taliban nəinki strateji əhəmiyyətli şəhəri (iki ölkə arasında əsas sərhəd-keçid məntəqələrindən biri və Pakistandan gələn dəmir yolu xəttinin son dayanacağı olmaq baxımından), həm də oradakı iri silah anbarını ələ keçirdi. Həmin anbarda 18.000 avtomat, 120 artilleriya silahı, çoxlu miqdarda hərbi sursat vardı [124, 484].

Bu hadisə Əfqanıstan hərbi-siyasi səhnəsində o vaxtadək kimsənin tanımadığı və əsasən puştulardan ibarət yeni qüvvənin debütü idi. Həmin qüvvəyə əslən Qəndəhardan olan keçmiş kənd mollası Məhəmməd Ömər (daha çox Molla Ömər kimi məşhurdur) başçılıq edirdi. Sovet işğalı zamanı mücahidlər sırasında vuruşan Molla Ömər bir neçə dəfə yaralanmış, o cümlədən, bir gözünü döyüşdə itirimişdi.

Talibanın bu uğurlu debütü təkcə vilayətdə deyil, bütün ölkədə geniş rezonans doğurdu. Həmin uğurdan ruhlanan hərəkat təqribən bir ay sonra – noyabrın 12-də Əfqanıstanın ikinci mü-

hüm şəhəri olan Qəndəharı nəzarətə götürdü. Cəmi bir neçə ay ərzində ölkə ərazisinin əsasən cənub vilayətlərindən ibarət üçdə biri keçmiş mədrəsə tələbələrindən ibarət olduğu deyilən yeni qüvvənin ixtiyarına keçdi.

Əhali Talibanın hərbi uğurlarını şövq və həyəcanla izləyir, onun simasında ölkədəki hərc-mərcliyə və zorakılıqlara son qoyacaq bir qüvvəni görürdü. Taliban təmsilçiləri təkcə bəyanatları ilə deyil, bir sıra hərəkətləri ilə də əhalidə özləri haqqında bu təsəvvürün yaranmasına səbəb olmuşdular. Məsələn, əhalinin müraciəti əsasında onlar iki qadını girov götürərək təcavüzə məruz qoyan mücahid dəstəsinə hücum etmiş, qadınları azad etməklə bərabər, həmin dəstənin komandirini tankın lüləsindən asmışdılar. Başqa bir epizodda onlar Qəndəharda iki mücahid tərəfindən incidilib təhqir edilən yeniyetmənin müdafiəsinə qalxmış, həmin şəxsləri şəhərin ortasında, əhalinin gözü qarşısında edam etmişdilər. İllərdən bəri silahlı dəstələrin özbaşınalıqlarından cana gəlmiş sadə insanlar bu addımlar sayəsində Talibana özlərinin xilaskarı kimi baxmağa başlamışdılar.

Talibanın meydana çıxmasının səbəbləri barədə ən müxtəlif fikirlər irəli sürülmüşdür. Hərəkatın lideri Molla Ömər onun yaranmasını ölkədəki fəlakətli duruma reaksiya olaraq baş verən kortəbii bir proses kimi səciyyələndirmişdir: "Ölkədə əmin-amanlığın olmaması, özbaşınalıq və qarətçiliyin davam etməsi üzündən mən bu vəziyyəti dəyişmək fikrinə düşdüm. Baxmayaraq ki, vəziyyətin dəyişdirilməsi və islah olunmasını çox çətin, hətta mümkünsüz bilirdim. Yalnız Allaha təvəkkül edib özbaşınalıqla mübarizə meydanına girdim. Əvvəlcə Səngsar (Qəndəhar yaxınlığında kənd – M.M.) mədrəsəsindən bir nəfərlə Zəngavat bölgəsinə getdim və Sərvər adlı bir şəxsdən silah əldə edib Tolukana yollandım. Oradakı mədrəsədə sayı 14 nəfərə çatan tələbələrə özbaşınalıqla mübarizə və vəziyyətin düzəldilməsi fikrini çatdırdım. Onlar razılaşmadılar. Sonra bu məsələni başqa yeddi

tələbə ilə müzakirə etdim və bu yeddi nəfər mənimlə razılaşdı. Günün sonuna qədər 53 tələbə Allaha təvəkkül edib qiyama hazır oldu. Həmin günün səhərisi Səngsarda toplaşdıq. Sübh namazını qılandan sonra oranın sakinlərindən biri dedi: "Mən bu gecə yuxuda gördüm ki, mələklər Səngsara gəliblər"... Ertəsi gün Səngsar tacirlərindən olan Hacı Bəşirdən maşın xahiş etdik. O, iki maşını bizim ixtiyarımıza verdi və həmin maşınlara minib tələbələrlə Küşki-Nəxuda getdik. Orada bir çox adamlar bizə silah, sursat və maliyyə yardımı etdilər. Küşki-Nəxuddan Ərğistana və Spin-Buldəkə getdik və qiyama başladıq" [127, 56].

Göründüyü kimi, Molla Ömər hərəkatın meydana gəlməsini bilavasitə daxili səbəblərə bağlayır və onu öz ideyası kimi təqdim edərək, yerli əhalinin maddi və mənəvi dəstəyi ilə formalaşdığını bildirir. Lakin əksər müəlliflər (istər əfqan, istərsə də xarici) Talibanın meydana çıxmasında xarici amilin həlledici rolunu vurğulayır, daha dəqiq desək, onun birbaşa Pakistan tərəfindən yaradıldığını irəli sürürlər. Bu prosesdə istər Pakistanın dövlət qurumlarının, istərsə də dini-siyasi təşkilatlarının iştirak etdiyi, onun ABŞ və Səudiyyə Ərəbistanı tərəfindən dəstəkləndiyi də bildirilir. Əfqan tədqiqatçısı Mövləvi Sərvəri bu məsələdə heç bir şübhə və tərəddüdə yer qoymadan yazır: "Talibanın yaranmasında və daha sonra ona hərbi, informasiya və s. dəstəyin verilməsində Pakistanın həlledici rolu tamamilə aydın bir məsələdir və bu ölkənin Əfqanıstana yönəlik uzun müddətli siyasətinin ən mühüm elementidir" [134]. Başqa bir müəllif isə həmin rolu daha da konkretləşdirərək bildirir: "Talibanı təşkil edib silahlandıran, onun bilavasitə sponsoru və rəhbəri kimi çıxış edən elə həmən ISI idi; onların "xaç atası" Pakistanın daxili işlər naziri general Nəsirulla Babər, mənəvi ustadı isə Mövlana Fəzlür-Rəhman başda olmaqla Pakistanın "Cəmiyyəti-üləmayi-islam" adlı fundamentalist partiyası olmuşdur" [70, 452].

Maraqlıdır ki, Pakistan rəsmilərinin özləri də bu işdə iştirak-

larını gizlətməmişlər. Ölkənin sabiq baş naziri B.Bhutto etiraf etmişdi ki, Talibanın yaranması ideyası ingilislərə məxsus olmuş, ABŞ tərəfindən idarə olunmuş, Səudiyyə Ərəbistanı bu işi maliyyələşdirmiş, Pakistan isə icra etmişdir [124, 483].

Beləliklə, sovet işğalı dönəmində olduğu kimi, Əfqanıstandakı proseslərdə yenə ABŞ-Səudiyyə-Pakistan üçlüyü aparıcı rol oynamışdır.

1998-ci ildə yuxarıda adı çəkilən general Nəsirulla Babər də etiraf etmişdir ki, nazir postunda olarkən, Taliban dəstələrinin təşkili və təliminin bilavasitə iştirakçısı olmuşdur: "Biz ümid edirdik ki, islam şəriətinin bayrağı altında İran, Pakistan və Əfqanıstan üçlü ittifaqı İsrail sionizminin məkrli planlarını alt-üst edəcəkdir" – deyə, o bildirmişdir [54, 138]. Əlbəttə, generalın bu açıqlaması olduqca pafoslu və populist səciyyəlidir, əslində Taliban vasitəsilə onun ölkəsi konkret iqtisadi və siyasi maraqlarını həyata keçirmək niyyətində idi və Babərin bu maraqların gerçəkləşməsi istiqamətində atılan addımlarda bilavasitə iştirakı sübuta ehtiyacı olmayan məsələdir.

Mövlana Fəzlür-Rəhmana gəldikdə isə o, Talibanla əlaqəsini heç vaxt gizlətməmiş, hətta 2001-ci ildə ABŞ-ın Əfqanıstanda hərbi əməliyyatlara başlayanda Talibanı açıq şəkildə dəstəklədiyinə görə həbs də edilmişdir. B.Bhuttonun ikinci baş nazirliyi dönəmində (1993-1996) o, hakim partiyanın müttəfiqi kimi çıxış edirdi və parlamentin xarici əlaqələr üzrə daimi komitəsinin sədri idi; bu postda onun ölkənin xüsusi xidmətləri və daxili işlər nazirliyi ilə Talibanla əlaqədar əməkdaşlığına, prosesə əhəmiyyətli təsir göstərməsinə yaxşı imkan yaranmışdı.

Əlbəttə, əsasən Pakistan ərazisində yerləşən mədrəsələrdə "yetişmiş" gənclərdən ibarət bir qüvvənin formalaşmasında həmin ölkənin rolunun varlığına qeyri-adi bir məsələ kimi baxmaq olmaz. Lakin, fikrimizcə, Taliban hərəkatında xarici amilin təsirini mütləqləşdirmək də düzgün deyil: hərəkatın meydana gəlməsi

və sürətli yüksəlişi ilk növbədə ölkədəki hərbi-siyasi, iqtisadi və mənəvi durumla şərtlənmişdi. Və xarici qüvvələr də, şübhəsiz, bu şəraiti bilir və öz addımlarını ona hesablayırdılar. Talibanın sıralarında ölkədəki qardaş qırğınında iştirak etmək istəməyən keçmiş komandanlar (məsələn, Cəlaləddin Həqqani), sıravi mücahidlər də az deyildi. Hətta əski "Yeddiliyə" daxil olan partiyalardan ən azı ikisi (Nəbi və Xalisin partiyaları) lap əvvəldən Talibanı dəstəkləmişdi. Hərəkatın, xüsusən ilk dövrlərdə, əhalinin böyük qismi tərəfindən müdafiə olunduğu da danılmaz faktdır. Mücahidlərin qurduğu rejim rəsmən "islam dövləti" adlansa da, mövcud gerçəklik islam təlimindən çox-çox uzaq idi, ən başlıcası, yoxsul, savadsız, son dərəcə dindar olan sadə əfqanların əsasən kənd mollalarının təsiri altında formalaşmış dini təsəvvürlərinə heç də uyğun gəlmirdi.

1995-ci ilin fevralında Taliban qüvvələri birinci dəfə Kabul ətrafına yaxınlaşanda Əhməd şah Məsud həyatını riskə ataraq, danışıqlar aparmaq üçün onların düşərgəsinə getmişdi. Həmin danışıq zamanı Talibanın ikinci şəxsi Molla Məhəmməd Rəbbani ona "biz heç bir partiyanı dəstəkləmirik, heç bir partiya ilə xüsusi düşmənçiliyimiz də yoxdur" deməklə bərabər, mücahidlərin hökumətini iki şeydə ittiham etmişdi: ölkədə islam şəriətini tətbiq edə bilməməkdə və təhlükəsizliyi təmin etməyə qadir olmamaqda [127, 188]. Taliban da bu iki məsələni özünün başlıca məqsədi kimi təqdim edir, müxtəlif qruplaşmaların əlindəki silahların yığılmasına nail olacağını bildirirdi ki, bu da təbii olaraq, cəmiyyətdə müsbət qarşılanırdı.

Taliban texnoloqlarının bir uğurlu gedişi də onların uzun müddət (iki ilə yaxın) hakimiyyət iddialarını gizlədə bilməsi olmuşdur. Bu gediş sayəsində onlar hətta Zahir şah kimi qocaman və təcrübəli bir siyasətçini də aldada bilmişdilər: Talibanın paytaxtı tutması ərəfəsində – 1996-cı il sentyabrın 13-də Zahir şah tezliklə Əfqanıstana qayıdacağı barədə bəyanat yaymışdı [111,

88]. Bu bəyanat, şübhəsiz, havadan verilməmişdi və Taliban nümayəndələri ilə təmaslardan hasil olan qənaətə əsaslanırdı. Lakin Kabulu alıb hakimiyyətə yiyələndikdən sonra Taliban təmsilçiləri Zahir şahın ölkəyə gəlməsinə lüzum olmadığını bildirdilər.

Maraqlıdır ki, mücahid liderlərinin bir çoxu da ilkin mərhələdə Talibana mənfi münasibət sərgiləməmişdilər. Məsələn, Bürhanəddin Rəbbani Talibanı milli əfqan hərəkatı kimi qiymətləndirmiş və "nəcib əməllərin dayağı" adlandırmışdı. General Rəşid Dustum hətta 1996-cı ildə belə BBC radiosuna müsahibəsində demişdi: "Taliban – əfqan xalqıdır, bizim puştu qardaşlarımızdır. Biz Talibanı öz xalqımızdan ayırmırıq, onlar bizim millətimizin bir parçasıdır" [86, 31]. Rəbbani sonralar Qəndəharda olduqları dövrdə Talibana maddi dəstək verdiyini də etiraf etmişdir. Görünür, o, puştulardan yaranmış bu hərəkatın Hikmətyarın zəifləməsinə xidmət edəcəyini və onun maraqlarına uyğun olduğunu düşünmüşdür. Yalnız Hikmətyar Talibanın Qəndəhar şəhərini ələ keçirdiyi gün onun əleyhinə kəskin ifadələrlə çıxış etmişdi və kifayət qədər açıq danışmışdı: "Taliban hərəkatı xaricdən idarə olunan bir qəsddir ki, bir sıra muzdlu könüllülər tərəfindən təşkil olunub və onun məqsədi mücahidləri aradan götürməkdir... Bu hərəkat bir xarici ölkə və İngiltərənin İslamabaddakı sabiq səfiri tərəfindən yaradılmışdır, bir islam ölkəsi də onu təmin edir" [138, 20]. Bu sözlər Hikmətyarın məsələdən yetərincə hali olduğunu göstərirdi ki, bu da onun Pakistan xüsusi xidmətləri, eləcə də Mövlana Fəzlür-Rəhmanla sıx əlaqələri nəzərə alındıqda, təbii sayılmalıdır. Eyni zamanda bu sözlərdə onun özü ilə bağlı tam əsaslı narahatlığı öz əksini tapmışdı: Hikmətyar yaxşı anlayırdı ki, artıq Pakistan Əfqanıstanla bağlı planlarını yeni qüvvəyə istinadla həyata keçirəcək, ona "stavka" olunmayacaq, necə deyərlər, onun qatarı atrıq gedib. Əslində Hikmətyar üzərində qurulan planlar məşhur Cəlalabad əməliyyatındakı uğursuzluqla sarsılmışdı, sonrakı illərdə isə perspektivsizliyi aydın olaraq, yeni qüvvə axtarışına çıxılmışdı.

Planlar isə kifayət qədər ciddi idi: 1990-cı ildə ingilisdilli "Kabul-tayms" qəzetində Əfqanıstan hökumətinin əlinə keçmiş (çox ehtimal ki, Hindistan kəşfiyyatı vasitəsilə) məxfi sənəd nəşr olunmuşdu. ISI tərəfindən Pakistan səfirliklərindəki hərbi attaşelərə ünvanlanmış həmin sənəddə ölkənin Əfqanıstanla bağlı siyasətinin hədəfləri şərh edilirdi. Həmin hədəflərdən biri kimi Əfqanıstanın siyasi-iqtisadi strukturlarına nüfuz etməklə, ölkə əhalisinin rəyini yönləndirməklə, Əfqanıstan-Pakistan konfederasiyasının qurulmasına nail olmaq göstərilirdi [138, 21-26]. Bununla da Pakistan özünün yüz ildən bəri davam edən əsas başağrısını – "Puştunistan problemini" birdəfəlik həll etməyi düşünürdü. Nəzərə alsaq ki, iki ölkə arasında şərti sərhədi müəyyənləşdirən "Dürand xətti" barədə saziş 1893-cü ildə yüz illiyinə imzalanmışdı, onda Pakistanın bu məsələ ilə əlaqədar narahatlıq və tələskənliyini anlamaq olar. Bu üzdən eyni vəzifə Taliban üzərinə də transfer olundu və hərəkatdan gözlənilən birinci hədəf kimi müəyyənləşdi. Pakistan özünün yetişdirdiyi siyasi baxımdan savadsız, nəinki dünyadakı proseslərdən geniş anlayışı olmayan, hətta Əfqanıstan cəmiyyətini yetərincə tanımayan fanatiklər ordusu ilə bir tərəfdən puştuların əzilmiş qürurunu bərpa etmək, digər tərəfdən Kabulda sözəbaxan rejim formalaşdırıb ölkə üzərində şəriksiz təsirə malik olmaq istəyirdi. Taliban vasitəsilə reallaşdırılması düşünülən ikinci hədəf isə iqtisadi səciyyəli olmaqla bərabər, həm də geosiyasi mahiyyət daşıyırdı. İqtisadi planlar iki istiqamətə malik idi: bir tərəfdən Orta Asiya bazarlarına Pakistan mallarının çıxışını təmin etmək, ikinci tərəfdən isə oradakı enerji resurslarının (qaz və neft) Pakistana daşınmasına nail olmaq.

Bu məsələlərin Talibanla birbaşa əlaqələrini göstərmək baxımından hərəkatın meydana çıxdığı dövrdəki hadisələrin xronologiyasına diqqət yetirmək kifayətdir. 1994-cü il sentyabr ayının 21-də Pakistan daxili işlər naziri Babərin rəhbərliyi ilə 30 maşından ibarət test xarakterli yük karvanı Orta Asiyaya yola salınır,

lakin mücahidlər karvanın yolunu kəsirlər. Taliban adlı dəstə mücahidlərlə döyüşə girib yolu açır. Oktyabrın 18-də ikinci ticarət karvanı Qəndəhar-Herat-Türkmənistan marşrutu ilə yola çıxır. Yenə eyni şey təkrarlanır və Taliban yolu açmaqla bərabər Qəndəharı da ələ keçirir. Bu arada Nəsirulla Babər bir neçə ölkənin səfirlərindən (Çin, Yaponiya, İtaliya, İspaniya, ABŞ, Cənubi Koreya), eləcə də kommunikasiya mütəxəssislərindən ibarət bir heyətlə qeyd olunan marşrutla yola çıxır, magistral yolun yenidən qurulması, dəmir yolunun və rabitə xətlərinin çəkilməsi planlarını müzakirə edir. Oktyabrın 28-də Aşqabadda səfərdə olan baş nazir B.Bhutto Türkmənistan prezidenti S.Niyazovla yanaşı, Herat valisi İsmayıl xanla və general Rəşid Dustumla görüşür, onlarla nəqliyyat və enerji layihələrinin təhlükəsizliyinə təminatla bağlı müzakirələr aparır [124, 482-483].

Belə bir sinxronluq Talibanın missiyası barədə aydın nəticəyə imkan verir: nəzərdə tutulan iri regional layihələri həyata keçirmək üçün ölkədə sabitlik və təhlükəsizliyi təmin edəcək qüvvəyə ehtiyac var idi. Talibanın güclənməsi və ölkə ərazisində mövqelərini genişləndirməsinə paralel olaraq, qeyd olunan layihələrlə də bağlı işlər davam etmişdir. “1995-ci ildə Amerikanın UNOCAL neft şirkəti Səudiyyə Ərəbistanının Delta-Oil kompaniyası ilə birlikdə Əfqanıstandan keçməklə Türkmənistandan Pakistana qaz və neft kəmərinin çəkilişi ilə bağlı müzakirələrə başladı… 1997-ci ildə (artıq Talibanın Kabulda möhkəmləndiyi dövrdə - M.M.) UNOCAL şirkəti CentGas adlı konsorsium yaratdı, Türkmənistan və Pakistanla saziş imzaladı” [18, 277].

Qeyd edək ki, ABŞ hökuməti Talibanı rəsmən tanımasa da, UNOCAL ilə Taliban arasında yaxşı münasibətlər yaranmışdı: 1997-ci ilin noyabr ayında şirkət Taliban nümayəndə heyətini ABŞ-a dəvət etdi və bir ay sonra Omaha universitetində 137 əfqan texnik üçün təlim mərkəzi açdı [124, 487].

Bununla belə, Talibanın ölkə ərazisini öz nəzarətinə alması,

bir çox tədqiqatlarda iddia olunduğu kimi, asan və ildırım sürətli olmamışdır. Bu fikir yalnız Talibanın meydana çıxmasından sonrakı ilk 3-4 aya aid edilə bilər. Belə ki, 1995-ci ilin mart ayında Taliban qüvvələri Kabula ilk hücumda Əhməd şah Məsud tərəfindən ağır məğlubiyyətə uğradılmış və uzun müddət paytaxta yaxın düşə bilməmişdilər. Herat istiqamətində ilk döyüş də İsmayıl xanın qələbəsi ilə nəticələnmişdi; yalnız Pakistandan əlavə qüvvələr gəldikdən və həmin vaxt Talibanla əməkdaşlıq edən Dustumun təyyarələrinin bombardmanlarından sonra Taliban Heratı ala bildi (1995-ci il sentyabrın 5-də); İsmayıl xan İrana qaçdı, lakin bir müddət sonra ölkəyə qayıdıb müqaviməti davam etdirdi. Talibanın ən biabırçı məğlubiyyəti isə Məzari-Şərifdə baş verdi. Doğrudur, burada gözlənilməzlik elementi vardı, lakin hər halda bu hadisə Taliban xofuna son qoymuş, onların özləri arasında ciddi narahatlıq doğurmuşdu. Təsadüfi deyil ki, daim Qəndəharda olan Taliban lideri məhz bu acı məğlubiyyətdən sonra ilk dəfə Kabula gəlmişdi. Məsələ isə, qısa şəkildə desək, belə olmuşdu:

1997-ci il mayın 18-də Dustumun rəhbərlik etdiyi Milli İslami Hərəkatda siyasi işlər üzrə müavini general Əbdülməlik onu qardaşının öldürülməsində şübhəli bilərək qiyam qaldırmış, Məzari-Şərifi nəzarətə götürmüş və Taliban tərəfə keçdiyini bildirmişdi. Dustum bir neçə tərəfdarı ilə Özbəkistana qaçmışdı. Mayın 24-də Taliban qüvvələri şəhərə daxil olmuşdular. Lakin iki gün sonra Əbdülməlik mövqeyini dəyişmiş (görünür, Məsudun təsiri ilə) və şəhərdəki Taliban əsgərlərini qırmağa başlamışdı. Taliban hökumətinin xarici işlər naziri və bir neçə yüksək rütbəli şəxs əsir götürülsə də, sonradan qaça bilmişdilər. Bütövlükdə Taliban həmin hadisədə 1500 nəfərdən çox itki vermişdi. Az sonra Dustum ölkəyə qayıtmış və Əbdülməliklə barışmışdı.

Taliblər bir də 1998-ci ilin avqustunda Məzari-Şərifi tuta bilmişdilər. Dustum bu dəfə Türkiyəyə qaçmışdı. Bundan sonra şimal ərazilərinin xeyli hissəsini (Bəğlan, Kunduz və Səməngan

vilayətlərini) ələ keçirən Taliban qüvvələri həzarələri kütləvi qırğına məruz qoymuş, 2 minə yaxın insanı etnik mənsubiyyətinə görə qətlə yetirmişdilər. 1998-ci ilin sentyabrında onlar ölkə ərazisinin 90 %-nə nəzarət edirdilər. Qalan 10 %-də (Bədəxşan vilayəti, Təxar vilayətinin bir hissəsi və Pənçşirdə) isə əyilməz Əhməd şah Məsud duruş gətirməkdə idi [70, 458-459].

1996-cı ilin sentyabrında Məsud mövcud reallıqları nəzərə alaraq, o cümlədən, Kabul sakinlərini yeni fəlakətlərə düçar etmək istəməyərək, şəhəri Talibana döyüşsüz təslim etmişdi: onların gəlişindən bir gün öncə qüvvələrini şimala çəkmişdi. Onunla bərabər prezident Rəbbani, hökumət üzvləri də Kabulu tərk etmişdi. Mücahidlər hökumətinin Cəbəlüssiracda keçirilən toplantısında qərara alınmışdı ki, Taleqan şəhəri (Təxar vilayətinin mərkəzi) prezident Rəbbaninin iqamətgahı olacaq, baş nazir Hikmətyar Bəğlanda, Səyyaf isə Kunduzda oturacaq. Müqaviməti təşkil etmək üçün hər bir liderin Məsudun komandanlığı altına 3500 döyüşçü verməsi barədə də razılığa gəlindi, lakin sonradan bu razılaşmaya heç kəs əməl etmədi. 2-3 ay sonra Hikmətyar ölkəni tərk edib İrana getdi, daha sonra Məzari-Şərifə gəlib Talibanla mübarizəyə qoşulmaq istədi, lakin çox çəkmədən yenidən İrana qayıtdı. Rəbbani də gah İrana, gah Tacikistana gedir, bəzən də Məzari-Şərifdə olurdu. Talibana qarşı müqavimətin təşkili yenə Məsudun üzərinə düşdü. 1996-cı il oktyabrın 11-də o, Bəğlan vilayətindəki Xincan şəhərində Rəşid Dustum, "Vəhdət"in yeni lideri Əbdülkərim Xəlili və Heratın keçmiş valisi İsmayıl xanla birlikdə Talibana qarşı yeni hərbi koalisiya "Vətənin Müdafiəsi üçün Ali Şura" ("Şuraye-aliye-defa əz-Vətən") yaratdı. 1997-ci ilin iyununda qurumun adı dəyişdirilərək "Əfqanıstanın Nicatı üçün Birləşmiş Milli və İslami cəbhə" ("Cebheye-mottəhede-melli və eslamiye-necate-Əfğanestan") adlandırıldı [127, 51]. Bu qurum daha çox "Şimal alyansı" adı ilə tanınırdı. Amma sonradan Dustumun ölkəni tərk etməsi,

İsmayıl xanın Talibana əsir düşməsi və s. kimi səbəblər üzündən alyansın əsas yükü yenə də Məsudun üzərində idi. O, ən ağır vaxtlarda belə Talibanın əməkdaşlıq təkliflərini, xaricə getmək barədə çağırışları rədd edərək, müqaviməti davam etdirdi. Onun iradəsi sayəsində Rəbbani hökuməti, formal da olsa, Talibanın süqutuna qədər öz mövcudluğunu qoruya bildi.

Taliban isə Əfqanıstan ərazisinin əsas hissəsini nəzarətə aldıqdan sonra ölkədə islam və şəriət haqqında öz primitiv və səthi təsəvvürlərinə söykənən hərbi-teokratik rejim qurmuşdu. 1997-ci il oktyabrın 26-da dövlətin adı dəyişdirilərək rəsmən Əfqanıstan İslam Əmirliyi ("Emarəte-eslamiye-Əfğanestan") elan olundu. Bundan xeyli əvvəl – 1996-cı il aprelin 4-də Qəndəharda təqribən 1500 nəfərin iştirakı ilə keçirilən yığıncaqda Taliban liderinə "möminlərin rəhbəri" – "əmir əl-möminin" adı verilmişdi. Lakin Talibanın az görünən və az danışan müəmmalı lideri bu yüksək dini titula layiq idimi? Özünü nə qədər gizlətsə də, KİV və insanlarla təmasdan qaçsa da, onu yaxından müşahidə etmiş şəxslərin təəssüratı, verdiyi azsaylı müsahibələr göstərir ki, qətiyyən yox! Əksinə, faktlar sübut edir ki, o, orta səviyyəli din xadimi üçün tələb olunan keyfiyyətlərə və dünyagörüşünə malik deyildi. Bu üzdən bir çoxlarında Molla Ömərin pərdə arxasından kimlərsə tərəfindən idarə olunmasına dair təəssürat yaranmışdır.

Mücahidlər hökumətinin Həcc və vəqflər naziri Səxidad Fayiz bir neçə dəfə Qəndəharda danışıqlar aparmaq üçün Molla Ömərlə görüşmüş və onu belə təsvir etmişdir: "O, daim gözünə qara eynək taxır. Müzakirə zamanı çox nadir hallarda danışır, hətta bəzən söhbətin axırına qədər bir kəlmə demir... Onun əvəzinə söhbəti Molla Rəbbani, hərdən də Vəkil Əhməd Mütəvəkkil (Talibanın mətbuat katibi, sonralar xarici işlər naziri – M.M.) aparır. Bu vəziyyət onu göstərirdi ki, onun məsələlərdən elə də anlayışı yoxdur və idarə etmək əvəzinə idarə olunur" [127, 58-59].

BBC radiosunun puştu redaksiyasının müxbiri Rəhimulla Yusifzəyin Molla Ömərdən aldığı müsahibələr onun düşüncəsini və məsələlərə yanaşmasını göstərmək baxımından maraqlıdır. Məsələn, müxbirin Taliban hakimiyyəti dövründə əhalinin iqtisadi vəziyyətinin pisləşdiyi və bununla bağlı hansısa proqrama malik olub-olmadıqları barədə sualına Molla Ömər belə cavab vermişdi: "Bunun əhaliyə dəxli yoxdur, bu, Allahın işidir. İstəyinə görə, birinə çox verir, birinə az. Çox ölkələrdə iqtisadi vəziyyət pisdir". Yaxud 1998-ci ildə Təxar və Bədəxşanda (Əhməd şahın nəzarətində olan ərazilərdə) 5000 nəfər insanın ölümü ilə nəticələnən dəhşətli zəlzələyə Molla Ömərin reaksiyası belə olmuşdu. "Təxar və Bədəxşan əhalisi Əfqanıstan İslam Əmirliyinə təslim olmadı və onun göstərişlərinə itaət etmədi, buna görə də Allahın qəzəbinə düçar oldu" [127, 59].

Bu misallar Talibanın ölkəni necə, hansı təfəkkürlə idarə etdiyi barədə müəyyən təsəvvür yaradır. Qeyd etmək lazımdır ki, Talibanın hakimiyyəti dövründə Əfqanıstanın faktiki olaraq, iki paytaxtı vardı: Molla Ömərin əyləşdiyi Qəndəhar və nazirliklərin, digər dövlət orqanlarının fəaliyyət göstərdiyi Kabul. Bunun özü idarəçilikdə xeyli problemlər yaradır, onun onsuz da aşağı olan səmərəliliyini bir qədər də zəiflədirdi. Qəndəharda Molla Ömərin başçılığı ilə altı nəfərdən ibarət Ali Rəhbərlik Şurası fəaliyyət göstərirdi və müxtəlif məsələlərə dair fətvalar verməklə bir növ qanunvericilik funksiyasını yerinə yetirirdi. Təliblər əvvəlki hökumətdən fərqli olaraq, ölkədə yeni Konstitusiya hazırlanması və qəbulu ideyasından imtina etdilər: onların fikrincə, şəriət olan yerdə buna ehtiyac yox idi və cəmiyyət şəriət hökmləri əsasında idarə olunacaqdı.

Kabulda isə Talibanın ikinci şəxsi Məhəmməd Rəbbaninin (1999-cu ildə xərçəng xəstəliyindən vəfat etmişdir) baş nazir ("rəisül-vüzəra") olduğu hökumət fəaliyyət göstərirdi. Təliblər əvvəlki hökumətin strukturunu müəyyən ixtisar və əlavələr-

lə əsasən saxladılar. Lakin ümumilikdə amorf və süst xarakter daşıyan hökumət strukturları cəmiyyətin tələb və ehtiyaclarını təmin etmək iqtidarında deyildi. Pakistan tədqiqatçısı, Taliban hərəkatı ilə bağlı məşhur kitabların müəllifi Əhməd Rəşid onların hakimiyyətini belə xarakterizə edir: “Taliblər 1992-ci ildən dövlət orqanlarında xidmət göstərən işçiləri vəzifələrdən uzaqlaşdırmaqla, böyük qarışıqlıq yaratdılar. Onlar tacik, özbək və həzarə millətindən olan təcrübəli dövlət məmurlarının əksəriyyətini səriştəsiz olan puştularla əvəz etdilər. Kabul və Qəndəharda dövlət idarələri gündə cəmi 4 saat – səhər saat 8-dən günortaya qədər işləyirdi, bununla da ölkədəki siyasi-hərbi böhrana əhəmiyyət verilmirdi. Nazirliklərdə sənədləşmə aparılmırdı, işçilərin sayı çox az idi. Yüzlərlə talib kişilərin saqqalına nəzarət edən dəstələrdə fəaliyyət göstərdiyi halda, nazirliklərdə xalqın problemləri ilə məşğul olmağa adam tapılmırdı. Artıq əhalinin də nazirliklərdən elə bir gözləntisi yox idi. Şəhərlərdəki dövlət idarələrində yerli kadrların olmaması əhalidə Taliban barədə işğalçı qüvvə təsəvvürü yaratmışdı” [127, 285-286].

Əhali ilə ən fəal “təmasda olan” dövlət qurumu isə bir növ dini-əxlaqi polis rolunu oynayan “Yaxşı işlərə sövq etmək və pis işlərdən çəkindirmək” (“Əmr be məruf və nəhy əz münkər”) nazirliyi idi. Bu nazirliyin saysız-hesabsız işçiləri ictimai həyatın bütün sahələrində şəriət normalarına əməl olunmasına nəzarət edir, müəyyən edilmiş qaydaları pozanları cəzalandırırdılar. Əfqanıstan əhalisi Taliban hakimiyyətinin elə ilk günlərindən çoxsaylı qadağalarla üz-üzə qaldı. Ən çox qadağa isə qadınların payına düşürdü: hökumət faktiki olaraq, onlardan evdə oturmağı tələb edirdi. Qadınların təhsilinə, dövlət işlərində çalışmasına imkan verilmirdi. Bu qadağalar qeyd olunan nazirliyin vaxtaşırı elan etdiyi fərmanlarla tənzimlənirdi. Onların mahiyyəti barədə konkret təsəvvür əldə etmək üçün, məsələn, 1998-ci ilin dekabrında verilmiş fərmanın bəzi müddəalarına nəzər salmaq

kifayətdir: 1) hicabsız, yaxud İran çadrası (üzü açıq – M.M.) bağlamış qadınlar avtobusa minərsə, sürücü həbs edilməlidir; əgər qadın bu qiyafədə küçədə görünərsə, evi tapılacaq və əri cəzalandırılacaqdır; 2) dükanlarda, otellərdə, maşınlarda musiqi dinlənməsi qadağandır; 3) kişilərə saqqalı qırxmaq və ya qısaltmaq icazəsi verilmir; 4) bütpərəstlik qadağandır; maşında, evdə, dükanda, oteldə şəkil, portret asılmasına icazə yoxdur; 5) qumarbazlıq, narkotik maddələrdən istifadə, cadugərlik qadağandır; 6) namazdan imtinaya icazə verilmir; namaz vaxtı bütün avtomobillər dayanmalı və əhali hamılıqla məscidə namaz qılmağa getməlidir və s. [124, 491-49].

İslam şəriətinin özünəməxsus anlaşılması və yozumuna əsaslanan bu qadağaların zorla tətbiqi Taliban rejiminə totalitar mahiyyət bəxş etməklə bərabər, bəzən absurd, hətta lətifəvari xarakter alırdı. Məsələn, televizora baxmaq qadağan olunduğundan ölkənin xarici işlər naziri Mütəvəkkil qonşu ölkənin hədiyyə etdiyi peyk antennası ilə dünya xəbərlərini izləmək üçün televizora öz kabinetinin zirzəmisində gizlicə, xüsusi ehtiyat tədbirləri görməklə baxa bilirdi. Ədliyyə nazirliyinə şikayət edən vətəndaşa saqqalı qısa olduğu üçün bir ay sonra müraciət etmək tövsiyə olunurdu. Namaz vaxtı yoldan keçən sikh dininə mənsub şəxs də məscidə keçməyə məcbur edilirdi [138, 53-55].

Ən dəhşətlisi o idi ki, sözügedən nazirliyin fəaliyyəti heç bir qanun və əsasnamə ilə tənzimlənmirdi, bu da onun əməkdaşlarının özbaşınalığına tam imkan verirdi.

Cəmiyyət həyatının bu şəkildə idarə olunması təkcə sadə əfqanları, xüsusən qadınları, daimi təzyiq və qorxu altında saxlamırdı, həm də ölkənin qədim mədəni irsinə sağalmaz zərbələr vururdu. Rəssamlığın, heykəltəraşlığın bütpərəstlik sayılması və qadağan edilməsi nəticəsində çoxsaylı sənət əsərləri, maddi mədəniyyət abidələri məhv edilirdi. 2001-ci ilin mart ayında

Taliban hökumətinin 2 naziri (mədəniyyət və maliyyə nazirləri) və Molla Ömərin xüsusi nümayəndəsi Kabuldakı Əfqanıstan Milli Muzeyinə gələrək, ölkənin müxtəlif bölgələrindən tapılmış 2850 eksponatı (heykəllər, təsvirlər və s.) sındırıb məhv etmişdilər. Bu eksponatların bir çoxu miladdan öncəki əsrlərə aid idi [127, 286]. Təqribən eyni vaxtda (ilk cəhd 1999-cu ildə olmuşdu) Buddanın Bamiyan vilayətində dəniz səviyyəsindən 2500 metr yüksəklikdə yerləşən ərazidəki iki möhtəşəm heykəli dağıdıldı (VI əsrə aid olan və qayalarda yonulmuş bu nəhəng heykəllərdən birinin hündürlüyü 35 metr, digərininki isə 53 metr idi) [111, 95]. Bu vandalizm aktı dünya ictimaiyyətinin kəskin etirazına səbəb olmaqla yanaşı, Talibanın həqiqi simasını bütün bəşəriyyətə göstərdi.

Bütövlükdə Taliban rejimi özünü "xalis islamın" carçısı kimi təqdim etsə də, Əfqanıstan cəmiyyətində 3 növ – cinsi, məzhəbi və etnik ayrı-seçkiliyə rəvac verdi. Puştu millətçiliyini islam libasında həyata keçirən taliblər xüsusən şiə həzarə əhaliyə qarşı amansızlıq göstərirdilər. Talibanın Bəlxdəki valisi Əbdülmənnan Niyazi Məzari-Şərifdə cümə məscidindəki çıxışında demişdi: "Həzarələrin qarşısında yalnız 3 yol var: ölmək, Əfqanıstanı tərk etmək, ya da sünni hənəfi məzhəbini qəbul etmək!» [127, 287].

Beləliklə, bir vaxtlar Talibanı ümidlə qarşılayan Əfqanıstan əhalisi artıq onun qurduğu hərbi-teokratik rejimdən cana gəlmişdi və bu rejimin çəngindən xilas olacağı günü arzulamaqda idi. Ölkə daxilində Taliban zülmünə son qoyacaq qüvvə görünmürdü, odur ki, ümid yalnız xarici amilə qalmışdı.

Taliban Kabulda hakimiyyətə gəldikdən sonra xarici dövlətlərdən yalnız üçü (Pakistan, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri) onu rəsmən tanısalar da, bəzi qonşu və yaxın ölkələr istisna olmaqla, beynəlxalq birliyin əksər üzvləri xüsusən ilkin dövrdə yeni rejimə kifayət qədər loyal yanaşırdılar

və ölkə daxilində olduğu kimi, Talibanın Əfqanıstanda sülhü və əmin-amanlığı təmin edəcəyini düşünürdülər. ABŞ, artıq qeyd olunduğu kimi, Taliban hakimiyyətini öz maraqlarına uyğun bir hadisə kimi dəyərləndirirdi. Uzun müddət ABŞ rəsmilərinin Əfqansıtan üzrə məsləhətçisi olmuş Zəlməy Xəlilzad 1996-cı ildə "Nyu-York tayms" qəzetində dərc etdirdiyi məqalədə bildirmişdi ki, Taliban Qərbin deyil, modernizmin əleyhinə olan qüvvədir, buna görə də heç bir terrorçuluq təcrübəsi olmayan və İran deyil, Səudiyyə Ərəbistanı ruhaniləri üslubunda öz ölkəsini idarə etmək istəyən bu qruplaşmanı dəstəkləmək ABŞ-ın mənafeyinə cavab verərdi [127, 63].

Talibanın Əfqanıstanda hökmranlığı ələ almasından ən ciddi narahatlıq keçirən İran İslam Respublikası olmuşdur. Taliblərin qatı anti-şiə mövqeyi nəzərə alındıqda, bu, anlaşılandır. Təsadüfi deyil ki, 1996-cı ilin mayında Rəbbani hökuməti ilə Hikmətyar arasında yuxarıda haqqında danışılan razılaşmanın əldə olunmasında İranın diplomatik səyləri mühüm rol oynamışdı və bu, Talibanın Kabulda hökumət qurmasına imkan verməmək üçün İranın son cəhdi idi. Bu cəhd nəticəsiz qalsa belə, İran sona qədər Rəbbani hökumətini Əfqanıstanın qanuni hakimiyyəti kimi tanımış və onunla diplomatik münasibətlər saxlamışdır.

1998-ci ilin avqustunda Taliban Məzari-Şərifi ələ keçirərkən, İranın oradakı konsulluğunun 9 əməkdaşını qətlə yetirdi və gərginlik son həddə çatdı. İran hökuməti islam inqilabının keşikçiləri korpusunun 70.000 nəfərlik heyətini Əfqanıstanla həmsərhəd əraziyə yeridərək geniş hərbi təlimlər keçirdi [18, 274]. Həmin dövrdə İranın ali dini rəhbəri ayətullah Xameneyi Talibanı "siyasətdən və islamdan xəbəri olmayan cahil dəstə" adlandırmışdı. Taliban lideri Molla Ömər isə bildirmişdi ki, "İran şiələri nə müsəlmanlar, nə də kafirlər tərəfindən müsəlman kimi qəbul olunmur" [127, 64].

Rusiya Federasiyası Talibanın hakimiyyətə gəlişini narahat-

lıqla qarşılamış və bunu özünün Orta Asiyadakı nüfuzuna təhlükə kimi dəyərləndirmişdir. Bu üzdən davamlı olaraq, Şimal Alyansına dəstək göstərmişdir. Xüsusən 2000-ci ilin yanvarında Taliban hökumətinin Çeçenistan (İçkeriya) Respublikasının müstəqilliyini tanıması və Zəlimxan Yandarbiyevin Əfqanıstana səfəri nəticəsində Kabulda çeçen səfirliyinin açılması Rusiyanın mövqeyini daha da kəskinləşdirdi.

Rusiyanın Orta Asiya ölkələrini Taliban təhlükəsi qarşısında səfərbər etmək cəhdi o qədər də uğurlu olmamışdır. Türkmənistan bununla bağlı Rusiya və qonşu Orta Asiya dövlətlərinin 1996-cı ilin oktyabrında Qazaxıstanın paytaxtında keçirilən sammitində iştirak etməmiş və Talibanla birbaşa əlaqələr qurmuşdur. Özbəkistan rəhbərliyi ölkəsindəki islamçı hərəkat liderlərinin (Tahir Yuldaşev və Cümə Nəməngani) Talibanla əlaqələrindən narahatlıq keçirsə də, bu hərəkatla təmaslardan da çəkinməmişdir. 1999-cu ilin əvvəllərində Özbəkistanın xarici işlər naziri Qəndəhara – Molla Ömərin yanına getmiş və ona prezident İslam Kərimovun məktubunu çatdırmışdı. Özbəkistanın İslamabaddakı səfiri bir neçə dəfə Talibanın Pakistandakı təmsilçisi ilə görüşmüş və regionda sabitlik naminə əməkdaşlığa hazır olduqlarını bildirmişdi [127, 240-241].

Qeyd edək ki, məhz Özbəkistan lideri İ.Kərimovun təşəbbüsü ilə BMT-nin himayəsi altında Əfqanıstanda sülhə dair 6+2 qrupu yaradılmışdı. Əfqanıstanda vəziyyətin dinc yolla nizama salınması məqsədi daşıyan bu formatın əsası 1997-ci ilin avqustunda İ.Kərimovun BMT Baş katibinin Əfqanıstan üzrə xüsusi nümayəndəsi Lahdar Brahimi ilə görüşündə qoyulmuşdu. Qrupa Əfqanıstanın 6 qonşusu (Çin, İran, Pakistan, Tacikistan, Türkmənistan və Özbəkistan), eləcə də ABŞ və Rusiya daxil idi. 1999-cu il iyulun 19-da Özbəkistan paytaxtında 6+2 qrupunun yığıncağı keçirildi və "Daşkənd Bəyannaməsi" adlanan sənəd qəbul olundu. Bu görüşdə ilk dəfə olaraq, Taliban

nümayəndələri Şimal Alyansının təmsilçiləri ilə bir masa arxasında oturdu, lakin müzakirələr zamanı Taliban Şimal Alyansının legitimliyini rədd etdi və görüş elə bir ciddi nəticə vermədi [124, 494-495].

1998-ci ilin ortalarından etibarən beynəlxalq aləmdə Taliban rejiminə münasibət dəyişərək, kəskinləşməyə başladı, ona qarşı təzyiqlər artdı, son nəticədə BMT-nin tətbiq etdiyi sanksiyalar sayəsində onsuz da təcrid vəziyyətində olan Taliban hökumətinin izolyasiyası daha da gücləndi. Bu isə ilk növbədə iki mühüm səbəblə bağlı idi: 1) Əfqanıstanın dünyada narkotiklərin əsas istehsalçısı və ixracatçısına çevrilməsi; 2) ölkənin beynəlxalq terror şəbəkəsinin mərkəzi rolunu oynaması. Qərb müəlliflərindən birinin yazdığı kimi, "narkotik pulları ilə bəslənən və əl-Qaidə ilə çiyin-çiyinə verən Taliban Əfqanıstanı dünyanın ilk tam formalaşmış narkoterror dövlətinə çevirdi" [19, 80].

Əlbəttə, Talibana beynəlxalq münasibətin sərtləşməsində üçüncü səbəb kimi ölkədə qadınların (və bütövlükdə insan haqlarının) vəziyyətini də qeyd etmək olar. Beynəlxalq qurumlar, feminist təşkilatlar bununla bağlı etirazlarını getdikcə artırırdılar və Madlen Olbraytın dövlət katibliyi dövründə (1997-2001) ABŞ hökuməti də həmin məsələyə daha çox diqqət ayırmağa başlamışdı.

Taliban hərəkatı meydana çıxdığı ilk dövrlərdə narkotik maddələrin istehsalı və istifadəsinə qarşı olduğunu bildirsə də, hətta bəzi xaşxaş əkinlərini nümayişkaranə şəkildə məhv etsə də, hakimiyyətini möhkəmlətdikdən sonra ölkədə sözün həqiqi mənasında narkoiqtisadiyyatın formalaşmasına şərait yaratdı. Narkotiklərin kütləvi istehsalı və müxtəlif marşrutlarla bütün dünyaya (ilk növbədə Rusiya və Avropaya) daşınması Talibanın əsas gəlir mənbələrindən birinə çevrildi. 1999-cu ildə tiryək istehsalı rekord həddə – 4565 tona çatdı, bu da əvvəlki ildəkindən (2100 ton) 2 dəfədən çox artıq idi [56, 149]. 2000-ci ildə qlo-

bal narkotik istehsalının 75 %-i Əfqanıstanın payına düşürdü, bu da küçə qiymətləri ilə təqribən 80 milyard dollar demək idi. Avropada satılan heroinin təxminən 90 %-i Əfqanıstan mənşəli idi [18, 278]. Gəlirləri daha da artırmaq, yəni yalnız xammal ixrac etməmək üçün ölkədə heroin istehsal edən laboratoriyalar qurulmuşdu. "1998-ci ilin yazına qədər təkcə Nəngərhar vilayətinin Qənixeyl bölgəsində tiryəki heroinə çevirən 154 aparat quraşdırılmışdı. Taliban hər aparatın yanına bir silahlı şəxs qoymuşdu" [127, 289].

Taliban nümayəndələri riyakarcasına tiryəkin satışının deyil, istifadəsinin islamda haram olduğunu bildirir [105, 200], onu "müsəlmanların kafirlərə qarşı atom silahı" kimi dəyərləndirirdilər [127, 289].

Taliban hökumətinin bu fəaliyyəti beynəlxalq aləmdə ciddi narahatlıq doğururdu və artıq 1998-ci ilin dekabrında BMT TŞ xüsusi qətnamə qəbul edərək ondan terrorçulara yardımı dayandırmağı, narkotiklərin əkilməsi və istehsalını qadağan etməyi, qadınlara qarşı ayrı-seçkiliyə son qoymağı tələb etdi [111, 93]. 1999-cu ilin payızında isə BMT TŞ tələblərin yerinə yetirilmədiyini görüb Taliban rejiminə qarşı sanksiyalar tətbiq etdi. Sanksiyalara əsasən, Əfqanıstan hökumətinə məxsus "Ariana" aviaşirkətinin uçuşlarına qadağa qoyulur, Talibanın xarici banklardakı hesabları dondurulurdu [70, 461]. Bundan əvvəl (1999-cu ilin iyulunda) ABŞ prezidenti Bill Klinton Taliban əleyhinə iqtisadi sanksiyaları nəzərdə tutan qanun imzalamış, bir müddət sonra isə Talibanın ABŞ-dakı nümayəndəliyi bağlanmışdı.

Beynəlxalq təzyiqlərə cavab olaraq, Taliban lideri Molla Ömər 2000-ci ilin iyul ayında narkotiklərin əkilməsi və istehsalını rəsmən qadağan edən fərman imzaladı. Eyni zamanda Taliban hökuməti narkotik bitkilərin əkildiyi sahələrin BMT ekspertlərinin nəzarəti altında məhv edilməsinə razılıq verdi. Nəticədə 2001-ci ildə Əfqanıstanda tiryək istehsalı 150-185

tona qədər azaldı [56, 100]. Lakin bu, həm də Talibanın düşünülmüş addımı idi. Bununla Taliban beynəlxalq müzakirələrdə əlverişli mövqe əldə etmək, kəskin ərzaq qıtlığı şəraitində ölkəyə beynəlxalq ərzaq yardımına yol açmaq və ən başlıcası, digər əsas gəlir mənbəyinə – tranzit qaçaqmalçılığa dəyən ziyanı aradan qaldırmaq niyyəti güdürdü (M.Evansın yazdığı kimi, Taliban Pakistandakı güclü "nəqliyyat mafiyası" ilə sıx əlaqələrə malik idi [18, 275]).

Bununla yanaşı, Taliban hökuməti qadın hüquqları ilə bağlı "inanılmaz" bir addım atdı – 8 martın bayram edilməsinə icazə verdi. "Əfqanıstan İslam Əmirliyinin mətbuatında geniş reklam olunan və bunun təsiri altında xarici KİV-lərdə az qala Talibanın qadınlarla bağlı siyasətində 180 dərəcə dönüş kimi təqdim olunan bu hadisə əslində hakimiyyətin təbliğat aksiyasından başqa bir şey deyildi" [56, 120]. Doğrudan da, həmin addımla eyni vaxtda – 2000-ci il martın 18-də Taliban hökuməti təkcə qadınların deyil, bütün əfqan xalqının haqqını pozan bir əmr verdi: şəriətə uyğun olmadığı üçün yeni ilin – Novruzun bayram edilməsinə qadağa qoyuldu. Martın 21-də polis qüvvələri Kabulda və Məzari-Şərifdə xalqın minillərdən bəri qeyd etdiyi Novruzu bayram etmək istəyən əhaliyə amansız divan tutdu [111, 94-95].

Talibanın beynəlxalq tələb və təzyiqlər müqabilində axıra qədər heç bir güzəştə getmədiyi məsələ ölkədə məskunlaşmış radikal islam qrupları, ilk növbədə, "əl-Qaidə" lideri Üsamə bin Laden problemi oldu və elə bu da son nəticədə ABŞ və müttəfiqlərinin Əfqanıstana hərbi müdaxiləsinə təkan verdi. Əlbəttə, Əfqanıstandakı cihadçı qruplar təkcə "əl-Qaidə", yaxud ərəblərlə məhdudlaşmırdı. Hətta ərəblər arasında da müxtəlif dəstələr vardı və onların heç də hamısı Bin Ladenə tabe olmurdu. Bu baxımdan ABŞ müdaxiləsi ərəfəsində Molla Ömərin yanında keçirilmiş müşavirənin qərarı maraq doğurur və mövcud qrup-

lar arasında ixtilaflara son qoymaq, onların fəaliyyətini tənzimləmək cəhdi kimi diqqəti çəkir. "2001-ci ildə Taliban lideri Molla Məhəmməd Ömər Əfqanıstanda fəaliyyət göstərən bütün xarici qüvvələri Qəndəharda iclasa çağırdı. Üç gün davam edən iclas nəticəsində aşağıdakı qərar qəbul olundu: 1) Əfqanıstandakı bütün ərəb qruplarına Üsamə bin Laden rəhbərlik edəcək; 2) Orta Asiya və Şərqi Türküstandan (Çin) olan qüvvələrə Qari Tahircan (Tahir Yuldaşev – M.M.) komandanlıq edəcək; 3) Pakistan, Kəşmir, Banqladeş və Birmadakı dəstələrə rəhbərlik Mövlana Məsud Əzhər tərəfindən həyata keçiriləcək; 4) Əfqanıstandakı [digər] xarici cihadçıların komandanı Cüməbay Nəməngani olacaq" [138, 72].

Bu fakt onu göstərir ki, Əfqanıstan qlobal cihadçı şəbəkədə xüsusi mövqeyə malik idi. İslam dünyasının hər yerindən silahlı mübarizə və terror yolunu seçmiş təşkilatlar öz üzvlərini həm təlim keçmək, həm də döyüş təcrübəsi qazanmaq üçün Əfqanıstana göndərirdilər. Bunların içərisində Üsamə bin Ladenin "əl-Qaidə" təşkilatı ifrat radikallığı və geniş maliyyə-texniki imkanları ilə önəmli yer tuturdu və elə o da Talibanın beynəlxalq birliklə, xüsusən Qərblə münasibətlərində əsas problemə çevrildi. 1996-cı ildə yenidən Əfqanıstana gələn Üsamə bin Laden çox keçmədən Taliban üzərində elə güclü təsir qazandı ki, Molla Ömər bir çox məsələlərdə onun rəyini Pakistan və Səudiyyənin təkliflərindən üstün tutmağa başladı. Bir çox mənbələr Bin Ladenin hətta Molla Ömərlə qohum olduğunu – öz qızını ona verdiyini göstərirlər [56, 137], hərçənd Taliban nümayəndələri bunu təsdiq etmirlər. Lakin istənilən halda bu əlaqə sonrakı qohumluqla deyil, ilk növbədə, ideoloji yaxınlıqla şərtlənmişdir. Və burada Talibanın xidmət etdiyi ideologiyadan qısa da olsa bəhs etmək lazımdır, çünki bu məsələ ilə bağlı mövcud ədəbiyyatda bir çox yanlışlıqlar da müşahidə olunur.

Məsələn, Taliban ideologiyası haqqında Qərbdə ilk yazı-

lardan birinin (daha sonra "Taliban: tarixi və ideologiyası" adlı kitabın) müəllifi Covanni Bensi Talibanın məfkurəsinə məşhur Pakistan ilahiyyatçı və filosofu Əbul-Əla Mövdudinin (1903-1979) ideyalarının təsirindən və onun əsasını qoyduğu "Cəmaəti-islami" təşkilatının bu hərəkatla əlaqəsindən geniş şəkildə bəhs edir [66]. Halbuki Taliban hakimiyyəti dövründə Əfqanıstanda Mövdudinin əsərləri rəsmən qadağan olunmuşdu [138, 36], "Cəmaəti-islami"nin isə daha çox Hikmətyarla əlaqəsi vardı. Başqa bir müəllif Taliban ideologiyasının "simbioz" səciyyəsini düzgün olaraq qeyd etsə də, onun tərkibinin müəyyənləşməsində səhvə yol vermişdir: "Taliblər Əfqanıstanda islam teokratiyası quraraq cəmiyyət həyatını sərt şəkildə islamlaşmaya məruz qoydular. Siyasət, iqtisadiyyat, ictimai, məişət və mədəniyyət sahələri formaca Səudiyyə vəhhabilərinin, Pakistan və İran islamçılarının ideya və dini-siyasi praktikasının, fundamentalistlərin, <u>ilk növbədə "Müsəlman qardaşları"nın</u> (seçdirmə bizimdir – M.M.) nəzəri baxışlarının, eləcə də artıq əfqanların çoxunun unutduğu sırf əfqan ortodoksal normalarının simbiozundan ibarət islam qaydalarına tabe edildi" [72, 17]. Burada İranın qeyd edilməsinin yersiz olduğunu bildirməklə yanaşı, onu vurğulamalıyıq ki, "Müsəlman qardaşları"nın düşüncələri də Taliban tərəfindən rədd edilirdi və onların kitabları da ilk növbədə qadağan edilən kitablar siyahısına salınmışdı.

Bu məsələni bir qədər dəqiqləşdirmək istəsək, deməliyik ki, "İxvan əl-müslimin" ideyaları Əfqanıstanda 1960-1970-ci illərdə formalaşmış təməlçi təşkilatlara təsir göstərmişdi və sovet işğalına qarşı mübarizə aparan mücahid liderlərinin dünyagörüşündə mühüm yer tuturdu, hətta həmin liderlərin bir qismi Misirdə təhsil almışdı. Taliban ideologiyası isə tamamilə fərqli istiqamətdən – XIX əsrin 60-cı illərində Hindistanda yaranmış deobəndi cərəyanından qaynaqlanırdı. Bu cərəyan öz adını Hindistanın şimalındakı kiçik Deobənd şəhərindən götürmüş-

dür. 1866-cı ildə orada "Darül-ülum" adlı mədrəsənin əsası qoyulmuş, sonralar o, genişlənərək çoxsaylı mədrəsələr şəbəkəsinin mərkəzinə çevrilmişdir. Hazırda "Darül-ülum" Misirdəki "əl-Əzhər" universiteti ilə bərabər sünni islamın ən böyük dini məktəbi sayılır.

Deobəndilik yarandığı zaman Britaniya müstəmləkəçiliyi əleyhinə yönəlmişdi, odur ki, onun mayasında anti-Qərb meyli var idi. Eyni zamanda puritan səciyyəli bu təlim Hindistandakı ənənəvi, xüsusən sufizmin güclü təsirinə məruz qalmış islama qarşı da barışmaz mövqedə idi, bu da onun həmin istiqaməti təmsil edən bərelvi cərəyanı ilə mübarizəsini şərtləndirmişdir. 1919-cu ildə deobəndiliyin siyasi qolu olan "Cəmiyyəti-üləmayi-hind" təşkilatı yaradılmış, 1927-ci ildə isə onun daxilindən beynəlxalq səviyyədə fəaliyyət göstərən və bir növ "səyyar mədrəsə" rolunu oynayan [109, 18] "Cəmaəti-təbliğ" meydana çıxmışdı.

Deobəndilik öz kökünü Hindistanın məşhur müsəlman alimi və mühəddisi Şah Vəliullah Dehləvinin (1703-1762) təlimindən götürmüşdür, o cümlədən, vahid islam əmirliyinin yaradılması ideyası da ondan əxz olunmuşdur. Maraqlıdır ki, Dehləvi vəhhabiliyin banisi Məhəmməd ibn Əbdülvəhhabla (1703-1792) eyni vaxtda Mədinədə təhsil almışdı [126].

Qeyd edək ki, deobəndiliyi təmsil edən "Cəmiyyəti-üləmayi-hind" Hindistanın parçalanmasının və müstəqil müsəlman Pakistan dövlətinin yaranmasının əleyhinə idi və bunu Britaniyanın maraqlarına uyğun bilirdi. Odur ki, 1945-ci ildə Pakistanın yaradılmasını dəstəkləyən qruplaşma ondan ayrıldı və "Cəmiyyəti-üləmayi-islam" adlı təşkilat yaratdı. Pakistan yaradıldıqdan sonra (1947-ci ildə) bu təşkilat ölkədə deobəndiliyin əsas təmsilçisinə çevrildi. Paralel olaraq, bərelviər də "Cəmiyyəti-üləmayi-Pakistan" təşkilatını yaratdılar və deobəndi-barelvi mübarizəsi yeni şəraitdə də davam etdi.

Lakin yeni şəraitdə deobəndiliyin özü də müəyyən transformasiyaya məruz qaldı və getdikcə deobəndiliyin "klassik" formasından fərqli çalarlar kəsb etdi. Belə ki, Pakistanın Şimal-qərb əyalətindən çıxan üləmaların təşkilata qoşulması və rəhbərlikdə mövqe qazanması onun tədricən puştu etnik ənənələri və milliyyətçiliyinin təsirinə məruz qalmasına gətirib çıxardı. "Cəmiyyəti-üləmayi-islam" Pakistanın Əfqanıstanla sərhəddə yerləşən Şimal-qərb əyalətində (hazırkı Xəybər-Pəxtunxva əyaləti), "tayfalar zonasında", eləcə də Bəluçistan vilayətində güclü dayaqlar qazandı. Deobəndilik eyni zamanda başqa bir təsirə - sələfiliyin (vəhhabiliyin) təsirinə məruz qalmağa başladı. Əlbəttə, deobəndiliklə vəhhabiliyi eyniləşdirmək düzgün olmaz, ən azı ona görə ki, onlardan birincisi sünniliyin hənəfi, ikincisi isə hənbəli məktəbinə mənsubdur; bununla belə fundamentalist nəzəriyyələr olaraq, onlar arasında müştərək xüsusiyyətlər lap əvvəldən vardı. 1970-1980-ci illərdə deobəndilərin Pakistanda qurduğu geniş mədrəsələr şəbəkəsinə Səudiyyə Ərəbistanının maliyyə dəstəyi və bu mədrəsələrdə ərəb müəllimlərin dərs deməsi vəhhabi təsirinin daha da güclənməsinə səbəb oldu. İran tədqiqatçısının qeyd etdiyi kimi, "deobəndilər təfəkkür tərzi və düşüncələrinə görə vəhhabilərə çox yaxındır və onların Pakistanda vəhhabi təşkilatların fəaliyyət göstərməsində böyük rolu olmuşdur" [136]. Başqa sözlə, deobəndilərlə vəhhabilər arasında fiqh məsələlərində fərqlilik olsa da, ideoloji-siyasi və sosial-mədəni sahədə onların sürətli yaxınlaşması baş verirdi. XX əsrin ikinci yarısında Pakistan deobəndiləri arasından ciddi dini-ruhani fiqurun çıxmaması da buna şərait yaradırdı.

Deobəndilik xüsusən general Ziyaül-Həqqin prezidentliyi dövründə (1978-1988) Pakistanın ictimai-siyasi həyatında mövqelərini gücləndirmiş və mədrəsələr şəbəkəsini genişləndirmişdir. Belə ki, Ziyaül-Həqqin hakimiyyətinin ilk iki ilində Pakistanda 512 deobəndi mədrəsəsi vardısa, 1984-cü ildə on-

ların sayı 1097-yə çatmışdı [136]. Talibanın Əfqanıstanda hakimiyyətə yiyələnməsi ərəfəsində – 1995-ci ildə isə Pakistanda 200 mindən çox tələbənin təhsil aldığı 2500 mədrəsə fəaliyyət göstərirdi [86, 59]. Deobəndilərin Pakistan cəmiyyətində azlıq təşkil etməsinə rəğmən, ölkədəki mədrəsələrin 64 %-i onlara məxsus idi [7].

Qeyd edək ki, deobəndilik XX əsrin əvvəllərində Əfqanıstanda da kifayət qədər yayılmışdı və o dövrün bir çox ruhaniləri Deobənd "Darül-ülumu"nda təhsil almışdı. Lakin ölkədə gedən modernləşmə prosesləri onların mövqeyini xeyli zəiflətmiş və təhsilin nisbi inkişafı daha çox "İxvan" təliminin yayılmasına şərait yaratmışdı. Belə ki, daha çox oxumuş təbəqəyə və elitaya üz tutan "ixvançılardan" fərqli olaraq, deobəndilər öz təbliğatlarında kasıb və savadsız kütlələrə istinad edirdilər [109, 18]. Bu da sonuncuların dünyagörüşünün məhdudluğunu, hədsiz mühafizəkarlığını və siyasi ekstremizmini şərtləndirən səbəblərdən biridir. Həmin cəhət Talibanda da müşahidə olunur: "Onların əksəriyyətinin biliyi bir neçə dini kitab çərçivəsindən kənara çıxmır və dünyagörüşü Əfqanıstanın bir-iki vilayəti ilə məhdudlaşır" [138, 49]. Təsadüfi deyil ki, əfqan tədqiqatçısı M.İ.Əndişmənd Talibanın düşüncə tərzini "bədəvi və qəbiləvi təfəkkür" kimi xarakterizə edir [127, 65]. Pakistanlı müəllif də analoji fikri vurğulayaraq qeyd edir ki, "Deobənddən çıxmış ruhani sələflərindən fərqli olaraq, indiki taliblər islam, Əfqanıstan tarixi, hətta Quran və şəriət haqqında az biliyə malikdirlər, buna görə də onlar çox məhdud düşüncəli və qəddar insanlardır" [86, 57]. İran alimi M.Əhmədimənəş isə yuxarıda dediklərimizi ümumiləşdirən bir tərzdə yazır: "Əslində Talibanizmi puştu qəbiləçiliyi, deobəndi dini ənənəsi və eləcə də vəhhabiliyin sintezi hesab etmək olar" [126].

Talibanın radikal vəhhabiliklə, o cümlədən, Üsamə bin Ladenlə əməkdaşlığında cihad diskursu mühüm rol oynamışdır.

Məlumdur ki, Bin Laden hələ 1996-cı ildə Amerikaya qarşı cihad elan etmiş, 1998-ci ilin fevralında bununla bağlı fətvasını (daha bir neçə nəfərin qoşulması ilə) təkrarlamışdı. Lakin ABŞ hökuməti bu bəyanatları elə də ciddiyə almamışdı. Yalnız 1998-ci ilin avqust ayının 7-də əl-Qaidənin Keniya və Tanzaniyadakı səfirliklərini partlaması (partlayışlar nəticəsində 220 nəfər ölmüş, 4200-ə yaxın insan yaralanmışdı) ABŞ-ı hərəkətə keçməyə vadar etdi [15, 43].

Afrikadakı terror aktlarına cavab olaraq, ABŞ Bin Ladenin Əfqanıstandakı Tora-Bora dağlarında yerləşən bazasına və təlim düşərgələrinə 75 “Tomohavk” qanadlı raketi ilə zərbələr endirdi, lakin Bin Ladeni məhv etmək mümkün olmadı. Bundan sonra Taliban hökuməti Bin Ladenin təhvil verilməsi ilə bağlı çoxsaylı tələblərlə üz-üzə qaldı, lakin sonadək bu tələbi yerinə yetirmədi. Elə həmin il Səudiyyə Ərəbistanı kəşfiyyatının rəhbəri Türki əl-Feysəl Qəndəhara gəlib bu mövzuda Molla Ömərlə danışıqlar apardı, lakin bir nəticə hasil olmadı. 1999-cu ildə BMT əl-Qaidə liderinin təhvil verilməsini tələb edən qətnamə qəbul etdi. ABŞ da hər fürsətdə bu tələbi təkrarlayırdı, lakin Taliban bu tələblərdən müxtəlif bəhanələrlə yayınmaqda davam edirdi.

Əlbəttə, Talibanın Bin Ladeni verməmək üçün “öz səbəbləri” vardı. Birincisi, o müsəlman idi. İkincisi, o, əfqanlarla birgə “Şuraviyə” (SSRİ-yə) qarşı vuruşmuşdu. Üçüncüsü, puştu qonaqpərvərliyi (“Puştunvali” adlanan kodeks) buna imkan vermirdi. Dördüncüsü, o, Talibanın rəqiblərinə (Şimal alyansına) qarşı mübarizədə iştirak etmişdi. Nəhayət, beşincisi, ABŞ Bin Ladenə qarşı ittihamlarını Talibanı qane edəcək sənədlərlə sübut etməmişdi.

Son nəticədə Taliban Bin Ladeni islam məhkəməsi qarşısında durmaq üçün başqa bir müsəlman ölkəsinə verməyə hazır olduğunu bildirdi, lakin bu təklif amerikalılar tərəfindən rədd edildi [18, 283]. Qəribədir ki, Talibana beynəlxalq təzyiqlərin

hədsiz gücləndiyi, o cümlədən, BMT TŞ tərəfindən ona qarşı silah satışını qadağan edən embarqo tətbiq olunduğu (2000-ci ilin dekabrında) bir şəraitdə Taliban qüvvələri 2001-ci ilin yazında Şimal alyansının nəzarətində olan sonuncu iri yaşayış məntəqəsini – Təxar vilayətinin mərkəzi Taleqan şəhərini ələ keçirdi və bu, Əfqanıstanda vətəndaş müharibəsi dövründə ilk dəfə olaraq, qonşu Tacikistana qaçqınların axışmasına səbəb oldu [56, 148].

Həmin ilin aprelində Əhməd şah Məsud Avropa Parlamenti sədrinin dəvəti ilə Avropaya hərbi-siyasi və diplomatik baxımdan olduqca uğurlu sayıla biləcək bir səfər etdi. Həmin səfər zamanı o, ABŞ-a qarşı irimiqyaslı terror hücumu hazırlandığı barədə müəyyən kəşfiyyat məlumatlarına malik olduğunu da bildirmişdi. 2001-ci il sentyabrın 9-da – Nyu-Yorkdakı Dünya Ticarət Mərkəzinə dəhşətli hücumdan iki gün əvvəl Əhməd şah Məsud özünü jurnalist kimi təqdim edən terrorçu-intiharçılar tərəfindən sui-qəsdə məruz qaldı və aldığı yaralardan öldü. "Onun ölümü Əfqanıstanda sonrakı hərbi-siyasi mübarizə baxımından ciddi nəticələrə səbəb oldu" [70, 461].

Artıq həmin ərəfədə tezliklə ABŞ-ın Əfqanıstana hücum edəcəyi barədə xəbərlər dolaşırdı. 2001-ci il iyulun 29-da ABŞ dövlət katibliyinin nümayəndəsi sonuncu dəfə Talibanın Pakistandakı səfiri ilə görüşüb Bin Ladenin təhvil verilməsini tələb etdi, lakin görüş nəticəsiz başa çatdı. Az sonra BBC radiosu Pakistan rəsmilərindən birinə istinadla 2001-ci ilin sonuna qədər, böyük ehtimalla oktyabrın ortaları üçün, Talibanın ABŞ tərəfindən devriləcəyi və Zahir şahın hakimiyyətə gələcəyi barədə məlumat yaydı [124, 497].

2001-ci ilin 11 sentyabr terror aktından və onun əl-Qaidə tərəfindən həyata keçirildiyi bəyan edildikdən sonra Talibanı rəsmən tanımış üç ölkə də onunla diplomatik əlaqələrini kəsdi.

Sentyabrın 25-də Taliban Kabuldakı ABŞ səfirliyinin bina-

sını yandırdı. Oktyabrın 2-də ABŞ prezidenti Corc Buş Talibanın 11 sentyabr hadisələrinin təşkilatçılarını təhvil verməyəcəyi təqdirdə Əfqanıstanda hərbi əməliyyatlara başlayacaqlarını elan etdi. Beş gün sonra ABŞ-ın Əfqanıstana müdaxiləsinə start verildi. Paralel olaraq, Şimal alyansının qüvvələri hərəkətə keçdi və noyabrın 9-da onlar Məzari-Şərif şəhərini tutdular. ABŞ-ın güclü raket-bomba zərbələri (əməliyyat zamanı təqribən 7 tonluq bombalardan istifadə olunurdu) qarşısında Taliban öz mövqelərini sürətlə itirməyə başladı. ABŞ-la yanaşı Britaniyanın da iştirak etdiyi və "Sarsılmaz azadlıq" (Enduring Freedom) adlanan əməliyyat nəticəsində Taliban təqribən iki ay ərzində ölkəyə nəzarəti itirdi və onun dağınıq dəstələri Pakistana üz tutdu. Bir müddət sonra yenidən qayıtmaq üçün...

# Əfqanıstan XXI əsrdə

*(nəticə əvəzi)*

Əfqan xalqı XXI əsrə xarici hərbi müdaxilə şəraitində başladı. ABŞ-ın güclü raket-bomba zərbələrinin ardınca ölkəyə hərbi qüvvələr yeridildi: 2001-ci il noyabr ayının 16-da Britaniya əsgərlərinin ilk dəstəsi Bəqram aerodromuna endi, noyabrın 25-də ABŞ əsgərləri Qəndəhara, dekabrın 2-də isə Fransa qüvvələri Məzari-Şərifə daxil oldu. Dekabrın 20-də BMT TŞ Əfqanıstana Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin (International Security Assistance Force – ISAF) yerləşdirilməsi haqqında 1386 saylı qətnamə qəbul etdi. Ertəsi gün NATO-nun rəhbərlik etdiyi həmin qüvvələrin ilk dəstəsi Kabula gəldi. 2002-ci il yanvarın 5-də ISAF-ın ölkəyə yerləşdirilməsi ilə bağlı Əfqanıstan hökuməti ilə rəsmi müqavilə imzalandı. Bundan bir gün əvvəl Gərdiz şəhəri yaxınlığında ilk Amerika əsgəri həlak olmuşdu [111, 100].

İlkin mərhələdə ISAF tərkibində 18 ölkənin 5000 nəfərə qədər hərbi qüvvəsi təmsil olunmuşdu. Sonradan bu qüvvələr arta-arta getmiş və 2011-ci ildə 132 min nəfəri ötmüşdü ki, bunun da 90.000 nəfəri ABŞ-a məxsus idi. Bundan əlavə, ABŞ-ın 28.000 nəfərdən çox ISAF-a daxil olmayan qüvvələri də vardı. Beləliklə, həmin dövrdə Əfqanıstanda xarici hərbi qüvvələrin ümumi sayı 160 min nəfərdən artıq idi [13].

2001-ci ilin sonu – 2002-ci ilin əvvəllərində ABŞ və müttəfiqlərinin Əfqanıstanda keçirdiyi əməliyyatlar nəticəsində Ta-

liban hökuməti devrildi, əl-Qaidənin ölkədəki bazaları məhv edildi. Lakin əl-Qaidə liderini ələ keçirmək, yaxud məhv etmək mümkün olmadı. Üsamə bin Laden düz on il sonra 2011-ci ilin mayında ABŞ xüsusi qüvvələrinin Pakistanda keçirdiyi əməliyyat nəticəsində öldürüldü. Eyni zamanda Taliban lideri də onun tutulması üçün 2001-ci ilin dekabrında ABŞ-ın təyin etdiyi 10 milyon dollarlıq mükafata rəğmən, ələ keçmədi: bir müddət Əfqanıstan ərazisində gizlənən Molla Ömər daha sonra Pakistan ərazisində məskunlaşdı və yalnız 2015-ci ildə onun iki il əvvəl öldüyü rəsmən təsdiqləndi.

Əfqanıstana ABŞ-ın hərbi müdaxiləsi və beynəlxalq qüvvələrin yeridilməsinə paralel olaraq, ölkədə yeni hakimiyyətin formalaşması prosesi baş tutdu. 2001-ci il noyabr ayının 27-də Bonn şəhərində BMT-nin himayəsi altında müxtəlif siyasi qüvvələrin (Roma qrupu, Şimal alyansı, Pişavər qrupu, Kipr qrupu və s.) iştirakı ilə Əfqanıstanda yeni idarəçiliyin qurulması ilə bağlı müzakirələr başlandı. Təqribən on gün davam edən gərgin danışıqlardan sonra ölkədə müvəqqəti administrasiyanın yaradılması, daha sonra Loyə Cirgənin çağırılması və yeni Konstitusiyanın qəbul edilərək, seçkilər keçirilməsi barədə razılaşma əldə olundu. Hamid Kərzəy müvəqqəti hökumətin rəhbəri seçildi. Yeni hökumətdəki 24 nazir portfelindən 14-ü Şimal Alyansının payına düşdü, bu da müəyyən narazılıqlara səbəb oldu [79, 27-32]. O cümlədən, Gülbəddin Hikmətyar yeni hökuməti tanımadı və az sonra (2002-ci ilin sentyabrında) ABŞ-a qarşı cihad elan etdi. Buna cavab olaraq, 2003-cü ilin fevralında ABŞ (daha sonra da BMT) Hikmətyarı qlobal terroristlər siyahısına daxil etdi.

2001-ci il dekabrın 23-də Kabulda Kərzəy hökumətinin ilk iclası keçirildi (bundan bir gün əvvəl ABŞ yeni Əfqanıstan hakimiyyətini rəsmən tanımışdı). Az sonra Kərzəy xüsusi sərəncamla ölümündən sonra Əhməd şah Məsuda “Əfqanıstanın Milli Qəh-

rəmanı" adı verdi və onun Pənçşirdəki məzarını ziyarət etdi. Eyni zamanda o, Məsudun yaxın silahdaşı və müvəqqəti hökumətin müdafiə naziri Məhəmməd Fəhimə marşal rütbəsi verdi. Lakin sonrakı proseslər göstərdi ki, Kərzəyin Şimal alyansı ilə isti münasibətləri sırf taktiki xarakter daşıyırdı.

Paralel olaraq, yeni hakimiyyətə beynəlxalq dəstək də genişlənməyə başladı. 2002-ci ilin yanvarında Britaniyanın baş naziri Toni Bler, BMT-nin Baş katibi Kofi Annan Kabula səfər etdilər. Həmin ayın 21-də Tokioda Əfqanıstanın bərpasına yardım üzrə donor ölkələrin ilk beynəlxalq konfransı keçirildi. 60-dan çox dövlətin və 20-dən çox beynəlxalq təşkilatın iştirak etdiyi həmin konfransda Əfqanıstana 4,5 milyard dollar yardım göstərilməsi barədə qərar qəbul edildi [70, 463]. Sonralar bu cür konfranslar davamlı olaraq, digər şəhərlərdə (Paris, London, Berlin, Oslo və s.), eləcə də Əfqanıstanın özündə təşkil olundu. Bu görüşlərin sayəsində Əfqanıstana milyardlar axsa da, sonrakı proseslər onun o qədər də səmərəli istifadə olunmadığını üzə çıxardı.

2002-ci ilin may ayında "dondurulmuş" Transəfqan qaz kəməri məsələsi yenidən gündəmə gəldi: Türkmənistan, Əfqanıstan və Pakistan rəhbərlərinin İslamabadda keçirilən görüşündə layihə üzrə fəaliyyətə başlamaq barədə razılaşma əldə edildi. Az sonra Asiya İnkişaf Bankı layihənin aparıcı tərəfdaşına çevrildi. Sonrakı mərhələdə TAPI (Turkmenistan-Afghanistan-Pakistan-India) adlanan bu layihə Əfqanıstan uğrunda geosiyasi mübarizənin əsas amillərindən biri sayılmaqdadır.

Bonn razılaşmasına uyğun olaraq, 2002-ci ilin iyun ayında Kabulda 1500-dən çox nümayəndənin iştirak etdiyi Loyə Cirgə öz işinə başladı. Hamid Kərzəy üç namizəd arasından keçid dövrü üçün ölkənin prezidenti seçildi. Həmin ilin aprel ayında ölkəyə qayıtmış Zahir şahın adı namizəd kimi hallansa da, o, prezident postuna iddia etmədi (bir çox müəlliflərin fikrincə, ABŞ-ın təzyiqi ilə) və Kərzəyi dəstəklədi. Əvəzində Loyə Cirgə ona "millətin

atası" ("babaye-millət") titulu verilməsi barədə qərar qəbul etdi [111, 104].

Prezident postuna yiyələndikdən sonra Kərzəy hökumətdə puştu ünsürünün genişlənməsi xəttini tutdu, bu da sonralar ənənəvi etnosiyasi ziddiyyətlərin dirçəlməsinə şərait yaratdı. Digər tərəfdən, Əfqanıstan ordusunun hələ yenidən formalaşmadığı şəraitdə keçmiş bölgə komandanları (İsmayıl xan, Rəşid Dustum) yetərincə güclü idi, bu da müəyyən problemlər yaradırdı. Yalnız 2002-ci ilin dekabrında Kərzəy ölkədəki hərbi dəstələrin buraxılması və silahların yığılması barədə fərman verdi. Elə həmin vaxt (dekabrın 22-də) Kabulda Əfqanıstanın qonşusu olan 6 ölkənin xarici işlər nazirlərinin görüşü keçirildi. Görüşdə qəbul olunan bəyannamədə həmin ölkələr Əfqanıstanın daxili işlərinə qarışmamaq, onun suverenliyinə və ərazi bütövlüyünə hörmət etmək kimi öhdəlik götürürdülər. Bu görüşdə Rusiya, Hindistan, Səudiyyə Ərəbistanı, Avropa Birliyi və İslam Əməkdaşlıq Təşkilatının nümayəndələri də müşahidəçi qismində iştirak edirdilər [70, 469].

İlk baxışda hər şey normal gedirdi: Əfqanıstana ABŞ müdaxiləsindən sonrakı bir il ərzində ayrı-ayrı terror aktlarını nəzərə almasaq (hətta 2002-ci ilin sentyabrında Qəndəharda prezident Kərzəyə də sui-qəsd olmuş, lakin o, salamat qurtarmışdı), doğrudan da, ölkədə nisbi sakitlik hökm sürürdü. Lakin 2003-cü ilin yazından etibarən ölkədə Talibanın yenidən fəallaşması müşahidə olundu. Bu işdə, şübhəsiz, ABŞ-ın İraqda hərbi əməliyyatlara başlamasının (20 mart 2003-cü il) da təsiri vardı. 2002-ci ilin sonlarında Pakistana keçib Əfqanıstanla sərhədə yaxın Kvettə şəhərində (Pakistanın Bəluçistan əyalətinin mərkəzi) möhkəmlənən Taliban lideri Molla Ömər qüvvələrini toplamağa və bərpa etməyə başladı. Bu işdə ona Pakistanın "Cəmiyyəti-üləmayi-islam" təşkilatı da yardım edirdi. Həmin dövrdə verdiyi bir müsahibədə Molla Ömər ABŞ-ı Əfqanıstanda "cəhənnəm və tam

məğlubiyyət gözlədiyini" bəyan etmişdi [56, 161].

Qeyd edək ki, həmin dövrdə Pakistan ərazisində cihadçıların daha iki mərkəzi formalaşırdı: "Tayfalar zonası"ndakı (əsasən Vəziristan bölgəsində) Həqqani şəbəkəsi və Pişavərdəki müxtəlif qruplar, ilk növbədə, Hikmətyarın İslam Partiyası. Bu müttəfiqləri ilə birgə Taliban ABŞ-a və beynəlxalq qüvvələrə qarşı bir neçə mərhələdən ibarət mübarizəyə başladı. 2003-cü ilin yayında Molla Ömər on nəfərin daxil olduğu yeni rəhbərlik şurası yaratdı. Həmin ərəfədə Taliban qüvvələri Zabul vilayətində (ölkənin cənubunda) yerli idarəçilik orqanının binasını ələ keçirib onun üzərinə öz bayraqlarını sancdılar. Eyni zamanda Uruzqan və Hilmənd vilayətlərində də Talibanın hücumları baş verdi. 2003-cü ilin iyulunda isə Taliban qüvvələri ölkənin şimalında – Türkmənistanla həmsərhəd Faryab vilayətində peyda oldular və Dustumun qüvvələri ilə döyüşə girdilər. Bu, artıq Talibanın "dirçəlişi" ilə bağlı ciddi siqnal idi.

2006-cı ildən isə Taliban öz hərbi-terrorçu fəaliyyətinin təqribən üç il davam edən intensiv mərhələsinə qədəm qoydu. Bu intensivliyi təsəvvür etmək üçün aşağıdakı rəqəmlərə nəzər salmaq kifayətdir: 2004-cü ildə Taliban ayda orta hesabla 130 hücum həyata keçirmişdisə və bu zaman beynəlxalq qüvvələrin itkisi 60 nəfər olmuşdusa, 2007-ci ildə bu rəqəmlər müvafiq olaraq, 548 və 232-yə yüksəlmişdi. 2007-ci ilin fevralında NATO-nun baş katibi yaxın 2 il ərzində Əfqanıstandakı Taliban qüvvələrinin sıradan çıxarılacağını söyləmişdi [71, 34], lakin bu, 10 il keçəndən sonra da baş verməmişdir.

Belə bir şəraitdə ABŞ başda olmaqla beynəlxalq qüvvələr müvafiq addımlar atmalı oldular. 2003-cü ilin oktyabrında BMT TŞ beynəlxalq qüvvələrin təkcə Kabulda deyil (o vaxta qədər ISAF-ın fəaliyyəti yalnız paytaxtla məhdudlaşırdı), əyalətlərdə də hərbi əməliyyatlar keçirməsinə və təhlükəsizliyi təmin etməsinə icazə verən qətnamə qəbul etdi. 2007-ci ildən isə beynəlxalq

qüvvələrin komandanlığı ABŞ-a həvalə olundu (2003-cü ildən NATO-nun ixtiyarında idi). Beləcə, ABŞ da SSRİ kimi, Əfqanıstanda uzun və yorucu hərbi münaqişəyə cəlb olundu. ABŞ prezidenti Barak Obamanın dediyi kimi, bu, ABŞ tarixində ən uzun müharibəyə çevrildi.

2009-cu ilin mart ayında Barak Obama ABŞ-ın Əfqanıstanla bağlı yeni strategiyasını elan etdi. Həmin strategiya, Əfqanıstana əlavə 30 minlik qüvvənin göndərilməsini, Əfqanıstan ordusunun gücləndirilməsini və Pakistanla daha yaxın əməkdaşlığı nəzərdə tuturdu. ABŞ prezidenti həmçinin 18 aydan sonra qoşunların Əfqanıstandan çıxarılmağa başlayacağını da bəyan etmişdi. Bu, bir növ SSRİ-nin Əfqanıstandan qoşunlarını çıxarma ərəfəsində yeritdiyi taktikanı xatırladırdı və nəticə də analoji (uğursuz) oldu. Təsadüfi deyil ki, keçid dövrü başa çatandan sonra – 2004 və 2009-cu illərdə ümumi seçkilərdə Əfqanıstan prezidenti seçilmiş Hamid Kərzəy ABŞ-ın Əfqanıstandakı siyasətini dəfələrlə tənqid etmiş, hətta onun məqsədinin Əfqanıstanda sülh yaratmaq olmadığını bildirmişdir (qeyd edək ki, ABŞ-ın Əfqanıstanda sülh yaratmaqdan daha çox, öz geostrateji maraqlarını təmin etməyə çalışdığı barədə fikir digərləri tərəfindən də səsləndirilmişdir). Beynəlxalq qüvvələri dinc əhali arasındakı itkilərə görə də davamlı tənqid edən Kərzəy son nəticədə ABŞ-la "Müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığa dair" sazişi imzalamaqdan imtina etmişdir. Qoşunlar çıxarıldıqdan sonra ABŞ-ın Əfqanıstanda 9 hərbi bazasının mövcudluğunu nəzərdə tutan həmin saziş yalnız 2014-cü ilin sentyabrında artıq yeni prezident Əşrəf Qəni Əhmədzəy tərəfindən imzalanmışdır [68, 44].

Hər halda bütün bu müddət ərzində Talibanı nəinki məhv etmək mümkün olmamışdır, üstəlik 2007-ci ilin sonlarında Pakistanın özündə də ayrıca Taliban hərəkatı ("Təhrike-Talibane-Pakistan") formalaşmışdır. Eyni zamanda istər Əfqanıstan hökuməti, istərsə də ABŞ-ın Talibanla apardığı çoxillik danışıqlar da

bir nəticə verməmişdir. 2013-cü ildə Talibanın Dohada (Qətər) açılan nümayəndəliyi üzərində öz bayrağını qaldırması isə əməlli-başlı qalmaqal yaratmışdır.

NATO-nun 2010-cu ildə keçirilən Lissabon sammitində 2014-cü ilədək təqribən 50 ölkənin təmsil olunduğu ISAF-ın Əfqanıstandan çıxarılması barədə qərar qəbul olundu [78, 39]. 2013-cü ilin yayından Beynəlxalq qüvvələr öz funksiyalarını tədricən əfqan ordusuna verməyə və köməkçi rol oynamağa başladılar. 2014-cü ilin dekabrında Əfqanıstanda ISAF-ın missiyasının başa çatdığı və yeni "Qətiyyətli dəstək" (Resolute Support) qeyri-döyüş missiyasının başladığı elan edildi. Yeni missiya BMT TŞ 2189 saylı qətnaməsi ilə təsbit olundu. Beləliklə, Əfqanıstanda ABŞ və müttəfiqlərinin 13 ildən çox davam edən müharibəsi formal şəkildə başa çatdı. Eyni zamanda qoşunlar çıxarıldıqdan sonra ölkədə təqribən 13 minlik (təxminən 10 mini ABŞ-a məxsus) hərbi kontingentin qalması barədə qərar qəbul edildi: bununla bağlı Əfqanıstan hökuməti ilə müvafiq saziş imzalandı.

ABŞ və müttəfiqlərinin 4831 gün davam edən "Sarsılmaz azadlıq" əməliyyatı çox zaman Əfqanıstanda sovet işğalı dönəmi ilə müqayisə edilir. Bu iki hadisə arasında müəyyən oxşarlıqlar mövcud olsa da, ABŞ-ın "sovet təcrübəsi"ndən bəzi dərslər də aldığını söyləmək mümkündür. Bunlardan birincisi, hərbi əməliyyatların metodikası ilə bağlıdır: mücahidlərlə mübarizədə quru qoşunlarından istifadə edən SSRİ-dən fərqli olaraq, ABŞ və müttəfiqləri hava hücumlarına üstünlük vermiş, bu da şəxsi heyət arasında itkilərin qat-qat azlığını şərtləndirmişdir. 2014-cü ilin sonunda beynəlxalq qüvvələrin Əfqanıstandakı itkiləri 3485 nəfər olmuşdur ki, bunun da 2356 nəfəri ABŞ-ın payına düşür. Lakin ABŞ-ın maliyyə itkiləri SSRİ-dən qat-qat çox olmuşdur: onun bilavasitə hərbi xərcləri 600 milyard dollardan, Əfqanıstan hökumətinə yardımları isə 100 milyard dollardan artıq olmuşdur [69]. İkincisi, qoşunların yeridilməsi prosesinə geniş beynəlxalq

dəstəyin (BMT qətnaməsinin) təmin edilməsidir ki, bu üzdən hətta Rusiya və İran kimi ölkələr də əməliyyatlara ciddi bir etiraz edə bilmədilər. Nəhayət, üçüncüsü, SSRİ-dən fərqli olaraq, ABŞ qoşunlarını Əfqanıstandan tamamilə çıxarmadı (qeyd edək ki, SSRİ Əfqanıstandan çıxarkən, orada az sayda qüvvənin saxlanması variantı nəzərdən keçirilmiş, lakin qəbul olunmamışdı), bu da yerli hökumətin çətin duruma düşməsini önlədi. Bütövlükdə Əfqanıstanda 2014-cü ildən sonrakı vəziyyət bir çox cəhətdən Nəcibulla dövründəki şəraiti xatırlatsa da, beynəlxalq yardımın davam etməsi, ilk növbədə ABŞ-ın dəstəyi hökumətin ayaqda qalmasına imkan verir.

Qoşunların çıxarılması ərəfəsində istər ABŞ, istərsə də NATO rəhbərləri qarşıda duran vəzifələrin əsasən yerinə yetirildiyini bəyan etsələr də, Əfqanıstandakı reallıqlar bunu təsdiqləmir [4, XVIII-XX].

Ölkədə siyasi sabitliyi bərpa etmək mümkün olmamışdır. Son məlumatlara görə, Əfqanıstan hökuməti ölkə ərazisinin 60 %-dən də azına nəzarət edir, nəzarət etdiyi bölgələrdə də tez-tez terror aktları və partlayışlar baş verir. Bir növ sovet işğalı dönəmində olduğu kimi, ölkədə ikihakimiyyətlilik hökm sürür. Əfqanıstanda Qərb standartlarına uyğun dövlət sistemi qurmaq cəhdi iflasa uğramış, əksinə, Taliban daha da güclənmişdir. Təsadüfi deyil ki, artıq Rusiya Talibanı real siyasi qüvvə kimi tanıyır.

Hərbi baxımdan da öyünməli nəticələrin olduğunu demək mümkün deyil. Silahlı müxalifətin kökü kəsilməmiş, üstəlik əhali arasında beynəlxalq qüvvələrə mənfi münasibət formalaşmışdır. 170 minlik əfqan ordusu (bütövlükdə ölkədə hərbi-təhlükəsizlik qüvvələrinin sayı 300 min nəfərdən çoxdur) bütün səylərə rəğmən, səmərəli döyüş qabiliyyətinə malik deyildir. Bunu bir misalla sübut etmək olar: 2015-ci ilin sentyabrında Taliban cəmi 500 nəfərlik dəstə ilə 7000 nəfərin müdafiə etdiyi strateji əhəmiyyətli Kunduz şəhərini ələ keçirmiş və yalnız ABŞ aviasiyası işə qa-

rışdıqdan sonra şəhəri geri almaq mümkün olmuşdur. Təsadüfi deyil ki, bu yaxınlarda Əfqanıstan prezidenti Əşrəf Qəni ABŞ-ın yeni fəaliyyətə başlamış prezidenti Donald Trampa zəng edərək, daha bir neçə min nəfərlik hərbi qüvvə göndərilməsini xahiş etmişdir.

Talibana xarici dəstəyi də aradan qaldırmaq mümkün olmamışdır. Pakistandan əldə olunan yardımlarla yanaşı, Taliban sıralarında beynəlxalq könüllülər şəbəkəsinin fəaliyyəti davam etmişdir. 2009-cu ilin məlumatına görə, Taliban sıralarında Çeçenistan, Şimali Afrika, İraq, Yəmən, Suriya, Səudiyyə Ərəbistanı, Tacikistan və s. kimi ölkələrdən 4000 nəfərdən çox döyüşçü vardı. Özbəkistan İslam Hərəkatı da Taliban tərəfdə beynəlxalq qüvvələrə qarşı döyüşürdü.

İqtisadi baxımdan da Əfqanıstanda əhəmiyyətli inkişaf baş verməmiş, nəzərdə tutulan böyük layihələrdən biri də tam şəkildə reallaşmamış, iri istehsal və emal müəssisələri açılmamışdır. Total korrupsiya ölkəyə edilən beynəlxalq yardımların effektini heçə endirmişdir. Əfqanıstan hələ də dünyanın ən kasıb ölkələrindən biri olaraq qalır, təhsilin, səhiyyənin fəlakətli durumu baxımından ön cərgələrdə yer tutur.

Ən başlıcası, ölkədə narkoiqtisadiyyat çiçəklənməkdə davam edir. ABŞ müdaxiləsindən sonra ölkədə narkotiklərin əkilməsi və istehsalı nəinki azalmamış, əksinə, yüksək sürətlə artmışdır, bu da müxtəlif yozumlara yol açmışdır. Taliban hakimiyyətinin son ilində ölkədə narkotik istehsalı 185 ton olmuşdusa, 2002-ci ildə bu rəqəm 2700 tona, 2007-ci ildə isə 8200 tona çatmışdır. Hazırda dünyada xaşxaş əkinlərinin 90 %-i Əfqanıstanın payına düşür [68,42]; eyni zamanda ölkə əsas narkotik istehsalçılarından biri olmaqla bərabər, onun geniş istehlak olunduğu məkana da çevrilir.

Nəhayət, Əfqanıstan probleminə yanaşmada ABŞ müdaxiləsinin başlanğıcında özünü göstərən nisbi beynəlxalq həmrəyliyin

xeyli dərəcədə zəifləməsini qeyd etmək lazımdır. Bu, bir tərəfdən ABŞ-ın (Qərbin) Əfqanıstanda öz geostrateji və geoiqtisadi hədəflərinə yönəldiyinin daha artıq üzə çıxması ilə bağlıdırsa, digər tərəfdən, özünü "İraq-Şam İslam Dövləti" (İŞİD) adlandıran terrorçu təşkilatın 2015-ci ilin əvvəllərindən Əfqanıstanda peyda olması ilə əlaqədardır. İŞİD amili Rusiya və İranın Talibanla əlaqəyə girməsinə səbəb olmuşdur [6]. ABŞ-ın tənqidlərinə baxmayaraq, Rusiya artıq Talibanla əlaqəsini gizlətmir və bu əməkdaşlıqla Suriyada İŞİD-ə qarşı mübarizəsinə sinxronluq verməyə çalışır. Rusiyanın fikrincə, qlobal cihad mövqeyində duran İŞİD-dən fərqli olaraq, Talibanın fəaliyyəti lokal xarakterlidir və Əfqanıstanla məhdudlaşır, buna görə İŞİD-lə mübarizədə Talibana dəstək vermək məqsədəuyğundur. Lakin bu, əslində çox təhlükəli oyundur və gözlənilməz nəticələrə gətirib çıxara bilər.

ABŞ-ın Əfqanıstanda strateji maraqlarına önəm verməsi problemin nizamlanmasına dair müzakirələrdən Rusiya və İranı kənar tutmaq cəhdində aydın şəkildə özünü göstərmişdir. 2016-cı ilin yanvarında ABŞ Əfqanıstanda sülhə dair Dördtərəfli Koordinasiya Qrupu (ABŞ, Çin, Pakistan, Əfqanıstan) yaratdı. Buna cavab olaraq, Rusiya üçtərəfli (Rusiya, Çin, Pakistan) görüş keçirdi, İran da bu təşəbbüsü dəstəklədi. Nəticə olaraq, Rusiya rəhbərliyi İran və Hindistanı da bu prosesə qoşdu və 2017-ci ilin fevralında bu formatda ilk görüşü təşkil etdi.

Bütün bunlar Əfqanıstan ətrafında oyunun yeni mərhələsinin başlanmasından xəbər verir və onun nə ilə sonuclanacağını söyləmək çətindir. Sonu görünməyən bu oyunun hələlik bir nəticəsi ortadadır: azadlıqsevər, xarici qüvvələrin ağalığına boyun əyməyən əfqan xalqının bitib-tükənməyən fəlakəti. Bu mənada son bir neçə onillikdə Əfqanıstanda yaşananlar qlobal və regional güclərin cari və strateji maraqlarının toqquşma meydanına, onların haqq-hesab çürütmə səhnəsinə çevrilmiş bir ölkənin başına gələnlərin ibrətamiz hekayətidir.

# ƏLAVƏLƏR

Sovet İttifaqı Kommunist Partiyasının
Mərkəzi Komitəsi

*Tam məxfi*

**Məhəmməd Davudun SSRİ-yə səfərinin nəticələri haqqında Əfqanıstanın mütərəqqi siyasi təşkilatları «Pərçəm» və «Xəlq»in rəhbərlərinə məlumat verilməsi barədə**

Əfqanıstanın SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin Kabuldakı rezidenti vasitəsilə Sov.İKP MK ilə qeyri-rəsmi əlaqə saxlayan mütərəqqi siyasi təşkilatlarının rəhbərləri Bəbrək Karməl («Pərçəm») və Nur Tərəki («Xəlq») 1973-cü ilin iyulunda ölkədə respublika rejimi qurulduqdan az sonra Mərkəzi Komitədə, hökumətdə və orduda olan mütərəqqi əhval-ruhiyyəli elementlərdən istifadə edərək, öz qruplaşmalarının mövqeyini və təsirini geriləndirmək uğrunda, ölkədə «kommunist partiyasını təmsil etmək» hüququ uğrunda prinsipsiz daxili mübarizəyə başladılar. Bununla yanaşı onlar Çin meylli və millətçi qruplaşmalar kimi, orduda və dövlət aparatında fəal siyasi işə rəvac verdilər ki, bu da dövlət rəhbəri və Əfqanıstan Respublikasının baş naziri Məhəmməd Davudda ciddi narahatlıq doğurmuşdur.

M.Davudun xüsusi narahatlığına təhlükəsizlik orqanlarının ona verdiyi belə bir informasiya səbəb olmuşdur ki, guya o, sosial-iqtisadi dəyişiklikləri sürətləndirməsə və Əfqanıstanı qeyri-kapitalist, sonra isə sosialist inkişaf yoluna yönəltməsə, sol qüvvələr onu hakimiyyətdən uzaqlaşdırmaq planları qururlar.

1974-cü ilin fevral-mart aylarında M.Davud mütərəqqi qüvvələri susdurmaq üçün bir sıra tədbirlər həyata keçirmiş, «Pərçəm» və «Xəlq»ə siyasi fəaliyyətlə məşğul olmağı qadağan etmişdir.

1974-cü ilin yanvar ayında B.Karmələ və N.Tərəkiyə daxili çəkişmələrə son qoymağın, iki qruplaşmanı vahid partiyada birləşdirməyin zəruriliyi və onların birgə səylərinin ölkədə respublika rejiminin hərtərəfli müdafiəsinə yönəlməsinin vacibliyi barədə tövsiyə (8.1.74-cü il tarixli 103/31-2 s saylı məxfi teleqram) verilmişdir.

Hesab edirik ki, M.Davudun Sovet İttifaqına bu yaxınlarda etdiyi səfərin nəticələri barədə onlara veriləcək məlumata bir daha bu tövsiyənin daxil edilməsi məqsədəuyğundur. Məlumatla Kabuldakı sovet səfirini tanış etmək lazımdır.

Sov.İKP MK-nın bununla bağlı qərarının layihəsi əlavə olunur.

Sov.İKP MK Beynəlxalq şöbəsinin
müdir müavini

R.Ulyanovski

*21 iyun 1974-cü il*

## SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıginin N.M.Tərəki ilə telefon danışığının stenoqramı

*Tam məxfi*

**A.N.Kosıgin**: Yoldaş Tərəkiyə deyin ki, mən ona Leonid İliçin və Siyasi Büronun bütün üzvlərinin çoxlu salamlarını çatdırmaq istəyirəm.

**N.M.Tərəki:** Çox sağ olun.

**A.N.Kosıgin**: Yoldaş Tərəkinin səhhəti necədir, çox yorulmur ki?

**N.M.Tərəki:** Yorulmuram. Bu gün İnqilab Şurasının iclası oldu.

**A.N.Kosıgin:** Çox yaxşı, mən çox şadam. Yoldaş Tərəkidən

xahiş edin, mümkünsə, Əfqanıstandakı vəziyyəti səciyyələndirsin.

**N.M.Tərəki:** Vəziyyət yaxşı deyil, pisləşməkdədir. Son ay yarım ərzində İran tərəfdən mülki geyimdə 4 min nəfərə yaxın hərbçi göndərilib. Onlar Herat şəhərinə və hərbi hissələrə daxil olublar. Hazırda artilleriya polku və bizim təyyarələri atəşə tutan zenit divizionu da daxil olmaqla bütün 17-ci piyada diviziyası onların əlindədir. Şəhərdə döyüşlər davam edir.

**A.N.Kosıgin**: Diviziyada nə qədər adam var?

**N.M.Tərəki:** 5 min nəfərə yaxın. Bütün sursat və anbarlar onların əlinə keçib. Biz onlarla döyüşən yoldaşlarımıza Qəndəhardan təyyarə ilə ərzaq və sursat çatdırırıq.

**A.N.Kosıgin:** Bəs sizin orda nə qədər adamınız qalıb?

**N.M.Tərəki:** 500 nəfər. Onlar diviziya komandiri başda olmaqla Herat aerodromunda yerləşiblər. Biz onlara kömək üçün Kabuldan təyyarə ilə operativ qrup göndərmişik. Həmin qrup bu gün səhərdən Herat aerodromunda mövqe tutub.

**A.N.Kosıgin**: Diviziyanın zabit heyəti də xəyanət edib, ya bir hissəsi diviziya komandiri ilə aerodromdadır?

**N.M.Tərəki:** Kiçik bir hissəsi bizim tərəfimizdədir, qalanları düşmən tərəfinə keçib.

**A.N.Kosıgin:** Heratda fəhlələr, tacirlər, qulluqçular arasında sizin dəstəyiniz varmı? Daha kimlər sizin tərəfinizdədir?

**N.M.Tərəki:** Əhali tərəfdən fəal dəstək yoxdur. Onlar demək olar, hamılıqla şiə şüarlarının təsiri altındadır. «Allahsızlara inanmayın, bizim arxamızca gəlin!» – təbliğat bunun üzərində qurulub.

**A.N.Kosıgin**: Heratda nə qədər əhali var?

**N.M.Tərəki**: 200-250 min nəfər. Onlar özlərini şəraitə uyğun aparırlar. Hara çəksələr, ora da gedirlər. Hazırda onlar düşmənin tərəfindədir.

**A.N.Kosıgin:** Orada fəhlələr çoxdurmu?

**N.M.Tərəki:** Çox azdır – cəmi 1000-2000 nəfər.

**A.N.Kosıgin**: Sizin fikrinizcə, Heratda baş verən hadisələrin perspektivi necədir?

**N.M.Tərəki:** Biz hesab edirik ki, bu gün axşam, ya da sabah səhər Herat itiriləcək və tam şəkildə düşmənin əlinə keçəcək.

**A.N.Kosıgin:** Sonra nə ola bilər?

**N.M.Tərəki:** Biz əminik ki, düşmən yeni hərbi hissələr yaradıb hücuma keçəcək.

**A.N.Kosıgin**: Sizin onları məğlub etməyə qüvvələriniz yoxdurmu?

**N.M.Tərəki:** Kaş ki, olaydı…

**A.N.Kosıgin:** Bununla bağlı təklifləriniz nədir?

**N.M.Tərəki:** Biz xahiş edirik ki, siz canlı qüvvə və silahla praktik və texniki yardım edəsiniz.

**A.N.Kosıgin:** Bu çox mürəkkəb məsələdir.

**N.M.Tərəki**: Əks təqdirdə qiyamçılar Qəndəhara, oradan da Kabula doğru irəliləyəcəklər. Onlar Herat diviziyasının bayrağı altında İranın yarısını Əfqanıstana gətirəcəklər. Pakistana qaçmış əfqanlar geri qayıdacaq. İran və Pakistan bizə qarşı vahid plan əsasında fəaliyyət göstərirlər. Buna görə də əgər siz indi Herata əməlli-başlı zərbə endirsəniz, inqilabı xilas etmək mümkün olar.

**A.N.Kosıgin**: Bütün dünya dərhal bundan xəbər tutar. Qiyamçıların ratsiyaları var, onlar dərhal xəbər verəcəklər.

**N.M.Tərəki:** Mən xahiş edirəm, kömək edəsiniz.

**A.N.Kosıgin:** Biz bununla əlaqədar məsləhətləşməliyik.

**N.M.Tərəki:** Siz məsləhətləşənə qədər Herat əldən gedəcək və həm SSRİ, həm də Əfqanıstan üçün daha böyük çətinliklər yaranacaq.

**A.N.Kosıgin:** İndi bəlkə siz mənə deyəsiniz, Pakistanla və ayrıca olaraq İranla bağlı sizin proqnozlarınız necədir? Sizin İranın mütərəqqi insanları ilə əlaqəniz yoxdurmu? Siz onlara deyə bilərsiniz ki, indi sizin başlıca düşməniniz ABŞ-dır. İranlılar ABŞ-a

qarşı çox qəzəblidir və təbliğati planda bundan yəqin ki, istifadə etmək olar.

**N.M.Tərəki:** Biz bu gün İran hökuməti əleyhinə bəyanat verdik və onu radio ilə səsləndirdik, bildirdik ki, İran Herat bölgəsində bizim daxili işlərimizə qarışır.

**A.N.Kosıgin:** Bəs Pakistana qarşı hansısa bəyanat verməyi lazım bilmirsinizmi?

**N.M.Tərəki:** Sabah, ya birisi gün biz Pakistanla bağlı da bu cür bəyanat verəcəyik.

**A.N.Kosıgin:** Siz öz ordunuza güvənirsinizmi? Onun etibarlılığı nə dərəcədədir? Siz Herata zərbə endirmək üçün qoşun toplaya bilərsinizmi?

**N.M.Tərəki**: Biz hesab edirik ki, ordumuz etibarlıdır. Lakin biz Herata göndərmək üçün qoşunları başqa şəhərlərdən çıxara bilmərik, çünki bu, başqa şəhərlərdə bizim mövqeyimizi zəiflədər.

**A.N.Kosıgin**: Biz sizə ən qısa zamanda əlavə təyyarələr və silah versək, siz yeni hərbi hissələr yarada bilərsinizmi?

**N.M.Tərəki:** Bu, çox vaxt aparar və Herat əldən çıxar.

**A.N.Kosıgin:** Siz hesab edirsiniz ki, Herat əldən çıxsa, Pakistan da öz sərhədindən eyni hərəkətlərə yol verə bilər?

**N.M.Tərəki**: Bunun ehtimalı çox böyükdür. Bundan sonra pakistanlıların ruhiyyəsi yüksələcək. Amerikalılar onlara müvafiq yardım göstərirlər. Herat əldən çıxsa, onlar mülki geyimdə əsgərlər göndərib şəhərləri tutmağa başlayacaqlar, iranlılar da fəal şəkildə müdaxilə edəcəklər. Heratda əldə olunacaq uğur – mübarizə ilə bağlı bütün məsələlərin açarıdır.

**A.N.Kosıgin**: Siz bizim tərəfdən hansı xarici siyasi addımların atılmasını, bəyanatların verilməsini istərdiniz? Bununla bağlı təbliğati planda hər hansı mülahizələriniz varmı?

**N.M.Tərəki:** Təbliğati və praktik yardımları birləşdirmək lazımdır. Mən təklif edirəm ki, siz öz tanklarınıza və təyyarələrinizə

əfqan işarələrini vurasınız, onda heç kim heç nə bilməyəcək. Sizin qoşunlar həm Kuşka, həm də Kabul tərəfdən gedə bilərlər.

**A.N.Kosıgin**: Kabula hələ gəlib çıxmaq lazımdır.

**N.M.Tərəki:** Kuşkadan Herata çox yaxındır. Kabula isə qoşunları təyyarələrlə çatdırmaq olar. Fikrimizcə, əgər siz qoşunları Kabula göndərsəniz və onlar Kabuldan Herata getsələr, heç kim heç nə bilməyəcək. Fikirləşəcəklər ki, bu hökumət qoşunlarıdır.

**A.N.Kosıgin:** Mən sizi məyus etmək istəmirəm, lakin bunu gizlətmək mümkün olmayacaq. İki saatdan sonra bunu bütün dünya biləcək. Hamı bağırmağa başlayacaq ki, Sovet İttifaqının Əfqanıstana müdaxiləsi başlayıb. Deyin görüm, Tərəki, əgər biz təyyarələrlə Kabula tanklar da daxil olmaqla silah göndərsək, siz tankçılar tapa biləcəksiniz, ya yox?

**N.M.Tərəki:** Çox az sayda.

**A.N.Kosıgin:** Neçə nəfər?

**N.M.Tərəki:** Dəqiq məlumatım yoxdur.

**A.N.Kosıgin:** Bəs təyyarələrlə ən qısa zamanda sizə tanklar, zəruri sursat, minomyotlar göndərsək, siz bu silahlardan istifadə etməyi bacaran mütəxəssislər tapacaqsınızmı?

**N.M.Tərəki:** Mən bu suala cavab verə bilməyəcəyəm. Bu suala sovet müşavirləri cavab verə bilərlər.

**A.N.Kosıgin:** Deməli, belə başa düşmək olar ki, Əfqanıstanda yaxşı hazırlıq görmüş hərbi kadrlar yoxdur, ya da çox azdır. Sovet İttifaqında yüzlərlə əfqan zabiti hazırlıq keçib. Bəs onlar hardadır?

**N.M.Tərəki:** Onların əksəriyyəti irticaçı müsəlmanlardır, ixvançılardır, yaxud özlərinin dediyi kimi, «Müsəlman qardaşları»dır. Onlara etibar etmək olmaz, biz onlara inanmırıq.

**A.N.Kosıgin:** Kabulda hazırda nə qədər əhali var?

**N.M.Tərəki:** Təqribən bir milyon nəfər.

**A.N.Kosıgin:** Əgər biz tezliklə hava yolu ilə silah göndərsək, siz daha 50 min əsgər toplaya bilməzsiniz? Nə qədər adam yığa

bilərsiniz?

**N.M.Tərəki:** Biz müəyyən qədər adam toplaya bilərik, ilk növbədə gənclərin sırasından, lakin onlara təlim keçmək üçün xeyli vaxt lazımdır.

**A.N.Kosıgin:** Tələbələri cəlb edə bilməzsiniz?

**N.M.Tərəki:** Tələbələri və liseylərin 11-12-ci sinif şagirdlərini cəlb etmək olar.

**A.N.Kosıgin:** Bəs fəhlə sinfindən cəlb etmək olmaz?

**N.M.Tərəki:** Əfqanıstanda fəhlələrin sayı çox azdır.

**A.N.Kosıgin:** Bəs yoxsul kəndlilər?

**N.M.Tərəki**: Yalnız liseylərin yuxarı sinif şagirdlərindən, tələbələrdən və bir az da fəhlələrdən toplamaq olar. Lakin onlara təlim keçmək uzun məsələdir. Amma lazım olan vaxtda biz istənilən tədbirə əl atacağıq.

**A.N.Kosıgin:** Biz qərar qəbul etmişik ki, təcili olaraq sizə hərbi vasitələr göndərək, təyyarələri, vertolyotları təmir edək – bütün bunlar pulsuz olacaq. Həm də qərara almışıq ki, sizə 100 min ton taxıl göndərək, qazın qiymətini kubmetr üçün 21 dollardan 37,82 dollara qaldıraq.

**N.M.Tərəki:** Bu yaxşıdır, amma gəlin Heratdan danışaq.

**A.N.Kosıgin:** Danışaq. İndi siz Kabulda, təkcə Kabulda yox, digər yerlərdə də etibar edə biləcəyiniz qabaqcıl adamlardan bir neçə diviziya yarada bilməzsiniz? Biz də müvafiq silahları verərdik.

**N.M.Tərəki:** Zabit kadrları yoxdur. İran hərbçiləri mülki geyimdə Əfqanıstana göndərir. Pakistan da öz adamlarını və zabitləri əfqan libasında yollayır. Nə üçün Sovet İttifaqı özbəkləri, tacikləri, türkmənləri mülki geyimdə göndərə bilməz? Heç kim onları tanımayacaq.

**A.N.Kosıgin**: Siz Heratla bağlı daha nə deyə bilərsiniz?

**N.M.Tərəki:** Biz istəyirik ki, siz tankları idarə etmək üçün tacikləri, özbəkləri, türkmənləri bura göndərəsiniz, çünki həmin

xalqlar Əfqanıstanda da yaşayırlar. Qoy əfqan paltarı geyib əfqan nişanları taxsınlar, onda heç kim onları tanımayacaq. Bu, fikrimizcə, asan bir işdir. İran və Pakistanın təcrübəsi göstərir ki, bu işi asanlıqla həyata keçirmək olar. Onlar nümunə göstərirlər.

**A.N.Kosıgin:** Əlbəttə, siz məsələni sadələşdirirsiniz. Bu, mürəkkəb siyasi, beynəlxalq məsələdir. Lakin buna baxmayaraq, biz bir daha məsləhətləşib sizə cavab verəcəyik. Mənə elə gəlir ki, siz yeni hərbi hissələr yaratmağa cəhd etməlisiniz. Axı təkcə kənardan gələn adamların qüvvəsinə bel bağlamaq olmaz. İran inqilabının nümunəsində siz xalqın amerikalıları, özünü İranın müdafiəçiləri kimi qələmə verən bütün digərlərini necə qovduğunu gördünüz. Gəlin belə şərtləşək: biz məsləhətləşib sizə cavab verəcəyik. Siz isə öz növbənizdə, hərbçilərinizlə, bizim müşavirlərlə məsləhətləşin. Əfqanıstanda hər halda həyatını riskə ataraq sizi dəstəkləyən, sizin uğrunuzda mübarizə aparacaq qüvvələr var. İndi bu qüvvələri silahlandırmaq lazımdır.

**N.M.Tərəki:** Bizə təyyarə ilə piyadaların döyüş maşınları göndərin.

**A.N.Kosıgin:** Bu maşınları idarə edən adamlarınız varmı?

**N.M.Tərəki:** 30-35 maşın üçün sürücülərimiz var.

**A.N.Kosıgin:** Onlar etibarlı adamlardır? Maşını da götürüb düşmən tərəfə keçməyəcəklər ki? Axı bizim sürücülər dili bilmirlər.

**N.M.Tərəki:** Siz elə sürücülər göndərin ki, bizim dili bilsinlər – tacikləri, özbəkləri.

**A.N.Kosıgin:** Mən sizdən belə cavab gözləyirdim. Biz sizinlə yoldaşıq və birgə mübarizə aparırıq, ona görə bir-birimizdən utanmaq lazım deyil. Hər şeyi də buna tabe etmək lazımdır. Biz bir daha sizə zəng edib fikirlərimizi deyəcəyik.

**N.M.Tərəki**: Bizim ehtiramımızı və ən yaxşı arzularımızı yoldaş Brejnevə, Siyasi Büro üzvlərinə çatdırın.

**A.N.Kosıgin:** Sağ olun. Bütün yoldaşlarınıza salam yetirin.

Sizə isə məsələlərin həllində qətiyyət, inam və salamatlıq arzulayıram.  Xudahafiz.

*Danışıq Kabuldakı mütərcim – baş hərbi müşavir general-leytenant L.Qorelovun referenti vasitəsilə aparılmışdır. Yazdı B.Batsakov. 18 mart 1979-cu il*

## SSRİ-nin İrandakı fövqəladə və səlahiyyətli səfiri Vladimir Vinoqradovun xatirələrindən

### Tehran. 27 dekabr 1979-cu il

Budur, Yeni il yaxınlaşır. Hər şey az-çox yoluna düşüb. Bir az dincəlmək olar. Dekabrın 26-da Çexoslovakiya, Almaniya Demokratik Respublikası, Bolqarıstan, Macarıstan, Polşa və Rumıniya səfirlərini əməkdaşları ilə birgə qonaq çağırdıq. Bütün həyəcanlı ayları əlbir işləmişdik, informasiya mübadiləsi aparmış, hadisələri birgə təhlil etmiş, həftədə bir neçə dəfə yığışmış, bir-birimizə maddi baxımdan yardım etmiş, hücum təhlükəsi olanda uşaqları və qadınları bir-birimizin yanında gizlətmişdik. Bir sözlə, yoldaş idik.

Səfirliyin zalı böyük idi, qonaqlar və özümüzünkülər çox idi, "beynəlmiləl" konsert, oyunlar, rəqslər. Və təbii ki, yaxşı stol – Yeni ili kim süfrə arxasında qarşılamır? Sərbəstlik, şənlik, sevinc – sanki çiynimizdən yük götürülmüşdü. İki ildən çox idi ki, belə istirahət  etməmişdik...

Zala açılan qapıların birində yoldaşlarımızdan biri göründü və əli ilə mənə işarə verdi. Səfirlərdən üzr istəyib qapıya yaxınlaşdım.

- Sizə  təcili tapşırıq var.

Müşavir Yevgeni Dmitriyeviç Ostrovenkonu çağırdım: "Getdik yuxarı"...

Əlimdəki kağızı stolun üstünə atdım, əhvalım dəyişdi. Bu

nəyə lazımdır? Axı mənasızdır, məgər Moskvada heç kim Şərqi, onun xalqlarının adətlərini bilmir? Cəmi 60 il əvvəl ingilislərin Əfqanıstanda biabırçı məğlubiyyətindən xəbərləri yoxdur? Lakin tapşırıq tapşırıqdır. Onu yerinə yetirmək lazımdır.

Tapşırıq belə idi: **təcili olaraq** Xomeynini məlumatlandırmaq ki, Əfqanıstan hökumətinin xahişi ilə sovet hökuməti dekabrın 27-də bu ölkəyə xarici təcavüzü dəf etməkdə kömək göstərmək üçün "məhdud kontingent" göndərir. Belə bir ümid ifadə etmək ki, İran bu müvəqqəti və məcburi addımı anlayışla qarşılayacaq.

Saata baxdım: axşam saat on radələri idi. 27-sinə cəmi ikicə saat qalırdı. Xomeyni çoxdan bəyan etmişdi ki, daha xarici səfirləri qəbul etməyəcək, bunun üçün hökumət var; o, dövlət xadimi deyil, millətin ruhani rəhbəridir. Və yaşamaq üçün Quma – İranda ali rütbəli din xadimlərinin ənənəvi iqamətgahına getmişdi. Bu, Tehrandan 150 km məsafədə idi. Nə etməli? Tapşırığın icrası mümkünsüz görünür. Lakin bir şey aydındır: mütləq elə etmək lazımdır ki, Xomeyni üçün yəqin ki, xoş olmayacaq bu xəbəri o, məndən eşitsin, bunu sabah xarici radiolardan biləcək müşavirlərindən yox! Əslində Xomeyninin yanına getməyin mənası da elə budur, çünki bizim bu qeyri-adi addımın haqlı olduğuna onu inandırmaq, nə qədər çalışsam da, mümkün olmayacaq.

Yoldaşlara göstəriş verdim ki, dərhal Xomeyninin dəftərxanası ilə əlaqə yaradıb təcili görüş barədə təkidlə xahiş etsinlər, eyham vursunlar ki, məsələ adi deyil; eyni zamanda İran XİN-ə zəng vurub dərhal Quma getməyə icazə almaqda kömək göstərməyi xahiş etsinlər. Özüm səfirlərin yanına düşdüm. Üzr istədim: təcili iş var, getməliyəm. Arvadımdan xahiş etdim ki, qonaqların başını qatsın, özüm isə kabinetə qayıtdım...

Təəssüf ki, bir nəticə yox idi: Xomeyninin dəftərxanasından demişdilər ki, səfir Xomeyninin dövlət işlərində iştirak etməmək barədə qərarını bilməmiş deyil; bəli, İmam sovet səfirini yaxşı ta-

nıyır, lakin artıq o yatıb...

XİN-də yuxulu növbətçidən başqa kimsə yoxdur, o da deyib: "Səhəri gözləyin". O vaxt xarici işlər naziri Qütbzadə idi (1983-cü ildə Amerika casusu kimi güllələndi). Hələ o dövrdə biz onun davranışının qeyri-təbiiliyini duyurduq və instinktiv olaraq ona zəng etmək istəmirdik, axı onun məsələni İmama necə təqdim edəcəyi bəlli deyil. Bir də məlumatı başqa kiməsə vermək tapşırılmamışdı. Nə etməli?

Xahiş etdim ki, yenidən XİN-ə zəng etsinlər və nazirin müavinlərindən biri olan və bizə daim diqqətlə yanaşan Həqgunun ev telefonunu alsınlar. Telefonu verdilər, amma xidmətçi dedi ki, Həqgu evdə yoxdur, harada olduğunu deyə bilməz. Bir az təzyiqdən sonra (mənim əməkdaşlarım Jenya Ostrovenko və Nikolay Kozırev farsca çox yaxşı danışırdılar) xidmətçi nömrəni verdi, zəng edib Həqgunu xahiş etdilər. Onunla ingiliscə özüm danışdım və dedim ki, son dərəcə vacib, təcili məsələ var və məhz bu gün şəxsən Xomeyniyə çatdırmalıyam. Başa düşürəm ki, gecə yarısına az qalıb, İmam da Qumdadır, lakin həyatda hər cür gözlənilməz və fövqəladə şərait olur. Nə edək?

Həqgu bir qədər düşünüb dedi ki, əlbəttə, Xomeyni ilə görüşü təşkil edə bilməz, çünki gecdir, amma Quma getmək üçün rəsmi icazə verə bilər. Bu artıq müəyyən nəticə idi. Mən Həqguya hədsiz təşəkkür edib başqa bir xahiş də etdim: bir neçə silahlı mühafizəçi (pasdar) göndərsin, çünki gecədir, hər yan patrulla doludur, yol da uzaqdır. Dedim ki, biz iki maşında gedəcəyik. Nazir müavini xahişimi yerinə yetirəcəyinə söz verdi.

İyirmi dəqiqədən sonra avtomatla silahlanmış üç saqqallı gəldi. Biz yola çıxmağa hazır idik. Gecə saat üçə işləyirdi...

Qum məscidlərinin qızılı günbəzləri görünəndə artıq hava işıqlanırdı. Şəhərə xeyli qalmış yol içinə qum doldurulmuş metal çəlləklərlə kəsilmişdi – ilk yoxlama postu idi. Budkadan əli avtomatlı saqqallılar çıxıb təəccüblə qırmızı bayrağa baxırlar. "Bizim"

saqqallılar öz sənədlərini təqdim edib izahat verirlər: sovet səfiri təcili işlə bağlı İmamın yanına gedir... Bir kilometrdən sonra eyni şey təkrarlanır. Beləcə 5, ya 6 kordondan keçirik. Biz Xomeyninin şəhərin kənarındakı kiçik küçədə yerləşən balaca evinə kifayət qədər yaxınlaşırıq. Ora yolu yaxşı tanıyırdıq: bir neçə dəfə olmuşduq. Burada bizi bütün gecəni tonqal ətrafında keçirən keşikçilər sıx dövrəyə aldılar. Burdan o yana heç cür buraxmaq istəmirdilər... Mən onların komandirindən xahiş etdim ki, Ostrovenkonu İmamın dəftərxanasına – iqamətgahın qarşısındakı balaca evə – buraxsın: o, orada hər şeyi dəftərxana rəisinə izah edər, bizsə burda gözləyərik. Komandir könülsüz razılaşdı. Jenya mühafizəçilərlə getdi. Biz onu qırx dəqiqə gözlədik. Nəhayət, o, qayıdıb dedi ki, dəftərxana rəisi çox təəccübləndi və bildirdi ki, İmam qəbul etmir, lakin uzun danışıqdan sonra səfirin dəftərxanaya gəlməsinə razılıq verdi. Bizim yanımıza gələndə Jenya görmüşdü ki, dəftərxana rəisi uzun qara paltarının ətəyini əli ilə tutmuş halda başmaqlarını yerə döyə-döyə qaçaraq küçəni keçib Xomeyninin evinə gedir.

Biz dəftərxanaya gəldik... Yarım saatdan sonra dəftərxana rəisi narazı halda gəlib çıxdı və dedi ki, İmam bizi qəbul edəcək. Və çıxıb getdi. On dəqiqədən sonra qaçıb gəldi və əli ilə işarə etdi ki, tez olun.

Biz Xomeyninin evinə girdik... İki dəqiqədən sonra Xomeyni otağa daxil oldu. Biz yüngül təzimlə salamlaşdıq, o heç kimə əl vermirdi... Əlbəttə, mən qəfil, onun icazəsi olmadan gəldiyimizə görə üzrxahlıqdan başladım... və İmama bizi belə səhər erkən qəbul etdiyinə görə təşəkkürümü bildirdim... Sonra mən Əfqanıstan 1919-cu ildə müstəqillik əldə edəndən bəri bizim münasibətlərimizin tarixi haqqında məlumat verdim... Hazırkı vəziyyətə çatanda mən Aprel inqilabının sırf əfqan səciyyəsi daşıdığını izah etdim. İnqilabın əleyhdarları haqda danışdım, onların köhnəni qaytarmaq üçün aramsız cəhdlərindən, ABŞ-ın onlara hərbi

yardım göstərməsindən söhbət açdım. Əfqanıstan hökumətinin dəfələrlə Sovet İttifaqından hərbi kömək istədiyimi bildirdim. Söylədim ki, bu gün sovet qoşunlarının məhdud kontingenti Əfqanıstana daxil olacaq, özü də müvəqqəti olaraq. Biz istərdik ki, İmam bunu qabaqcadan bilsin və bizim nə üçün belə qeyri-adi və çətin addım atmağımızın səbəblərini birinci əldən eşitsin. Qeyd etdim ki, Əfqanıstana xaricdən hərbi müdaxilə SSRİ-nin də təhlükəsizlik maraqlarına toxunur, axı Əfqanıstan bizim qonşumuzdur.

Bir qədər pauza elədim. İmam susub gözləyirdi ki, mən bütün sözlərimi deyim: "Mənə tapşırıq verilib ki, bu addımın İmam və İran tərəfindən anlayışla qarşılanacağına ümid etdiyimizi çatdırım" – deyə, mən yekunlaşdırdım.

İmam qaşlarını qaldırdı: "Bəbrək Karməl kimdir?"

Mən cavab verdim ki, düzü, onu tanımıram, amma barəsində yaxşı fikirlər eşitmişəm.

İmam onu qabaqcadan məlumatlandırmağı lazım bildiyinə görə sovet rəhbərliyinə təşəkkürünü çatdırmağı xahiş etdi, dedi ki, bu dostluq və etimad əlamətidir və bunu qiymətləndirir.

İmam həmişəki kimi, yeknəsəq, amma yavaş-yavaş danışırdı, sanki fikirlərini cəmləşdirirdi – axı o, bu qeyri-adi informasiyaya məsuliyyətli reaksiya verməli idi. O qeyd etdi ki, hər bir xalq kənardan müdaxilə olmadan öz işlərini özü həll etməlidir. Ona çatdırıldığına görə, Əfqanıstanda ruhaniləri təqib edir, məscidləri bağlayırlar. Bu, xalqa zidd hərəkətdir, belə hərəkət etmək olmaz, islam məğlubolmazdır, onu qadağan etmək mümkün deyil. Əgər bu doğrudursa, onda sovet dövləti Əfqanıstan rəhbərliyinə təsir göstərməlidir. İran orada baş verənlərə laqeyd deyil. Əgər orada rəhbərlikdə ağıllı adamlardırsa, onlar islamı sıxışdırmamalıdır.

"Sovet qoşunlarının müsəlman ölkəsinə yeridilməsi, əlbəttə, xoşagəlməz və qeyri-adi hadisədir. Biz Sovet İttifaqına hörmət edirik, lakin İran, təbii ki, bu hərəkəti təqdir edə bilməz. Amma

indi ki qoşunlar yeridilir, onda mənim məsləhətimi Moskvaya çatdırın, – Xomeyni dedi, – qoy onlar tezliklə öz işlərini görsünlər və çıxıb getsinlər. Və ümumiyyətlə, - o, bir qədər duruxub davam etdi, - sovet rəhbərliyindən xahişim budur ki, müsəlman ölkələrinə diqqətlə yanaşsın, əks təqdirdə, bu ölkələrə münasibətdə sovet xarici siyasəti uğur qazana bilməyəcək". İmam susub öz aləminə daldı.

Mən Xomeyniyə dediyi fikirlərə görə təşəkkürümü bildirdim və din, milli xüsusiyyətlər kimi amilləri nəzərə almağın zəruriliyi barədə sözləri ilə razılaşdığımı söylədim. Dedim ki, bu, bizim xarici siyasətin prinsiplərindən biridir.

Mənim məlumatıma Xomeyninin reaksiyası kəskin olmadığı üçün mən risk edib ümidvar olduğumu bildirdim ki, İranın kütləvi informasiya vasitələri və məscidlərdəki vaizlər bu gün müzakirə etdiyimiz məsələ ətrafında ehtirasları qızışdırmayacaqlar və bununla da Sovet-İran münasibətlərinə mənfi təsir göstərməyəcəklər.

Xomeyninin gözlərində qığılcım parladı. "Mən sizdən iki xahiş edə bilərəmmi? – cavab vermək əvəzinə o, soruşdu. – Bu günlərdə BMT Təhlükəsizlik Şurasında ABŞ səfirliyi əməkdaşlarının tutulması ilə əlaqədar İrana sanksiyalar tətbiq edilməsi məsələsinə baxılacaq. Mən başa düşmürəm ki, niyə amerikalılar bizim ABŞ-da olan pullarımızın azad edilməsi ilə bağlı razılığa gəlmək istəmirlər. Sovet İttifaqı İrana sanksiyalar tətbiq edilməsi tələbini müdafiə edəcəkmi? Əgər sanksiyalar barədə qətnamə qəbul edilməsə belə, biz bilirik ki, amerikalılar Fars körfəzindəki bütün İran limanlarını blokadaya almağa hazırlaşırlar. Belə olan halda İran Avropaya Sovet İttifaqı vasitəsilə çıxmaq üçün tranzit imkanından istifadə edə bilərmi?"

Əlbəttə, bu məsələlərlə bağlı mənə konkret göstərişlər verilməmişdi, lakin Xomeyniyə: "Sizin xahişlərinizi Moskvaya çatdıraram" – demək də yersiz idi. Əgər belə etsəydim, elə təəssürat

yaranardı ki, biz İrana hansısa ehtiyat variantı kimi baxırıq. Bəzi diplomatların dediyi kimi, "məsafə saxlayırıq". Bu gün, İranın bizim Əfqanıstanda atdığımız olduqca düşünülməmiş addıma sakit reaksiyası lazım olduğu vaxtda isə buna yol vermək olmazdı...

Buna görə də mən tərəddüd etmədən Xomeyniyə cavab verdim ki, o, Təhlükəsizlik Şurasında İran əleyhinə sanksiyalar barədə qətnamənin qəbul edilməyəcəyinə əmin ola bilər. SSRİ üzərindən tranzitə gəldikdə isə, biz İmamın bu istəyini də yerinə yetirməyə hazırıq.

Xomeyni açıq-aşkar söhbətdən məmnun qalmışdı. Uzun danışığın pis təəssürat yaradacağını düşünərək, biz İmama təşəkkür edib xudahafizləşdik. O ayaq üstə dayanıb hətta əlini əbasının altından çıxardı və xudahafizləşəndə onu yuxarı qaldırdı, sanki bizə xeyir-dua verirdi...

Biz evə qayıdanda artıq gün çıxmışdı. Xomeyninin reaksiyasını müzakirə edərək bu nəticəyə gəldik ki, müdrik bir reaksiya oldu. Tehrana yaxınlaşanda İran radiosunu açdıq. Artıq bizim Xomeyni ilə söhbətimiz barədə məlumat verilirdi. Amma qəribə idi: bizim İmama verdiyimiz məlumat son dərəcə qısa təqdim olunurdu: Əfqanıstana qoşun yeridilməsi faktı, sonra da kiminsə quraşdırdığı və Xomeyninin bizə verdiyi sərt, mənfi və kəskin cavab. Bizə aydın idi: görüşümüz və verdiyimiz informasiya barədə Xomeyni məlumat yaymalı idi, İmamın mövqeyini isə sərt və kəskin ifadələrlə çatdırmaq lazım idi ki, xalq Xomeyninin qətiyyətini görsün. Və təbii ki, Xomeyninin xahişləri barədə heç nə deyilmədi.

BMT Təhlükəsizlik Şurasının İrana qarşı sanksiyalar barədə qətnaməsi keçmədi. Sovet İttifaqı üzərindən tranzit genişləndi, İranın blokadası baş tutmadı. Bizim görüşümüz haqqında ilk kəskin xəbərə baxmayaraq, təqribən üç ay ərzində nə mətbuatda, nə Xomeyninin, nə də digər siyasi-dini xadimlərin çıxışlarında SSRİ

Əfqanıstana qoşun yeritdiyinə görə kəskin tənqid olunmadı. Pakistan, ABŞ, İngiltərə, digər ölkələr böyük hay-küy salmışdı, qonşu İran isə, demək olar, reaksiya vermirdi. İmam sözünün üstündə durdu.

Üç ay ərzində sovet qoşunları onun məsləhət bildiyi kimi, "öz işini görə və çıxıb gedə" bilmədi və bunu görən Xomeyni Sovet İttifaqını kəskin tənqid etməyə başladı...

*"Vostoçnıy arxiv" jurnalı, № 1, 2013-cü il*

## Əfqanıstan Demokratik Respublikası İnqilab Şurasının bəyanatı

Əfqanıstanda baş verən hadisələr beynəlxalq ictimaiyyətin böyük diqqət və marağına səbəb olmuşdur. Bu da tamamilə qanunauyğun və təbiidir. Bizim ölkəmiz inqilabın yeni mərhələsinə daxil olmuşdur və onun fərqləndirici xüsusiyyəti xalqın görünməmiş birliyindən, bizim partiyamızın vəhdətinin möhkəmlənməsindən ibarətdir.

Bizim hökumətin xahişi ilə Sovet İttifaqının Əfqanıstana göstərdiyi dostluq və qardaşlıq yardımı suveren əfqan xalqının xarici düşmənlərinin təcavüzkar fitnələri qarşısında etibarlı və möhkəm sədd çəkmək imkanı yaratmışdır. İndi bizim xalqımız dinc şəraitdə işləmək, Aprel inqilabının nailiyyətlərini həvəs və inamla möhkəmləndirib inkişaf etdirmək imkanı qazanmışdır.

Biz məmnunluqla qeyd edirik ki, Əfqanıstanda baş verən hadisələr dünya mətbuatının səhifələrində geniş şəkildə işıqlandırılır. Əksər mətbuat orqanları ƏDR-dəki vəziyyət barədə obyektiv və xeyirxah məlumatlar yayırlar. Bununla yanaşı ABŞ-da, digər Qərb ölkələrində və Çində ƏDR-ə qarşı bədxah böhtançılıq kampaniyası davam edir.

Bu böhtan kampaniyasını gücləndirmək üçün ABŞ, İngiltərə və bir sıra digər Qərb dövlətlərindən Əfqanıstana şübhəli «müxbirlər» göndərilmiş, daha doğrusu, yeridilmişdir. Həmin cənablar bir-birindən cəfəng uydurmalar və iftiralar toxumaqla məşğuldurlar. Onların məqsədi bizim ölkəmizdə gərginliyi artırmaqdan, əfqanların normal həyatını pozmaqdan ibarətdir. Bu işdə Amerikanın «Nyu-York tayms», «Vaşinqton post», «Krisçen sayens monitor» kimi qəzetlərinin müxbirləri, eləcə də ABŞ teleradio kompaniyalarının nümayəndələri xüsusi canfəşanlıq göstərirlər.

Biz yuxarıda qeyd olunan jurnalistlərin hərəkətlərinə suveren ƏDR dövlətinin daxili işlərinə kobud müdaxilədən başqa ad verə bilmərik. Buna görə də ƏDR İnqilab Şurası Amerika jurnalistlərini ölkədən çıxarmaq barədə qərar qəbul etmişdir.

*«Baxtər» Agentliyi, 17 yanvar 1980-ci il*

## Nur Məhəmməd Tərəkinin xanımı Nur Bibi Tərəkinin ABŞ prezidenti Cimmi Karterə məktubu

*Amerika Birləşmiş Ştatlarının prezidenti Zati-aliləri cənab Ceyms E.Karterə*

Cənab Prezident!

Bildiyiniz kimi, 1978-ci ilin aprelində mənim əziz Əfqanıstanımda xalq inqilabı baş vermişdir. Sizə, şübhəsiz, o da məlumdur ki, bu inqilab Əfqanıstan Xalq Demokratik Partiyasının başçılığı ilə milli silahlı qüvvələr tərəfindən həyata keçirilmişdir, həmin partiyanın rəhbəri isə yarandığı andan mənim mərhum ərim Nur Məhəmməd Təraki olmuşdur. Aprel inqilabı xalqımızın mütləq əksəriyyətinin mənafeləri naminə baş vermişdir, ona

görə təsadüfi deyil ki, o mənim əziz həmvətənlərim tərəfindən hərarət və ruh yüksəkliyi ilə qarşılanmışdır.

Sonrakı dövrdə, 1979-cu ilin sentyabr ayına qədər mənim ərim dövlətin qanuni başçısı – İnqilab Şurasının sədri olmaqla, yeni, çiçəklənən Əfqanıstanın qurulması uğrunda yorulmadan çalışmışdır. Lakin ötən ilin sentyabrında ən məkrli metodlardan istifadə etməkdən çəkinməyən qəsdçi və xəyanətkar Əmin satqıncasına ölkədə hakimiyyəti qəsb etmişdir. O, mənim ərimi – təkrar edirəm, Əfqanıstan Demokratik Respublikasının qanuni başçısını – qətlə yetirmiş, bizim ailəmizi, o cümlədən də məni, özünün dəhşətli zindanına salmışdır.

Cənab Prezident!

Sizin cinayətkar və qatil Əmini müdafiə etməyə çalışmağınız məndə və bütün namuslu əfqanlarda qəzəb və etiraz doğurur. Siz özünüzə onu Əfqanıstanın «qanuni prezidenti» adlandırmağı rəva görürsünüz. Sizin sözləriniz mənim mərhum ərimin – Əmin və onun cəlladları tərəfindən xaincəsinə öldürülmüş Nur Məhəmməd Tərəkinin xatirəsini təhqir edir, onları günahsız yerə Əminin işgəncə verdiyi minlərlə vətənpərvər, öz vətəninin azadlığı uğrunda mübarizə aparan əfqanın xatirəsinə hörmətsizlikdən başqa cür qiymətləndirmək mümkün deyil.

Mən bədbəxtlikdən hətta qadınlara və uşaqlara da rəhm eləməyən bu qaniçən bandanın cinayətkar əməllərinin şahidi olmuşam. Mən özüm və mənim yaxınlarım Əminin və əminçilərin cinayətlərinin qurbanı olmuşuq. Və indi onlar öz cəzasına çatanda, mənim mərhum ərimin yaratdığı partiya, onun şanlı oğul və qızları, bütün əfqan vətənpərvərləri bizim əziz vətənimiz Əfqanıstanı cinayətkarlardan təmizləyəndə, Siz bəd əməllərinə görə xalqın lənətlədiyi kəsləri öz himayənizə alırsınız.

Siz, cənab prezident, onlar mənim ərimi, azad əfqan xalqının qanuni prezidentini, bütün həyatını öz həmvətənlərinin xoşbəxt-

liyinə və parlaq gələcəyinə həsr etmiş insanı xaincəsinə öldürəndə niyə susurdunuz?

Siz, cənab prezident, qatil və xain Əmin həqiqi əfqan vətənpərvərlərini, qocaları, qadınları və uşaqları həbsxanalara atanda, işgəncə verəndə və qətlə yetirəndə niyə indiki narahatlığınızı bildirmirdiniz?

Mən xoşbəxtəm və fəxr edirəm ki, bizim övladlarımız, mənim rəhmətlik ərim Nur Məhəmməd Tərəkinin şagirdləri və davamçıları yenidən azadlıq məşəlini yandırmış, bizim doğma evimizdə ədaləti bərpa etmişlər. Onlar həmişə öz məzlum xalqının xoşbəxtliyi uğrunda mübarizə aparmışlar və xalq da onları müdafiə etmişdir. Xalq onlara inanır və öz vətəninin, inqilabın müdafiəsi naminə sonadək onların arxasınca gedəcəkdir.

Biz əfqanlar azadlığı, sülhü və müstəqilliyi öz həyatımızdan da artıq sevirik və onlardan ötrü öz qanımızı axıtmağa hazırıq. Biz öz evimizdə qayda-qanun yaradırıq və tələb edirik ki, heç kəs bizə seçdiyimiz yolla getməyə mane olmasın. Biz Sizin ölkənizə pislik arzulamırıq və etmirik. Əksinə, Sizin hökumətiniz bizim xalqımıza qarşı çıxan bütün qara qüvvələrə gizli və açıq şəkildə dəstək verir.

Mən əminəm ki, ərim Nur Məhəmməd Tərəkinin öz həyatını yolunda qurban verdiyi iş qalib gələcək və məğrur əfqan xalqı xoşbəxtliyə və inkişafa nail olacaq.

*18 yanvar 1980-ci il.*

**SSRİ Elmlər Akademiyası Dünya Sosialist Sisteminin İqtisadiyyatı İnstitutunun Sov.İKP MK-ya və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə göndərdiyi analitik arayışdan**

Sovet qoşunlarının Əfqanıstana yeridilməsi müxalifətin hökumətə qarşı silahlı mübarizəsinin zəifləməsi ilə nəticələnmədi.

İslam fundamentalistləri yeni şüardan – xarici qoşunlara qarşı mübarizə şüarından istifadə etməklə, əhali arasında təbliğat işini kəskin şəkildə genişləndirdilər. Bütün islamçı qruplaşmaları hökumət və SSRİ əleyhinə vahid cəbhədə birləşdirmək cəhdləri gücləndi.

Sovet qoşunlarının yeridilməsindən sonra ABŞ, onun müttəfiqləri, bəzi ərəb və müsəlman ölkələri, eləcə də Çin açıq şəkildə müxalifəti dəstələdiklərini və kömək göstərəcəklərini bəyan etdilər. Bu kömək əvvəllər də göstərilirdi. Lakin indi əhəmiyyətli şəkildə artmışdır. Beynəlxalq aləmdə Əfqanıstan təcrid olunmuşdur və yalnız sosialist düşərgəsinə, başlıca olaraq SSRİ-yə arxalanır.

Əfqanıstana qoşun yeridilməsi ilə bizim siyasətimiz Üçüncü Dünyada qarşıdurmanın caiz hədlərini aşmışdır. Bu aksiyanın faydası bizim maraqlarımıza vurulan ziyanla müqayisədə çox kiçik olmuşdur. İki qarşıdurma cəbhəsinə – Avropada NATO ilə və Şərqi Asiyada Çin ilə – əlavə olaraq, SSRİ-nin cənub cinahında, əlverişsiz coğrafi və sosial-siyasi şəraitdə bizim üçün üçüncü təhlükəli hərbi-siyasi gərginlik ocağı yaranmışdır.

SSRİ-ni qərbdən şərqə qədər əhatə edən dövlətlərin anti-sovet cəbhəsi xeyli dərəcədə genişlənmiş və möhkəmlənmişdir. SSRİ-nin Qoşulmama hərəkatına, xüsusən müsəlman aləminə təsiri əhəmiyyətli zərbə almışdır. Gərginliyin azaldılmasına maneə yaranmış və sürətlə silahlanmanın qarşısının alınması üçün ilkin siyasi şərtlər məhv edilmişdir.

Sovet İttifaqına iqtisadi və texnoloji təzyiq kəskin şəkildə artmışdır.

Qərb və Çin təbliğatı Qərbin, inkişaf etməkdə olan dövlətlərin, eləcə də sosialist ölkələrinin ictimai rəyində SSRİ-nin nüfuzunu zədələmək üçün apardığı kampaniyanı genişləndirməkdən ötrü güclü kozırlar əldə etmişdir.

Əfqanıstan hadisələri Sovet-Çin münasibətlərinin mümkün

normallaşması üçün əsasları uzun müddətə məhv etmişdir.

Bu hadisələr İran ilə ABŞ arasında böhranlı münasibətlərin aradan qaldırılması və barışıq üçün katalizator rolunu oynamışdır.

Yuqoslaviya Sosialist Federativ Respublikası, Rumıniya və Koreya Xalq Demokratik Respublikası tərəfindən sovet siyasətinə inamsızlıq və ondan uzaqlaşmaq meyli güclənmişdir. Hətta Macarıstan və Polşa mətbuatında da ilk dəfə olaraq, Sovet İttifaqının Əfqanıstandakı hərəkətlərinə münasibətdə ehtiyatlılıq əlamətləri açıq şəkildə özünü göstərmişdir. Bunda, çox güman ki, ictimaiyyətin əhval-ruhiyyəsi və qeyd edilən ölkə rəhbərlərinin Sovet İttifaqının qlobal aksiyalarına cəlb olunmaqla bağlı narahatlığı öz əksini tapmışdır, çünki bizim tərəfdaşlarımız həmin aksiyalarda iştirak üçün kifayət qədər resurslara malik deyillər.

Qərb dövlətlərinin diferensiallaşmış siyasəti güclənmişdir, bu da Sovet İttifaqı ilə digər sosialist ölkələri arasında münasibətlərə fəal müdaxiləyə yönəlmiş yeni taktikada, onlar arasındakı ziddiyyətlər və mənafelərin üst-üstə düşməməsi üzərində açıq şəkildə oynamaqda özünü göstərir.

*20 yanvar 1980-ci il*

**Sov.İKP MK Siyasi Bürosunun iclası**
**10 mart 1983-cü il**

*Tam məxfi*

Sədrlik edirdi: yoldaş Andropov Y.B.

İştirak edirdilər: yoldaş Əliyev H.Ə., Qorbaçov M.S., Qromıko A.A., Pelşe A.Y., Tixonov N.A., Çernenko K.Y., Demiçev P.N., Dolgix V.İ., Kuznetsov V.B., Solomentsev M.S., Kapitonov İ.V., Rıjkov N.İ.

## 6. Əfqanıstandakı vəziyyət və onun yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında

**Qromıko:** Siyasi Büronun qərarına uyğun olaraq, məsul partiya, sovet, təsərrüfat işçiləri və hərbçilərdən ibarət qrup Əfqanıstana getmişdi. Qrup orda yaxşı işləyib. O, Əfqanıstanda vəziyyətin sonrakı sabitləşməsi üçün kompleks təkliflər hazırlayıb. Biz bu təkliflərə Siyasi Büronun Əfqanıstan üzrə komissiyasının iclasında baxmışıq. Təkliflərdə yaxın gələcəkdə həm əfqan, həm də sovet tərəfinin həll etməli olduğu vəzifələr öz əksini tapıb (maddi baxımdan bu, üç il ərzində ayrılmalı olan təqribən 300 milyon rubla başa gələcək. Bu böyük, lakin minimal məbləğdir və görünür, bu məsrəfə getmək lazımdır).

Əfqanıstanda ümumi vəziyyət, bildiyiniz kimi, mürəkkəbdir. Son dövrdə hansısa konsolidasiya elementləri gözə dəyir, lakin bu proses ləng gedir. Bandaların sayı azalmır. Düşmən silahı yerə qoymur. Pakistanla Cenevrədə aparılan danışıqlar ağır və çətin keçir. Buna görə biz siyasi tənzimləmənin qarşılıqlı məqbul variantlarını tapmaq üçün əlimizdən gələni etməliyik. Qabaqcadan demək olar ki, bu proses uzun çəkəcək. Burada xüsusi müzakirə olunmalı məsələlər var. Ancaq onu nəzərə almaq lazımdır ki, hələlik Pakistana qoşunlarımızın çıxarılması ilə bağlı konkret vaxt barədə razılıq vermək olmaz. Burada ehtiyatlı olmaq lazımdır. Bəli, vəziyyət sabitləşir. Yaxşıdır ki, əfqan ordusu 140 min nəfərə qədər artıb. Lakin əsas problem odur ki, mərkəzi hakimiyyət orqanları hələ yerlərə gedib çatmayıb, kütlələrlə nadir hallarda ünsiyyətə girirlər, uyezdlərin üçdə biri mərkəzi hakimiyyətin nəzarətində deyil, dövlət rəhbərliyində süstlük hiss olunur.

Sonda onu demək istəyirəm ki, görünür, sizin müzakirənizə təqdim olunmuş tövsiyələrdə əksini tapan tədbirlərə getmək lazımdır. Görünür, hardasa aprel ayında Karməl ilə və Əfqanıstan

Xalq Demokratik Partiyasının rəhbər işçilərinin bir qrupu ilə görüşmək vacibdir. Çox güman ki, Y.V.Andropovun Bəbrək Karməllə şəxsən görüşməsi də məqsədəuyğun olardı.

**Tixonov:** 300 milyon rubldan söhbət gedəndə, təmənnasız yardım nəzərdə tutulur.

**Andropov:** Sizin yadınızdadır, biz Əfqanıstana qoşun yeridilməsi məsələsini necə çətin və ehtiyatla həll etmişdik. L.İ.Brejnev Siyasi Büro üzvlərinin adbaad səsverməsində təkid etmişdi. Məsələyə MK-nın Plenumunda baxılmışdı.

Əfqanıstan probleminin həllində biz mövcud reallıqlardan çıxış etməliyik. Siz nə istəyirsiniz? Bu, feodal ölkəsidir, orada hər tayfa öz ərazisində daim hökmran olub, mərkəzi hakimiyyət heç də həmişə hər bir kəndə gedib çıxmayıb. Məsələ Pakistanın mövqeyində deyil. Burada bizimlə Amerika imperializmi vuruşur, çünki yaxşı başa düşür ki, beynəlxalq siyasətin bu sahəsində o, öz mövqelərini itirib. Ona görə də biz geri çəkilə bilmərik.

Dünyada möcüzə olmur. Bəzən biz əfqanlara hirslənirik ki, onlar ardıcıl deyillər, işi ləng aparırlar. Lakin gəlin bizim basmaçılarla mübarizəmizi xatırlayaq. Axı o zaman az qala bütün Qızıl Ordu Orta Asiyada cəmlənmişdi, buna baxmayaraq, basmaçılarla mübarizə 30-cu illərin ortalarına qədər davam etdi. Buna görə də Əfqanıstanla münasibətlərdə həm tələbkarlıq, həm də anlayış lazımdır.

Komissiyanın hazırladığı tövsiyələrə gəldikdə isə, sizcə onlar həddən artıq imperativ səciyyə daşımırmı? Orada dəqiq göstərilir ki, əfqan tərəfi nə etməlidir, biz nə etməliyik.

**Qromıko:** Biz tövsiyələr üzərində, əlbəttə, işləyəcəyik.

**Andropov:** Bəli, qoy bu, siyasi bir sənəd olsun. O daha çevik şəkildə tərtib olunmalıdır.

**Ponomaryov:** Biz bu materialları təkmilləşdirərik.

**Andropov:** Karməllə danışıqlar, görünür, lazımdır. Bu danı-

şıqları, yəqin ki, iki turda keçirmək əlverişli olar, özü də mənim Karməllə söhbətimi axıra saxlayın.

**Kuznetsov, Tixonov, Qorbaçov**: Doğrudur.

**Andropov:** Onda bəlkə belə qərar qəbul edək: Siyasi Büronun Əfqanıstan üzrə komissiyasının təqdim etdiyi mülahizələrlə razılaşmaq və bu ilin mart-aprel aylarında Bəbrək Karməllə və Əfqanıstan Xalq Demokratik Partiyasının bir qrup digər rəhbər şəxsləri ilə söhbətlərin aparılmasını məqsədəuyğun saymaq. Eyni zamanda SSRİ Nazirlər Sovetinin Əfqanıstan Respublikasına əlavə iqtisadi yardım göstərmək barədə qərar layihəsini bəyənmək olar.

Qərar qəbul olunur.

### 7. Siyasi nizamlama məsələlərinə dair Əfqanıstan-Pakistan danışıqları barədə

**Andropov:** Məncə, bu aydın məsələdir.

**Qromıko:** Əlbəttə, əfqanlara müəyyən materiallar vermək lazımdır ki, onlar danışıqlara yaxşı hazırlaşa bilsinlər.

**Ponomaryov:** Belə materiallar onlara çox lazımdır.

**Andropov:** Onda qərar qəbul edək.

Qərar qəbul olunur.

## Əfqanıstan İslam Dövlətinin prezidenti Bürhanəddin Rəbbaninin mücahidlərin hakimiyyətə gəlməsinin birinci ildönümü münasibətilə çıxışından

Qardaşlar, bacılar, igid və şücaətli mücahidlər, mömin və qəhrəman həmvətənlər!

Hər şeydən əvvəl, Əfqanıstanın müsəlman millətinin qələbə-

sinin birinci ildönümü münasibətilə harada olmağınızdan asılı olmayaraq, bütün həmvətənlərimizi, fədakar mücahidləri, hələ ölkəyə qayıtmamış igid mühacirləri təbrik edirəm!

Həmçinin bu tarixi anlarda öz qanlarını axıtmaqla bu məmləkətin üzərində islam və azadıq bayrağını ucaldan, gül rəngli kəfənə bürünmüş şəhidlərin pak ruhuna dualar edirəm.

Əfqanıstan islam inqilabının birinci ildönümünün qeyd edilməsi əslində ölkəmizin igid övladlarının müqəddəs cihadının, çoxsaylı qurbanlar verməklə Əfqanıstanın və dünyanın müasir tarixində yeni səhifə açmış fədakar mücahidlərin unudulmaz qəhrəmanlıqlarının, nurun zülmətə, ədalətin zülmə qələbə çalmasının qeyd edilməsi deməkdir.

Əfqan xalqı 14 illik cihad dövründə saysız-hesabsız faciə və müsibətlərə davam gətirmişdir. Bu torpağın ən yaxşı övladlarından təqribən milyon yarımı şəhidlik şərbətini içmişdir. Təqribən 2 milyon nəfər yaralanmış və əlil olmuşdur. 5 milyon nəfərdən artıq insan öz evindən və yurdundan didərgin düşərək mühacirət etmişdir.

Bizim milli iqtisadiyyatımıza nəhəng ziyan dəymişdir. Əslində vətənimizin onsuz da güclü olmayan iqtisadiyyatı tamamilə dağılmış, milli gəlir ilbəil azalmış, fabrik və müəssisələr ya dağılmış, ya da dayanmışdır… Kommunikasiya xətləri və körpülər dağılmış, məktəblər, xəstəxanalar və digər sosial obyektlər yerlə-yeksan olmuşdur.

Amma bu nəhəng insani və maddi itkilər xalqımızın müqavimət ruhuna azacıq da olsa, zərbə vura bilməmişdir. Əksinə, o, düşmənlə daha şücaət və cəsarətlə vuruşmuş, onun məğlubiyyətinə və tam dağılmasına zəmin hazırlamışdır.

Əfqan xalqının islam inqilabının qələbəsinin birinci ildönümünü fəxr və başucalığı ilə qeyd etməyə haqqı var, çünki bu inqilabın qələbəsi nəticəsində bir daha bu torpağın igid oğullarının

adı və tarixi qəhrəmanlıqları regionun və dünyanın tarixinə qızıl hərflərlə həkk olunmuşdur.

Küfr və azğınlıq məktəbi olan kommunist ideologiyası sıradan çıxmışdır. Keçmiş sovet imperiyası dağılmışdır. Uzun illər Avropanın mərkəzində ucalaraq vahid xalqları, hətta ailələri bir-birindən ayıran Berlin divarları uçmuşdur. Asiya və Avropa qitələrində bir çox millətlər və ölkələr çoxillik əsarətdən sonra azadlığa qovuşmuşdur. Dünyanın siyasi və coğrafi mənzərəsi dəyişmişdir. Beynəlxalq aləmdə ölkələr arasında yeni əlaqə və münasibətlər meydana gəlmişdir.

14 il əvvəl bu gün Qırmızı Ordu öz alçaq və rüsvayçı əlaltılarının köməyi  ilə bizim gözəl ölkəmizə hücum çəkəndə güclü imanı və düzgün əqidəsindən başqa heç nəyi olmayan millətimiz bir daha böyük sınaq qarşısında qaldı. Heç kəs inanmırdı ki, bu millət dünya kommunizminin qərargahı olan ölkənin şər qüvvələri qarşısında duruş gətirəcək, öz islami kimliyini və azadlığını müdafiə edəcək. Lakin bizim millətimizin dişinə qədər silahlanmış şeytan qüvvələri qarşısında hamılıqla ayağa qalxması və son nəticədə Qırmızı Ordunun məğlubiyyəti dünyanın bütün siyasi və hərbi meyar və mizanlarının üzərindən xətt çəkdi…

Əfqanıstanda islam hökumətinin qurulması bizim müsəlman xalqımızın 14 illik rəşadəti və qurbanları nəticəsində mümkün olmuşdur. Bu hökumət qurulduğu gündən Peyğəmbəri-əkrəmin (s) yolu ilə gedərək bağışlama və güzəşt siyasəti yürütməklə dünyanı heyrətə saldı və göstərdi ki, mücahidlər təkcə döyüş meydanında Allahın qəhr və qəzəbinin nişanəsi deyillər, həm də siyasət və idarəçilik səhnəsində Onun rəhm, mərhəmət və bağışlamaq xüsusiyyətinin təcəssümüdürlər. Eləlari vardı ki, islam hökumətinin intiqam qamçısı olacağını düşünürdülər, lakin mücahidlər ümumi əfv elan etməklə, bu təsəvvürlərin üzərindən birdəfəlik xətt çəkdilər…

Çoxlu çətinliklərə baxmayaraq, islam hökuməti bir il ərzin-

də əksər sahələrdə səmərəli addımlar atmışdır… İslam quruluşu bərqərar olduqdan sonra Əfqanıstan sovet işğalı və o ölkənin əlaltılarının fəaliyyəti nəticəsində düşdüyü siyasi və iqtisadi təcriddən çıxmış, regional və qlobal siyasətdə fəal iştirakçı kimi özünü göstərməyə başlamışdır.

Əfqanıstan İslam Dövləti İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) üzvü olmuşdur. Əfqanıstan nümayəndə heyətləri BMT-nin, İslam Konfransı Təşkilatının, Qoşulmama Hərəkatının iclaslarında iştirak etmişdir və Əfqanıstan İslam Dövlətinin mövqeyini bəyan etməklə ölkəmizin müxtəlif dünya dövlətləri ilə əlaqələrinin daha da genişlənməsi və dərinləşməsinə nail olmuşdur.

*28 aprel 1993-cü il*

## ABŞ prezidenti Cimmi Karterin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Zbiqnev Bzejinski ilə müsahibə

*- Mərkəzi Kəşfiyyat İdarəsinin sabiq direktoru Robert Qeyts öz xatirələrində yazır ki, Amerikanın xüsusi xidmətləri Əfqanıstana sovet müdaxiləsindən 6 ay qabaq mücahidlərə kömək etməyə başlamışdı. Həmin vaxt siz prezident Karterin milli təhlükəsizlik məsələləri üzrə müşaviri idiniz. Deməli, sizin də bu işdə rolunuz olub. Doğrudurmu?*

- Bəli. Rəsmi versiyaya əsasən, Mərkəzi Kəşfiyyat İdarəsi 24 dekabr 1979-cu ildə Sovet ordusu Əfqanıstanı işğal etdikdən sonra – 1980-ci ildən mücahidlərə kömək etməyə başlamışdır. Amma həqiqətdə bu, indiyə qədər gizlədilsə də, tamamilə başqa cür olmuşdur; əslində 3 iyul 1979-cu ildə prezident Karter Kabuldakı sovetpərəst rejimin müxaliflərinə gizli yardım barədə ilk direktiv imzalamışdır. Və həmin gün mən prezidentə məktub

yazdım və orada ona izah etdim ki, mənim fikrimcə, bu yardım SSRİ-ni hərbi müdaxiləyə təhrik edəcəkdir.

*- Bu riskə baxmayaraq, siz həmin gizli əməliyyatın tərəfdarı idiniz. Bəlkə siz özünüz SSRİ-nin müharibəyə girməsini istəyirdiniz və onu təhrik etməyə çalışırdınız?*

- Lap elə də deyil. Biz rusları müdaxiləyə vadar etmədik, lakin bilərəkdən onların bunu etməsi ehtimalını artırdıq.

*- SSRİ öz təcavüzünə ABŞ-ın Əfqanıstana gizli müdaxiləsinə qarşı mübarizə aparmaqla bəraət qazandıranda, insanlar ona inanmadı. Halbuki burada həqiqət payı vardı. Siz bu gün nəyə görəsə peşman deyilsiniz ki?*

- Nəyə görə peşman olum? Həmən gizli əməliyyat əla ideya idi. O, rusların əfqan tələsinə düşməsinə gətirib çıxardı. Siz də istəyirsiniz ki, mən buna peşman olum? Sovet ordusu rəsmən sərhədi keçdiyi gün mən prezident Karterə yazmışdım: bizim indi SSRİ-yə öz Vyetnam müharibəsini yaşatmaq imkanımız var. Doğrudan da, təqribən 10 il Moskva hökumət üçün dözülməz olan müharibə apardı və bu münaqişə Sovet imperiyasının ruh düşkünlüyünə, son nəticədə dağılmasına gətirib çıxardı.

*- Və siz heç islam fundamentalizmini dəstəklədiyinizə, gələcək terrorçulara silah və məsləhət verdiyinizə görə də peşman deyilsiniz?*

- Dünya tarixi üçün daha mühüm olan nədir? Taliban, yoxsa Sovet imperiyasının dağılması? Hansısa hərəkətə gəlmiş müsəlmanlar, yoxsa Mərkəzi Avropanın azadlığı və Soyuq müharibənin sona yetməsi?

*- Hansısa hərəkətə gəlmiş müsəlmanlar?! Axı dəfələrlə deyilmişdir ki, islam fundamentalizmi bu gün dünya üçün təhlükə təşkil edir.*

- Boş sözdür! Deyirlər ki, Qərb islama münasibətdə qlobal siyasətə malikdir. Bu, səfehlikdir. Qlobal islam adlanan bir şey yoxdur. İslama rasional şəkildə, demaqogiyasız və ya emosiyasız yanaşın. Bu, dünyada 1,5 milyard insanın tapındığı aparıcı din-

dir. Lakin Səudiyyə Ərəbistanının fundamentalizmi, Mərakeşin mötədilliyi, Pakistanın militarizmi, Misirin qərbpərəstliyi və ya Mərkəzi Asiyanın sekulyarizmi arasında hansı ümumi cəhət var? Xristian ölkələrini birləşdirən şeydən artıq heç nə!

*"Nuvel Observator" jurnalı (Fransa),*
*15-21 yanvar, 1998-ci il*

## Taliban lideri Molla Məhəmməd Ömərin Qəndəharda çıxan ərəbdilli «Əl-imarət əl-İslamiyyə» jurnalına müsahibəsindən

*- BMT və dünyanın müxtəlif ölkələri deyirlər ki, Talibanın nəzarətində olan ərazilərdə narkotik maddələr istehsal olunur. Buna sizin cavabınız nədir?*

- İslam Əmirliyi narkotik vasitələrin istehsalı, istifadəsi və ixracının əleyhinədir və bununla bağlı mühüm addımlar da atmışdır. Məsələn, 13.01.1420-ci ildə (29.04.1999) verilmiş 2 saylı fərman və 04.05.1420-ci ildə (16.08.1999) verilmiş digər fərman həşiş əkilməsinin qadağan olunması və onun əkinlərinin məhv edilməsi barədədir. Ötən il xaşxaş əkilən sahələrin ərazisi əvvəlcə üç dəfə azaldıldı, sonra da 26.04.1421-ci il (29.07.2000) tarixli 19 saylı fərmana görə, bütün Əfqanıstan ərazisində xaşxaş əkilməsi qəti şəkildə qadağan olundu.

Amma narkotik maddələr qlobal bir problemdir və onun həlli üçün bütün dünyanın səyləri birləşdirilməlidir. Bununla bağlı BMT və dünya ölkələri gərək xaşxaş əkməkdən əl çəkən əfqan kəndlilərinə maliyyə yardımı etsinlər, lakin nə BMT, nə də dünya ölkələri bu işə maraq göstərmirlər. Sonda biz məcbur olub bunun bütün çətinliklərini və nəticələrini öz çiynimizə götürdük və xaşxaş əkilməsini qadağan etdik.

*- İslam əmirliyinə qarşı istifadə olunan məsələlərdən biri də qadın hüquqları mövzusudur. Bununla bağlı nə deyə bilərsiniz?*

- İslam əmirliyi qadınların şəriətdə nəzərdə tutulmuş hüquqlarının təmin olunması üçün davamlı səylər göstərir. Misal olaraq, 08.05.1419-cu il (31.08.1998) tarixli 104 saylı fərmanı göstərmək olar ki, orada qadına ərinin vəfatından sonra öz taleyi barədə qərar qəbul etmək hüququ verilir və ərinin ailəsinin onu öz istəyinə rəğmən ərinin qohumlarından biri ilə nikaha daxil etmək haqqının olmadığı bildirilir. Bu fərmanın Əfqanıstan tarixində bənzəri yoxdur.

Qadının təhsil və təlimi ilə bağlı onu deməliyəm ki, biz heç vaxt qadınlara təhsil almağı qadağan etməmişik. Amma istəyirik ki, qadının təhsili şəriət qaydalarına uyğun olsun, hicab məsələsinə, tədris mühitinin islami olmasına riayət edilsin.

*- Bəziləri İslam Əmirliyini dində radikal olmaqda ittiham edirlər. Bu ittiham barəsində fikriniz nədir?*

- Bu ittihamın məntiqi əsası yoxdur. Düşmənlər açıq şəkildə bizdən tələb edə bilməzlər ki, islam quruluşundan əl çəkin. Ona görə bizi radikallıqda ittiham edirlər ki, bu bəhanə ilə bizim daxili işlərimizə müdaxilə etsinlər. İslam radikalizmin əleyhinədir, amma şəriət hökmlərini özlərinin pis niyyətlərinə uyğun təfsir etməyə çalışanların da əleyhinədir.

*- BMT Əfqanıstan İslam Əmirliyinə təzyiq göstərir ki, Üsamə bin Ladeni mühakimə olunmaq üçün təhvil versin, əks təqdirdə bunun ağır nəticələri ilə üzləşməli olacaq. Bu barədə nə deyə bilərsiniz?*

- BMT-nin hədələri bizi şeyx Üsamə bin Ladeni Əfqanıstandan çıxarmağa məcbur edə bilməyəcək və biz islam prinsiplərindən kənara çıxmayacağıq. Şeyx Üsamə bin Laden müsəlman və mühacirdir, əfqanların qonağıdır. Onun ölkədən çıxarılması və təslim edilməsi islama və əfqan xalqının ənənələrinə ziddir.

Şeyx Üsamə bin Laden heç vaxt Əfqanıstan ərazisindən heç

bir ölkəyə qarşı istifadə etməmişdir. Biz ondan bu cür tələb etmişik, o da bizi əmin edib. O hətta elə bir iş görmək istəmir ki, bizim başqa ölkələrlə münasibətimizə ziyan vursun.

Amma həqiqət budur ki, ABŞ və BMT Üsamə bin Laden məsələsi adı altında İslam Əmirliyinə zərbə vurmaq istəyirlər, halbuki onlar Üsamə bin Ladenlə bağlı iddialarını təsdiq edən heç bir sübutu bizə təqdim etməmişlər.

*- Deyilənə görə, siz Pakistan prezidenti Pərviz Müşərrəfə söyləmisiniz ki, əgər Əfqanıstana səfər etməkdə məqsədi Üsamə məsələsi ilə bağlı müzakirə aparmaqdırsa, Əfqanıstana gəlməsin. Bu söz doğrudurmu?*

- Bu söz tamamilə əsassızdır. Pakistanlılar həmişə bu məqamı vurğulayıblar ki, Şeyx Üsamə məsələsi Əfqanıstanla ABŞ-a aiddir və Pakistan heç vaxt bizdən tələb etməyib ki, Şeyx Üsaməni təslim edək. Bu məsələ yalnız Əfqanıstanla Amerika arasında olan problemdir.

*- Əgər BMT Əfqanıstana qarşı daha çox məhdudiyyətlər tətbiq etsə, gələcəyi necə görürsünüz?*

- Ruslar Əfqanıstana təcavüz edəndə ölkənin iqtisadi infrastrukturunu dağıtdılar, bizim əkin sahələrimiz məhv oldu, lakin əfqan xalqı bütün bu çətinliklərə sinə gərdi. Şübhəsiz, bu dözümlü xalq yenə də səbr edəcək. Əfqanıstan neçə ildir quraqlıqla üzləşib, lakin BMT bizə kömək etmək əvəzinə, əlavə məhdudiyyətlər tətbiq edir, bu da təbii ki, bizim əhalinin çətinliklərini artıracaqdır. Hər halda biz bu çətinliklərə görə məxluqdan şikayət etmirik, çünki inanırıq ki, mütləq ixtiyar Allahın əlindədir ki, Onun mərhəməti ilə bütün çətinliklər həllini tapacaq.

*- Əfqanıstanda müharibə probleminin həllinə sizin baxışınız necədir?*

- Mən açıq şəkildə deyirəm ki, bu problem müxaliflərin tam məğlubiyyəti ilə aradan qalxacaq. Mən bu sözü nikbinlik xatirinə

demirəm. Bu gün ölkə ərazisinin 95 faizi İslam Əmirliyinin nəzarəti altındadır və onda islam şəriəti, qayda-qanun və təhlükəsizlik hökm sürür. Mən vurğulamaq istəyirəm ki, İslam Əmirliyi qalib gələcək. İnşallah, ümidvaram ki, bu məsələ müharibəsiz həll olunacaq. Bu qələbənin bir əlaməti müxalif komandirlərin bir çoxunun İslam Əmirliyi qüvvələrinə qoşulmasıdır, başqaları da bu yolu tutacaqlar…

*Avqust, 2000-ci il*

## Əhməd şah Məsudun Avropa səfərindən sonra Düşənbədə etdiyi çıxışdan

Bildiyiniz kimi, bir həftə öncə Avropa Parlamentinin dəvəti ilə mən nümayəndə heyətinin rəhbəri kimi Avropaya səfər etdim… Səfərin cəmi iki gün davam edəcəyi nəzərdə tutulmuşdu və onun gedişində iki görüş keçirilməli idi: fransızlarla çox qısa görüş və Avropa Parlamentində daha geniş görüş. Amma iş elə gətirdi ki, səfər bir həftəyə qədər uzandı…

Qeyd etməliyəm ki, bütün görüşlərdə biz bir sıra mühüm məsələləri müzakirə etdik və bu barədə sizə qısa məlumat verəcəyəm. Mən dedim ki, Əfqanıstanda vətəndaş müharibəsi getmir, bu müharibənin köklərini Əfqanıstandan kənarda axtarmaq lazımdır. Bu gün bizə qarşı təkcə əfqanlar vuruşmur. Əfqan talibləri və Molla Ömər problemin yalnız bir hissəsidir. Onların yanında 4-5 min yaraqlısı olan Üsamə bin Laden var. Düşmənlərimiz arasında bir neçə min nəfərlik Pakistan talibləri də vardır. Bu gün Əfqanıstanda ən azı 3 qruplaşma var ki, onlardan yalnız biri əfqanlardır, qalan ikisi əfqan deyil. Avropadakı çıxışlarımda dedim ki, bu qruplar islamı müxtəlif cür başa düşürlər. Biz he-

sab edirik ki, bu radikalizmdir. Onların islam anlayışı 99,9 faizi müsəlman olan əfqanların anlayışından nəinki fərqlənir, hətta ona ziddir. Mən həm də bəyan etdim ki, taliblərin hədəfi təkcə Əfqanıstan deyil, əks təqdirdə Pakistan taliblərinə, Bin Ladenə və onun terrorçularına ehtiyac olmazdı. Onların hədəfi yalnız ilk növbədə Əfqanıstandır, sonra isə Orta Asiya, ərəb ölkələri, Avropa və dünyanın qalan hissəsidir. Öz baxışlarının ixracına dəstək üçün onlar narkotik maddələrdən istifadə edirlər. Üstəlik onlar bunu qeyri-müsəlmanlara qarşı mübarizə taktikası hesab edirlər. Həmçinin talibləR belə hesab edirlər ki, terrorizm cihadın tərkib hissəsidir.

Biz elə qruplara qarşı mübarizə aparırıq ki, onlar insan hüquqları Bəyannaməsini tanımır, qadın haqlarını pozur və qadınlara hansısa hüquqların verilməsini özlərinə yaraşmayan bir iş hesab edirlər. Taliblər seçki keçirtmək istəmirlər, onlar xalq iradəsinin ifadəsinə inanmırlar. Onlar ölkənin dirçəldilməsi barədə düşünmürlər, əksinə, onu özləri üçün poliqona çevirmək istəyirlər. Qonşuların və bütün dünyanın simasında onlar düşmənlərini görürlər.

Eyni zamanda mən hər yerdə deyirdim ki, hakimiyyətdə olub-olmamağımıza baxmayaraq, biz insan hüquqları Bəyannaməsinə hörmətlə yanaşırıq. İnsan haqları baxımından qadınlar kişilərdən heç nə ilə fərqlənmir və biz onların hüquqlarını tanıyırıq, həm də ki, onlar cəmiyyətin yarısını təşkil edirlər.

Seçkilərə gəldikdə, mən qeyd etdim ki, bu problemi mən bu günün ən başlıca məsələlərindən biri hesab edirəm. Mənim fikrim belədir ki, seçki keçirilmədən və demokratiya bərqərar olmadan Əfqanıstanda vəziyyət normallaşmayacaq. Yalnız ümumxalq səsverməsi ilə seçilmiş rejim sülhü təmin eldə bilər.

Mən bəyan etdim ki, narkotiklərə və terrorizmə qarşı kəskin mənfi münasibət bəsləyirəm, belə ki, gələcək Əfqanıstan qonşu-

larla mehriban əlaqələrə malik olmaq istəyir. Buna görə də mən danışıq apardığım tərəfdaşlardan ölkəmizdə sülhün bərqərar olmasına yardım göstərmələrini xahiş etdim. Lakin bunun üçün müharibənin köklərini tapmaq lazımdır. Əfqanıstanda müharibənin əsas qızışdırıcısı Pakistan və onun ordusudur. Mən hər yerdə yorulmadan təkrar edirdim ki, yuxarıda qeyd olunan üç radikal qruplaşmanın arxasında Pakistan, onun ordusu və ISI dayanır. Pakistan hesab edir ki, Əfqanıstan onun strateji məqsədlərinə çatması önündə başlıca maneədir. Pakistanlılar hələ Ziyaül-Həqqin dövründə hazırlanmış strateji proqramı həyata keçirmək istəyirlər. Bu proqrama görə, Pakistan Əfqanıstanda oyuncaq rejim qurmalı, sonra isə Orta Asiyaya keçməlidir. Tam aydındır ki, öz məqsədlərinə nail olmaq üçün Pakistan məhz bu radikal qruplardan istifadə edir. Pakistanın bizim ölkəmizdə yandırdığı alov gec-tez Pakistanın özünü də bürüyəcək.

Görüşlərdə biz avropalıların diqqətini buna cəlb etmək istəyirdik ki, bu böhranlı dövrdə onlar Əfqanıstanda sülhün bərqərar olması naminə öz insani və mənəvi borclarını yerinə yetirsinlər. Mən dedim ki, əgər onlar Əfqanıstanda sülhün yaranmasını istəyirlərsə, üç məqama diqqət yetirməlidirlər:

1. Pakistana zəruri siyasi təzyiq göstərmək;
2. Əfqanıstanın özündə müqavimətin mövqelərini gücləndirmək;
3. Humanitar yardım məsələsində yalnız vədlərlə kifayətlənməyib operativ qərarlar qəbul etmək.

Nə Fransada, nə Avropa Parlamentində, nə də digər görüşlərdə bu təkliflər mənfi qarşılanmadı…

*11 aprel 2001-ci il*

## Əfqanıstanın keçmiş müdafiə naziri Şahnəvaz Tənəyin müsahibəsindən

*- Bir müddət əvvəl Rusiyada sovet qoşunlarının Əfqanıstana yeridilməsinin 25 illiyi qeyd olundu. Bu gün siz SSRİ-nin Əfqanıstandakı rolunu necə qiymətləndirirsiniz?*

- Sovet ordusu Əfqanıstana girəndən sonra ölkədə vəziyyət pisləşdi. Qoşunların yeridilməsi xaricdən maliyyələşən vətəndaş müharibəsinin başlanmasına təkan verdi. SSRİ-yə güclü beynəlxalq müqavimət yarandı və Moskva onunla bacarmadı. Eyni zamanda Əfqanıstanda SSRİ-yə kömək edən öz silahlı qüvvələrimizə inam azalmağa başladı. Orduda parçalanma başlandı və son nəticədə əfqan ordusu mövcudluğunu itirdi. Əfqanıstana girmək asan idi, lakin belə bir ölkəni nəzarətdə saxlamaq mürəkkəb məsələdir. SSRİ-də daha çox əfqan müharibəsinin ucbatından ciddi iqtisadi çətinliklər yarandı. Son nəticədə Əfqanıstana qoşun yeridilməsi SSRİ-nin dağılmasına gətirib çıxardı.

*- Siz Nəcibulla hökumətinin süqutunun başlanğıcı sayılan hərbi çevrilişin təşkilatçısı olmusunuz. Hakimiyyətə qarşı çıxmağınızın səbəbi nə idi?*

- Mən artıq dedim, Əfqanıstanda vəziyyət getdikcə pisləşirdi. Ordu dağılırdı. Əhalinin puştu əksəriyyətinin mənafeləri nəzərə alınmırdı. Nəcibulla bir çox zabitlərə qarşı repressiyalara başladı. Mən və mənim silahdaşlarım daha buna dözə bilmədik.

*- Məhəmməd Nəcibulla rejimi nə üçün süqut elədi?*

- Onu deyə bilərəm ki, əgər SSRİ əfqan ordusuna köməyi davam etdirib onun dağılmasının qarşısını alsaydı, mücahidlər Nəcibullanı devirib öz hökumətlərini qura bilməzdilər. Bundan əlavə, süqut ərəfəsində Nəcibin qruplaşması real gücünü itirmişdi, ölkədə ona etimad azalmışdı. Əfqanıstanda anarxiya baş alıb gedirdi. Mücahidlərin əhval-ruhiyyəsi isə güclənirdi, onların

ümidləri doğrulmağa başlayırdı. Son nəticədə Nəcib hər şeyi itirdi.

*- 1990-cı illərin ortalarında Əfqanıstanda tez-tez deyilirdi ki, siz Taliban hərəkatının atalarından birisiniz. Hətta deyirdilər ki, Molla Ömər adı altında siz gizlənirsiniz. Doğrudanmı Talibanı siz yaratmısınız?*

- Bu, yalandır. Mənim haqqımda, ümumiyyətlə, çox şayiələr gəzir. Məsələn, çox vaxt deyirlər ki, mənim mücahidlərin tanınmış lideri Gülbəddin Hikmətyarla əlaqəm olub və o, guya Nəcibullaya qarşı qiyamın təşkilində mənə kömək edib. Lakin mən Hikmətyarla ilk dəfə yalnız qiyamdan sonra bura, Pakistana gəldiyim zaman görüşmüşəm. Mən Əfqanıstanda olanda mücahidlərlə heç bir əlaqəm olmayıb. Eləcə də Taliban məsələsi. Onların meydana çıxmasında mənim rolum çox şişirdilir. Bu, mənim siyasi düşmənlərimin təbliğatıdır.

*- Nə üçün Taliban rejimi belə asanlıqla süqut etdi?*

- Bunun bir neçə səbəbi var. Əvvəla, taliblərin hava hücumlarını dəf etməyə imkan verən müasir silahları yox idi. Amerikalılar faktiki olaraq, quru qoşunları gəlməzdən qabaq hava zərbələri sayəsində onlara qalib gəldilər. İkincisi, taliblərə qarşı bütün dünya birləşmişdi. Digər tərəfdən, həmin ərəfədə onlar Əfqanıstanın özündə də dəstəklərini itirməyə başlamışdılar. Lakin əsas səbəb başqadır. Hətta taliblərin zenit silahları olsaydı və onlar daha artıq duruş gətirsəydilər belə, yenə də uduzacaqlar, çünki onların peşəkar ordusu yox idi. İndi taliblər partizan müharibəsinə başlayıblar, lakin hələlik onların fəaliyyəti çox da uğurlu deyil, üstəlik mücahidlərdən fərqli olaraq, onların geniş xarici dəstəyi yoxdur.

*- Əfqanıstanda Amerikanın əməliyyatı barədə nə düşünürsünüz? Bu əməliyyat uğurla başa çatacaqmı?*

- Qeyd edim ki, əgər 2001-ci ilin 11 sentyabrından sonra taliblər Vaşinqtonun tələbini yerinə yetirsəydilər, bəlkə də ABŞ hərbi

əməliyyata başlamazdı. Amerika Əfqanıstanda öz maraqlarını, Qərbin maraqlarını müdafiə edir. İstisna deyil ki, ABŞ regionda Rusiya və İranın təsirini azaltmağa nail olacaq. Lakin amerikalılar tam qələbəyə nail ola biləcəklərmi? Əgər Əfqanıstanda fəaliyyət göstərən beynəlxalq koalisiya əvvəlki kimi bütün dünyadan dəstək alacaqsa, onda hə, Amerika uğur qazana bilər. Lakin təkbaşına ABŞ Əfqanıstanda qalib gələ bilməz…

*10 fevral 2005-ci il*

# PERSONALİA

## Məhəmməd Davud xan

XX əsr Əfqanıstan tarixinin önəmli simalarından biri olan Məhəmməd Davud xan 1909-cu ildə aristokrat bir ailədə doğulmuşdu. Onun atası Məhəmməd Əziz xan Əfqanıstan hökmdarı Nadir şahın ögey qardaşı idi. Davud xan özü isə 1933-1979-cu illərdə ölkənin şahı olmuş Zahir şahın əmisi oğlu idi, həm də onun bacısı Zəminə Bəyimlə ailə qurmuşdu. Etnik baxımdan puştu olan Davud xan həm də puştu millətçisi kimi tanınmışdır.

İlk təhsilini Kabuldakı ingilisdilli «Həbibiyyə» liseyində almış, sonra Fransada hərbi məktəbdə oxumuş, geri döndükdən sonra isə Kabulda Hərbi Akademiyanı bitirmişdir. General rütbəsində bir sıra ordu birləşmələrinin komandanı olmuşdur. 1946-cı ildə baş nazir Şah Mahmudun kabinetində daxili işlər naziri olmuş, bir il sonra onunla fikir ayrılıqlarına görə Fransaya səfir göndərilmişdir. 1948-1951-ci illərdə ölkənin müdafiə naziri postunu tutmuşdur. 1953-cü ildə Zahir şah tərəfindən baş nazir təyin olunmuş və on il bu vəzifədə çalışmışdır. Onun «idarə olunan iqtisadiyyat» siyasəti ölkənin iqtisadi həyatında müsbət nəticələr vermiş, sənaye və kənd təsərrüfatında bir sıra iri layihələr həyata keçirilmişdir.

Hələ baş nazir olmamışdan öncə yaratdığı Puştu Milli Klubu onun millətçi düşüncələrinin güclənməsinə və nəticə etibarilə Puştunistan problemi üstündə qonşu Pakistanla münasibətlərin gərginləşməsinə yol açmışdır. ABŞ Pakistanı dəstəklədiyi üçün SSRİ ilə yaxınlaşmış, o cümlədən, iri hərbi müqavilələr imzalamışdır. Bütün bunlar Zahir şahın narazılığına və 1963-cü ilin martında onun istefaya göndərilməsinə səbəb olmuşdur.

1963-1973-cü illərdə dövlət vəzifəsi tutmamış, Zahir şahla əlaqələrini kəsmişdir. Eyni zamanda antimonarxist, sol-radikal qüvvələrlə, narazı gənc hərbçilərlə yaxınlaşmış, bir növ dünyəvi müxalif cərəyanların birləşdirici liderinə çevrilmişdir.

1973-cü ilin iyul ayında onun rəhbərliyi ilə hərbi çevriliş baş vermiş və həmin vaxt İtaliyada olan Zahir şah taxt-tacdan əl çəkmişdir. Ölkədə respublika elan olunmuş, Davud xan baş nazir postu ilə yanaşı, müdafiə və xarici işlər naziri vəzifələrini də tutmuşdur. Hakimiyyətdə sol qüvvələrin təmsilçilərinə bir çox postlar versə də, sonradan onları kənarlaşdırmış, eyni zamanda dini-siyasi müxalifətə qarşı repressiyalar həyata keçirməklə avtoritar idarəçiliyə meyllənmişdir.

1977-ci ildə ölkədə yeni Konstitusiya qəbul olunmuş, prezident postu təsis edilmiş və ölkədə təkpartiyalı sistem qurulmuşdur. Prezident vəzifəsini tutan Davud xanın yaratdığı Milli İnqilab Partiyası hakim partiyaya çevrilmişdir.

Davud xanın avtoritar idarəçiliyi ölkədə etiraz çıxışları və sui-qəsd planlarına səbəb olmuş, eyni zamanda xarici siyasətdə SSRİ-dən uzaqlaşaraq Qərbə, Səudiyyə Ərəbistanı, İran, Misir kimi dövlətlərə meyllənmə baş vermişdir. Son nəticədə bu, SSRİ-nin dəstəklədiyi Əfqanıstan Xalq Demokratik Partiyasının rəhbərliyi ilə 1978-ci ilin aprel hərbi çevrilişinə gətirib çıxarmışdır. Çevriliş zamanı təslim olmaqdan imtina edən Davud xan prezident sarayında qətlə yetirilmişdir. Onunla bərabər 17 nəfər ailə üzvü, o cümlədən qardaşı Məhəmməd Nəim öldürülmüş və onlar gizli şəkildə Kabul ətrafında kütləvi qəbiristanlıqda basdırılmışlar.

2008-ci ildə xüsusi hökumət komissiyası Davud xanın və yaxınlarının qalıqlarını aşkar etmiş və Kabul yaxınlığındakı bir yüksəklikdə xüsusi mərasimlə torpağa tapşırmışdır. 2016-cı ilin fevralında Əfqanıstan prezidenti dövlət vəsaiti hesabına Davud xanın məzarı üstündə məqbərə ucaldılması barədə sərəncam vermişdir.

## Nur Məhəmməd Tərəki

1917-ci il iyulun 14-də Qəzni vilayətində maldar ailəsində anadan olmuş, ilk təhsilini orada almışdır. Milliyyətcə puştu idi.

Yeniyetmə yaşlarında iş axtarmaq üçün Qəndəhara getmiş və orada iri ticarət şirkətində çalışmağa başlamışdır. Az sonra şirkətin Hindistandakı nümayəndəliyinə göndərilmiş və Bombeydə işləməklə bərabər, ingilis orta məktəbini bitirmişdir. Bəzi mənbələrdə onun Kabul universitetini bitirdiyi göstərilsə də, Təraki ali təhsil almamışdır.

1937-ci ildə Əfqanıstana qayıtmış, bir müddət Kabulda iqtisadiyyat və mətbuat nazirliklərində işləmiş, daha sonra iki il ərzində Bədəxşan vilayətində dövlət idarəsində çalışmışdır.

1940-cı illərdə jurnalist və yazıçı kimi geniş fəaliyyət göstərmiş, publisistik məqalələr, hekayə və povestlər yazmışdır. 1947-ci ildə «Viş zəlmiyan» («Oyanmış gənclik») ictimai-ədəbi hərəkatına qoşulmuş, kəskin ictimai məzmunlu yazılarla çıxış etmişdir. 1952-ci ildə «Baxtər» dövlət informasiya agentliyində direktor müavini olmuş, az sonra Əfqanıstanın ABŞ-dakı səfirliyinə mətbuat attaşesi kimi təyinat almışdır. Lakin Amerika mətbuatında dərc olunmuş tənqidi məqaləsinə görə səfirlikdəki işindən geri çağırılmışdır. Bəzi məlumatlara görə, həmin dövrdə Təraki ABŞ-da siyasi sığınacaq almaq istəsə də, buna nail ola bilməmişdir.

ABŞ-dan Pakistana, oradan da Əfqanıstana qayıdan Təraki bundan sonra dövlət işində çalışa bilməmişdir. O, 1955-1962-ci illərdə ABŞ-ın Kabuldakı səfirliyində və ABŞ-ın inkişaf etməkdə olan ölkələrə yardım təşkilatının nümayəndəliyində tərcüməçi kimi fəaliyyət göstərmiş, eyni zamanda özünün «Nur» tərcümə mərkəzini yaratmışdır. Bu dövrdə bir çox kitabları dəri dilinə tərcümə və çap etməklə yanaşı, intensiv ədəbi-publisistik yaradıcılıqla məşğul olmuşdur. Ölkədə yoxsulların ağır həyatını öz əsərlərində realistcəsinə əks etdirdiyinə görə ona «Əfqanıstanın Maksim Qorkisi» deyirdilər. Həmin dövrdən etibarən Təraki özünü marksist kimi göstərməyə başlayır.

1965-ci ilin yanvarında Tərakinin evində qeyri-leqal şəraitdə Əfqanıstan Xalq Demokratik Partiyasının (ƏXDP) I (təsis)

qurultayı keçirilir və o, partiyanın baş katibi seçilir. Həmin ilin sentyabrında o, ölkədə keçirilən parlament seçkilərində iştirak edir, lakin uğur qazana bilmir. Az sonra o, SSRİ Yazıçılar İttifaqının dəvəti ilə Moskvaya gəlir və Sov.İKP MK-nın rəhbər şəxsləri ilə görüşür. 1967-ci ildə ƏXDP iki fraksiyaya parçalanır və Tərəki «Xəlq» fraksiyasına rəhbərlik etməyə başlayır. 1977-ci ildə iki fraksiyanın birlik konfransında yenidən ƏXDP-nin baş katibi seçilmiş və ömrünün sonuna qədər bu postu tutmuşdur. 1978-ci ilin aprel çevrilişindən sonra dövlət və hökumətin başçısı olmuş, bir müddət sonra hökumətə rəhbərliyi H.Əminə həvalə etmişdir. 1979-cu ilin sentyabrında Əmin tərəfindən hakimiyyətdən kənarlaşdırılmış və az sonra qətlə yetirilmişdir.

Nur Bibi adlı xanımla ailə qursa da, Tərəkinin övladı olmamışdır. Onun təşkilatçılıq və natiqlik qabiliyyətinin zəif olduğu bildirilir. Şöhrətpərəst olmaqla yanaşı, yumşaq xarakterli və tez təsirə düşən bir insan olmuşdur. Onun Əfqanıstanda yaşayan şiələrə və pakistanlılara təhqiramiz münasibəti barədə məlumatlar vardır.

## Həfizulla Əmin

ƏXDP və ƏDR-in ən müəmmalı və qaranlıq lideri olmuş Həfizulla Əmin 1929-cu ildə Kabul yaxınlığındakı Pəğman qəzasında doğulmuş, atasını erkən itirmiş, böyük qardaşının himayəsində böyümüşdür. Milliyyətcə puştu idi. Kabulda pedaqoji məktəbi, sonra isə Kabul universitetini fizika-riyaziyyat ixtisası üzrə bitirmiş, əvvəlcə oxuduğu pedaqoji məktəbin direktor müavini, sonra isə nüfuzlu «İbn Sina» orta məktəbinin direktoru olmuşdur. Həmin dövrdə ictimai işlərdə xüsusi fəallıq göstərməmiş, elə o vaxtlardan puştu millətçisi kimi tanınmışdır.

1957-ci ildə ABŞ-ın Kolumbiya Universitetində magistr təhsili almış, qayıtdıqdan sonra Kabul universitetində dərs demiş, sonra yenidən «İbn Sina» məktəbinin direktoru olmuşdur. Elə

bu dövrdə Nur Məhəmməd Tərəki ilə tanış olmuşdur. Lakin bəzi məlumatlara görə bu tanışlığın kökü 1950-ci ilin əvvəllərinə – Davud xanın yaratdığı Puştu Milli Klubuna gedib çıxır.

Bir müddət Maarif Nazirliyində işlədikdən sonra Əmin 1962-ci ildə yenidən ABŞ-a – Kolumbiya universitetinin doktoranturasında oxumağa gedir. Həmin vaxt o, ictimai fəallığı ilə seçilir, əfqan tələbələri birliyinin rəhbəri olur. O, Puştunistan məsələsi ilə bağlı Davud xanın siyasətini dəstəkləyən aksiyalar təşkil edir. 1965-ci ildə doktorluq dissertasiyasını müdafiə etmədən Kabula qayıdır və yenicə yaranmış ƏXDP-yə qoşulur («Xəlq» fraksiyasına). Elə həmin il Əfqanıstanda keçirilən parlament seçkilərində iştirak edir, lakin uğur qazanmır. 1969-cu il seçkilərində isə parlamentin deputatı seçilir.

Davud xanın hakimiyyətə gəlişindən sonra «Pərçəm»dən fərqli olaraq, «Xəlq» fraksiyasının orduda kifayət qədər dayaqlarının olmadığı üzə çıxır və Tərəki bu işlə məşğul olmağı Əminə tapşırır. Son dərəcə güclü təşkilatçı və məqsədyönlü siyasətçi kimi Əmin bu işin öhdəsindən bacarıqla gəlir; belə ki, bir neçə il sonra 1978-ci ilin aprel çevrilişində həlledici rolu məhz «Xəlq»-çi zabitlər oynayır.

ƏXDP hakimiyyətə gəldikdən sonra Əmin baş nazirin müavini və xarici işlər naziri olur. Az sonra ƏXDP Siyasi Bürosunun üzvü və MK-nın katibi seçilir. Tərəkinin ona həddsiz etimadından istifadə edərək, əvvəlcə rəqib fraksiyanın üzvlərini, sonra isə onun özünü hakimiyyətdən kənarlaşdırır. 1979-cu ilin martında o Baş nazir, iyul ayından etibarən müdafiə naziri olur. Həmin ilin sentyabrında Nur Məhəmməd Tərəkini öldürtdürərək, ƏXDP MK-nın baş katibi və İnqilab Şurasının sədri olmuşdur.

Əmin sovet qoşunlarının Əfqanıstana gəlməsinin əsas təşəbbüsçüsü kimi çıxış etmişdir. Lakin elə sovet qoşunlarının gəlişi ilə də qətlə yetirilmişdir.

Əminin ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin casusu olması

barədə geniş söz-söhbət olsa da, bununla bağlı dəqiq faktlar əldə yoxdur. Sovet DTK-sının bir çox zabitləri də onun MKİ agenti olması barədə danışmış və yazmışlar. Onun şəxsiyyət və fəaliyyəti ilə bağlı bir çox müəmmalar hələ də açılmamış qalır.

Əmini yaxından tanıyanlar onu son dərəcə işgüzar, çevik, cəsarətli, qürurlu, özünə güvənən, eyni zamanda məkrli, intriqa ustası, heç kəsə etibar etməyən birisi kimi xarakterizə etmişlər. Onun yüksək təşkilatçılıq istedadı hətta rəqibləri tərəfindən də etiraf olunmuş, qatı puştu millətçisi olduğu əksəriyyət tərəfindən vurğulanmışdır.

## Bəbrək Karməl

1929-cu il yanvarın 6-da Kabul yaxınlığında general Məhəmməd Hüseyn xanın ailəsində dünyaya gəlmişdi. Onun atası orduda yüksək vəzifələr tutmaqla yanaşı, bir müddət Paktiya vilayətinin qubernatoru olmuşdur. Atasını kiçik yaşlarında itirmişdir. Atası puştu, anası tacik olmuşdur.

Orta təhsilini Kabulda, almandilli «Nicat» liseyində almışdır. Gənc yaşlarından tələbə demokratik hərəkatına qoşulmuşdur. Bu üzdən universitetə qəbul olunması bir il gecikmişdir. 1951-ci ildə Kabul Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. 1952-ci ildə siyasi fəaliyyətinə görə həbs edilmişdir. Həbsxanada tanınmış dissident Mir Əkbər Xəybərlə tanış olmuş və onun təsiri ilə marksizmə yönəlmişdir. 1956-cı ildə həbsxanadan çıxdıqdan sonra alman və ingilis dili tərcüməçisi kimi fəaliyyət göstərmişdir. Hərbi xidmətdən sonra yarımçıq qalmış təhsilini başa vurmuş və 1960-cı ildə hüquqşünas diplomu almışdır. Həmin dövrdə Xəybərlə birgə Əfqanıstanda ilk gizli marksist dərnəyin əsasını qoymuşdur.

1965-ci ildə Əfqanıstan Xalq Demokratik Partiyası yarananda Karməl  Tərəkidən sonra partiyada ikinci postu tutmuş, ƏXDP

parçalandıqdan sonra isə «Pərçəm» fraksiyasının lideri kimi fəaliyyət göstərmişdir.

1965 və 1969-cu illərdə Karməl Əfqanıstan parlamentinin aşağı palatasının deputatı seçilmiş və alovlu çıxışları ilə geniş populyarlıq qazanmışdır.

Əfqanıstanda 1973-cü ildə monarxiyanın devrilməsindən və respublika elan olunduqdan sonra Karməl ölkə prezidenti Məhəmməd Davud xanla yaxından əməkdaşlıq etmişdir. Özü rəsmi vəzifə tutmasa da, onun «Pərçəm»dəki bir neçə silahdaşı nazir postuna və digər yüksək dövlət vəzifələrinə təyin olunmuşdur. Lakin 1975-ci ildən etibarən Davud xan bir növ öz yerini möhkəmlətdikdən sonra siyasi partiyalara qarşı repressiyalara start vermişdir. Karməlin üzərinə nəzarət qoyulmuş, onun silahdaşları vəzifələrdən uzaqlaşdırılmışdır.

Belə bir şəraitdə, 1977-ci ilin yayında Karməlin rəhbərlik etdiyi «Pərçəm» Tərəkinin «Xəlq» fraksiyası ilə birləşdi. Partiyaya qarşı repressiyalar güclənməklə yanaşı, Mir Əkbər Xəybər qətlə yetirildi. Karməl onun məzarı üstündə qəzəbli çıxışından bir neçə saat sonra ƏXDP-nin digər liderləri ilə birlikdə həbs olundu. Lakin ertəsi gün 1978-ci il aprelin 27-də ordunun qiyamı nəticəsində Davud xan devrildi və Karməl həbsxanadan çıxdı.

Əfqanıstan Demokratik Respublikası yarandıqdan sonra Karməl İnqilab Şurası sədrinin və baş nazirin müavini oldu. Lakin partiyadaxili münaqişənin kəskinləşməsi nəticəsində bu postlardan azad edilib Çexoslovakiyaya səfir göndərildi. Az sonra bu vəzifəsindən də azad edilib həmin ölkədə siyasi mühacir həyatı yaşayan Karməl 1979-cu ilin dekabrında sovet ordusu Əfqanıstana girərkən Kabula gəldi və dövlət başçısı, eləcə də ƏXDP-nin baş katibi seçildi. 1986-cı ilin may ayına qədər bu vəzifələri tutan Karməl SSRİ rəhbərliyinin təkidi ilə öz postlarını Məhəmməd Nəcibullaya təhvil verdi və az sonra ailəsi ilə birlikdə Moskvaya getdi.

1991-ci ilin iyun ayında Karməl yenidən Kabula qayıtmış, 1992-ci ilin aprelində mücahidlər şəhəri tutduqda isə şimala – general Dustumun nəzarətində olan Məzari-Şərif şəhərinə yollanmışdır. Ömrünün son illərini Özbəkistanla sərhəddə yerləşən ucqar Həyrətan qəsəbəsində yaşayan Karməl qaraciyər xərçəngindən əziyyət çəkmiş və 1996-cı il dekabrın 3-də müalicə olunduğu Moskvada vəfat etmişdir. Onun nəşi Həyratana aparılaraq, torpağa tapşırılmışdır.

Məhbubə adlı qadınla evli olan Karməlin iki oğlu, iki qızı vardı. Xaraktercə mülayim insan kimi tanınan Karməl spirtli içkilərə meyli ilə məşhurlaşmışdı, hərçənd bəziləri bunu əleyhdarlarının təbliğatı kimi qiymətləndirirlər. Şahidlərin dediyinə görə, Həyrətanda yaşadığı dövrdə çox az adamla ünsiyyət saxlayır və güclü depressiya keçirirmiş.

## Məhəmməd Nəcibulla

ƏDR-in son rəhbəri olmuş Məhəmməd Nəcibulla (ölkəsində daha çox «doktor Nəcib» adı ilə tanınırdı) 1947-ci ilin avqust ayında Kabulda imkanlı və nüfuzlu dövlət qulluqçusunun ailəsində doğulmuşdur. Etnik baxımdan puştu idi. Atası bir müddət Pakistanın Pişavər şəhərindəki Əfqanıstan konsulluğunda ticarət attaşesi olmuşdur.

1964-cü ildə Kabuldakı «Həbibiyyə» liseyini bitirən Nəcibulla Kabul Universitetinin tibb fakültəsinə qəbul olmuşdur. Əfqanıstan Xalq Demokratik Partiyası (ƏXDP) yaranandan onun sıralarına qoşulmuşdur. Siyasi fəaliyyətinə, mitinq və nümayişlərdə iştirakına görə 1969 və 1970-ci illərdə iki dəfə həbs olunmuşdur. 1977-ci ildə ƏXDP-nin birlik qurultayında partiyanın Mərkəzi Komitəsinə üzv seçilmişdir (əvvəllər «Pərçəm» fraksiyasının üzvü, Bəbrək Karmələ yaxın şəxslərdən biri idi).

Aprel çevrilişindən sonra iki ay ərzində ƏXDP Kabul şəhər partiya Komitəsinin katibi olmuş, sonra İrana səfir göndərilmişdir. «Pərçəm»çilərə qarşı repressiyalar başlayanda o da vəzifəsindən azad olunmuş, siyasi mühacir kimi Yuqoslaviyada yaşamışdır.

1979-cu ilin dekabrında sovet qoşunlarının Əfqanıstana girməsi və Karməlin hakimiyyətə gəlməsi ilə vətəninə qayıtmış və Dövlət Təhlükəsizlik Xidmətinin (XAD) sədri təyin olunmuşdur. Bu vəzifədə özünü bacarıqlı təşkilatçı və qətiyyətli rəhbər kimi göstərmiş, general-leytenant rütbəsi almışdır. Bununla belə XAD-ın cəza tədbirləri onun ictimaiyyət arasında nüfuzuna zərbə vurmuşdur. Bu mənfi imic onun ölkə rəhbəri olduğu illərdə fəaliyyətinə təsirsiz ötüşməmişdir.

Karməl vəzifəsindən azad edildikdən sonra Nəcibulla 1986-cı ildən ƏXDP MK-nın baş katibi, 1987-ci ildən isə həm də İnqilab Şurasının sədri olmuşdur. Ölkə Konstitusiyası dəyişdikdən sonra prezident postunu tutmuşdur. Hakimiyyətə gəldiyi ilk dövrdən ölkədəki vətəndaş müharibəsinə son qoymaq məqsədilə milli barışıq siyasəti elan etmiş, lakin bu istiqamətdə apardığı danışıqlar və atdığı addımlar ciddi uğur qazanmamışdır.

1987-ci ilin may ayından başlayaraq, sovet qoşunlarının Əfqanıstandan tədricən çıxarılması prosesi Nəcibullanın hakimiyyətini daha da zəiflətmişdir. Bir yandan mücahidlərin daha da fəallaşması, bir yandan da hakimiyyətdaxili ziddiyyətlər onun hökumətinin süqutunu sürətləndirmişdir. 1992-ci ilin əvvəlindən şimaldan edilən yardımların tam kəsilməsi ilə Nəcibullanın sonu yaxınlaşmış və həmin ilin aprelində mücahidlərin Kabula daxil olması ilə proses başa çatmışdır. Hakimiyyətdən məhrum olan Nəcibulla təyyarə ilə ölkəni tərk etməyə çalışsa da, buna imkan verilməmiş, o, ailəsi və qardaşı ilə BMT-nin Kabuldakı nümayəndəliyində gizlənmişdir. Bir müddət sonra ailəsini Hindistana göndərməyə müvəffəq olmuş, özü və qardaşı isə dörd ildən artıq BMT-nin nümayəndəliyində yaşamışdır.

1996-cı ilin sentyabrında Taliban ölkə paytaxtını tutduqdan sonra BMT-nin nümayəndəliyində Nəcibullanı və qardaşı Əhmədzəyi ələ keçirmiş, işgəncə və təhqirlərdən sonra qətlə yetirmiş, daha sonra onların meyitlərini prezident iqamətgahı yaxınlığında yolayrıcında elektrik dirəyindən asmışdır. Sonradan onun və qardaşının cəsədləri ata-baba yurdu sayılan Paktiya vilayətinə aparılaraq dəfn olunmuşdur.

## Bürhanəddin Rəbbani

Əfqanıstanda siyasi islamın ən önəmli təmsilçilərindən biri olmuş Bürhanəddin Rəbbani 1940-cı ilin sentyabr ayında Bədəxşan vilayətində anadan olmuşdur. Milliyyətcə tacik idi. Bədəxşanın mərkəzi Fəyzabadda və Kabuldakı teoloji liseydə orta təhsil alan Rəbbani Kabul Universitetinin ilahiyyat fakültəsinə daxil olmuş, oranı bitirdikdən sonra Misirdəki məşhur "əl-Əzhər" universitetində təhsilini davam etdirmişdir. Orada oxuduğu müddətdə «Müsəlman qardaşları»nın təsiri altına düşmüşdür.

1968-ci ildə Əfqanıstana qayıtdıqdan sonra Kabul Universitetində dərs demiş, eyni zamanda «Müsəlman qardaşları»nın ideologiyasını təbliğ etmişdir. Digər islamçılardan fərqli olaraq, o, mötədil xətt tərəfdarı olmuş, Davud xan rejiminə qarşı silahlı mübarizəni dəstəkləməmişdir. Lakin ölkədə islamçılara qarşı repressiyaların gücləndiyi bir şəraitdə 1974-cü ildə Pakistana qaçmağa məcbur olmuşdur. Burada radikal islamçıların təzyiqlərinə dözməyərək, bir müddət Səudiyyə Ərəbistanında mühacir həyatı yaşamışdır. 1976-cı ildə sonralar ölkənin siyasi-hərbi həyatında mühüm rol oynamış «Əfqanıstan İslam Cəmiyyəti»ni yaratmışdır.

Sovet qoşunları Əfqanıstana girərkən artıq Pakistanda olan Rəbbani öz tərəfdarlarını işğalçılara qarşı cihada çağırmışdır.

Onun partiyasına aid silahlı dəstələr əsasən ölkənin şimalı və şimal-şərqində mübarizə aparmışlar. Əhməd şah Məsudla müttəfiqliyi onun nüfuz və təsirini daha da artırmışdır. Hələ o dövrdə Rəbbani ölkədə vəziyyətin normallaşması üçün müzakirə və təmaslara açıq şəxs kimi tanınmışdır.

Nəcibulla hökumətinin süqutundan sonra mücahid qruplaşmaları arasında Pakistanda əldə olunmuş razılaşmaya əsasən, Sibğətulla Mücəddididən sonra Əfqanıstan İslam Dövlətinin müvəqqəti prezidenti olmuşdur (1992-ci ilin iyun ayından). Lakin ölkədəki vəziyyət və razılaşmanın pozulması onun prezidentliyinin 1996-cı ilə qədər davam etməsinə səbəb olmuşdur. Taliban hakimiyyəti illərində o, şimalda məskən salmış və Əfqanıstanın rəsmi prezidenti olaraq tanınmışdır. 2001-ci ildə Talibanın məğlubiyyətindən sonra Kabula gəlmiş və rəsmi mərasimdə hökuməti Hamid Kərzəyə təhvil vermişdir. 2004-cü ilin prezident seçkilərində o, Kərzəyin namizədliyini müdafiə etmişdir. Sonrakı parlament seçkilərində Bədəxşandan deputat seçilmişdir. 2007-ci ildə ölkədə ən iri siyasi birlik – Əfqanıstan Milli Cəbhəsini yaratmışdır. 2010-cu ildə prezident Kərzəy onu Əfqanıstan Ali Sülh Şurasının sədri təyin etmişdir. Həmin Şura Talibanla sülhə və silahlı toqquşmaları dayandırmağa dair danışıqlar aparırdı. 2011-ci il sentyabrın 20-də, doğum günündə, o, Taliban nümayəndələri ilə öz evində növbəti görüş zamanı intihar həmləsinə məruz qalıb həlak olmuşdur: görüşə gələn taliblərdən biri partlayıcı maddəni əmmaməsinin arasında gizlətmişdi!

İlahiyyat üzrə professor olan Rəbbani bir çox kitabların müəllifi olmuş, eyni zamanda «Müsəlman qardaşları»nın ideoloqları Həsən əl-Bənnanın, Seyid Qütbün əsərlərini dəri dilinə tərcümə etmişdir.

## Gülbəddin Hikmətyar

Əfqanıstanda dini-siyasi hərəkatın ən önəmli liderlərindən biri olan Gülbəddin Hikmətyar 1947-ci ildə Kunduz vilayətində mülkədar ailəsində anadan olmuşdur. Milliyyətcə puştudur. İlk təhsilini öz kəndində aldıqdan sonra Kabuldakı hərbi liseydə oxumuş, lakin oradan qovulmuşdur. Kunduzdakı «Şirxan» liseyində orta təhsil alıb, Kabul Universitetinin mühəndislik fakültəsinə daxil olmuşdur. Tələbə ikən radikal islamçı baxışları ilə tanınmış, Əhməd şah Məsudun da üzvü olduğu «Müsəlman Gənclər Təşkilatı»nın hərbi qanadına rəhbərlik etmişdir. 1972-ci ildə «Şöleyi-cavid» adlı maoçu təşkilat üzvünün öldürülməsində iştirakına görə həbs edilmişdir. Davud xanın hakimiyyətə gəlişi ilə ona qarşı silahlı mübarizə çağırışları isə əlaqədar təqib olunmuş, uğursuz qiyam cəhdlərindən sonra Pakistana getmişdir. Burada o, bir müddət üzvü olduğu Rəbbaninin partiyasından ayrılmış və 1976-cı ildə müasir Əfqanıstan tarixində böyük yer almış Əfqanıstan İslam Partiyasını yaratmışdır. Həmin vaxtdan etibarən Hikmətyar hədsiz iddialı və barışmaz xarakteri ucbatından, demək olar, Əfqanıstandakı bütün hökumətlərlə münaqişədə olmuş, onlara qarşı silahlı mübarizə aparmışdır.

Əlbəttə, onun siyasi-hərbi karyerasının ən parlaq dövrü sovet işğalı dönəminə təsadüf edir. Pakistan xüsusi xidmətləri tərəfindən ciddi şəkildə dəstəklənən Hikmətyarın silahlı dəstələri bütün ölkə ərazisində fəaliyyət göstərirdi və müxtəlif etnik qrupları əhatə edirdi. Həmin dövrdə mücahidlərə edilən beynəlxalq yardımın əhəmiyyətli hissəsi onun partiyasına çatırdı. Paralel olaraq, o, digər mücahidlərlə də silahlı mübarizə aparmışdır. Hikmətyar mücahidlər arasında birliyin yaranmamasının əsas günahkarı kimi tanınır. Öz ixtiyarında olan çoxminlik yaxşı silahlanmış qüvvə ilə o, xüsusən «əbədi rəqibi» Rəbbaniyə, onun tərəfdarı Məsuda qarşı güzəştsiz mübarizə aparmışdır. Mücahidlərin ha-

kimiyyəti dövründə Kabulu raket və artilleriya atəşinə tutmaqla, minlərlə adamın ölümünə səbəb olmuşdur. Bu üzdən camaat arasında «Kabul qəssabı» adlandırılmışdır.

Taliban hakimiyyəti illərində İrana gedən Hikmətyar ABŞ-ın ölkəyə hərbi müdaxiləsindən sonra istəklərinə çatmadığını görüb yeni hökumətin əleyhinə çıxışlar etmişdir. 2003-cü ildə ABŞ-da terrorçu elan olunmuşdur. 2016-cı ilin sentyabrında Əfqanıstan hökuməti Hikmətyarla sülh sazişi imzalamış, bu da paytaxt əhalisinin etirazı ilə qarşılanmışdır. Bu saziş hazırda Pakistanda olan Hikmətyara ölkəyə qayıtmaq imkanı verir.

Güclü təşkilatçılıq və natiqlik qabiliyyətinə, möhkəm iradəyə malik Hikmətyar eyni zamanda güzəştsiz və hiyləgər bir şəxs kimi səciyyələndirilir.

## Əhməd şah Məsud

«Şiri-Pənçşir» («Pənçşir şiri») ləqəbi ilə məşhur olan Əhməd şah Məsud 1953-cü il sentyabrın 2-də Əfqanıstanın şimal-şərqində yerləşən Pənçşir vilayətində anadan olmuşdur. Atası əfqan ordusunun polkovniki idi. Milliyyətcə tacik olmuşdur.

Orta təhsilini Kabuldakı fransızdilli «İstiqlal» liseyində almış, 1972-ci ildə Kabul Politexnik İnstitutuna daxil olmuşdur. Elə orada «Müsəlman Gənclər Təşkilatı»na qoşulmuşdur. 1973-cü ildə Davudun hakimiyyətə gəlməsi ilə ona qarşı hərəkatın üzvünə çevrilmiş və bu üzdən təhsilini yarımçıq qoyaraq əməli fəaliyyətə keçmişdir. Təqiblərdən sonra ölkəni tərk etmiş və Pakistana yollanmışdır. Elə o vaxtdan Hikmətyarla aralarında münaqişə yaranmışdır.

Az sonra Əhməd şah Fələstin döyüşçülərinin Liviya və İraqda olan təlim mərkəzlərində olub döyüş hazırlığı keçmişdir. Daha sonra hərbi hazırlığını Pakistanda davam etdirmiş, Mao Tsze Du-

nun, Çe Gevaranın əsərlərini, eləcə də II Dünya müharibəsi illərində sovet partizan hərəkatının təcrübəsini öyrənmişdir.

1975-ci ilin yayında doğma Pənçşirə gələrək kiçik bir qüvvə ilə (30 nəfərlik dəstə ilə) Davud hökumətinə qarşı silahlı qiyam qaldırmış, iki yaşayış məntəqəsini ələ keçirmişdir. Lakin hökumət qüvvələri ilə qeyri-bərabər döyüşdə məğlub olmuş və yaralanmışdır. Yenidən Pakistana qaçan Məsud Rəbbaninin «İslam cəmiyyəti»nə qoşulmuş, sonralar bir növ bu təşkilatın ölkədəki qüvvələrinin komandanı kimi tanınmışdır.

ƏXDP hakimiyyətə gəldikdən bir neçə ay sonra Məsud yenidən 30 nəfərlik dəstə ilə Pənçşir vadisində qiyam qaldırmış, Rəbbaninin maliyyə dəstəyi sayəsində yeni qüvvələr və silahlar əldə edərək, hökumətə qarşı silahlı mübarizəyə başlamışdır. Sovet qoşunları Əfqanıstana girdikdən sonra Məsud onların qarşısına ən təhlükəli qüvvə kimi çıxmışdır. Məsələ burasındadır ki, Məsudun nəzarət etdiyi Pənçşir vilayəti yüksək dağlıq ərazi idi və SSRİ sərhədindən Kabula gedən yeganə avtomobil magistralı məhz buradakı Saləng aşırımından (tuneldən) keçirdi. Odur ki, Məsudun qüvvələri quru ilə hərəkət edən hərbi texnika və yüklər üçün vahiməli qüvvəyə çevrilmişdi.

Məlumatlara görə, Məsudun dəstələrində 1980-ci ildə 1000 nəfər, 1981-ci ildə 2200 nəfər, 1984-cü ildə 5000 nəfər, sovet qoşunlarının ölkədən tam çıxdığı 1989-cu ildə isə 13000 nəfər silahlı var idi. Sovet qoşunları Əfqanıstana daşınan canlı qüvvə və yüklərin təhlükəsiz hərəkətini təmin etmək üçün Məsudun qüvvələrinə qarşı 12 hərbi əməliyyat keçirmiş, lakin uğur qazana bilməmişdi. 1982-ci ilin sonunda sovet komandanlığı Məsudla danışıqlara gedərək, atəşkəs razılığı əldə etmişdi, lakin 1984-cü ilin martında Məsud bu razılığın müddətini uzatmaqdan imtina etmişdi. Paralel olaraq o, nəzarətində olan bölgədə Hikmətyarın dəstələri ilə də vuruşurdu.

Sovet qoşunları Əfqanıstandan çıxdıqdan sonra Məsud ölkə-

nin şimal-şərqindəki 4 vilayəti əhatə edən müstəqil bölgə qurmuşdu. Əsasən taciklərdən ibarət 2,5 milyon əhalinin yaşadığı bu regionun öz hakimiyyət orqanları, pulu və 60 minlik ordusu var idi.

1992-ci ilin aprelində Məsud onun tərəfinə keçmiş hökumət qoşunları, o cümlədən, general Dustumun 53-cü diviziyası ilə Kabula yaxınlaşaraq, Nəcibulla rejiminin süqutunda həlledici rol oynadı. Mücahidlərin hökumətində o, müdafiə naziri olmuş, Hikmətyar və Taliban qüvvələri ilə uzun-uzadı döyüşlər aparmışdır.

1996-cı ilin sentyabrında Taliblər Kabulu ələ keçirdikdən sonra yenidən əvvəlki ərazilərinə çəkilmiş və onlara qarşı Şimal alyansının baş komandanı kimi mübarizəsini davam etdirmişdir.

2001-ci ilin martında Əfqanıstan nümayəndə heyətinin rəhbəri kimi Avropaya ilk və son səfərini etmişdir. Həmin il sentyabrın 9-da jurnalist qiyafəsində ondan müsahibə almaq üçün gələn terrorçu-kamikadzelər tərəfindən qətlə yetirilmiş, Pəncşirdə, doğma Bazarək kəndində dəfn olunmuşdur.

1988-ci ildə öz silahdaşlarından birinin qızı ilə evlənmiş Məsudun 6 uşağı olmuşdur. Son dərəcə sadə, diqqətcil, öyrənməyi xoşlayan bir adam kimi səciyyələndirilən Məsud daim oxuyan, yanında kitab gəzdirən birisi kimi tanınmışdır. Kiçik qardaşı Ziya Məsud 2004-2009-cu illərdə Əfqanıstanın vitse-prezidenti olmuşdur.

## Sibğətulla Mücəddidi

Təkcə Əfqanıstanda deyil, bütün müsəlman aləmində məşhur olan ruhani nəslinin nümayəndəsidir. Onun şəcərəsi nəqşbəndiyyə təriqətinin önəmli şeyxi Mücəddid Əhməd Sirhindiyə (XVI--XVII əsrlər) bağlanır. 1925-ci ildə Heratda anadan olmuşdur. Milliyyətcə puştudur. Mənsub olduğu nəslin digər nümayəndələ-

ri də Əfqanıstanın ictimai-siyasi və dini həyatında rol oynamışdır.

Mücəddidi Kabuldakı "Həbibiyyə" liseyini bitirdikdən sonra 1948-ci ildə Misirə gedib məşhur "əl-Əzhər" universitetinə daxil olmuşdur. Həmin dövrdə "Müsəlman qardaşları" təşkilatı ilə yaxınlaşmışdır. 1954-cü ildə həmin təşkilatın Misirin baş naziri (sonralar prezidenti) Camal Əbdülnasirə qarşı uğursuz sui-qəsd cəhdində iştirakına görə Əfqanıstanın Misirdəki səfiri olan əmisi ilə birlikdə ölkədən xaric edilmişdir. Kabula qayıdaraq, müxtəlif universitet və liseylərdə dərs demişdir. 1960-cı ildə Kabula gələn sovet nümayəndə heyətinə qarşı sui-qəsdin təşkilində ittiham olunaraq həbs edilmiş və dörd il yarım zindanda saxlanmış, iki il sürgündə yaşamışdır.

1971-ci ildə Səudiyyə Ərəbistanı kralının təklifi ilə Kopenhagendəki məscidin imamı, eyni zamanda Liviyanın maliyyələşdirdiyi "Skandinaviya ölkələri islam mərkəzi"nin rəhbəri təyin olunmuşdur. 1977-ci ildə Səudiyyə Ərəbistanı vətəndaşlığını qəbul etmişdir.

Əfqanıstanda "Aprel inqilabı"ndan sonra Pakistana getmiş və orada ƏXDP rejiminə qarşı mübarizə üçün Əfqanıstan Milli Qurtuluş Cəbhəsi ("Cebheye-melliye-necate-Əfğanestan") adlı partiya yaratmışdır. Əfqanıstandakı sovet qoşunlarına qarşı cihad fətvası verən ilk şəxs olmuşdur. 1979-cu ilin yanvarında onun nəslinin Kabulda olan 79 üzvü Həfizulla Əminin əmri ilə güllələnmişdir. Cihad illərində onun partiyasının əsgərləri Əfqanıstan-Pakistan sərhədindəki bölgələrlə yanaşı, Kunduz, Təxar və Faryab vilayətlərində döyüşmüşlər.

Mücahidlər hakimiyyətə gəldikdən sonra qabaqcadan əldə olunmuş razılaşmaya əsasən, Mücəddidi 2 ay müddətinə (28 aprel - 28 iyun 1992-ci il) Əfqanıstan İslam Dövlətinin prezidenti olmuş, sonra bu postu Bürhanəddin Rəbbaniyə təhvil vermişdir və Cihad Şurasının üzvü kimi fəaliyyət göstərmişdir. Taliban hakimiyyəti dövründə o, yenidən Pakistanda yaşamış və mübarizə aparmışdır.

Talibanın süqutundan sonra Əfqanıstana qayıtmış və ölkədəki nizamlama prosesində fəal iştirak etmişdir. 2003-cü ildə Əfqanıstanın yeni Konstitusiyasını qəbul etmiş Loyə Cirgənin sədri olmuşdur. 2005-2010-cu illərdə Əfqanıstan parlamentinin yuxarı palatasına – "Meşrano Cirgəyə" (Senata) rəhbərlik etmişdir. Eyni zamanda "Sülhü möhkəmlətmək komissiyası"nın sədri olmuşdur. Əfqanıstanın Talibandan sonrakı prezidentləri Hamid Kərzəy və Əşrəf Qənini dəstəkləmişdir.

2006-cı ilin martında Kabulda Mücəddidiyə qarşı sui-qəsd olmuş, lakin o, yüngül yaralanmaqla salamat qurtarmışdır.

2016-cı il fevralın 9-da Mücəddidinin vəfat etdiyi barədə xəbərlər yayılsa da, sonradan bu informasiya təsdiqini tapmamışdır.

Mücəddidi mötədil ruhani və din alimi sayılır. O qadınların siyasi həyatda iştirakının əleyhinə çıxmır və qadınlarla əl verib görüşməyi haram bilmir. Hələ 1970-ci illərdən islam fəlsəfəsinə dair çoxsaylı beynəlxalq konfranslarda (İngiltərə, ABŞ, Liviya və s. ölkələrdə) iştirak etmişdir.

## Əbdürrəşid Dustum

1954-cü il avqustun 15-də Əfqanıstanın şimalındakı Cuzcan vilayətində doğulmuşdur. Atası özbək, anası türkmən olmuşdur. 1980-ci ildə SSRİ-də 6 aylıq kursda oxumasını nəzərə almasaq, xüsusi təhsili yoxdur. Aprel çevrilişinə qədər qazçıxarma idarəsində fəhlə işləmiş, həmkarlar təşkilatına rəhbərlik etmişdir. 1979-cu ildə ƏXDP-yə daxil olmuş, yerli özünümüdafiə dəstəsinə komandirlik etmişdir.

Onun ulduzunun parlaması Nəcibullanın hakimiyyəti illərinə təsadüf edir. Məhz onun dövründə Dustumun başlıca olaraq özbəklərdən ibarət özünümüdafiə qüvvələri əsasında 53-cü diviziya yaradılmış, 1986-cı ildə Dustum ƏXDP MK-nın üzvü seçilmiş-

dir. Nəcibulla tərəfindən 2 dəfə "Əfqanıstan qəhrəmanı" adına layiq görülmüşdür. Lakin Nəcibullanın hakimiyyəti zəiflədikdə mücahidlərlə ittifaqa girmiş və 1992-ci ildə Kabulun alınmasında Əhməd şah Məsudla birgə mühüm rol oynamışdır.

Ümumiyyətlə, o, tez-tez müttəfiqlərini dəyişən bir şəxs kimi diqqəti çəkir. Belə ki, Nəcibullaya qarşı Məsudla, Məsuda qarşı Hikmətyarla, Hikmətyara qarşı Taliblərlə müvəqqəti koalisiyalara girmişdir. 1992-ci ildə Əfqanıstan Milli İslami Hərəkatı adlı partiya yaratmışdır. Mücahidlərin hakimiyyəti zamanı ordu generalı rütbəsi almış, onlarla qısamüddətli əməkdaşlıqdan sonra öz nəzarətində olan dörd vilayətdə faktiki müstəqil dövlət yaratmışdır. Həmin müddətdə «Dustumistan» adlanan bu ərazilər sosial-iqtisadi inkişafı, hərbi qüdrəti, beynəlxalq əlaqələri baxımından Əfqanıstanın digər regionlarından kəskin fərqlənmişdir. 1995-ci ildə Dustum Özbəkistan prezidenti İslam Kərimovla görüşmüş, bu ölkə ilə sıx əlaqələr qurmuşdur. 1996-cı ildə o, Taliban əleyhinə Şimal alyansına qoşulmuşdur. Taliban onun nəzarətində olan əraziləri ələ keçirəndə Dustum Özbəkistana və Türkiyəyə mühacirət etmişdir.

2001-ci ildə Taliban hökumətinin süqutundan sonra Əfqanıstana qayıtmış və yeni hakimiyyətdə müdafiə nazirinin müavini təyin olunmuşdur. 2004-cü il prezident seçkilərində iştirak etmiş və 10 % səs toplamışdır. 2005-ci ildə prezident Hamid Kərzəy tərəfindən Əfqanıstan silahlı qüvvələri birləşmiş qərargahının rəisi təyin olunmuş, 2007-ci ildə vəzifəsindən kənarlaşdırılıb Türkiyəyə mühacirət etsə də, 2009-cu ilin sonlarında ölkəyə qayıdaraq, yenidən bu vəzifəni tutmuşdur. 2014-cü ilin prezident seçkilərində ölkənin vitse-prezidentlərindən biri seçilmişdir.

Dustum Əfqanıstanda mötədil islam dövlətinin qurulmasını dəstəkləyir, ölkənin federativ quruluşa malik olmasının tərəfdarı kimi çıxış edir.

## Molla Məhəmməd Ömər

Taliban lideri Molla Ömərin həyatı barədə dəqiq məlumatlar azdır. O, 1960-cı ildə Qəndəhar yaxınlığında yoxsul bir ailədə doğulmuşdu. Milliyyətcə puştu idi. Yerli mədrəsədə dini təhsil almışdır. 1970-ci illərin ortalarında qısa müddətə Pakistana getmiş və orada Həqqani mədrəsəsində biliklərini artırmışdır. Sovet işğalı zamanı sıravi döyüşçü kimi mücahidlərə qoşulmuşdur. Onun Məhəmməd Nəbi Məhəmmədinin rəhbərlik etdiyi «İslam İnqilabı Hərəkatı»nda olduğu bildirilir. Həmin dövrdə dörd dəfə yaralanmış, o cümlədən, bir gözünü itirmişdir.

Sovet qoşunları Əfqanıstandan çıxdıqdan sonra o, Qəndəhar yaxınlığında kənd məscidinin imamı kimi fəaliyyət göstərmişdir. 1994-cü ildə Taliban lideri kimi siyasi-hərbi səhnəyə çıxmışdır. 1996-cı ildə Qəndəharda 1500-dən çox talibin iştirakı ilə keçirilən Şurada ona «əmir əl-möminin» ləqəbi verilmişdir.

1996-cı ildə Taliblər Kabulu aldıqdan sonra da Qəndəharda yaşamağa davam etmiş, cəmi bir neçə dəfə paytaxta gəlmişdir

Molla Ömərin həyatında yuxuların mühüm rol oynadığı bildirilir. Deyilənə görə, 1998-ci ildə Məzari-Şərifi almasını da yuxuda görmüş və buna görə Kabulda nəqşbəndi təriqətinin şeyxi Fazil Ömər Mücəddidinin məqbərəsini bərpa etdirmişdir.

2001-ci ildə ABŞ və müttəfiqləri Əfqanıstana hücum edərkən Molla Ömər gizlənmiş, onun yerini müəyyənləşdirmək mümkün olmamışdır. ABŞ onun ələ keçməsinə yardımçı olacaq informasiyaya görə mükafat təyin etmişdir. Onun məhvi üçün çoxsaylı əməliyyatlar keçirilmiş, yaralanması və ölümü ilə bağlı müxtəlif xəbərlər yayılmışdır.

2015-ci ilin iyul ayında Əfqanıstan hökuməti Taliban liderinin yaralandıqdan sonra 2013-cü ilin aprelin 23-də Kəraçi şəhərindəki bir xəstəxanada öldüyü barədə rəsmi məlumat yaymışdır. Ertəsi gün Taliban sözçüsü də bunu təsdiqləmiş və Molla Əxtər

Mənsurun Taliblərin lideri seçildiyini bildirmişdir.

Molla Ömərin dörd arvadı olmuşdur. Onun iki oğlu və iki qızı vardı, qızlarından biri 1999-cu ildə bomba partlayışı nəticəsində həlak olmuşdur. Uzun müddət belə hesab edilmişdir ki, Molla Ömərin arvadlarından biri məşhur terrorçu Üsamə bin Ladenin yeganə qızı imiş, lakin sonradan bu xəbər təsdiqini tapmamışdır.

# BİBLİOQRAFİYA

*İngilis dilində*


1. Anthony Arnold. Afghanistan: The Soviet invasion in perspective. Hoover Institution press, 1981
2. Artemy M. Kalinovsky. A long goodbye: The Soviet withdrawal from Afghanistan. Harvard University press, 2011
3. Barnett R. Rubin. Afghanistan from the cold war trough the war on terror. Oxford University press, 2013
4. Carter Malkasian. War comes to Garmser: thirty years of conflict on the Afghan frontier. Oxford University press, 2013
5. David B. Edwards. Before Taliban: Genealogies of the Afghan jihad. University of California press, 2002
6. Dawood Azami. World powers jostle in Afghanistan's new 'Great Game'. – http://www.bbc.com/news/world-asia-38582323
7. Deobandi Islam vs. Barelvi Islam in South Asia. – http://www.geocurrents.info/cultural-geography/deobandi-islam-vs-barelvi-islam-in-south-asia
8. Diego Cordovez, Selig S. Harrison. Out of Afghanistan: The inside story of the Soviet withdrawal. Oxford University press, 1995
9. Soviet invasion of Afghanistan. E-Dossier No. 4. Cold war international history project. Woodrow Wilson international center for scholars. – https://www.wilsoncenter.org/sites/default/files/e-dossier_4.pdf
10. Douglas MacEachin. Predicting the Soviet invasion of Afghanistan: The intelligence community's record. – https://goo.gl/fqFDqH
11. Elias Kühn von Burgsdorff. Soviet Decision-Making and the War in Afghanistan. – http://graphitepublications.com/wp-content/uploads/2013/04/Soviet-Decision-Making-and-the-Afghanistan-War.pdf
12. Frank Clements. Conflict in Afghanistan: A Historical Encyclopedia. California, 2003

13. ISAF's mission in Afghanistan (2014-2001) (Archived). – http://www.nato.int/cps/en/natohq/topics_69366.htm
14. James A. Lucas. America's 30 year war on Afghanistan. – http://www.informationclearinghouse.info/article24897.htm
15. Joseph J. Collins. Understanding war in Afghanistan. National Defense University press. Washington, 2011
16. Kenneth Katzman. Afghanistan: Post-War governance, security and U.S. Policy. CRS Report for Congress. – www.investigative-project.org/documents/testimony/32.pdf
17. Kyle Tadman. An American provocation: U.S. foreign policy during the Soviet-Afghanistan war. – Western Illinois Historical Review, vol. V, spring 2013, pp. 65-31.
18. Martin Ewans. Afghanistan: A short history of its people and politics. New York, 2002
19. Michael R. Rouland. Great Game to 11/9: A concise history of Afghanistan's international relations. Washington, 2014
20. M. Chris Mason. The strategic lessons unlearned from Vietnam, Iraq and Afghanistan. United States Army War College press, 2015
21. M. Hassan Kakar. Afghanistan: The Soviet invasion and the Afghan response. University of California press, 2011
22. Nasreen Akhtar. Afghanistan, Pakistan and the Taliban. – International Journal on World Peace, vol. XXV, No 4, December 2008, pp. 73-49
23. Neamatollah Nojumi. The rice and fall of the Taliban. – The Taliban and the crisis of Afghanistan / ed. by Robert D. Crews and Amin Tarzi. Harvard University press, 2008, pp. 117-90
24. Noor Ahmad Khalidi. Afghanistan: Demographic consequences of war, 1987-1978. – Central Asian survey, vol. 10, № 1991 3, pp. 126-101
25. NSDD-166: United States policy, programs and strategy in Afghanistan. – https://catalog.archives.gov/id/6879761
26. PD/NSC 63: Persian Gulf Security Framework. – https://www.hsdl.org/?abstract&did=459079

27. Rafael Reuveny and Aseem Prakash. The Afghanistan war and the breakdown of the Soviet Union. – Review of International Studies, 1999, 25, pp. 708–693
28. Robert D. Billard. Operation Cyclone: How the United States defeated the Soviet Union. – Undergraduate research journal at UCOS, vol. 3.2, October 2010, pp. 41-25
29. Robert D. Lamb. Political governance and strategy in Afghanistan. Center for Strategic and International Studies. Washington, 2012 – https://www.csis.org/analysis/political-governance-and-strategy-afghanistan
30. Rodney P. Carlisle. Afghanistan war (America at War). New York, 2010
31. Rodric Braithwaite. Afgantsy: The Russians in Afghanistan -1979 89. Oxford University press, 2011
32. Shehzad H. Qazi. The Neo-Taliban, counterinsurgency & the American endgame in Afghanistan. – Institute for Social Policy and Understanding report. April 2011
33. The insurgency in Afghanistan's heartland. – International Crisis Group Asia report № 207, 27 June 2011
34. The Soviet-Afghan war: How a superpower fought and lost. University press of Kansas, 2002
35. The Taliban. An organizational analysis. – Military Review, May-June 2008, pp. 73-58
36. Thomas Barfield. Afghanistan: A cultural and political history. Princeton University press, 2012
37. War on terror: The road to September 11. – http://europe.newsweek.com/war-terror-road-september-151771-11?rm=eu

*Türk dilində*

38. Abdullah Yegin. Afganistan siyasetini anlama kılavuzu. – SETA yayınları 53, İstanbul, 2015
39. Ahmet K. Han. Sovyet işgali ve sürekli özgürlük: Afganistan'da

süpergüç müdahalelerinin uluslararası sisteme etkileri üzerine karşılaştırmalı bir jeopolitik inceleme. – Ortadoğu Etütleri, cilt 2, sayı 2, ocak 2011, ss. 95-57
40. Hilal Önal. ABD’nin Afganistan politikasının açmazları: Bölgesel bir analiz. - Uluslararası Hukuk ve Politika, cilt 6, sayı 23, 2010, ss. 71-43
41. Hüseyin Şeyhanlıoğlu. 11 eylül sonrası değişen dünya dengelerinde Afganistan. Yüksek lisans tezi. Sakarya, 2004
42. Mehmet Seyfettin Erol, Oktay Bingöl. Afganistan'da geçiş safhası ve 2014 sonrası. Öngörüler. – Akademik Bakış. Cilt 5, sayı 10, yaz 2012, ss. 187-173
43. Mohammad Aleem Saaie. Afganistan'da siyasi partiler tarihçesi. Yüksek lisans tezi. Isparta, 2009.
44. Murat Büyükbaş. Amerika Birleşik Devletlerinin Afganistana müdahalesi ve Afganistanda oluşturulan yeni yönetim yapısı. Yüksek lisans tezi. Isparta, 2006
45. Rusya’nın Afganistan işgali. – http://docplayer.biz.tr/3278809-Rusya-nin-afganistan-isgali.html
46. Şule Şahin. 11 eylül sonrasında Amerika Birleşik Devletlerinin Ortadoğu politikası. Yüksek lisans tezi. Ankara, 2006.

*Rus dilində*

47. Акимбеков С. М. Афганский узел и проблемы безопасности Центральной Азии. Алматы, 2003.
48. Александр Князев. История афганской войны 1990-х гг. и превращение Афганистана в источник угрозы для Центральной Азии. Бишкек, 2002
49. Афганистан. Справочник. М., 2000
50. Афганистан в начале XXI века. М., 2004
51. Афганистан и безопасность Центральной Азии. Выпуск 1. Под редакцией А. А. Князева. Бишкек, 2004
52. Афганская война. Документы. – http://www.coldwar.ru/

conflicts/afgan/afghan_war.php
53. Афганские уроки. Выводы для будущего в свете идейного наследия А. Е. Снесарева. М., 2003
54. Афганский конфликт и радикальный ислам в Центральной Азии. Сборник документов и материалов. Бишкек, 2001
55. Ахмед Рашид. Талибан: Ислам, нефть и новая Большая игра в Центральной Азии. Перевод с английского М. В. Поваляева. М., 2003
56. Белокреницкий В. Я., Сикоев Р. Р. Движение Талибан и перспективы Афганистана и Пакистана. М., 2014
57. Бояркин С. Солдаты афганской войны. Документальное свидетельство. М., 1999
58. Бурлинова Н. В. НАТО в Афганистане (2003 – 2009 гг.): проблемы выработки и реализации политической стратегии. Автореферат диссертации на соискание ученой степени кандидата политических наук. М., 2010
59. Владимир Несмеянов. Спецназ КГБ. Начало афганской войны. Штурм дворца Амина. – http://sevastopol.su/author_page.php?id=30728
60. Владимир Пластун, Владимир Андрианов. Наджибулла. Афганистан в тисках геополитики. М., 1998
61. Гай Д., Снегирев В. Вторжение. Неизвестные страницы необъявленной войны. М., 1991
62. Гареев М. А. Моя последняя война (Афганистан без советских войск). М., 1996
63. Гоков О. А. Причины ввода советских войск в Афганистан в 1979 году. – http://ricolor.org/history/rsv/aft/2011_01_22/
64. Горелов Лев. Как это было? Интервью. – http://artofwar.ru/s/shejnin_a/text_0165.shtml
65. Демократическая Республика Афганистан. Справочник. М., 1981
66. Джованни Бенси. Откуда взялись талибы? – http://www.ng.ru/ng_religii/9/19-06-2002_taliban.html

67. «Доктрина Картера». Послание Конгрессу США. – http://www.coldwar.ru/bases/carter_doctrine.php
68. Иваненко В. И. Геополитика США и афганский стратегический узел. – Проблемы национальной стратегии, № 6 (27) 2014, с. 51-33
69. Иваненко В. И. Операция «Несокрушимая свобода»: итоги и последствия для Афганистана и региона. – https://riss.ru/analitycs/7254/
70. Коргун В. Г. История Афганистана. XX век. М., 2004
71. Крыжко Е. В., Щевелев С. С. Из истории движения «Талибан» в Афганистане. – «Культура народов Причерноморья», 2007 № 12, с. 35-30
72. Лавров А. Ю. Религиозно-политические организации в Афганистане во второй половине XX - начале XXI вв. Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. М., 2008
73. Ляховский А. А., Забродин В. М. Тайны афганской войны. М., 1991
74. Ляховский А. Трагедия и доблесть Афгана. М., 1995
75. Марковский В., Мильяченко В. Афганистан: война разведчиков. М., 2001
76. Мир Гулам Мухаммад Губар. Афганистан на пути истории. Перевод с дари, вводная статья и комментарии Муллошо Давлятова. М., 1987
77. Митрохин В., Остерман Х. КГБ в Афганистане. Вашингтон, 2002
78. Морозов Ю. В. Американская стратегия в Афганистане после 2014 года: стабильность или новый виток напряженности в Центрально-Азиатском регионе. – Национальные интересы: приоритеты и безопасность, № 22 (211) 2013, с. 54-39
79. Нессар Мохаммад Омар. История политического развития Афганистана (2014-2001 гг.). Диссертация на соискание ученой степени кандидата исторических наук. М., 2014

80. Никита Мендкович. Финансовый аспект Афганской войны 1989-1979 гг. – http://afghanistan.ru/doc/18319.html
81. Окороков А. Секретные войны Советского Союза. М., 2008
82. Официальные данные о советских потерях в Афганистане. – http://web.archive.org/web/20010519210510/http://www.hro.org/editions/karta/nr25-24/victim.htm
83. Правда об Афганистане. Документы. Факты. Свидетельства. М., 1980
84. Секретные материалы по Афганистану: Особая папка и другие отдельные секретные документы по Афгану. – https://goo.gl/jl8Y0b
85. Сергей Шумов, Александр Андреев. История Афганистана. Документальное исследование. М., 2002
86. Сикоев Р. Р. Талибы: религиозно-политический портрет. М., 2004
87. Слинкин М. Ф. Народно-демократическая партия Афганистана у власти. Время Тараки-Амина (1979-1978 гг.). Симферополь, 1999
88. Слинкин М. Ф. Афганистан: страницы истории (90-80-е гг. XX в). Симферополь, 2003
89. Слинкин М. Ф. Афганистан: оппозиция и власть (70-60-е гг. XX в). Симферополь, 2005
90. Спольников В. М. Афганистан: исламская оппозиция. Истоки и цели. М., 1990
91. Советский архив. Собран Владимиром Буковским. 9.2. Афганистан. – http://bukovsky-archives.net/pdfs/afgh/afgh-rus.html
92. Теплинский Л. Б. История советско-афганских отношений. М., 1988
93. Топорков В. М. Советско-афганские отношения в 1991-1975 гг.: исторический опыт разработки и реализации военно-политической стратегии СССР. Диссертация на соискание ученой степени доктора исторических наук. Чебоксары, 2014

94. Хантингтон С. Столкновение цивилизаций. М., 2003
95. Чихринова А. И. Этнические проблемы Афганистана и их влияние на политическую стабильность и безопасность в регионе. – Политическая стабильность: методология сравнительных исследований, анализ региональных проблемных зон. М., 2012, с. 227-196
96. Шило Н. И. Афганистан 30 лет спустя: Последствия ввода советских войск в ДРА для страны и региона. – Вестник МГИМО, выпуск 2010/2, с. 161-153
97. Яковлев А. Н. Время Андропова (отрывки из воспоминаний). – «Аргументы и факты», 2000, № 19, с. 9-8

*Dəri (fars) dilində*

98. اسدالله ولوالجی. آغاز و تداوم اختلافات میان جنرال دوستم و آغای مسعود در صفحات شمال افغانستان. پشاور، 1379
99. افغانستان در عقب پردهٔ دود. نویسنده د. ر. گویال. برگردان کننده محمد عارف عرفان. لندن، 2012
100. امیر اعتماد دانشیار. جنگ افغانستان و شوروی عامل فروپاشی جهانی کمونیسم. جلد اول. مؤسسهٔ انتشارات بهینه. 1371
101. آنتو نیو جیو ستوزی. افغانستان: جنگ، سیاست و جامعه ( -1357 1371 ش.). ترجمهٔ اسدالله شفایی. تهران، 1376
102. ایوب آروین. عبد العلی مزاری: نگاهی به رهبر حزب وحدت اسلامی بعد از بیست سال. – http://www.bbc.com/persian/afghanistan/2015/03/150311_mar_mazari_bio
103. پروفسور برهان الدین ربانی. پیروزی انقلاب اسلامی محصول مبارزات 14 سالهٔ مردم ما. کابل، 1375
104. جنگ قدرت (وقایع سه دههٔ اخیر افغانستان). مؤلف: لعلستانی. کابل، 1384
105. حسام الدین امامی. افغانستان و ظهور طالبان. تهران، 1378
106. خاطرات سیاسی جنرال عبد القادر. هامبورگ، 1392
107. داکتر نسرین کتونا. جنگ جلال آباد. – http://www.ariaye.com/dari11/siasi/nasrin.html

108. دکتر سید عبدالله کاظم. یک سند تاریخی: بیانیهٔ جناب حضرت صبغت الله مجددی در مجلس انتقال قدرت. – http://www.afghan-german.net/upload/Tahlilha_PDF/kazem_sa_mojadiddi_rabani_powertransfer.pdf
109. دکتر محمد پیری، عبدالغفور دورانی. پیدایش تفکر دیوبندی در هندوستان و تاثیر آن بر بلوچستان ایران. – فصل نامهٔ مطالعات شبه قاره دانشگاه سیستان و بلوچستان، سال چهارم، شمارهٔ سیزدهم، زمستان 1391، ص. 24-7
110. رسول پویان. شناخت افغانستان. کابل، 1393
111. روزشمار وقایع افغانستان. تهیه و ترتیب: حامد علمی. چاپ پنجم. کابل، 1390
112. زهرا پیشگاهی فرد، سردار محمد رحیمی. جایگاه افغانستان در ژئواستراتژی نظام نوین جهانی. – نشریهٔ تحقیقات کاربردی علوم جغرافیایی. جلد 8، شمارهٔ 11، زمستان 1387 ، ص. 99- 132
113. ژنرال محمد ظاهر عظیمی. طالبان چگونه آمدند؟ 1377
114. سازمانها و مطبوعات مقاومت افغانستان. تهیه و ترتیب: سید ولید صاعد. انتشارات بامیان، فرانسه، 2009
115. سید محمد باقر مصباح زاده. تاریخ سیاسی مختصر افغانستان. مرکز پژوهشهای آفتاب. تهران، 1387
116. سید محمد حسینی. دلایل روی کار آمدن و سقوط مجاهدین در افغانستان. – http://iichs.org/foreign_policy_articles/Dalayel-roykar.docx
117. شاهین فیروز افضلی. تجاوز آمریکا به افغانستان. تهران، 1382
118. عبد الجلیل وجدی. افغانستان ستیج بازی بزرگ. مترجم: سمیع الله تازه. پشاور، 1999
119. عبد الحفیظ منصور. پیروزی مشت بر شمشیر: تحولات نظامی جهاد افغانستان. 1369
120. عبد الحمید مبارز. حقایق و تحلیل وقایع سیاسی افغانستان 1973- 1997 میلادی از سقوط سلطنت تا ظهور طالبان. پشاور، 1376
121. علی اکبر فیاض. دو دهه حاکمیت خلق و پرچم. کودتاي 7 ثور1357ش. و قتل محمد داوود خان. – http://afghanistanhistory.net/home/index.php?option=com_content&task=view&id=235&Itemid=3

122. فیاض نجیمی بهرمان. معمای مداخلۀ شوروی به افغانستان. - «کابل ناتهه» شمارۀ 21، جنوری-فبروری 2006
123. کاندید آکادمیسین محمد صدیق روهی. جنگ داخلی افغانستان چگونه پایان خواهد یافت؟ پشاور، 1375
124. کاندید آکادمیسین محمد اعظم سیستانی. مقدمه ای بر کودتای 7 ثور و فجایع 8 ثور در افغانستان. کابل، 1393
125. گران توریال. افغانستان (مجموعۀ مقالات). پشاور، 1382
126. محمد احمدی منش. نگاهی به تاریخ مکتب دیوبندی، از آغاز تا امروز. – http://www.ical.ir/index.php?option=com_k2&-view=item&id=13890
127. محمد اکرام اندیشمند. سالهای تجاوز و مقاومت. کابل، 1383
128. محمد اکرام اندیشمند. کابوس سرخ. کابل، 1383
129. محمد اکرام اندیشمند. آمریکا در افغانستان. کابل، 1384
130. محمد اکرام اندیشمند. برگها یی از تاریخ: 7 ثور و 8 ثور. – http://www.farda.org/articles/06_updates/060618/barg-haye-az-tarikh_I_Ekram_Andaishmand.htm
131. محمد ثنا متین نیکپی. شرح زمانی رویدادهای مهم سیاسی افغانستان. تورونتو، 2005
132. محمد حسن کاکر. سفری به وطن: طالبان و بنیادگرایی اسلامی. ترجمۀ سلطان احمد بهین. کابل، 1390
133. محمد عارف عرفان. سیا و اژدهای خفته اش در حزب دموکراتیک خلق افغانستان. لندن، 2014
134. مولوی سروری. عوامل شکل گیری طالبان. – http://iichs.org/foreign_policy_articles/Avamel-sheklgiri.docx
135. مهدیزاده کابلی. امین، حفیظ الله. – http://database-arya-na-encyclopaedia.blogspot.com/2008/09/blog-post_8631.html
136. میر حامد حسین میری. فرقۀ دیوبندی: مکتبی برای تئوریزه کردن عملیات انتحاری. – http://www.parsine.com/fa/news/47929
137. نصیر مهرین. بررسی جمهوری محمد داوود خان. – http://dw.com/p/14Ae6
138. وحید مژده. افغانستان و پنج سال سلطۀ طالبان. تهران، 1382



AFGHANISTAN
0 km 50 100 150 km
© 2009 Ezilon.com All Right Reserved
National Capital (2,450,000 In 2002)
over 100,000
over 50,000
over 25,000
other main city
other city
Capital of province
6000 m
5000 m
4000 m
3000 m
2000 m
1000 m
500 m
200 m
UZBEKISTAN
TAJIKISTAN
TURKMENISTAN
PAKISTAN
IRAN
Dushanbe
Kŭlob
Qŭrghonteppa
Khorugh
Termez
Mary
Karakum Canal
Amu Darya
Murgap
Tedzhen
Hari Rud
LINE OF CONTROL
Srinagar
Islamabad
Peshawar
Tarbela Dam
Gujranwala
Lahore
Faisalabad
Multan
Quetta
Zāhedān
Indus
Chenab
KĀBUL
Mazār-e Sharīf
Kunduz
Herāt
Kandahār
Jalālābād
Sheberghān
Dāykundī
JOWZJĀN
BALKH
KUNDUZ
TAKHAR
BADAKHSHĀN
SAMANGĀN
BAGHLĀN
SAR-E POL
FĀRYĀB
BĀDGHĪS
HERĀT
GHOWR
BĀMĪĀN
PARVĀN
KĀPĪSĀ
NURISTAN
KUNAR
LAGHMĀN
NANGARHĀR
LOWGAR
VARDAG
PAKTĪA
KHOWST
GHAZNĪ
PAKTĪKĀ
ZĀBUL
URŪZGĀN
DĀYKUNDĪ
FĀRĀH
NĪMRŪZ
HELMAND
KANDAHĀR
Wakhan
Hindu Kush
Kūh-e Bābā
Hazarajat
Paropamisus
Dasht-e Margow
Dasht-e Arbu Lut
Helmand
Hāmūn-e Şāberī
Namakzār
Gowd-e Zereh
Andkhvoy
Āqchah
Qarqin
Qaramqol
Dowlatābād
Meymaneh
Dūrzab
Almar
Qaisar
Belcheragh
Qala Vali
Bālā Morghāb
Qal'eh-ye Now
Koshk
Koshk-e Kohneh
Gulrān
Eslām Qal'eh
Kohsan
Ghurian
Zindajan
Gozareh
Karrukh
Owbeh
Cheshti-e Sharif
Maghor
Qades
Jawand
Chaghcharān
Shahrak
Tūlak
Fārsī
Gandalak
Adraskan
Shindand
Peshanjan
Mandal
Sangbur
Anardara
Kārīzak
Farāh
Khurmalik
Soltān-e Bakva
Juwain
Solian
Kang
Zaranj
Chakhānsūr
Mirabad
Chahah Burjal
Rudbar
Deh Shū
Darweshan
Lashkar Gāh
Qal'eh-ye Bost
Gereshk
Washir
Delārām
Khash
Musa Qala
Kajaki
Ghorak
Arab
Jal Poli
Gowārān
Spin Buldak
Khugiani
Shin Narai Thana
Rashid Qala
Do China Qala
Darwazgai
Shinkay
Kalāt
Jaldak
Shah Juy
Bailugh
Tarin Kowt
Yak Dar
Baghran Khowleh
Por Chaman
Teywarah
Khakrir
Gizab
Ghizao
Molestan
Ajrestan
Qarah Bagh
Moqor
Sarai
Ghaznī
Nani
Khan
Mushaki
Sharan
Katawaz
Zarghun Shahr
Orgūn
Sarowbi
Gowmal Kalay
Malikdin
Wazi Khwa
Yahya Wana
Bakhshi Kalay
Nawah
Gardēz
Wazay
Khowst
Meydān Khvolah
Chamkani
Ali Kheyl
Pol-e 'Alam
Seyyedabad
Kowt-e Ashrow
Meydān Shahr
Behsud
Varas
Panjab
Zari
Nayak
Bāmīān
Saighan
Mikh-e Zarrin
Do Ab-e
Chiras
Tarkhoj
Sar-e Pol
Tokzār
Aq Kopruk
Boyni Qara
Balkh
Āybak
Ribat
Dahaneh-ye Ghowri
Qal'eh-ye Sarkari
Dowshi
Khenjan
Andarab
Pol-e Khomrī
Nahrin
Borkeh
Eshkamesh
Baghlān
Hazrat Sultan
Kholm
'Aliabad
Khānābād
Tāloqān
Farkhato
Keshem
Rostāq
Chah-e Āb
Yangi Qal'eh
Emām Şaheb
Shen Khan
Khvajeh Ghar
Feyzābād
Barak
Jorm
Zu
Ishkoshim
Ishtragh
Zebak
Seghnan
Vrisi
Khandud
Vakhan
Qala Panja
Buzai Gumbad
Langar
Nowshāk
Kamdesh
Nuristān
Barikot
Asmār
Asadābād
Narang
Mehtar Lam
Mahmūd-e Rāqī
Rokhah
Golbahar
Jabal os Siraj
Chārīkār
Sarowbī
Jagdalak
Batsawul
Towr Kham
Achin
Sherzan
Zenyeh
Kowt-e Ashrow
Qaranqol
Kabul
Ab-e Istadeh-ye Moqor
Dasht-e Navar

# MÜNDƏRİCAT


Əfqanıstan düyünü (*Ön söz*) ......3

Ərəfə: "Aprel inqilabı"ndan əvvəl Əfqanıstanda vəziyyət ......7

Çevrilişdən təcavüzə: "Xəlq"lə "Pərçəm"in bitməyən mübarizəsi ......25

3335 günlük işğal və müqavimət ......53

Mücahidlər hakimiyyət başında: hamı hamıya qarşı ......91

Taliban və Amerika müdaxiləsinə aparan yol ......111

Əfqanıstan XXI əsrdə (*Nəticə əvəzi*) ......139

Əlavələr ......149

Personalia ......187

Biblioqrafiya ......208

Masiagha Mahammadi
Afghanistan: from the Soviet occupation
to the American intervention

•

Масиага Мухаммади
Афганистан: от советской оккупации
до американской интервенции

•

مسیح آقا محمدی
افغانستان: از اشغال شوروی تا مداخلهٔ آمریکا

Tiraj: 1000